Cild 1 № 1 2021
Vol 1 № 1 2021

ISSN 2788-8789

SOSİAL TƏDQİQATLAR

Elmi-analitik jurnal

SOCIAL RESEARCH

Scientific-analytical journal

SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

ISSN 2788-8789

№1(1) 2021

SOSİAL TƏDQİQATLAR
SOCIAL RESEARCH

Elmi-analitik jurnal / Scientific-analytical journal

Bakı - 2021

SOSİAL TƏDQİQATLAR
elmi-analitik jurnal

2021-ci ildən nəşr olunur.
Rüblük nəşr 1 (1) / 2021
Təsisçi:
Sosial Tədqiqatlar Mərkəzi
Təsisçinin hüquqi ünvanı:
Azərbaycan Respublikası,
Bakı şəhəri, Yasamal rayonu
İsmayıl Qutqaşınlı küç., 18
Redaksiyanın ünvanı:
AZ1005, Bakı şəhəri,
Üzeyir Hacıbəyov küç., 62
Tel.: (99412) 510-70-78
www.socialresearchjournal.az
office@ socialresearchjournal.az
«Kütləvi informasiya vasitələri haqqında»
Azərbaycan Respublikası Qanununa
müvafiq şəkildə təsis edilmişdir.
Reyestr № 4027
Tərtibatçı dizayner: Qurban Cəlilov
Texniki operator: Babək Cəfər
Korrektor: A.Məmmədov
Çapa imzalanıb:
Tiraj: 500
Mətbəə:

SOCIAL RESEARCH
scientific-analytical journal

First Published in 2021
Quarterly 1 (1) / 2021
Publisher:
Social Research Center
Publisher address:
Republic of Azerbaijan, Baku,
Yasamal district, Ismayil
Gutgashinli str., 18
Editorial offce:
AZ1005, 62
Uzeyir Hajibeyov str., Baku.
Tel.: (99412) 510-70-78
www.socialresearchjournal.az
office@ socialresearchjournal.az
Established by the Law
«On Mass Media»
of the Republic of Azerbaijan.
Registration № 4027
Designer: Gurban Jalilov
Technician operator: Babek Jafar
Corrector: A.Mammadov
Signed for printing:
Number of copies printed: 500
Printing house:

© Sosial Tədqiqatlar Mərkəzi, 2021

REDAKSİYA ŞURASI

BAŞ REDAKTOR
Zahid Oruc
STM İdarə Heyətinin sədri

BAŞ REDAKTORUN MÜAVİNİ
Tahirə Allahyarova
STM İdarə Heyətinin üzvü, fəlsəfə elmləri doktoru, professor

MƏSUL KATİB
Aqşin Məmmədov
STM-in baş məsləhətçisi, filologiya üzrə fəlsəfə doktoru

BEYNƏLXALQ REDAKSİYA HEYƏTİ

Zahid Oruc
STM İdarə Heyətinin sədri (Azərbaycan)

Zarema Şaukenova
Qazaxıstan Respublikası Prezidentinin yanında Strateji Araşdırmalar İnstitutunun direktoru, Qazaxıstan Respublikası Milli Elmlər Akademiyasının akademiki, sosiologiya elmləri doktoru, professor

Marina F. BIKOVA
Şimali Karolina Universiteti, Fəlsəfə və dini tədqiqatlar bölməsinin professoru, "Russian Studies in Philosophy" jurnalının baş redaktoru

Rafiq Əliyev
AMEA-nın müxbir üzvü, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinın proqram direktoru , «Zadə irsi və süni intellekt» Assosiasiyasının prezidenti (Azərbaycan)

Urxan Ələkbərov
AMEA-nın akademiki (Azərbaycan)

Ağamalı Məmmədov
sosiologiya elmləri doktoru, professor, M.V. Lomonosov adına Moskva Dövlət Universiteti Kommunikativ sistemlərin sosiologiyası kafedrasının müdiri (Rusiya)

EDITORIAL COUNCIL

EDITOR IN CHIEF
Zahid Oruj
Chairman of the Board of SRS

DEPUTY EDITOR IN CHIEF
Tahira Allahyarova
Board Member of SRS, doctor of philosophical sciences, professor

EXECUTIVE SECRETARY
Agshin Mammadov
Chief Consultant of SRS, Doctor of Philosophy in Philology

INTERNATIONAL EDITORIAL BOARD

Zahid Oruj
Chairman of the Board of the Center for Social Research (Azerbaijan)

Zarema Şaukenova
Director of the Kazakhstan Institute for Strategic Studies under the President of the Republic of Kazakhstan, Academician of the National Academy of Sciences of the Republic of Kazakhstan, Doctor of Sociological Sciences, Professor

Marina F. BYKOVA
North Carolina University, Professor of Philosophy at the Department of Philosophy and Religious Studies, Editor-in-cheif of the journal "Russian Studies in Philosophy

Rafig Aliyev
Corresponding member of ANAS, program director of Azerbaijan State University of Oil and Industry, President of «Zade heritage and artificial intelligence» Association (Azerbaijan)

Urkhan Alakbarov
Academician of ANAS (Azerbaijan)

Agamali Mammadov
Doctor of sociological sciences, professor, M.V. Head of the Department of Sociology of Communicative Systems, Lomonosov Moscow State University (Russia)

Nigina Şermuhamedova
fəlsəfə elmləri doktoru, Özbəkistan Milli Universitetinin kafedra müdiri, professor (Özbəkistan)

Nigina Shermuhamedova
Doctor of Philosophy, Professor of the National University of Uzbekistan (Uzbekistan)

Akif Musayev
AMEA-nın müxbir üzvü, AMEA İqtisadiyyat İnstitutunun İqtisadi tədqiqatların riyazi təminatı şöbəsinin müdiri (Azərbaycan)

Akif Musayev
Corresponding Member of ANAS, Head of the Department of Mathematical Support of Economic Research of the Institute of Economics of ANAS (Azerbaijan)

Tahirə Allahyarova
fəlsəfə elmləri doktoru, professor, STM İdarə Heyətinin üzvü (Azərbaycan)

Tahira Allahyarova
Doctor of Philosophy, Professor, Board Member of SRS (Azerbaijan)

Darxan Kadıralı
Beynəlxalq Türk Akademiyasının prezidenti (Qazaxstan)

Darkhan Kadyrali
President of the International Turkish Academy (Kazakhstan)

Yefim Pivovar
professor, Rusiya Dövlət Humanitar Universitetinin prezidenti, Postsovet və Regionlararası Araşdırmalar İnstitutunun direktoru (Rusiya)

Efim Pivovar
Professor, President of the Russian State Humanitarian University, Director of the Institute of Post-Soviet and Interregional Studies (Russia)

Ədalət Muradov
iqtisad edlmləri doktoru, professor, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru (Azərbaycan)

Adalat Muradov
Doctor of Economics, Professor, Rector of Azerbaijan State University of Economics (Azerbaijan)

Atilla Arkan
Təhsil və Sosial Siyasət Araşdırmaları Mərkəzinin direktoru (Türkiyə)

Atilla Arkan
Director of the Center for Educational and Social Policy Studies (Turkey)

İlham Məmmədzadə
fəlsəfə elmləri doktoru, professor, AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru (Azərbaycan)

Ilham Mammadzade
Doctor of Philosophy, Professor, Director of the Institute of Philosophy and Sociology of ANAS (Azerbaijan)

Rəfail Həsənov
sosiologiya elmləri doktoru, professor, Bakı Dövlət Universitetinin Sosiologiya kafedrasının müdiri (Azərbaycan)

Rafail Hasanov
Doctor of Sociological Sciences, Professor, Head of the Department of Sociology, Baku State University (Azerbaijan)

Nizami Məmmədov
fəlsəfə elmləri doktoru, Rusiya Federasiyası Prezidenti yanında Rusiya Xalq Təsərrüfatı və Dövlət Xidməti Akademiyasının professoru, Qloballaşma və Davamlı İnkişaf İnstitutunun direktoru (Rusiya)

Nizami Mammadov
Doctor of Philosophy, Professor of the Russian Academy of National Economy and Civil Service under the President of the Russian Federation, Director of the Institute of Globalization and Sustainable Development (Russia)

Zhang Shuhu
Çin Sosial Elmlər Akademiyasının (ÇSEA-CASS) Siyasi Elmlər İnstitutunun direktoru, Çin Xalq Siyasi Məşvərət Konfransının üzvü, professor (Çin Xalq Respublikası)

Zaleha Kamarudin
professor, Malayziya Beynəlxalq İslam Universitetinin prorektoru (Malayziya)

Əbülfəz Süleymanov
sosiologiya elmləri doktoru, professor, Üsküdar Universiteti Sosiologiya kafedrasının müdiri (Türkiyə)

Konstantin Abramov
psixologiya elmləri üzrə fəlsəfə doktoru, Ümumrusiya İctimai Rəyin Öyrənilməsi Mərkəzinin (VSİOM) direktoru (Rusiya)

Əli Hüseynli
hüquq üzrə fəlsəfə doktoru (Azərbaycan)

Rüstəm Nureyev
iqtisad elmləri doktoru, professor, Rusiya Federasiyası Hökuməti yanında Maliyyə Universiteti və «Ali İqtisad Məktəbi» Milli Tədqiqat Universiteti (Rusiya)

Musa Qasımlı
AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor (Azərbaycan)

Hüseyn Qaraşov
sosiologiya elmləri doktoru, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektoru (Azərbaycan)

Salavat Isxakov
tarix elmləri doktoru, professor, Rusiya Elmlər Akademiyası Tarix İnstitutu Sosial islahatlar tarixi üzrə Elmi Şurasının elmi katibi (Rusiya)

Hikmət Əlizadə
pedaqoji elmlər doktoru, professor, Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsinin dekanı (Azərbaycan)

Zhang Shuhu
Director of the Institute of Political Science of the Chinese Academy of Social Sciences (CSEA-CASS), Member of the Chinese People's Political Consultative Conference, Professor (People's Republic of China)

Zaleha Kamarudin
Professor, Vice Rector of the International Islamic University of Malaysia (Malaysia)

Abulfaz Suleymanov
Doctor of Sociological Sciences, Professor, Head of the Department of Sociology, Uskudar University (Turkey)

Konstantin Abramov
Doctor of Philosophy in Psychology, Director of the All-Russian Public Opinion Research Center (VSIOM) (Russia)

Ali Huseynli
Doctor of Philosophy in Law (Azerbaijan)

Rustam Nureyev
Doctor of Economics, Professor, University of Finance under the Government of the Russian Federation and «Higher School of Economics» National Research University (Russia)

Musa Gasimli
Corresponding member of ANAS, doctor of historical sciences, professor (Azerbaijan)

Huseyn Garashov
Doctor of Sociological Sciences, Rector of the Azerbaijan Academy of Labor and Social Relations (Azerbaijan)

Salavat Iskhakov
Doctor of Historical Sciences, Professor, Institute of History of the Russian Academy of Sciences, Scientific Secretary of the Scientific Council for the History of Social Reforms (Russia)

Hikmet Alizade
Doctor of Pedagogical Sciences, Professor, Dean of the Faculty of Social Sciences and Psychology of Baku State University (Azerbaijan)

Səməd Seyidov
psixologiya elmləri doktoru, professor (Azərbaycan)

Vahid Novruzov
iqtisad elmləri doktoru, Azərbaycan Respublikası Auditorlar Palatasının sədri (Azərbaycan)

Lidiya Amir
ABŞ-ın Tufts Universitetinin professoru, Boston, İsrail Praktiki Fəlsəfə Assosiasiyasının prezidenti (ABŞ-İsrail)

Vilayət Vəliyev
iqtisad elmləri doktoru, professor, Azərbaycan Texniki Universitetinin rektoru (Azərbaycan)

Əbülhəsən Abbasov
fəlsəfə elmləri doktoru, professor AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun baş elmi işçisi (Azərbaycan)

Elşad Mirbəşiroğlu
siyasi elmlər doktoru, STM İdarə Heyətinin üzvü (Azərbaycan)

Nazim İmanov
iqtisad elmləri doktoru, professor (Azərbaycan)

Qızılgül Abbasova
fəlsəfə elmləri doktoru, professor (Azərbaycan)

Dilbadi Qasımov
hüquq elmləri doktoru, Strasburq Universiteti (Fransa)

Aytən Mustafazadə
hüquq elmləri doktoru (Azərbaycan)

Solomon Arulraj David
Təhsil idarəçiliyi üzrə fəlsəfə doktoru, Britaniya Universiteti Təhsil idarəçiliyi proqramının direktoru (Birləşmiş Ərəb Əmirlikləri)

Mayis Əliyev
hüquq elmləri doktoru, Bakı Dövlət Universitetinin professoru (Azərbaycan)

Samad Seyidov
Doctor of Psychological Sciences, Professor (Azerbaijan)

Vahid Novruzov
Doctor of Economics, Chairman of the Chamber of Auditors of the Republic of Azerbaijan (Azerbaijan)

Lydia Amir
Professor of Tufts University, Boston, President of the Israeli Association for the Practice of Philosophy (USA-Israel)

Vilayat Valiyev
Doctor of Economics, Professor, Rector of Azerbaijan Technical University (Azerbaijan)

Abulhasan Abbasov
Doctor of Philosophy, Professor Senior researcher of the Institute of Philosophy and Sociology of ANAS (Azerbaijan)

Elshad Mirbashiroglu
Board Member of SRS, Doctor of Political Sciences (Azerbaijan)

Nazim Imanov
Doctor of Economics, Professor (Azerbaijan)

Gizilgul Abbasova
Doctor of Philosophy, Professor (Azerbaijan)

Dilbadi Gasimov
Doctor of Law, University of Strasbourg (France)

Ayten Mustafazade
Doctor of Law (Azerbaijan)

Solomon Arulraj David
PhD in Education Management, Director of Education Management Program, British University (United Arab Emirates)

Mayis Aliyev
Doctor of Law, Professor of Baku State University (Azerbaijan)

Anar Vəliyev
siyasi elmlər üzrə fəlsəfə doktoru, “ADA” Universitetinin Dövlət və beynəlxalq münasibətlər fakültəsinin dekanı (Azərbaycan)

Anar Valiyev
Doctor of Philosophy in Political Science, Dean of the Faculty of State and International Relations, ADA University (Azerbaijan)

Yeva-Mariya Aux
professor, Berlin Humboldt Universitetinin “Azərbaycan tarixi” kafedrasının müdiri (Almaniya)

Eva-Maria Aux
Professor, Head of the Department of "History of Azerbaijan", Humboldt University, Berlin (Germany)

Cəmaləddin İpək
professor-doktor, Kırşehir Ahi Evran Universitetinin bölüm rəhbəri (Türkiyə)

Camalettin Ipek
Professor-Doctor, Kırşehir Ahi Evran University, Head of Department (Turkey)

Yadviqa Yaskeviç
fəlsəfə elmləri doktoru, professor (Belarus)

Yadviga Yaskevich
Doctor of Philosophy, Professor (Belarus)

Rosmarie Morevedce
fəlsəfə doktoru, Binghamton Universiteti Elmi Mübadilə Proqramlarının direktoru, Nyu-York (ABŞ)

Rosmarie Morevedce
Doctor of Philosophy, Director of Scientific Exchange Programs, Binghamton University, New York (USA)

Yıldız Karagöz Yeke
siyasətin fəlsəfəsi üzrə elmlər doktoru,professor, İzmir, Katib Çələbi Universiteti, Sosial və bəşəri elmlər fakültəsi (Türkiyə)

Yildiz Karagöz Yeke
Doctor of Philosophy in Politics, Professor, Izmir, Secretary Çelebi University, Faculty of Social and Human Sciences (Turkey)

Ariz Gözəlov
fəlsəfə doktoru, Rusiya Elmlər Akademiyası Fəlsəfə Cəmiyyətinin "Mədəniyyətlərin dialoqu: fəlsəfə və dünyagörüş problemləri" tədqiqat qrupunun rəhbəri

Ariz Gozalov
Doctor of Philosophy, head of the research group "DIALOGUE OF CULTURES: philosophical and worldview problems" of the Russian Philosophical Society of the Russian Academy of Sciences

Üzeyir Şəfiyev
sosiologiya üzrə fəlsəfə doktoru, BDU- nun Sosial iş kafedrasının müdiri (Azərbaycan)

Uzeyir Shafiyev
Doctor of Philosophy in Sociology, Head of the Department of Social Work, BSU (Azerbaijan)

BAŞ REDAKTORDAN

Hörmətli oxucular!

"Sosial tədqiqatlar" jurnalının 2021-ci il üçün ilk sayı oxucuların diqqətinə təqdim edilir. Jurnal Sosial Tədqiqatlar Mərkəzi (STM) tərəfindən təsis və nəşr edilir.

Jurnalın missiyası çoxşaxəlidir. "Sosial tədqiqatlar" ilk növbədə akademik-elmi təyinatlı, analitik elmi-tədqiqat jurnalıdır. Azərbaycandan və başqa ölkələrdən olan tədqiqatçılara öz elmi baxış, mövqe və təhlillərinin nəticələrinin dərc edilməsi üçün beynəlxalq bir platformanın formalaşdırılmasını nəzərdə tutur.

Jurnal bu baxımdan yerli alim, ekspert və mütəxəssislərin sosial tədqiqatlarını beynəlxalq elm məkanına, eləcə də xarici müəlliflərin ən yeni təhlillərinin Azərbaycanın sosial tədqiqatlar kontekstinə inteqrasiya etməsini diqqət mərkəzində saxlayır.

Jurnalda ictimai və humanitar elm sahələrində ümumi problemlərin birgə araşdırılmasına imkan verən, elmlərarası-interdissiplinar problemlərin tədqiqinə, yeni sintez metodların işıqlandırılmasına önəm verilir.

STM yarandığı qısa müddətdə bir çox beynəlxalq tərəfdaşlarla əməkdaşlıq əlaqələri qurmağa nail olub. Bu baxımdan jurnalda tərəfdaşlarımızın da təmsil olunduğu, yerli və beynəlxalq alimlərdən ibarət beynəlxalq redaksiya heyəti formalaşıb.

Jurnalda dərc ediləcək materialların mövzuları ictimai və humanitar elmlərin geniş spektrini əhatə edəcək.

Əsas başlıq-rubrikalar STM-in Nizamnaməsində müəyyən edilən sosial tədqiqatların nəzəriyyəsinə, metodlarına və metodologiyasına, dövlətlə cəmiyyətin qarşılıqlı əlaqəsi məsələlərinə, sosial diaqnostikaya həsr olunur

Jurnalda müasir cəmiyyətin inkişafının aktual sosial proseslərinin - dövlət-vətəndaş münasibətlərinin, sosial islahatlar strategiyasının, ictimai-siyasi, hüquqi, sosial-iqtisadi problemlərin, hərbi, mədəni, milli maraqlarla bağlı olan qlobal və regional proseslərin, habelə ölkədə sosial iş, elm və təhsil sahəsində gedən proseslərin, etnosiyasi, dini münasibətlərin, demoqrafik və ekoloji siyasət, gənclər siyasəti, kadr və dövlət idarəçiliyinin sosial aspektlərinin araşdırılması, sosial və siyasi psixologiya elminin, sosioloji sorğular əsasında ictimai rəyin, cəmiyyətdə aparıcı trendlərin öyrənilməsi ilə bağlı təhlillər dərc ediləcək əsas mövzular sırasındadır.

Nisbətən yeni sayılan elmi istiqamətlər - sosial şəbəkələrin və müasir informasiya texnologiyalarının təhlili, elm və texnologiyanın tədqiqi, (elm və texnologiya araşdırmaları (STS - Science And Technology Studies), müqayisəli (komparativ) sosiologiya kimi sahələr daxil olmaqla sosial-humanitar tədqiqatların ən dinamik inkişaf edən sahələri də önəm verilən prioritetlər sırasındadır.

Dəyərli oxucular!

Jurnalımızın hədəf auditoriyası kimi lokal və qlobal miqyas daxil olmaqla müasir cəmiyyətin ictimai-humanitar problemlərini nəzəri və empirik səviyyədə araşdıran tədqiqatçı, alim, ekspert və mütəxəssislərin əhatə olunması nəzərdə tutulub. Bununla bərabər, "Sosial tədqiqatlar" jurnalının təhlilləri dövlət və ictimai təşkilatların,

kommersiya strukturlarının sosioloji və informasiya-analitik xidmətlərdə çalışan auditoriyasına da eyni dərəcədə ünvanlanır. Həmçinin, jurnal sosial və humanitar profilli doktorant və aspirantlara, cəmiyyətin inkişafı və fəaliyyətinin sosial problemlərinin geniş spektri ilə maraqlanan, faydalanmaq istəyən hər kəsə yönəldilmişdir.

Jurnal həm də sosial tədqiqatlar sahəsində yeni fikirlərin, yanaşmaların, məlumatların müzakirəsi üçün açıq bir platforma olmaq imkanıdır. Redaksiya Heyəti "Müzakirə-Polemika", "Sosial publisistika ", "Özəl baxış", "Sosial kommunikasiya" və s. başlıqlarla Azərbaycanda müasir tədqiqatçı və sosioloqların yetişdirilməsinin aktual, dünya ilə müqayisəli məsələlərini prioritet məsələ hesab edir.

"Sosial tədqiqatlar" jurnalı bu sahə ilə bağlı istənilən innovativ fikir və təkliflər üçün açıqdır.

Ümid edirik ki, "Sosial tədqiqatlar" jurnalı ictimai və humanitar elm sahələrində elmi tədqiqatların canlanması və keyfiyyətli məzmun kəsb etməsində, ekspertlər və geniş oxucu kütləsi arasında əməli vasitəçi statusunu qazana biləcək.

Tədqiqatçı dostları jurnalın Redaksiya Heyəti adından əməkdaşlığa və jurnalda elmi müəllif məqalələri ilə çıxış etməyə dəvət edirik.

Zahid ORUC
Sosial Tədqiqatlar Mərkəzi
İdarə Heyətinin sədri,
"Sosial tədqiqatlar" jurnalı
Beynəlxalq Redaksiya
Heyətinin sədri

Note from the Editor-in-Chief

Dear readers,

We are delighted to introduce the first issue of "Social Research" journal published by the Social Research Center (SRC).

The mission of Social Research multifaceted. It is primarily an academic research journal open to all researchers in the social sciences and humanities. It envisages the formation of an international platform for researchers from Azerbaijan and other countries to publish the results of their research.

In this regard, the journal focuses on the integration of research from social scientists, experts and specialists into international discourse, as well as the latest analysis of foreign authors in the context of the social sciences in Azerbaijan.

Social Research emphasizes the study of interdisciplinary problems and the coverage of new synthesis methods. This allows for the joint study of common problems in the social sciences and humanities.

In the short period of its existence, the SRC has managed to establish cooperation with many international partners. From this point of view, the journal has formed an international editorial board consisting of local and international scientists, represented by our partners.

The main Journal headings are devoted to the theory, methods and methodology of social research defined in the Charter of the SRC.

The journal covers the current societal processes of the development of our modern society, state-citizen relations, social reform strategy, socio-political, legal, socio-economic problems, global and regional processes related to military, cultural, national interests, as well as social work, science and education in the country. Among the main topics to be published are analyzes of ongoing processes, ethno-political, religious relations, demographic and environmental policy, youth policy, social aspects of personnel and public administration, social and political psychology, public opinion on the basis of sociological surveys, leading trends in society.

Relatively new areas of social science research, including the analysis of social networks and modern information technologies, science and technology studies, and comparative sociology are among the priorities.

Dear readers,

The aim of our journal is to publish researchers, social scientists, and other specialists who study the socio-economic problems at the theoretical level, including at the macro and micro scale. The articles in "Social Research" are addressed to state and public organizations and commercial structures working in sociological and information-analytical services. Furthermore, this journal is also aimed at doctoral and postgraduate students and anyone interested in the social problems of development and socio-economics.

Social Research is also an opportunity to be an open platform for dis-

cussing new ideas, approaches, and information in the field of the social sciences. The editorial staff specializes in "Discussion-Controversy", "Social journalism", "Private view", "Social communication" among others. Our staff consider training modern researchers and sociologists in Azerbaijan as a priority.

We hope that Social Research will be able to gain the status as a mediator between experts and the general public in the revival and quality of research in the social sciences and humanities.

On behalf of the editorial board, we invite authors to mutual cooperation.

Zahid ORUJ
Chairman of the Board of the Social Research Center, Chairman of the International Editorial Board of the Social Research Journal

❖ **BÖYÜK QƏLƏBƏ, BÖYÜK QAYIDIŞ, BÖYÜK QURUCULUQ TARİXİ**

Zahid ORUC
Azərbaycanın dövlətçilik tarixində Qarabağda zəfərlə başlayan yeni mərhələ: strateji hədəflər, vəzifələr.....17

❖ **YADDAŞ SİYASƏTİ: QƏLƏBƏ YADDAŞININ FORMALAŞMASININ ELMİ-NƏZƏRİ ƏSASLARI**

Tahirə ALLAHYAROVA
Tarix siyasəti və yaddaş siyasəti: dünya təcrübəsi və Azərbaycanda məsələyə konseptual baxış.....26

❖ **SOSİAL ELMLƏRİN AKTUAL PROBLEMLƏRİ**

Yıldız Karagoz YEKE, Muammer AKTAY
Yeni dünya nizamı və Valzerin ədalət anlayışını yenidən düşünmək.....64

Nigina SHERMUHAMMEDOVA, Asal BABAEVA, Cavlonbek KODİROV
Dünyanın dini mənzərəsində ümumi və xüsusi.....90

Ağamalı MƏMMƏDOV, Ariz GÖZƏLOV
Şəxsiyyətin virtual müstəvidə rekonstruksiyası: sosial-fəlsəfi təhlil.....107

Rəfail HƏSƏNOV
Postsovet Azərbaycanda cəmiyyətin sosial strukturunda orta sinif.....117

Səadət MƏMMƏDOVA
Müasir dövrdə sosial dövlət və sosial yönümlü bazar iqtisadiyyatının inkişaf perspektivləri.....131

Üzeyir ŞƏFİYEV
Koronavirus (COVID-19) pandemiyası dövründə Azərbaycan dövlətinin sosial siyasəti.....143

Lalə ƏKBƏROVA
Nifrət nitqi - hüquqi, siyasi, mədəni aspektləri. Hüquqi tənzimlənməsi ilə bağlı dünya təcrübəsi.....153

❖ **İCTİMAİ RƏY. SOSİO LOJİ SORĞULAR**

İnqilab ŞAHBAZOV
Keyfiyyət əsaslı tədqiqat: gənclərin soyuq silah gəzdirməsinin motivləri ekspertlərin nəzərində: 27 nəfər mütəxəssislə dərinləşdirilmiş müsahibə.....192

❖ **AZƏRBAYCANDA MİQRASİYA, DEMOQRAFİYA VƏ AİLƏ SİYASƏTİ**

Elnarə QƏRİBOVA
Azərbaycanda urbanizasiya və daxili miqrasiya prosesinin kəsişməsinin sosial və demoqrafik mənzərəsi.....209

Humay AXUNDZADƏ
Azərbaycanda ailə qayğısı rejiminin tətbiqinin nəzəri əsasları.....221

❖ **POSTMODERN SOSİAL NƏZƏRİYYƏLƏR**

Elnur ÇIRAQOV
Postmodernizmdə publik sferaya dair nəzəri bir dəyərləndirmə.....234

Sübhan PADARSOY
Texnokratiya və onun sosial xarakteristikaları.....248

❖ **MEQAPOLİS DÜNYA SİYASƏTİNİN AKTORU KİMİ**

İlyas HÜSEYNOV
Bakı çoxtərəfli diplomatiyanın və multilateralizmin mərkəzi kimi.....261

❖ **GREAT VICTORY, GREAT RETURN, GREAT BUİLDİNG HISTORY**

Zahid ORUJ
A new stage in the history of Azerbaijan's statehood, which began with victory in Karabakh: strategic goals and objectives.....17

❖ **MEMORY POLİCY: VICTORY MEMORY - SCİENTİFİC-THEORETICAL AND PRACTİCAL BASIS OF FORMATION**

Tahira ALLAHYAROVA
History policy and memory policy in world practice: conceptual approach to the problem in Azerbaijan.....26

❖ **ACTUAL PROBLEMS OF SOCIAL SCIENCES**

Yıldız Karagoz YEKE, Muammer AKTAY
New world order and rethinking Walzer's understanding of justice.....64

Nigina SHERMUKHAMEDOVA, Asal BABAEVA, Javlonbek KODIROV
The general and the peculiar in the religious picture of the world.....90

Agamalı MAMMADOV, Ariz GOZALOV
Virtual personal reconstruction field: social and philosophical analysis.....107

Rafail HASANOV
The middle class in the social structure of society in post-Soviet Azerbaijan...117

Saadet MAMMADOVA
Prospects for the development of the social state and socially oriented market economy in new times.....131

Uzeyir SHAFIEV
Social policy of Azerbaijan during the coronavirus (COVID-19) pandemic....143

Lala AKBAROVA
Hate speech - Legal, Political, Cultural aspects. İnternational Experience in Legal Regulation.....153

❖ **PUBLIC OPINION. SOCIOLOGICAL SURVEYS**

Ingilab SHAHBAZOV
Motives of knife-carrying among the youth in the eyes of experts in Azerbaijan: a qualitative study among 27 experts.....192

❖ **MIGRATION, DEMOGRAPHY AND FAMILY POLICY IN AZERBAIJAN**

Elnara GARİBOVA
Socio-demographic picture of the intersection of urbanization and internal migration in Azerbaijan.....209

Humay AKHUNDZADE
Theoretical basis of studying family care regime in Azerbaijan.....221

❖ **POSTMODERN SOCIAL THEORIES**

Elnur CHİRAGOV
Theoretical assessment of the public sphere in postmodernism.....234

Subhan PADAROV
Technocracy and its social characteristics.....248

❖ **MEGAPOLIS AS AN ACTOR OF WORLD POLITICS**

Ilyas HUSEYNOV
Baku as a center of multilateral diplomacy and multilateralism.....261

BÖYÜK

QƏLƏBƏ,
QAYIDIŞ,
QURUCULUQ TARİXİ

GREAT

VICTORY,
RETURN,
BUİLDİNG HISTORY

AZƏRBAYCANIN DÖVLƏTÇİLİK TARİXİNDƏ QARABAĞDA ZƏFƏRLƏ BAŞLAYAN YENİ MƏRHƏLƏ: STRATEJİ HƏDƏFLƏR, VƏZİFƏLƏR

Zahid ORUC
Sosial Tədqiqatlar Mərkəzi İdarə Heyətinin sədri, millət vəkili
Bakı, Azərbaycan

BÖYÜK QƏLƏBƏ. Müstəqil Azərbaycan öz milli dövlət quruculuğu tarixinin miqyas və dərinliyi baxımından görünməmiş, ilk dəfə baş verən zəfər mərhələsini yaşayır.

Prezident İlham Əliyevin Ali Baş Komandanlıq fəaliyyəti XXI əsrin 44 gün davam edən ən müasir, hərbi-texnoloji müharibəsində çətin və şərəfli sınaqdan qalibiyyətlə çıxdı, yaşadığımız yüzilliyin hərb tarixinə yazıldı. Vətən müharibəsi Prezident İlham Əliyevin siyasi lider şəxsiyyətinin yeni nadir keyfiyyətini - hərbi sərkərdəlik fenomenini aşkara çıxardı. Hər günündə Zəfər tarixi yazılan 44 günlük müharibədə xalqımızın torpaqlarımızın işğaldan azad edilməsi ilə bağlı onilliklərlə bəslədiyi arzusu gerçəkliyə çevrildi. Ölkəmiz və dünya Prezidentin fəaliyyətində parlaq şəkildə üzə çıxan yeni şəxsi keyfiyyətə - müzəffər Ali Baş Komandan/hərbi sərkərdəlik fenomeninə şahidlik etdi.

Dünya və Azərbaycan xalqının hərb tarixində parlaq səhifəyə çevrilən Qarabağın azadlığı uğrunda "Dəmir Yumruq" əməliyyatından zaman ötdükcə, qısa vaxtda, minimum itki ilə tariximizin, bir millətin tarixi nailiyyətinin nə qədər əzəmətli olduğunu görürük. Beləliklə, 2020-ci ilin sonlarında ay yarım ərzində Vətən müharibəsində Azərbaycanın qazandığı qələbə gerçəklikdə, epoxal prizmadan çox qısa bir zaman hesab edilən son 17 ildə İlham Əliyevin rəhbərliyi altında gecə və gündüz fədakarlıqla aparılan dövlətçiliyə və xalqa xidmət missiyasının möhtəşəm yekunu oldu. 10 noyabr tarixi - Prezidentin Azərbaycanda siyasi, iqtisadi və hərbi gücün fasiləsiz konsentrasiyasını təmin etməklə onu inkişafın avanqardına, milli güc ünvanına çevirmək üçün apardığı siyasətin real sübutu oldu. Müasir dövlətçilik tariximizin hərbi-siyasi təqviminə hər bir xalqa nəsib olmayan rəşadətli qələbənin "Vətən müharibəsi, Qələbə/Zəfər günləri" adlanan səhifələri əbədi həkk edildi.

Müstəqilliyimizin bərpası ilə eyni vaxtda başlayan və 30 il davam edən ərazi bütövlüyünün pozulması və işğalçılıq tarixini Böyük Qələbə və Zəfərlə yazılan yeni tarixi mərhələ əvəzlədi. Halbuki, qələbəmizdən cəmi bir neçə ay əvvəl Ermənistan rəsmiləri öz bəyanatları və davranışları ilə sübut etmişdilər ki, bu dövlət nəinki işğal altında olan əraziləri qaytarmağa hazırlaşmır, əksinə, Azərbaycanın yeni ərazilərini işğal etmək məqsədini bəyan edir. Dağlıq Qarabağda yaradılmış qondarma rejimin başçısının Şuşada "andiçmə" mərasiminin keçirilməsi, oyuncaq qurumun "parlamentinin" Şuşaya köçürülməsi, işğal olunmuş ərazilərə Ermənistandan yeni yol çəkilməsi, qanunsuz məskunlaşdırma siyasətinin genişləndirilməsi, danışıqların formatını dəyişdirməyə cəhdlər göstərilməsi, danışıqları davam etdirmək üçün Azərbaycanın qarşısında gülünc "7 şərt" qoyulması, Ermənistanın dövlət başçısının irəli sürdüyü "Qarabağ Ermənistandır və nöqtə", Er-

mənistan müdafiə nazirinin səsləndirdiyi "yeni ərazilər üçün yeni müharibə" iddiaları işğalçı dövlətin rəhbərliyinin əsl niyyətlərini ortaya qoymuşdur. Bu məsuliyyətsiz davranış və bəyanatlara beynəlxalq təşkilatlar, eləcə də işğalçını sülhə sövq etməli olan Minsk qrupunun həmsədr ölkələri tərəfindən heç bir münasibət bildirilməməsi Ermənistan Respublikasının daha çox əl-qol açmasına gətirib çıxarmışdır. 2020-ci il iyulun 12-də Ermənistan silahlı qüvvələri atəşkəsi kobudcasına pozaraq, cəbhə xəttindən çox uzaqlarda, dövlət sərhədinin Tovuz rayonu istiqamətində Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini artilleriya atəşinə tutmağa başlamışdılar. Münaqişə tarixində gərginliyi ən yüksək həddə çatdıran erməni rəhbərliyi bu tarixi faktları unutsa da, xalqımız yaxşı xatırlayır.

Azərbaycanın qlobal miqyas almış, XXI əsrin ən uzunmüddətli, dondurulmuş hesab edilən Qarabağ münaqişəsinin müharibə yolu ilə həll edilməsi Vətən müharibəsində qələbənin təməllərinin hələ 2003-cü ildən müəyyən edilən Böyük Strategiyanın hədəfi olmasını deməyə tam əsas verir. Bu günlər xalqımızın yaşadığı Azərbaycan möcüzəsinin, qələbə modelinin təməlində xalqın etimadından güc alan lider şəxsiyyətin 17 il əvvəl bu günlərə və qarşıdakı perspektivlərə hədəflənmiş strateji təfəkkürü dayanır. Prezident İlham Əliyev demişdi: ***"Biz bu illər ərzində güc toplayırdıq, həm siyasi müstəvidə, həm beynəlxalq təşkilatlar çərçivəsində, həm də ölkə daxilində iqtisadiyyatımızı gücləndirirdik. Biz ordumuzu gücləndirirdik".***

44 günlük Vətən müharibəsində əldə edilən Böyük Zəfərin - daha vacibi hələ qarşıda əldə ediləcək neçə qələbələrin zəmin olan həlledici amillərin də, qələbənin beynəlxalq əhəmiyyəti də olduqca çoxşaxəlidir və onların sadəcə sadalanması xeyli zaman tələb edir. Həmin amillərdən biri - Vətən müharibəsində qələbəmizin beynəlxalq geosiyasi əhəmiyyəti hələ dərindən dərk edilməlidir. Prezident Azərbaycanın haqq işini döyüş meydanında müdafiə edərək, BMT qətnamələrini, beynəlxalq ədaləti bərpa etdi. Qarabağ zəfəri dünyada davam edən həll edilməmiş münaqişələrdən çıxış yolu, örnək-presedent oldu. İlham Əliyevin xarici siyasəti, diplomatiyası yaşadığımız strateji qeyri-sabitlik əsrində yeni ədalətli dünya nizamını qurmağa doğru atılan ilk addım kimi tarixə düşdü. Bu yeni dünya nizamında işğalçı siyasətə, ikili standartlara yer olmamalıdır. Əks təqdirdə, haqq və ədalət, siyasi lider və xalqın iradəsi, ən müasir hərbi texnoloji inqilabla silahlanan Ordu öz sözünü deməli olur. Azərbaycanın qələbə modelinin xarici siyasi əhəmiyyəti bunu sübuta yetirdi.

İlham Əliyevin rəhbərliyi ilə əldə edilən Qarabağ zəfəri, qlobal səviyyədə yeni beynəlxalq münasibətlər sisteminin başlanğıcını şərtləndirib. II Dünya müharibəsindən sonra baş verən qlobal-epoxal xarakterli proseslərin gedişatını dəyişən tendensiyalara yol açıb. Vətən müharibəsinin geosiyasi sədası regional çərçivələri aşıb. Dünya artıq nəinki XXI əsrin, o cümlədən yeni minilliyin müharibə və geosiyasət mərhələsi ilə üz-üzədir.

Böyük zəfərlə başlayan yeni mərhələdə biz xalqımızı yeni qələbələrə hazırlamalıyıq. Qarabağ idealımız idi. Bu, milləti birləşdirdi. Biz indi qarşımıza yeni iddialar, yeni hədəflər qoymalıyıq. Düşmən elə bilməməlidir ki, biz idealımıza çatandan sonra əlimizi əlimizin üstünə qoyacağıq. O üzdən gələcək hədəflərin seçimində hər birimiz iştirak eləməliyik. Bu qələbəni möhkəmləndirməliyik və Qarabağı yenidən qurandan sonra hamımız daha böyük Azərbaycan uğrunda səfərbər olmalıyıq. Millətimiz

bu qələbədən böyüyüb, Ali Baş Komandan, əslində, bizim ərazi bütövlüyümüzü təmin edərək bütün sərhədlərimizdə suverenliyimizi bərqərar edib, yeni cümhuriyyət, yeni millət qurub. Bu həm də bizim yeni keyfiyyətdə müstəqillik qazanmağımız deməkdir.

Bu qələbə ilə müzəffər Ordumuz BMT qətnamələrini də yerinə yetirdi. Laçının azad olunması ilə keçən əsrin 90-cı illərində yaranmış hərbi-siyasi vəziyyət ortadan qalxdı və Müzəffər Ordumuz BMT qətnamələrinin hamısını yerinə yetirərək, dünyada sülhə və təhlükəsizliyə cavabdehlik daşıyan ən böyük qurumu 27 illik qınaqdan və nüfuz itkisindən xilas etdi. Artıq həmin sənədlər yalnız tarix üçün əhəmiyyət daşıyır.

Siyasi təqvimdə 1 dekabr günü eyni zamanda Ali Baş Komandan İlham Əliyevin fədakar millətimiz və şanlı Silahlı Qüvvələrimizlə birgə təkcə hərbi deyil, eləcə də diplomatik-siyasi gücü, imzasının hökmü ilə torpaqlarımızı təcavüzkarlardan təmizləməyə qadir olduğunu beynəlxalq ictimaiyyətə göstərdi. 10 noyabr sazişinin işləməsi, dövlətimizin hesabına regionda formalaşan yeni geosiyasi, eləcə də təhlükəsizlik atmosferi Qafqazda yeni arxitektura qurmağa imkan verəcək. İndi sürətli bir şəkildə Qarabağda erməni silahlı qüvvələrinin bölgədən çıxarılması, Rusiya sülhyaradıcı qüvvələrinin nəzarəti altında olan ərazilərin ölkəmizin suveren haqları altına qaytarılması, qardaş Türkiyənin iştirakı ilə regionun gələcəyinə dair yeni strateji planların icrası mərhələsinə başlamaq gərəkdir. Onu da qeyd edək ki, “Laçın dəhlizi”nin təklükəsiz çalışması bizim dövlət strukturlarının zəmanəti altında olduğu üçün Qarabağda qanunsuz separatçı strukturun hər hansı qalıqlarını qoruyub-saxlamaq mümkün olmayacaq.

Digər tərəfdən, Naxçıvanla kommunikasiyaya dair birgə bəyanatda nəzərdə tutulan öhdəliyin gecikmədən yerinə yetirilməsinə başlanılması Qarabağla cəmi bir yolla əlaqə dəhlizinin təhlükəsiz çalışmasında ən mühüm faktorlardan biri olacaqdır. Yəni dəhlizlər coğrafi olmasa da, siyasi və ictimai işləklik baxımından bir-birindən ayrılmaz şəkildə bağlıdır. Ali Baş Komandan İlham Əliyevin Naxçıvanı bir dəhlizlə Azərbaycanla birləşdirmək iradəsi təkcə 10 il əvvəl deyil, eləcə də bir əsr əvvəl Azərbaycan Demokratik Cümhuriyyəti dövründə itirilmiş mövqelərin bərpası deməkdir. Bu, dövlətçilikdə varislik ənənələrinə Prezidentimizin verdiyi ən böyük dəyərdir. Demokratik Cümhuriyyəti quran insanların da ruhu bununla sevinmiş oldu.

Qarşıdakı yaxın dövrdə Ermənistan Türkiyə və Azərbaycanın ərazi bütövlüyünü tanıyaraq, bütün tarixi iddialarından geri durduğunu bəyan edərsə, eləcə də əsrlərlə yürüdülən mifik ictimai-siyasi, həmçinin ideoloji kursun ağır mirasından imtina edərsə, o halda bölgədə daha geniş arealda kommunikasiyaların açılması mümkün ola bilər.

44 günlük Vətən müharibəsində Türkiyə və Azərbaycan qardaşlığı əsrlər boyu olduğu kimi çox uğurla tarixi sınaqdan çıxdı və bu, təkcə iki dövlətin elitasının, hökumətlərinin deyil, eləcə də sayı yüz milyonları keçən türklər-azərbaycanlıların, həmçinin dünya ictimaiyyətinin mövqeyini formalaşdıran mətbuatın, televiziyanın, virtual medianın fədakarlıqla çalışan informasiya cəbhəsi döyüşçülərinin igidliyi hesabına oldu. Biz 44 gündə Türkiyə və Azərbaycanın informasiya məkanının birləşdiyini, vahidliyini gördük. Onlar Vətən müharibəsinin hər gününü bizimlə bərabər yaşadılar, kədərimiz və sevincimizlə bir oldular. Türkiyənin aparıcı televiziya kanalları Ali Baş Komandanla geniş müsahibələr apardılar, onu dünyanın gündəminə çevirdilər, haqq səsimizi yaydılar, eyni zamanda döyüş bölgələ-

rindən, səngərdən 44 gün ərzində daim reportajlar verdilər, faktiki olaraq savaşdılar, peşəkarlıq, operativlik və fədakarlıq nümunələri yaratdılar.

Demək olar ki, bütün teleradiokanalları, çoxmilyonlu tiraja, eləcə də fərqli auditoriyalara malik olan qəzetlər, virtual media resurslarının mütləq əksəriyyəti Azərbaycanı birinci planda daim ən müxtəlif formatlı müzakirələrin baş mövzusuna çevirdilər, bütün arsenalları ilə Qarabağ və Azərbaycan üçün döyüşdülər, təkcə xəbər yayıcıları kimi qalmadılar, eləcə də bütün dövlət-hökumət adamlarını aktiv diskussiyalara, analitik proqramlara cəlb etdilər, universitet rektorlarından elm adamlarına, peşəkar hərbi-siyasi ekspertlərdən sadə ictimaiyyət nümayəndələrinə qədər hamısını savaş üçün səfərbər etdilər. Bunlar qürur doğuran, unudulmaz səhifələrdir və biz özümüzə borc bilirik ki, bütün Türkiyə mediasına göstərdikləri cəfakeşliyə görə öz hörmət və ehtiramımızı bildirək, onlara təşəkkür edək və xüsusi vurğulayaq ki, onlar Azərbaycan dövlətindən gələcəkdə müxtəlif təltiflərə, orden və medallara layiq görülmələri ilə bərabər, xalqımızın tükənməz sevgisini qazanıblar və bu, məhz 44 günlük müharibədəki salnamədir.

Qələbə ruhunu azad olunan ərazilərimizə Böyük Qayıdışa, Böyük Quruculuq işlərinə və beləliklə, Böyük Azərbaycanın yaradılmasına yönəltməyi bacarmalıyıq. Bu istiqamətdə görüləcək iş Vətən müharibəsində canından keçən şəhidlərimizin, müharibədə iştirak edən qazilərimizin, yaralı və əlil döyüşçülərin, onların ailələrinin dövlətin diqqəti və ümumxalq qayğısı ilə əhatə edlməsidir. Ali Baş Komandan bizə qələbəni qazandıranlarla bağlı fikrini aydın bildirib: ***"Bunu da hər kəs bilsin, bu 44 gün ərzində əldə edilmiş qələbə bizim hərbçilərimizin peşəkarlığı, qəhrəmanlığı hesabına qazanılıb. Biz bu müharibəni şəhidlərimizin canı-qanı bahasına, hərbçilərimizin rəşadəti hesabına qazanmışıq".***

İki əsrlik tariximizdə qazanılan ən böyük qələbəmizin, minillik gələcəyimiz üçün hər zaman iftixarla və qürur hissi ilə qeyd olunacaq qalibiyyətin gerçək qəhrəmanlarının əməyini qiymətləndirmək üçün dövlət mükafatları, xüsusi adlar təsis edildi. Ali Baş Komandanımız hamıdan birinci, əslində isə aktiv döyüş əməliyyatlarına bərabər tutulacaq addım ataraq ön cəbhəyə - azad olunan torpaqlarımıza səfəri zamanı bəyan etdi ki, müzəffər Ordumuzun qəhrəmanlığına dəyər verilməsi, onların təltif olunması həm də düşmənin orden və medallarının onların sinələrindən qoparılması deməkdir. Prezident düşmənə "Çıxarın atın o medalları!" - deyə çağırış da etdi. Təltiflər sistemi ən mühüm dövlətçilik hadisəsi oldu.

Bildiyimiz kimi, Fransanın ən məşhur dövlət mükafatı olan "Fəxri Legion" ordenini Napoleon Bonapart 1802-ci ildə özü təsis edib. Bununla bağlı yazıb: "Fransızların yalnız bir hissi var - şərəf hissi, buna görə də bu hissi mümkün qədər gücləndirmək, onlara özlərinin fərqli olduğunu göstərmək lazımdır".

Hazırkı postmüharibə dövründə, Vətən müharibəsində qalib gələn Müzəffər Ordumuzun iştirakçılarının əsas sosial müdafiə və imtiyazlar sisteminin hazırlanmasına başlanılıb və bu işin təkmilləşdirilməsi davam edir. Qarabağ müharibəsində iştirak edən əsgər və zabitlərin bütün yaxınlarına qayğı və həssaslıq göstərilməsi son dərəcə vacib məsələdir. "Qarabağ müharibəsi veteranı və əlili" statusuna da yeni hərbi reallıqlar çərçivəsində baxmalı, II Qarabağ müharibəsində bu statusu əldə edən bütün qazilərimizi yüksək ad və hüquqda təsbit etməliyik. "Şəhid ailəsi", yaxud "Əsgər ailəsi" ifadələrinə diqqət yetirilməsinə, onlara sosial güzəştlə-

rin tətbiqinə yenidən nəzər salınaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində ayrıca Şəhid Ailələri və Qazilər Fondunun yaradılması məqsədəuyğun olar. Qarabağ savaşı ilə bağlı tarixi parkların, Hərbi Panteon və s. məkanların yaradılması ilə yanaşı, təltif edilənlərin adlarının xüsusi şərəf lövhəsinə yazılması da vacib hesab edilə bilər.

Qələbəmizin sosial-iqtisadi, mənəvi-maddi baxımdan xidməti olan hər bir insana faydası olmalıdır. Onlar haqlı olaraq özlərinə diqqət və qayğı tələb edirlər.

Qələbəmizi qorumaq Vətəni canı ilə müdafiə etməkdir, igid və qəhrəman şəhidlərimizlə, əsgər və zabitlərimizlə bir sırada olmaqdır, onlarla vahid səngəri bölüşməkdir. Daha çox qəhrəmanlar yetişdirmək istəyiriksə, belə etməliyik.

BÖYÜK QAYIDIŞ və BÖYÜK QURUCULUQ. 30 ildən çoxdur əzablı, məşəqqətli məcburi köçkünlük həyatı yaşayan insanlarımız öz doğma yurd yerlərinə qayıdıb yaşayacaqlar. Azərbaycanın həmin guşələri yenidən dirçələcək, yurd yerlərimiz, işğaldan azad olunmuş ərazilərimiz yenidən qaynar həyatına dönəcək. Biz yüz minlərlə insanı Qarabağda təhsilə cəlb edərək orada təhsil müəssisələrimizi, universitetlərimizi qurmalıyıq. Məcburi köçkünlərimizlə yanaşı, 1,5 -2 milyon vətəndaşımızın Böyük Qayıdışla azad olunan torpaqlarımızda yaşamasına imkan yaratmalıyıq. Qarabağda yaşayan insanlara dövlət dəstəyi olmalıdır.

Vətən müharibəsində qələbəmiz Prezident İlham Əliyevin 2019-cu ildən həyata keçirdiyi yeni hakimiyyət quruculuğu siyasətinin doğru olduğunu sübut etdi. Əks halda qələbə qazanmaq çətin olardı. İndi düzgün idarəetmənin ən böyük ünvanı Qarabağ və xilas edilmiş torpaqlarımız olmalıdır. Qarabağın hər yerində təmiz, peşəkar, vətənpərvər, eləcə də güclü siyasi təfəkkürə və dərin intellektə malik şəxslərin hakimiyyət orqanlarında təmsil olunması, şəffaf və dürüst idarəçiliyin nümunəyə çevrilməsi keçmişdə işğala səbəb olan tarixi səhvlərin bir daha təkrarlanmamasının zəmanətidir. Biz şəhid qanları üzərində Vətənin yenidən qurulduğunu heç vaxt unutmamalıyıq.

Göründüyü kimi, azad olunan torpaqlara bütün dövlət strukturları ilə birgə qayıdırıq. **Bəli, torpaq, xalq və hakimiyyət həmişə bir yerdə olmağı tələb edir. Artıq ilk quruculuq işlərinə - Yeni Yolun inşasına başlanılıb. Biz inanırıq ki, Qarabağa gedən yollar iki dəfə daha uzunömürlü, iki dəfə daha abad və halal olması üçün hər kəs canı-dildən çalışacaq. Bizi Qələbəyə aparan yolları elə qurmalıyıq ki, "Laçın dəhlizi" ifadəsi yox olsun, içimizdə yeni sərhəd, təmas xətti yaratmaq və bir neçə gün əvvəl olduğu kimi yenidən döyüş meydanı yaratmaq istəyənlərin planı iflasa uğrasın və Qarabağın bütün arteriyaları yenidən Azərbaycanla birləşsin!**

Biz yüz minlərlə soydaşımızı Qarabağın təhsil həyatına cəlb edərək o müqəddəs məkanda ən güclü məktəblərimizi - universitetlərimizi qurmalı, qabaqcıl alim və ziyallarımızı ora toplamalıyıq ki, Qarabağ elmi cəhətdən güclü regiona çevrilsin, heç bir ordunun keçə bilməyəcəyi qoruyucu sipərimiz olsun!

Biz elə etməlyik ki, bütün millətlər orada yaşaya bilsin. Aqarunovun canını fəda etdiyi torpaqlarda yəhudilər də, Solntsevin həyatını qurban verdiyi məqsədlər naminə ruslar da, mənən yanımızda olan gürcülər, ukraynalılar, belaruslar da etnik-milli-dini bir harmoniyada xalqımızla birgə o məkanda qurub-yaratsınlar. Azərbaycanda evə-eşiyə ehtiyacı olanların hamısına şərait yaratmalıyıq ki, qoy gedib Qarabağda özlərinə isti ocaq qursunlar. Biz tək-

cə köçkünlərimizi deyil, bəlkə, 1.5, - 2 milyon vətəndaşımızı "Böyük Qayıdış" proqramı ilə azad ərazilərimzə aparmalıyıq!

Ordumuz "Ohanyan xətti"ni dagıdıb qalib gəldi, lakin bizim keçilməz sədlərimiz elə olmalıdır ki, 270 yaşlı Şuşa Qarabağın inzibati-siyasi-idarəetmə mərkəzinə çevrilsin. Xatırlatmaq istərdim ki, düz 170 il ərzində məhz belə olub. Şuşa Qarabağ rayonunun inzibati mərkəzi olmalıdır! XX əsrin 90-cı illərində birləşəndən sonra Almaniyanın etdiyini kiçik miqyasda təkrarlamalıyıq...

Vətən müharibəsində verdiyimiz 2881 nəfər şəhidimizi, veteran və yaralıları da nəzərə alaraq, Qarabağda qurulan gənc ailələrə və doğulan hər körpəyə görə dövlət yardımları sayəsində bütün xilas edilmş ərazilərdə məskunlaşma ən yüksək səviyyəyə çatmalı, milyardlarla manat xərc çəkilib salınan yeni şəhər, qəsəbə və kəndlərimizdə daim həyat qaynamalıdır.

Biz orada qədim tariximizi təkcə muzeylərə yığmaqla yox, eləcə də onu böyüyən milyonlarla gəncin beyninə, ruhuna yerləşdirməyin yollarını tapmalıyıq. Qarabağ özü boyda kitab evinə çevrilməlidir!

Beynəlxalq maliyyə-iqtisadi qurumları üçün də oraya yol açıqdır. Xatırlayırsınızsa, 2000-ci illərdə Avropa Birliyinin rəsmiləri Ulu öndər Heydər Əliyevlə görüşərkən Qarabağda dağılmış infrastrukturun bərpası üçün 1 milyard avro yardım etməyə hazır olduqlarını söyləmişdilər. Qoy indi vədlərini tutsunlar və həqiqətən sülhə-çiçəklənməyə investisiya qoysunlar. Qarabağda iqtisadi göstərici bütün bölgələrdən yuxarı olmalıdır.

Bilirsiniz ki, hərbi əməliyyatlar başlayan günlərdə erməni tərəfi apardıqları savaşın adını "cəhənnəmə xoş gəlmisiz" qoymuşdular. Diqqət edirsinizsə, "Qafqazın mirvarisi" sayılan məkana hansı adı vermişdilər. Ali Baş Komandanımız isə "**Biz Qarabağı cənnətə çevirəcəyik!"** dedi, Azərbaycan xalqının quruculuq ideallarını dünyaya nümayiş etdirdi.

Qələbəmizə hücumlar da sistemli, planlı və amansız xarakter daşıyır. Sadə dillə desək, hərbi meydanda bizi məğlub edə bilməyənlər, ölkəmizi, o da olmasa düşüncələrimizi 26 sentyabra qaytarmağa cəhd edərək, siyasi, ictimai, diplomatik və informasiya məkanında uğurumuzu əlimizdən almağa cəhd edir, tarixi zəfərimizi gözdən salmağa, onu təhrif etməyə, yaxud müxtəlif sosial-iqtisadi problemlərin fonunda adiləşdirməyə çalışırlar.

BÖYÜK QURUCULUQ. ***"İndi isə bizim üçün yeni dövr başlayır - quruculuq dövrü. Mənfur düşmən işğal edilmiş bütün torpaqları yerlə-yeksan edib. Biz onların hamısını bərpa edəcəyik. Bundan sonra Azərbaycan yalnız inkişaf edəcək. Bizim azad edilmiş torpaqlara bundan sonra həyat qayıdacaq. Mən demişəm ki, bizim hər birimiz bu işdə fəal olmalıyıq. Biz düşmən tərəfindən dağıdılmış şəhər və kəndlərimizi birlikdə bərpa edəcəyik. Bizim iradəmiz də var, imkanlarımız da var"***.

Hərbi meydanda döyüş bitsə də, informasiya müharibəsi tam gücü ilə davam edir. Müharibə təkcə döyüş meydanında getmədi, diplomatik sahədə də, beynəlxalq KİV-lərdə də, hətta sosial şəbəkələrdə də davam etdi. Azərbaycan diplomatiyası mübarizədən alnıaçıq çıxdı. Dünyanın ən nüfuzlu KİV-lərində demək olar ki, hər gün Azərbaycanla bağlı məlumatlar yayılmağa başladı. Prezident İlham Əliyev müxtəlif xarici mətbu orqanlara 30-a yaxın müsahibə verdi və Azərbaycanın haqlı mövqeyini ən yüksək səviyyədə qorudu.

Çünki hazırda ölkələrin təhlükəsizliyi təkcə silahlı qüvvələrdən deyil, eləcə

də informasiya vasitələrinin peşəkarlığından, xarici və daxili təhlükələrə qarşı operativ cavab vermək bacarığından, milli informasiya məkanını qorumaq və beynəlxalq rəqabətlə ayaqlaşmaq potensialından birbaşa asılıdır. Ordular arasındakı ittifaq nə qədər vacibdirsə, informasiya müharibəsini aparmağa qadir olan media güclərinin də bir araya gətirilməsi bir o qədər əhəmiyyətlidir.

Bu baxımdan "Azərbaycan və Türkiyə respublikaları arasında media sahəsində strateji əməkdaşlıq haqqında" Anlaşma Memorandumu və onun əhəmiyyəti böyükdür. Azərbaycan Parlamentində təsdiqlənən razılaşma aktı tarixi əhəmiyyət kəsb edir. "Azərbaycan və Türkiyə respublikaları arasında media sahəsində strateji əməkdaşlıq haqqında" Anlaşma Memorandumu 2020-ci il dekabrın 10-da iki dövlət rəhbərləri Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Bakı şəhərində keçirilən böyük Hərbi Zəfər paradından sonra rəsmi nümayəndə heyətləri arasında keçirilən görüş zamanı imzalanıb. Sənəd iki ölkənin media sahəsində əlaqələrini inkişaf etdirmək və onu yeni hədəflərə çatdırmaq ideyasına xidmət edir. Bu məqsədlə yaradılan Birgə Media Platforması Azərbaycan-Türkiyə ikitərəfli əlaqələrini gücləndirməklə strateji media ortaqlığının qurulmasını nəzərdə tutur. Qısa deyilsə, media əlaqələri üçün sağlam infrastrukturun yaradılması, məlumat, bilik, təcrübə və mənbələr mübadiləsi, iki ölkənin media sahəsində çalışan rəsmi qurumlarının birgə araşdırmalar həyata keçirməsi əsas fəaliyyət istiqamətləri kimi nəzərdə tutulub. Təlim və mübadilə proqramlarının təşkil olunması, eləcə də fikir liderləri arasında rabitə körpüsünün qurulması da əməkdaşlığın müddəaları sırasındadır.

Razılaşmanın müddəaları sırasında dezinformasiyalara qarşı birgə mübarizənin mövcudluğu da Türkiyə ilə Azərbaycana qarşı informasiya savaşı aparanların eyni olması ilə bağlıdır. Yalnız birgə dirənişlə onlara qalib gəlmək mümkündür.

Qələbələr - onlara görə yaşanan qürur ***və sevinc, bayram təqvimləri ilə yanaşı, həm də milli yaddaşa yazılması, gələcək nəsillərə ötürülməsi, əbədiləşdirilməsi üçün lazımdır. Bu istiqamətdə görüləcək işlər Böyük Qayıdış və Böyük Quruculuq qədər vacibdir. Əks təqdirdə qələbələrin mahiyyəti dərk edilməmiş qalır.***

Dövlətçiliyimizin yeni - Zəfər mərhələsinə keçid aldığına dəlalət edən, Vətən müharibəsinin əbədiləşdirilməsinə xidmət edən Hərbi Qənimətlər parkının açılması bu baxımdan təqdirəlayiq hadisədir. **Hərbi Qənimətlər parkı təkcə dağıdıcı silahların, bir vaxtlar keçilməz sayılan istehkamların deyil, ilk növbədə torpağın üstündə yaşamaq haqqının olmadığı sübuta yetirilən "erməniçiliyin", beyinlərində mif dünyasını quran və orada yaşayan erməni ideologiyasının portretidir.** Ora ziyarətə gələn milyonlarla azərbaycanlı üçün düşmən ordusunun həqiqi simasının yeni adı "8 noyabr" prospektidir. Tam 30 il müddətində Qarabağ və ətraf ərazilər özü boyda qənimətlər parkı olub, lakin sonda düşmən o əraziləri özü üçün məzarlığa çevirdi.

Müstəqil Azərbaycan dövləti son 100 illik tarixində, o cümlədən keçmiş sovet ölkələri içərisində ilk dəfə qalibiyyət və qənimət meydanına sahib olan bir neçə ölkədən biridir. Hərbi qənimətlər parkı olan London, Vyana, Paris isə 100-200 il əvvəlki tarixin irsini daşıyır.

Faşizm üzərində qələbədə olduğu kimi XXI əsrdə erməni əsgəri texnikasi ilə birgə təslim oldu. Ümid edək ki, ermənilərin içində də alman xalqı kimi faşizmdən qurtulmağı, keçmişi düzgün qiymətləndirməyi bacaran, artıq

demoqrafik meydanda onların bir xalq kimi sonluğunu gətirən "erməniçilikdən" xilas olmaq barədə düşünənlər olacaq.

Zəfər salnaməsinin başladığı gündən bizi yarım ilə yaxın vaxt ayırır. Bir tərəfdən, Azərbaycan xalqının hərb tarixində qazanılan tarixi nailiyyətlərinin nə qədər əzəmətli olduğunu görürük. Digər tərəfdən, qələbəmizdən qısqanclıq, qisasçılıq da, qalib ölkəmizə hücumlar da sistemli və planlı xarakter daşıyır. Qeyd edildiyi kimi, hərb meydanında bizi məğlub edə bilməyənlər, ölkəmizi, xüsusilə ictimai şüuru 26 sentyabr 2020-ci il vaxtına qaytarmağa cəhd edir, siyasi, ictimai, diplomatik və informasiya məkanında uğurlarımızı, tarixi uğurlarımızı təhrif etməyə çalışır. Məhz bu baxımdan **qələbəmizin milli yaddaşa köçürülməsi yönündə taleyüklü məsələlər həllini gözləyir. Bu, torpaqlarımızın azad olunması qədər vacib olan vəzifədir. Çünki tarixi dünənini düzgün öyrənmək mifologiyalardan və ilgımlardan azad olaraq, daha gerçək milli hədəflər və gələcək uğrunda mübarizə aparmaq deməkdir.** Sözügedən sahə tədqiqatçı və ziyalıların, alimlərin, sənət adamlarının, bütün vətənsevərlərin fədakar birliyini gözləyir.

YADDAŞ SİYASƏTİ: QƏLƏBƏ YADDAŞININ FORMALAŞMASININ ELMİ-NƏZƏRİ ƏSASLARI

MEMORY POLİCY: VICTORY MEMORY - SCİENTİFİC-THEORETICAL AND PRACTİCAL BASIS OF FORMATION

TARİX SİYASƏTİ VƏ YADDAŞ SİYASƏTİ: DÜNYA TƏCRÜBƏSİ VƏ AZƏRBAYCANDA MƏSƏLƏYƏ KONSEPTUAL BAXIŞ

Tahirə ALLAHYAROVA
Sosial Tədqiqatlar Mərkəzi İdarə Heyətinin üzvü,
fəlsəfə elmləri doktoru, professor

E-mail: tahirallahyarova@gmail.com

Xülasə. 2021-ci il dövlətçilik tariximizdə ilk dəfə əlamətdar tarixi günlər adlanan möhtəşəm hadisələr - Vətən müharibəsində Zəfər tarixinin 1-ci və müstəqilliyin bərpasının 30-cu ildönümləri işarəsi altında keçəcək. Bu möhtəşəm təqvimlər dünyada "tarix və yaddaş siyasəti" adlanan hadisələr baxımından olduqca böyük əhəmiyyətə malikdir. Çoxsaylı dünya ölkələri qeyd ediləcək belə hadisələrin milli yaddaşa yazılmasının dövlət siyasətinə, tarixi ənənəsinə, konkret konsepsiyasına, gerçək məqsədlərə və onun reallaşmasının mexanizmlərinə səlahiyyətli olan institutlara malikdir.

Bununla müqayisədə ölkəmizdə tarix və yaddaş siyasəti nəinki ziyalılarımızın tədqiqatlarında, kollektiv yaddaşla bağlı istisna sayılacaq araşdırmalar nəzərə alınmazsa, hətta elmi leksikonumuzda belə hələlik diqqət cəlb etməyib, təhlil edilməyib. Dünya ölkələrində "tarix siyasəti və yaddaş siyasəti" adlanan fəaliyyətin həyata keçirilməsinə səlahiyyətli olan rəsmi institusionallaşmış strukturlar hələlik formalaşmayıb. Məqalədə hazırda mövcud olan tarixi və milli yaddaş siyasəti konsepsiyaları, praktiki təcrübə, bu sahədə dünya ölkələrində həyata keçirilən fəaliyyət və onun Azərbaycanla müqayisəsinə nəzər salınır, görüləcək işlərin səciyyələndirilməsinə cəhd edilir.

Azərbaycanın müstəqillik tarixində ilk dəfə Qarabağda Qələbə, Qayıdış və Zəfər tarixi adlı mərhələyə qədəm qoyulması tarixə və yaddaşa münasibət məsələlərini təsəvvürəgəlməz dərəcədə aktuallaşdırıb. Belə ki, tarixən müharibələr xalqın kimliyinə göstərdiyi fundamental təsir gücü ilə yaddaş siyasətinin alternativi olmayan əsasını təşkil edir. Azərbaycan xalqının Vətən müharibəsində qazandığı qələbə zəfər tarixinin qələmə alınmasını, onun daxili və xarici siyasətə, ən başlıcası, ictimai şüura və rəyə təsiri məsələsini gündəmə gətirir.

Məqalədə dünyada mövcud olan tarix və yaddaş siyasəti sahəsində təcrübə və bu sahədəki fəaliyyətlər - ABŞ, Fransa, Almaniya, Rusiya, Polşa, Ukrayna, İsrail, Avropa Birliyi və s. nümunəsində araşdırılır, Azərbaycanla müqayisəsi və görüləcək işlərin səciyyələndirilməsinə çalışılır.

Açar sözlər: tarix, yaddaş, dövlət, yaddaş siyasəti, dünya təcrübəsi, İlham Əliyev, Azərbaycan, keçmişə münasibət, tarix siyasəti, yaddaş müharibələri, yaddaş siyasəti institutları

1. Tarix və yaddaş siyasəti: problemlə bağlı müzakirələri dünyada aktual edən amillər

"Vətən müharibəsinin hər günü bizim şanlı tarixi-mizdir. Bu gün bizim yaşadığımız günlər hər bir azərbaycanlının yaddaşında əbədi qalacaq. Biz tarix yazırıq. Xalqımızın, ölkəmizin yeni şanlı tarixini yazırıq. Bu, Zəfər tarixidir" [3].

"Azərbaycan gənci öz tarixini, ədəbiyyatını, ana dilini mükəmməl bilməlidir, fəxr etməlidir ki, Azərbaycan vətəndaşıdır. Mən görürəm ki, müstəqillik dövründə doğulmuş və ya formalaşmış yeni nəsil yetişir. Yeni nəsil ölkəmizin gələcəyini müəyyən edəcək. Ölkəmizin müstəqilliyi onlardan asılı olacaq. Əgər qloballaşma adı ilə bizə yad olan və faktiki olaraq manqurtlaşma, kimlik siyasəti idxal ediləcəksə, onda bizim gənclərimiz gələcəkdə ölkəmizin maraqlarını qoruya bilməyəcəklər" [8].

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Prezident İlham Əliyevin yuxarıda epiqraf olaraq gətirilən "..ölkəmizin yeni şanlı tarixini yazmaq" çağırışı Zəfər tarixini yaddaşlara yazmaq kimi aidiyyətli sahənin ziyalı və alimlərinə, qələm əhli və mediaya, ümumilikdə isə hər bir vətəndaşa ünvanlanıb.

Qalibiyyətli müharibə hər bir xalq üçün öz zəngin tarixi və mədəniyyətinə bir daha dərindən nəzər salmaq, toplumun tarix duyumunu formalaşdırmaq və zənginləşdirmək üçün böyük fürsətdir.

Hazırda Zəfər tarixini yazan ölkəmizdə milli qürurla birlikdə formalaşan qalib xalqa məxsus milli qürur yaşantısı və milli kimlik, dəyər oriyentasiyalarının üfüqlərinin düzgün müəyyən edilməsi, qələbə dərslərinin indiki və gələcək nəsillərin yaddaşına həkk edilməsi yönündə həyati vacib prioritetlərin düzgün qurulması xüsusi əhəmiyyət kəsb edir.

Bununla yanaşı, yuxarıda qeyd edilən, soni illər dünyada vüsətlə artan yeni trendlərin - tarix siyasəti və yaddaş siyasəti adlanan tədqiqat istiqamətlərinin, ənənə və mexanizmlərin formalaşmaması qarşıda duran məqsədlərə adekvat deyil. Bu baxımdan, ölkəmizdə yaddaş və tarix, yaddaş siyasəti ilə bağlı nəzəri və təcrübə əsaslarının müzakirəsi, mütərəqqi nümunələrin tətbiqi qarşıda duran əsas məsələlərdəndir.

"Yaddaş nədir, necə fəaliyyət göstərir?" sualı bu və ya digər şəkildə ən müxtəlif sahələrdən olan alimləri maraqlandırıb. Qədim Roma yazıçısı Böyük Pliniyə görə: "Yaddaş insanı şəxsiyyət edən bir nemətdir." Fridrix Nitşe isə əksinə unutma qabiliyyətini istedad hesab edirdi. Yaddaşla bağlı elmi baxışlar bu cür əks mövqelərdə olmaqla yanaşı, çeşidli təlim və nəzəriyyələrin ortaya çıxmasını şərtləndirib.

Sovet İttifaqının dağılması ilə nəhəng bir geosiyasi məkanda tarixi-sosial yaddaş parçalandı. Yeni tarixi "hekayə quruculuğunun-narrativlərin" formalaşdırılmasına zərurət və sosial sifarişin yaranması bu sahədə axtarışlara təkan verdi. Müstəqilliyə yeni qovuşan hər bir dövlət qadir olduğu qədər keçmişini yazmaq, mövcud yaddaş siyasətinin transformasiyası və yeni strategiyaların yaradılması tələbi ilə üz-üzə qaldı. Hər bir ölkə milli, siyasi, ideoloji, geosiyasi kimliyi ilə yanaşı, həm də "tarixi kimli-

yini - oriyentasiyasını" müəyyən etmək seçimi ilə üzləşdi. Nəzərə alınmalıdır ki, sovet cəmiyyətinin siyasi və tarixi çöküşü həm də qloballaşma və texnoloji-kommunikasiya inqilabının doğurduğu transfomasiyalarla üst-üstə düşdü. Bu da keçmişin təqdimi və təbliğində yeni qlobal hədəfli informasiya müharibəsi, manipulyasiya, vizuallaşdırma və inter aktivləşmə vasitələrinin meydana gəlməsini şərtləndirdi.

"Tarix və yaddaş" münasibətlərinin yeni, daha dərindən araşdırılması göstərdi ki, ənənəvi olaraq onların tamamilə başqa sahələr olması yaxud da onların bir-birinə qarşı qoyulması ilə bağlı olan mövqelərə də yenidən baxılmalıdır. Məhz "tarix-yaddaş-siyasət" üçbucağında formalaşan "keçmişin öyrənilməsi" yollarının müxtəlif dövrlərdə, müxtəlif cəmiyyətlərdə müxtəlif tarixi idrak modellərinin ortaya çıxmasını şərtləndirən səbəbləri, proseslərin mahiyyətini müəyyən etməsi əksəriyyət tərəfindən ümumi qənaətə çevrildi.

Məlum olduğu kimi, keçmişin mənalandırılması, keçmiş təcrübəyə dair şərhlər olduqca geniş aspektlərdə və çoxsaylı anlayışlar kontekstində təsvir edilə bilər. Həmin anlayışlara misal kimi tarixi təcrübə (keçmiş haqqında bilik və təsəvvürlər), tarixi yaddaş, tarixi şüur, tarixi idrak və s.-ni xatırlamaq olar. Keçmişin dərk edilməsinin artıq formalaşmış ənənələri, başqa sözlə, tarixi təcrübələr və ya tarixi idrak modelləri mövcuddur. Zaman gedişində tarixin bir-birini əvəzləyən müxtəlif inkişaf mərhələlərində baş verən proses və hadisələrin elmi dərk edilməsinin üsulları da, imkanları da yeniləşir, dəyişir və zənginləşir. Keçmiş tarixə dair təsəvvürlər çoxçalarlı olub, tarixi idrak və biliklərlə eyniyyət təşkil etmir.

Sosioloji nöqteyi-nəzərdən keçmiş haqqında təsəvvürlər ixtisaslaşdırılmış elmi biliklərdən daha geniş olub, ümumiyyətlə, arxaik təsəvvürlərdən tutmuş dinlər, fəlsəfələr, ideologiyalar, sənət və s. kimi epoxal sosial yaddaşı da əhatə edir. Bu nöqteyi-nəzərdən tarixi yaddaş və təcrübə keçmiş haqqında biliklər üçün əsas rolunu oynayır.

XX əsr dünya, Avropa və Fransa tarixçilərinin görkəmli nümayəndlərindən biri, tarixi tədqiqatların metodologiyasına inqilabi yeniliklər gətirmiş, məşhur "Annallar məktəbi"ni ("Salnamələr məktəbi") yaratmış dünya şöhrətli tarixçi Fernan Brodelin (1902-1985) tarixə gətirdiyi yeni yanaşmasında əsas anlayışlarından biri - "tarixi yaddaş" vacibliyinin gündəmə gəlməsi metodoloji baxımdan yenilik oldu. Əlbəttə, tarixçilər həmişə yaddaş fenomeni ilə rastlaşmışlar. Lakin əvvəllər əsasən tarixi xronikanın müəlliflərini, hadisələri nə dərəcədə yaxşı xatırlaması maraqlandırırdı. Tarixçi yaddaşda baş verə biləcək səhvlərə, unutqanlıqlara lazımi düzəlişlər edirdi. Bu prosesdə isə tarixi yaddaş arxa plana keçir, "tarixi faktla" işləməyə üstünlük verirdi. İndi isə hadisə haqqında yaddaş daha az tarixçi üçün hadisənin özü qədər, bəzən isə hadisədən daha çox maraq kəsb edirdi. Yaddaşa cildlərlə əsər həsr edən Pyer Nora F.Brodelin davamçılarından idi.

Tarixə münasibət və yaddaş siyasəti son onilliklərin ən aktual problemləri sırasındadır. Dünyada gedən qloballaşma prosesləri, beynəlxalq münasibətlər sisteminin radikal transformasiyası şəraitində tarixi yaddaş - milli varlığın təhlükəsizliyi üçün, müxtəlif ölkələrin bölgədəki qlobal liderlik uğrunda toqquşan maraqlarından irəli gələn təhdidlərin dəf edilməsinə qarşı sipər rolunda çıxış edir.

XX əsrdə yaddaşın tədqiqat obyekti olaraq tarixin yazılmasına cəhd edilməsi nəticəsində tədricən başqa bir tarixi idrak modeli yarandı. Onun formalaşmasının zirvəsi 70-80-ci illərdə Qərb ictimai-humanitar elmində bu sahədə baş verən intellektual inqilab oldu.

Beləliklə, yaddaşla bağlı tədqiqatların yaşı nisbətən çox olsa da, onun

təcrübədə cəmiyyətə tətbiqi əsasən XX əsrin 80-ci illərindən başlayaraq əksər dünya ölkələrində dövlətçilik tarixinin yenidən araşdırılmasının, indiki və gələcək nəsillərə ötürülməsini təmin edən "yaddaş siyasəti" strategiyalarının hazırlanması geniş yayıldı. Qloballaşma və milli dövlət münasibətlərində ziddiyyətlər, ikiqütblü dünyanın çökməsi, dünyanı bürüyən qanlı münaqişələr və s. proseslərin milli kimlik, tarix və yaddaş problemini daha da ön sıraya çıxardı.

XXI əsrin əvvəllərində - son otuz ildə, Pyer Noranın da qeyd etdiyi kimi, dünya ictimai elmi bir "yaddaş dövrü"ndə mövcuddur və yaşayır. P.Nora 2010-cu ildə "Tarix, tarixçilər və hakimiyyət" mövzusunda beynəlxalq dəyirmi masada çıxış edərkən qeyd edib: "1970-ci illərdən 1990-cı illərədək tarixi şüurda və idrakda heyrətamiz bir genişlənmənin və hətta bir inqilabın şahidi olduq ...Yaddaş tarixə, keçmişə yeni yanaşmalara yeni təkan verdi və tədqiqatların bütün sahələrinə nüfuz etdi" [30].

İkiqütblü dünyanın çökməsi və sosialist düşərgəsinin dağılması tarix və yaddaş məsələlərinin yenidən nəzərdən keçirilməsinə diqqətin artmasına daha bir təkan verdi. Qitə və region ölkələrində yeni müstəqil dövlətlərin yaranması ilə bu proseslər geniş vüsət aldı.

Qeyd edildiyi kimi, yaddaş fenomeninə olan bu maraq ilk növbədə müasir dünyada bununla bağlı baş verən əhəmiyyətli dəyişikliklərlə şərtlənib.

Hansı qlobal və lokal dəyişikliklər tarix-yaddaş siyasətinin gündəmə gəlməsinə səbəb olub?

İlk növbədə, müasir informasiya cəmiyyətində zamanın görünməmiş sürətlənməsi və cəmiyyətin insan varlığı və yaddaşında oynadığı alternativi olmayan rolu qeyd edilməldir.

Bu dəyişikliklərin mərhələləri ümumi olaraq aşağıdakı kimi göstərilə bilər:

• *Orta əsrlərdə tarix yaddaşa tabe idi. Yaddaşlarda yaşayır, ondan asılı idi.*

• *XIX əsrdə tarix müstəqil elm sahəsinə və fənnə, müvafiq olaraq da, milli dövlətə xidmət edən bir quruma çevrildi. Bu qisimdə tarixi hekayə-narrativ yeganə tarixi "həqiqətin" daşıyıcısı hesab olundu. Məntiqi baxımdan deyilsə, bu halda artıq yaddaş tarixdən asılı olurdu. Tarixin bu modelində keçmiş haqda "xalis" bilik və"qeyri-xalis/qeyri-düzgün" yaddaş uyğun gəlmir.*

• *XX əsrin sonları - XXI əsrin əvvəllərində tarix və yaddaş bir-birindən qarşılıqlı asılılığa və sıx bağlılığa malik olan qoşa fenomenə, vahid sistemin tərkib hissələrinə çevrilir.*

Sözügedən mərhələdə Avropada, daha sonra MDB ölkələrində dövlətlərin "yaddaş siyasəti" adlanan çoxşaxəli fəaliyyətinin əsasları qoyuldu. "Müharibələr tarixi"nin müzakirəsini onun əksi olan "tarix müharibələri, yaddaş müharibələri" mövzusunda müzakirələr əvəzləyir. Qlobal miqyaslı radikal transformasiya proseslərinin müşayiət etdiyi bu tendensiyanın inkişafı ilk dəfə tarix siyasətini beynəlxalq münasibətlərin predmetinə çevirir. Avropa Birliyində - Almaniya və Fransa arasında, Asiyada - Yaponiya, Çin və Koreya, Hindistan və Pakistan arasında, MDB məkanında - Rusiya, Baltikyanı ölkələr, Ukrayna və Polşa arasında, Orta Asiya respublikalarında tarix siyasəti ilə bağlı getdikcə daha qızğın şəkil alan müzakirələr bu qəbildən idi. Cənubi Qafqazda Ermənistanın tarixi saxtalaşdırmaq yönündə səyləri görünməmiş həddə çatır.

Sözügedən dövrdən başlayaraq, tarixi keçmişin milli şərhlərinin bir-birindən fərqli, bir çox hallarda əks məzmunlu olması, az qala dövlətlərarası qarşıdurma və münaqişələrə yol açan səviyyəyə çatmasının səbəbləri araşdırılmağa başlandı.

Bu məsələ tədqiqatçılar tərəfindən keçmiş, indi və gələcək arasındakı münasibətlərin mahiyyətinə yenidən baxılmasını gündəmə gətirir. Baş verənləri 1980-ci illərin tədqiqatlarında qırmızı xətt kimi keçən "tarixi idrakın və biliyin

böhranı" adlanan problemin tərkib hissəsi hesab edənlər də oldu. XX əsrin sonlarında tarixi narrativlərin transformasiyasını izah etməyə çalışan baxışlar formalaşdı" [26, s.25-26].

Beləliklə, tarix və yaddaş aktual, eyni zamanda da mübahisəli problemlərdən birinə çevrildi. Bu mövzuya maraq böyük ölçüdə hər bir cəmiyyətin hərtərəfli inkişafı üçün milli və mədəni irsin təcrübələrini, toplanmış dəyərləri, davranış qaydalarını, qorumaq və gələcək nəsillərə ötürmək məsələləri barədə düşünməyin lazım olması ilə də bağlı idi. Ümumi formalaşan qənaəti isə belə ifadə etmək olardı: kollektiv, tarixi yaddaş da psixoloji yaddaş kimi itməyə meyilli, amneziyaya məruz qalan fenomendir. Yaddaşla aparılan siyasət fasiləli olarsa, nəticəsi Çingiz Aytmatovun bədii obrazını yaratdığı "manqurtlaşma" *(tarixi, mədəni köklərin və mənəvi oriyentirlərin itməsi* - **T.A**.) olan hadisə baş verir.

2. Yaddaş və tarix anlayışlarının mahiyyəti və məzmunu

"İnsanların xatirələrində keçmişin şanlı hadisələrini, müharibə və zəfərlərini, uğursuzluq və məğlubiyyətlərini, qəhrəmanların obrazlarını işıqlandıran milli tarixi yaddaş yoxdursa, millət də yoxdur" [29, s.63].

Psixologiya elmində daha qədimdən öyrənilən yaddaş əsasən fərdi mahiyyətli fenomen hesab edilib. Sonralar fransız sosioloqu **Mauris Halbvaks**ın (1877-1945) elmə gətirdiyi "kollektiv yaddaş" ideyası 1925-ci ildə nəşr olunan "Yaddaşın sosial çərçivəsi" adlı təd qiqatında geniş əksini tapması ilə sosial-humanitar elmlər sahəsində diqqət mərkəzinə gəldi. "Yaddaşın sosial çərçivəsi" monoqrafiyasında M.Halbvaks göstərdi ki, insanların yaddaşının gerçəkləri xatırlaması daha çox onların üzvü olduğu cəmiyyətlərin qurduğu "sosial çərçivələrlə" - ictimai şüur, kimlik, nitq, məkan və zaman haqqında təsəvvürlər və s. ilə sıx bağlıdır. "Kollektiv yaddaş", "ənənələr" və s. "indidə yaşayan keçmişin varlığı"nın xüsusi formalarıdır. Sosial qrupların və kollektivlərin (ailə, məktəb, din, sosial təbəqələr və s.) dərinliklərində formalaşan və yaşayan bu formaların dinamikası cəmiyyət və yaddaş problemləri ilə sıx bağlıdır.

Qeyd edildiyi kimi,"yaddaş və tarix siyasəti" hələ 60-cı illərdən ortaya çıxan "yaddaş bumu" (memory boom) adlanan, milli və tarixi, kollektiv yaddaşla bağlı trendə çevrilən tədqiqatların məntiqi davamı hesab edilir. Yaddaşa dair tədqiqatların əsası fransalı alimlər Pyer Nora, M.Halbvaks və amerikalı Ceyms Verç tərəfindən qoyulub.

"Tarixi yaddaş" nəzəriyyəsi xarici tarixçilər, filosoflar, sosioloqlar və kulturoloqlar tərəfindən geniş tədqiq olunub. XX əsrin ikinci yarısından elmi dövriyyəyə gələn bu terminlə ictimaiyyətşünaslıqda bir çox elmi istiqamət, nəzəri və metodoloji yanaşmalar formalaşdı. Tarixi yaddaş ideyası E.Durkheym, M. Halbvaks, P.Nora, P.Hutton, C.Verç, C. Rusen, P.Rikyör, L.Repina və başqaları kimi bir çox görkəmli alimlərin araşdırmalarının əsas mövzusunu təşkil edib.

Azərbaycanda kollektiv yaddaş mövzusu siyasi psixoloq R.Qaragözov tərəfindən geniş araşdırılıb [7, s. 22-25; 10, s.145-155; 11, s. 3-97; 12].

Kollektiv yaddaş sosial, etnik, milli, dini insan birlikləri tərəfindən keçmiş haqqında ortaq təsəvvürlərin qəbul edilməsi, qorunması, yaradılması və ötürülməsini təmin edir. Anlayış özünə yaxın digər anlayışlarla - sosial yaddaş, tarixi yaddaş, mədəni yaddaş - bənzər mənaya və sıx bağlılığa malikdir. Kollektiv yaddaşın elmi tədqiqinin banisi də adı çəkilən fransız sosioloqu, filosofu M. Halbvaks olub. ABŞ-dan olan tədqiqatçı Ceyms Verç öz əsərlərində kollektiv yaddaşı başlıca olaraq tarixi məzmunlu müxtəlif hekayə-mətn-narrativlərlə şərtləndirilmiş yaddaş adlandırıb. O, tarixi

məzmunlu mətnlərə kollektiv yaddaşı qoruyub-saxlamağı, xatırlamanı təmin edən mədəni üsul və vasitələri - salnamələri, tarixi şəxsiyyətlər və qəhrəmanlar haqqında xronikaları, məktəblərdə tarix dərsliklərini və s. aid edib.

Kollektiv yaddaş müasir qloballaşma dövründə insanların və xalqların, millətlərin məruz qaldığı güclü "kimlik-identiklik" böhranının təsirinə müqavimət göstərə bilən, tarixi və milli mənəvi dəyərləri qorumağa qadir olan fundamental amildir. Kollektiv yaddaş psixoloji anlamda yaddaş kimi unudulmağa - amneziyaya məruz qala bilir. Nəticəsi isə Çingiz Aytmatovun möhtəşəm bədii obrazını yaratdığı "manqurtlaşma"dır.

Kollektiv yaddaş fenomeninin vacibliyi ümumən qəbul edilsə də, bu gün üçün vahid və bitkin nəzəriyyəsi hələlik formalaşmayıb. Bu həm də onunla bağlıdır ki, tarixi yaddaş multidissiplinar sahədir və ən azı 10 ictimai-humanitar elmin tədqiqat predmetini təşkil edir.

Bəzi tədqiqatçılar hesab edir ki, tarix bir yaddaş formasıdır. Tarixşünaslığın mərkəzi, bəlkə də, yeganə vəzifəsi yaddaşın qorunması və hər gələn yeni nəslə ötürülməsidir. ABŞ-ın Virciniya Universitetinin tarix professoru, "ideyalar tarixi və tarixi nəzəriyyə" sahəsində mütəxəssis Allan Megil tarix və yaddaşın qoşa fenomenlər olması ilə bağlı fərziyyənin qədim nümunələrinin olmasını vurğulayaraq yazır: "Herodot "Tarix" əsərinin ilk sətirlərində qeyd edib ki, o, bu əsəri məhz "insanlar arasındakı hadisələrin zamanla unudulmaması, məhv olmaması, ellin və barbarların törətdikləri böyük və möhtəşəm əməllərin naməlum qalmaması üçün qələmə alıb" [22, s.133].

Tarix və yaddaş mövzusunu zaman-zaman aktual edən digər həlledici məsələ müharibələr, tarix və kollektiv yaddaş münasibətləridir.

Müharibə faciəsini, məğlubiyyəti, yaxud da tam əksinə qalibiyyəti yaşayan cəmiyyətlərdə "yaddaş ehtiyacı" formalaşır. Sanki cəmiyyətin yaddaşında "müharibəyə qədərki və postmüharibə" kimi fərqlənən bir sərhəd xətti yaranır. Tarixçilərdən, ziyalılardan, ümumilikdə qələm əhlindən yaşanan hadisələrlə bağlı postmüharibə yaddaşının formalaşdırılması, onun kəsilməzliyinin təmin edilməsi kimi gözləntilər yüksək səviyyəyə çatır. Bu anlamda tarix daimi yada salma, "isti olan" xatirələrin davam etdirilməsi, unudulmasına imkan verməyən silsilə səyləri ifadə edir.

Elmi baxımdan yanaşdıqda bir çox hallarda toplumlar "yaddaş azlığından deyil, onun artıqlığından", daha dəqiq deyilsə, subyektiv təsəvvürlərə dayanan "təhrif edilmiş, yanlış yaddaşın" birtərəfli təbliğindən də əziyyət çəkir. Başqa sözlə deyilsə, tarixən çoxdan baş verən münaqişələrin "yaddaşı" məqsədyönlü və aqressiv şəkildə təbliğ edilir və yeni qarşıdurmalara rəvac verir. Bu vəziyyətdə, məsələn, "yaddaş" həm bu cür qarşıdurmaları təhrik edir, həm də münasibətlərdə ortaya çıxan problemləri həll etməyə ciddi maneə yaradır. Beləliklə də, deyə bilərik ki, yuxarıda qeyd edildiyi kimi, yaddaş və tarixin ümumiliyi ilə bağlı fikirlərdə onların hər ikisinin müharibə yaddaşı ilə bağlı olmasına münasibətdə Herodot dan başlayan ənənədə müəyyən bir yekdillik mövcuddur.

Tarixi yaddaş və onun qavranılması cəmiyyətdə milli birliyin, vətəndaş həmrəyliyinin, vətəndaşların dövlətçiliyə sadiqliyinin formalaşmasında, nəsillərin əlaqəsinin təmin olunmasında mühüm rol oynayır. Ölkələrarası və beynəlxalq səviyyədə tarixi mətn və hekayələrin uyğunlaşdırılması və bir-birinə yaxınlaşması, müasir problemlər mövzusunda cəmiyyətlər arasında konstruktiv dialoqun, digər dövlətlərin və xalqların qavrayışının mövcud mənfi stereotiplərinin aradan qaldırılmasının zəmanəti kimi görünür. Beləliklə, tarixi yaddaş həm sosial, həm də siyasi dəyər statusuna malik olmaqla, ictimai davranışı

təyin edən bir determinanta çevrilir.

Yəhudi əsilli fransız tarixçisi Pyer Nora "Fransa kimdir?" sualına: "Fransa yaddaş və yenidən düşünmək deməkdir" cavabını verməklə, 7 cildlik əsər həsr edib. O, tarixi yaddaşda "yaddaş məkanı, yaddaş yerlərinin" misilsiz əhəmiyyətə malik olmasını vurğulayıb.

"Yaddaş yeri " (fr. Lieu de mémoire) dedikdə, Pyere Nora zaman keçdikcə xalqın iradəsi ilə onun milli yaddaşının, irsinin simvolik bir elementinə çevrilən mənəvi və maddi sərvətlərin vəhdətdə ifadəsini nəzərdə tuturdu. Bu baxımdan yaddaş yerləri ilə yanaşı, "yaddaşın ünvanları" ifadəsini də tətbiq etmək məqbul sayıla bilər. P.Noraya görə, milli yaddaşın təcəssüm olunduğu yerlər abidələr (mədəniyyət və təbiət), bayramlar, rəmzlər, emblemlər, insanların və ya hadisələrin şərəfinə qeyd edilən əlamətdar günlər, təntənəli mərasimlər, vida (cənazə) nitqləri, şan-şöhrət ithaflarıdır. Onların əsas rolu simvolik olub cəmiyyətin özü və tarixi haqqında fikir formalaşdırmağa xidmət edir.

P.Nora bu yaddaş araşdırmalarının ən xarakterik xüsusiyyətlərini "yaddaşın dünya zəfəri" adlandıraraq yazır: "Tarixin rəsmi versiyalarının yenidən nəzərdən keçirilməsi tənqidi və tarixi prosesin repressiya edilmiş komponentlərinin üzə çıxması; köklərə (əcdadlara) pərəstiş və şəcərə tədqiqatlarının inkişafı; anım tədbirlərinin, tarixi muzeylərin sayında sürətli artımın baş verməsi; arxiv materiallarının toplanmasına qarşı yüksək həssaslıqdır. "Yaddaşın dünya zəfəri", ingilisdilli dünyada "irs", Fransada "patrimoine" adlandırılan "miras"a bağlılığın yenilənmiş bir təzahürüdür.

Daha bir fransız alimi M. Ferro "Fərqli ölkələrdə uşaqlara hekayələr necə nəql edilir" kitabında tarixi yaddaşla bağlı siyasətin 3 səviyyəsini qeyd edir:

1. "İnstitusional" - rəsmi, sanksiyalaşdırılmış tarix; 2. "Kontr" - əks-mövqeli tarix (narazı/məğlub və ya təzyiq göstərən sosial qrupların "gizli" tarixi; 3. Fərdi və kollektiv yaddaş.

Dövlətlərin milli quruculuğunda, ictimai rəydə yeni dəyərlərin formalaşdırılması siyasətində tarix və yaddaş məhz bu baxımdan əsas rol oynamağa başlayıb.

Sözügedən proseslər çoxsaylı təzahürlərlə yanaşı, ziddiyyətli milli-tarixi hekayə quruculuğuna - narrativlərin ortaya çıxmasına səbəb olub. Onlardan bəziləri mövcud siyasətə, yaxud da digər dövlətlərin və xalqların siyasi stereotiplərinə ciddi təsirini göstərməyə başladı. Bəzən tarixi yaddaşla bağlı fikir ayrılıqları "yaddaş və tarix müharibələrinə" çevrildi.

Xatırladaq ki, XX əsrin sonlarına doğru Şərqi Avropada praktik olaraq bütün silahlı qarşıdurmaların səbəbi kimi bir-birini istisna edən tarixi narrativlər ictimai rəyin qütbləşməsində və münaqişələrin artmasında mühüm rol oynayıb. II Dünya müharibəsində Qələbənin 75-ci ildönümünün qeyd edilməsi yenidən həmin dövrün qiymətləndirilməsi ilə bağlı tarixi yaddaş müharibələrinin şiddətlənməsinin şahidi olduq.

Tarixi yaddaş, qeyd edildiyi kimi, ümumilikdə dəyər, o cümlədən sosial və siyasi dəyərdir. Münaqişələrlə bağlı tədqiqatlardan məlum olduğu kimi, qarşı duran tərəflər arasında dəyər ziddiyyətlərinin həll edilməsi maraqlar ziddiyyətlərinin həllindən daha çətindir. Uyğun olmayan maraqlarla hər zaman olmasa da, əksər hallarda məqbul bir həll yolu tapmaq mümkündür.

Dəyərlər isə barışmaz müstəvidir. Müəyyən mənada insan kimliyinin və davranışın təməlində durduğu üçün dəyərləri bir araya gətirmək son dərəcə çətindir. Ancaq burada vurğulamağa dəyər ki, tarixi yaddaş özlüyündə bir dəyər olsa da, yuxarıda qeyd etdiyimiz kimi, tarixi yaddaş formalaşdırma siyasəti dövlətin marağındadır. Beləliklə, dəyərlər toqquşması mənafelər toqquşmasının fövqündə durur.

Bu, bir tərəfdən vəziyyəti çətinləş-

dirsə də, digər tərəfdən həll yolu tapmaq üçün imkanlar yaradır. Burada real tarixi faktların, baş vermiş tarixi hadisələrin saxtalaşdırılması ilə mübarizə aparılması önəmlidir. Bəzən müəyyən obyektiv, yaxud da subyektiv səbəblərdən yaddaşın gündəmə gətirilməsindən imtina edilir ki, bu da "yaddaş qıtlığı, çatışmazlığı" vəziyyətini formalaşdırır.

Beləliklə, yaddaş institutu yoxdursa, tarix də yoxdur. Tarixin yaddaş siyasəti olmadan mümkünsüzlüyü ən azı iki vəziyyətdə özünü göstərir:

Birincisi, Pol Rikyörün (Paul Ricoeur) vurğuladığı tarixi araşdırma və tarixin yazılmasının zaman təcrübəsi ilə sıx bağlılığıdır. Zamanın təcrübəsi olmadan əvvəllər olan, indi baş verən və sonra baş verəcəklər arasındakı fərqin ən elementar səviyyədə heç bir tarixi təsviri mövcud ola bilməz. Həmçinin, məlumdur ki, insanın zaman təcrübəsi yaddaşsız mövcud ola bilməz. Müəyyən mənada yaddaş insanın keçmişdə cəmlənmiş zaman təcrübəsi qazanmasının bir yoludur.

Yaddaş tarixin yazılmasını mümkün edən əsas konseptual və ilkin şərti formalaşdırır. Yaddaş olmadan zaman təcrübəsi qeyri-mümkündür və zaman təcrübəsi olmadan hadisələri keçmişdə düzgün "yerləşdirmək" mümkünsüzdür.

İkincisi, tarixlə yaddaş arasındakı əlaqəyə məzmun/kontent səviyyəsində baxmaq olar. Tarix bir çox hadisələrlə yanaşı, tarixi faktlarla da məşğul olur. Tarixi araşdırmalarda bir tərəfdən obyektiv həqiqətləri tapmaq və bu araşdırmalarda "tarixçilərin özləri tərəfindən yaradılan" subyektiv həqiqətləri sezmək yaddaş amili olmadan mümkün deyil.

Digər mühüm aspekt tarixin elmi-akademik tədqiqi və sosial-pedaqoji şərhləri məsələsidir. Onun mahiyyəti tarixi təhsil və tədris vasitəsi ilə gənc nəslin, ictimai rəyin mənəvi-ideoloji, əxlaqi həyat mövqeyini, vətəndaşlıq kimliyini, vətənpərvərliyini formalaşdırmaq, yəni gənclərin dəyər oriyentasiyalarını, "kollektiv tarixi yaddaş" adlanan fenomeni formalaşdırmağa təsir etmək səyləri kimi müəyyən edilə bilər. Sosial pedaqoji istiqamət elmi-akademik tərəfin sadəcə proyeksiyası olmayıb, özünəməxsus xüsusiyyətləri olan sahədir.

Tarix və yaddaşın, dolayısilə milli kimlik və cəmiyyətdə sosial sistemin bir-birini qarşılıqlı şərtləndirməsi dərin tədqiq edilmişdir. M.Halbvaks adı çəkilən "Yaddaşın sosial çərçivələri" adlı kitabında yaddaşın həm də sosial bir fenomen olduğunu və buna görə də sosioloji tədqiqatın obyekti olmasının zəruriliyini əsaslandırmışdır. M.Halbvaksın əsas ideyası bundan ibarət idi ki, insanların yaddaşı ilə xalqın identikliyi - kimliyi birmənalı şəkildə qarşılıqlı bağlıdır. Tarixi mətnlər xüsusilə onları istehsal edən sosial qrupların şüurundan asılıdır. Halbvaksın yaddaş modelinə görə, "yaddaş - kollektiv olsun, ya da fərdi - kimlik amili ilə müəyyən olunur" [28].

Qeyd edilməlidir ki, yaddaş araşdırmalarında (memory studies) müxtəlif yanaşmalar mövcud olmaqla yanaşı, bir-birini inkar etməməli, əksinə, dövlətin tarix siyasəti, yaddaş siyasəti və ya memorial siyasəti adlanan çərçivələrdə bir-birini üzvi şəkildə tamamlamalıdır. Bu aspektlər tarixi keçmişin izah və təhlili sahəsində, "vətəndaş kimliyi"ni formalaşdıran "dəyərlər platforması" qismində dövlət siyasətinin həyata keçirilməsinin vasitələridir. Tarixin dərkinə yeni sistemli yanaşma və metodologiyanın banisi Fernan Brodel bununla bağlı qeyd edirdi: "Tarix mənim üçün bütövlükdə dünən, bu gün, sabah və perspektivlərdə olacaq mümkün tarixlərin məcmusudur. Onların yalnız birini seçib, digərlərindən imtina etmək - məncə, bu, çox böyük bir səhv olardı. Bu, əslində səhvlərin "tarixiləşdirilməsi" demək olardı".

Həmçinin, yaddaşın tarixin ayrılmaz şərti (conditio sine qua non) olmasını qəbul etmək yaddaşın artıq tarixin əsası olduğunu təsdiqləmək anlamına gəl-

mir. Yaddaş ümumiyyətlə tarixin mənbəyidir, tarix yaddaşdan qaynaqlanan və müəyyən mənada yaddaşda həkk edilən "məkanı" heç vaxt tərk etməyən mənada başa düşülür. Bu mövqeyi Jak Le Goff "Tarix və yaddaş" əsərində ifadə edib [13].

Son nəticədə məntiqi baxımdan dövlətin, eləcə də tarix elminin inkişafı üçün ortaq məxrəcə, konsensus nöqtələrinə ehtiyac mövcud olur. Bu, baş verən tarixi hadisələrin dövlətçilik tarixinin dəyərləndirilməsi, mənəvi müstəviyə proyeksiyası baxımından zəruri məqamdır. Eynilə də bu, qətiyyən o demək deyil ki, həmin məqamlar sərt-mütləq inzibati resursların köməyi ilə aşılanmalıdır. Tamamilə əksinə, tarix olduğu kimi əks etdirilməli, millətin inkişaf etdiyi, dövlətin inkişaf etdiyi, ümumiyyətlə, bəşəriyyətin inkişaf etdiyi başlıca mütərəqqi - magistral yola yönəldilməsi üçün "tarixin dərsləri"nin alınması zəruridir.

Əksinə, bu mövqelərin inkar edilməsi arzuolunmaz nəticələrə səbəb olur. Məlum olur ki, məsələ heç də "elmi deyil", olduqca "praktiki" məqsədlərə xidmət edir.

3. Tarix siyasətinin ilk dəfə siyasi və elmi dövriyyədə tətbiqi, yaddaş siyasəti ilə konseptual hüdudları, bənzər və fərqli məqamları

Tarix siyasətinin məqsədi siyasi elitanın hər bir millətin baş verən tarixi keçmişlə bağlı dövlətin təqdim etdiyi versiya, izah, təqdimat əsasında birliyinin, milli konsolidasiyasının təmin ediməsidir.

Xalqın nəinki siyasi-tarixi, həmçinin milli, sosial-mədəni, genetik kodunda toplanan tarixi keçmişin qorunmasına yönəlik bu siyasət heç bir vəchlə xalqı ayırmağa deyil, onu birləşdirməyə xidmət edir və etməlidir.

Nəinki hər bir ölkənin, hətta hər bir insanın belə özünün özəl tarix siyasəti var. Dövlətlər kimi insanların da tarixə öz münasibətləri formalaşır. Bununla yanaşı, tarix haqqında hər bir kəsin, tarixçi, yaxud siyasətçilərin sonsuz müxtəlif təsəvvürlərinə baxmayaraq, insan və cəmiyyətə tarixi öz dövlətinin gördüyü kimi qəbul etməsi xasdır və təbiidir.

Dövlət öz tarixi abidələrindən, yüksək vəzifəli şəxslərin bəyanatlarından, kino, ədəbiyyat, sənət, xatirə və bayram mərasimlərindən istifadə edərək vətəndaşlara ölkə tarixinin sadələşdirilmiş, düzgün "qısa kursunu" təklif edir. Bundan əlavə, tarix xalqın özünü tanıması, kimliyini müəyyən etməsi üçün başlıca vasitədir.

Dövlət hər bir vətəndaşına milli birliyə xidmət edən ortaq mənsubluq - kimlik, bütövlük hissini - ortaq tarixi keçmiş, ortaq indiki zaman və ortaq gələcək aşılamaq üçün yasanmış tarixə əsaslanan kollektiv təsəvvürü necə formalaşdıra və inkişaf etdirə bilər?

Elmi-akademik nöqteyi-nəzərdən fikir müxtəlifliyinin olması zəruri və təbii olduğu halda, sosial, mənəvi-ideoloji və pedaqoji müstəvilərdə fikir ayrılıqları auditoriyanın tarixi dərk etməsinə, yaddaşda həkk edilməsinə ziddiyyətli və mənfi təsir göstərə, kollektiv yaddaş fraqmentasiyaya uğraya (parçalana) bilər.

Tarixsiz xalq yoxdur. Elə isə tarix siyasəti anlayış olaraq nə zaman yaranıb? "Tarix siyasəti" anlayış kimi XX əsrin 80-ci illərində Almaniya Federativ Respublikasında (AFR) əvvəlcə siyasi, sonra isə elmi dövriyyəyə daxil edilib. Almaniyada "tarix siyasəti" (geschichtspolitik) anlayışı 1980-ci illərin əvvəllərində yaranıb. Həmin dövrdə Xristian Demokrat Partiyasından yeni seçilmiş, ixtisasca tarixdən elmi dərəcəsi olan kansler Helmut Kohl siyasi uğurlarını möhkəmləndirmək üçün tarixi məsələlərin təbliğinin vacibliyi fikrini bildirib və bu imkandan istifadə etmək qərarına gəlib. O, peşəkar tarixçi Mixael Stürmeri özünə siyasi məsləhətçi təyin edərək

Almaniyada "mənəvi-siyasi dönüşün" zəruriliyini bəyan edib.

Bu "çevrilişin" vacib elementi alman vətənpərvərliyinin yalnız Üçüncü Reyxin cinayətlərində günahını etiraf etməyə əsaslanmaq kimi uğursuz istiqamətdən fərqli olan daha müsbət xüsusiyyətini qabartmaq, təbliğ və təsdiq etmək idi. Bu məqsədlə nasistlik cinayətlərinə görə məsuliyyət mövzusuna yanaşmanı, AFR-də 1960-1970-ci illərdə sosial demokratların hakimiyyətdə olduğu və siyasi cəhətdən yalnız onlarla əlaqəli olan aspektdə ictimai fikrə çatdırılması kimi yanaşmaya doğru yönəldilməsi nəzərdə tutulurdu.

Bununla Almaniyada başladılan elmi müzakirələr tarixçilər Ernst Noltenin, Stürmerin özünün və bir sıra həmkarlarının çıxışları 1985-1987-ci illərdə məşhur "Tarixçilərin mübahisəsi" (Historikerstreit) adlanan hadisəyə təkan verdi. Mübahisənin məzmununu nasizmin yaranması səbəbləri və onun II Dünya müharibəsində fəaliyyətinə görə məsuliyyət dərəcəsi təşkil edirdi.

Tarix siyasətinin təcrübədə tətbiqi səylərində diqqət çəkən məqamlardan biri də Federal Prezident Rixard von Vaytzekerin 8 may 1985-ci il tarixində Bundestaqda müharibənin bitməsi və nasional ideologiyanın 40-cı ildönümü şərəfinə söylədiyi yaddaqalan"Milli sosialist zülmünün aradan qaldırılması" adlı çıxışı oldu. Almaniya tarixində ilk dəfə yüksək dövlət postunu tutan bir şəxs 8 May tarixini "kapitulyasiya" və ya "təslimçi-çöküş" günü deyil, "qurtuluş günü" adlandırdı.

Bu müzakirə əsnasında Helmut Kol alman tarixçilərinin baxışları arasında kəskin ziddiyyətlərlə də üzləşdi. "Geschichtspolitik" - tarix siyasəti Almaniyada hələ yaranmamış böyük müqavimətə rast gəldi. Alman tarixçilərinin böyük əksəriyyətinin mənfi reaksiyası əsasən tarix siyasətinin kim tərəfindən, hansı məqsədlə, tarixin hansı hissəsinin, hansı vaxtda necə təbliğinin, Holokostla bağlı siyasətin necə olacağı və s. kimi suallarla bağlı idi. Bununla yanaşı, "Geschichtspolitik" konsepsiyası alman söz ehtiyatına "tarixin şərh edilməsi, siyasi, yəni partiya, motivlər üçün seçilmiş və ictimaiyyəti belə bir təfsirin düzgünlüyünə inandırmaq cəhdləri" ifadəsi olaraq möhkəm bir şəkildə daxil oldu.

Tarix siyasətinin mənası dövlətçilik mənafeyi üçün cəmiyyətin resurslarından istifadə edərək tarixi hadisələrin dominant şərhlərini müəyyən etməyə yönəlik siyasəti üsul və metodlar məcmusu kimi qəbul edildi.

Son onilliklərdə Qərb ölkələrinin ictimai-siyasi müzakirələrində tarix siyasəti (Geschichtspolitik), keçmiş siyasəti (Vergangenheitspolitik), kimlik (identiklik) siyasəti (Identitätspolitik) və yaddaş siyasəti (Erinnerungspolitik) anlayışları üstünlük təşkil edib. Bu da yaddaş mədəniyyəti (Erinnerungskultur), tarix mədəniyyəti (Geschichtskultur) və tarixi şüur (Geschichtsbewusstein) kimi anlayışları vahid mahiyyətli fenomenlər kimi, hər şeydən əvvəl, tarix və (kollektiv, milli, sosial) yaddaş arasındakı əlaqəni müəyyənləşdirməyə, yaddaşın sosial, siyasi, ünsiyyət, mədəni və s. funksiyalarını ümumi anlamda istifadə etməyə imkan verir [15, s.233].

Tarix siyasətini və yaddaş siyasətinin müəyyən aspektlərini milli və ya etnik zehniyyətə söykənən daha geniş kontekstdə izah etməyə çalışacağıq. Buna baxmayaraq, qeyd etmək lazımdır ki, tarix siyasətinin özü priori mübahisəli bir vasitədir. Müxtəlif tarixi faktların təfsirindən istifadə edərək, aktual siyasi problemləri həll edir, bunlardan başlıcası siyasi hakimiyyətin legitimləşdirilməsi, müəyyən edilmiş tarixi-siyasi parametrlərlə kimliyin formalaşmasıdır. Bu vəzifəyə uyğun olmayan tarixi şərhlər, onu təbliğ və ifadə edən insanlar dövlətin müxtəlif sanksiyalarına məruz qala bilər.

Çünki hər bir xalqın dövlət yaradan millətə - siyasi millətə çevrilməsi, tarixi

subyekt kimi formalaşması üçün zəruri olan elementlərdən biri xalqın kollektiv yaddaşına pərçimlənən tarixi hadisə və onu birləşdirən təməl hekayə fenomeni, "tarixin hadisə tərəfi və tarixin hekayə (narrativ) tərəfi"nin mövcudluğudur.

Tarix siyasəti ilk növbədə dövlətin mövcud iqtidarının fəaliyyətini qanuniləşdirmək üçün istifadə edildiyi kimi, yaddaş siyasəti bu fəaliyyətə dəstək olmaq üçün yaradılan təsisatların "kollektiv kimlik-identiklik" yaratmaq yönündə işini qurur. "Tarix siyasəti" bəzən "keçmişin idarə edilməsi" kimi də adlandırılır. Bir çox tədqiqatçılar bu siyasətin yalnız ötən əsrin sonlarında yarandığını bildirir. Bununla yanaşı, keçmişin idarə olunmasının insan cəmiyyətinin inkişafı üçün vacib şərt olmasını göstərən amillərdən biri budur ki, insanlar hələ sivilizasiyanın qədim dövrlərindən keçmişi izah edən bir çox mifin köməyi ilə kollektiv və fərdi şüura təsir göstərmək ənənəsini yaratdılar. Təbii ki, o zamana nisbətdə elmi-rasional müəyyən edilən tarix siyasətindən danışmaq məqbul olmasa da, bu ənənə-əsrdən əsrə keçərək, tarixi keçmişin varlıq formasına, müstəqil elm sahəsinə çevrildi.

Hazırda bu sahənin əsas xüsusiyyəti keçmişin idarə edilməsinin nəinki siyasətin, hətta geosiyasətin ən vacib elementinə çevrilməsidir. Əvvəllər tarixi yaddaş əsasən din, mədəniyyət, psixologiya, sosial fəlsəfə ilə sıx əlaqəli idisə, bu gün demək olar ki, hətta müstəsna olaraq, dünya liderlərinin də yüksək tribunalardan səsləndirdiyi siyasətlə səsləşir.

Tədqiqatçılar tarixin ümumi siyasi şərhini ifadə edən mövzuları - siyasi tarix, tarix siyasəti, yaddaş siyasəti, tarixin siyasiləşdirilməsi, siyasətçilər tərəfindən tarixin "özəlləşdirilməsi", "yaddaş müharibələri", "tarix cəbhəsi" və s. terminlərlə fəalmüzakirə edirlər.

Bütün bu anlayışlar bu və ya digər növ kimlik axtarışları ilə əlaqəlidir. Təd -qiqatlar gedişində bu sahənin strateji istiqaməti "tarix siyasəti" kimi müəyyən edilib. Maraqlı olan məqam bəzi ölkələrdə eyni məzmunlu siyasətin "yaddaş siyasəti" kimi adlandırılmasıdır.

Beynəlxalq praktikada "tarix siyasəti" baş vermiş real tarixin aktual, milli-siyasi, sosial-psixoloji motivləri ilə şərtlənmiş şərhləri, cəmiyyətə, yetişən nəslə onu aşılamaq cəhdləri kimi başa düşülür.

"Tarix siyasəti" mövcud zamanda hakimiyyətdə olan siyasi elitanın dövlətçilik tarixinin şərhinə sıx müdaxiləsini nəzərdə tutur. Ölkələr siyasi, inzibati və maliyyə mənbələrindən istifadə etməklə, siyasi elitanın tarixi şüur və kollektiv yaddaş sahəsində cəmiyyətin ideoloji indokrtinasiyasını - mənəvi dəyərlərə proyeksiyasını həyata keçirirlər .

Tarix siyasəti nəsillərin və sosial mühitin təkamül yolu ilə dəyişikliklərə uğrayan, ritual (ayin və mərasimlərlə) və tarixi hekayələrlə (narrativlərlə) reallaşan sosial əhəmiyyətli tarixi obrazların və şəxsiyyət obrazlarının formalaşmasına yönəlib. Demokratik cəmiyyətlərdə tarix siyasəti heç bir halda siyasi sferanın özü ilə məhdudlaşmır; siyasətçilər və publisistlərlə yanaşı, tarixi dərketmə prosesinə gətirdikləri fərqli maraq və strategiyalara sahib müxtəlif digər peşə qruplarının aktorları da buraya cəlb olunurlar.

Dövlətlər öz tarixinə həmişə əhəmiyyət verib. Tarixin əbədiləşdirilməsi yönündə fəaliyyət, yaxud da onun saxtalaşdırılmasına qarşı mübarizə aparan xüsusi mərkəzlərin, komissiyaların ideyası bu gün ortaya çıxmayıb. Keçmişin qiymətləndirilməsi ölkənin və xalqın özü haqqında ilk baxışdan göründüyündən daha çox şey deyə bilər.

Reallıq bundan ibarətdir ki, siyasi elitanın tarixlə bağlı siyasəti varsa, deməli, xalqın kimliyinin, onun təsəvvürlərinin formalaşdırılmasında da rolu var, yaxud da əksinə.

Bu halda tarix siyasəti ölkənin inkişafının tarixi keçmişi ilə əlaqədar rəsmi

mövqenin - dövlət və vətəndaş arasında yazılmamış bir ictimai müqavilənin əsasını təşkil edir. Eyni zamanda, tarix siyasəti cəmiyyəti tənzimləmək üçün, demək olar ki, əsas vasitə halına gəlir.

Tarix siyasəti dövlət və yaxın dövlət qurumları tərəfindən keçmişə dair tarixi qiymətləndirmələrin və şərhlərin şüurlu, məqsədyönlü hazırlanması və təqdim ediməsinə yönəlmiş fəaliyyəti nəzərdə tutur. Tarix siyasəti müəyyən, yaxud müxtəlif siyasi qüvvələrin tarixi hadisələrin müəyyən şərhlərini dominant/ üstün olduğunu təsdiqləməyə yönəlmiş təcrübələr toplusudur.

İstər tarix, istərsə də yaddaş siyasəti milli mənsubluğu, etnik kimliyi, dövlət identikliyini,vətəndaş kimliyini və s. əks etdirən çoxçalarlı fəaliyyəti nəzərdə tutur.

"Tarix siyasəti" "tarixin siyasiləşdirilməsi" adlanan hadisələrdən əhəmiyyətli dərəcədə fərqlənir. XXI əsrin informasiya cəmiyyətində, virtual məkanında tarix siyasəti köhnə, sovet-kommunist metodlarına qayıtmaq kimi anlamda deyil və ola da bilməz. Müasir cəmiyyətdə tarixə hamı üçün total/mütləq olan yeganə baxış aşılanması hipotetik olaraq məqbul deyil. Bununla yanaşı, tarixə və yaddaş siyasətinə xarici təzyiq, manipulyasiya, müdaxilə cəhdlərinə qarşı müfaviq müqavimətin formalaşması, səmərəli yolların tətbiqi, yetişən gənc nəslə tarixi yaddaşı aşılamaq zərurəti mövcud və labüddür.

Tarix və yaddaşın fərqi, birinin siyasi-hüquqi, digərinin isə əsasən mənəvi sanksiyalarla bağlılığından qaynaqlanır. İnstitusional müstəvidə yeni təşkilatların ortaya çıxması, müxtəlif ölkələrdə milli tarix/yaddaş institutlarının təsis edilməsi,onların funksiyaları və prinsipləri baxımından bənzər fəaliyyət göstərməsi buna misaldır.

Tarix siyasətinin fərqini göstərən daha bir cəhət qanunvericilik səviyyəsində özünü göstərir. Parlamentlər tarixi hadisələrin bu və ya digər şərhini yeganə doğru variant kimi təsdiqləyən "yaddaş qanunları" adlanan qanunlar qəbul edirlər.

Tarix siyasətinin daha bir fərqi onun ideoloji təminatı məsələsidir. İdeoloji təminat aşağıdakı müddəalar üzərində qurulur.

1. Daxili və xarici rəqib və düşmənlərlə mübarizə. Yəni "tarix o qədər ciddi sahədir ki, onu yalnız tarixçilərə etibar etmək olmaz" deyimi, əslində, bu sahənin nə qədər böyük əhəmiyyət və məs uliyyətə malik olmasına işarə edir.

2.Xarici ideoloji təzyiq və manipulyasiyalara qarşı fəaliyyət; müxtəlif cəhdlərin qarşısının alınması;

3. Böyüyən nəslin vətənpərvərlik tərbiyəsində tarix amilinin rolunun artırılması.

Tarix siyasətinin və yaddaş siyasətinin müəyyən aspektlərini milli və ya etnik zehniyyətə söykənən daha geniş kontekstdə izah etmək mümkündür. Buna baxmayaraq, qeyd etmək lazımdır ki, tarix siyasətini apriori (əzəli) olaraq tamamilə inkar edən mövqelər də məqbul sayıla bilməz.

Belə ki, müxtəlif tarixi faktların təhlil/təfsirinin birtərəfli ifadəsi, yaxud da müxtəlif baxışların ifrat qütbləşməsi şəraitində tarixi həqiqətin ictimai şüur tərəfindən dərk edilməsi çətinləşir. İfrat relyativizm deyilən vəziyyət formalaşır. Bu baxımdan, tarix siyasəti keçmişdə baş verən tarixi proseslərin sırf subyektivist izahları arasından düzgün olan obyektiv mənzərəni formalaşdırmağa xidmət edir, yaxud etməlidir.

Əks-təqdirdə, başqa dövlətlərə ərazi iddialarının "tarixi" əsaslandırılması, siyasi problemlərin kompensasiya edilməsi üçün tarixdən sui-istifadə edilməsi, bu siyasəti yürüdən rejimlərin gücünün legitimləşdirilməsinə, subyektivliyə söykənən parametrlərlə ictimai şüurun formalaşdırılmasına xidmət edir. Sovet dövründə SSRİ-nin tarix siyasətində bununla bağlı çoxsaylı nümunələr mövcud olub.

Bu mənada tarix siyasəti "siyasətə xidmət edən tarix"dən daha geniş bir fe-

nomendir. Bu siyasət hər cür xatirələrin və təcrübələrin ötürülməsini, unudulmuş faktları və rədd edilmiş alternativlərin izlərini axtarmağı əhatə etməklə yalnız normativ və ya doqmatik bir dünyagörüşün formalaşması və möhkəmləndirilməsindən daha geniş mənaya malikdir.

Tarix siyasəti həm də tarixi "şərhlər konflikti", onun siyasi qarşıdurmaya necə çevrildiyi, bunu kimin və hansı məqsədlə etdiyi və bunun nəyə gətirib çıxardığı barədə suallara cavab tapmağa çalışan elmi araşdırmaların mövzusudur.

Tarixə dövlətçilik və siyasi məqsədlər üçün istinad vacibdir və mümkündür, bununla yanaşı, heç bir halda tarix siyasəti yalnız tarixin "rəsmi-subyektiv" təfsirinə çevrilməməlidir.

Tarix siyasəti tarixi yaddaşla sıx bağlılıq təşkil edir. Elmi ədəbiyyatda tarixi yaddaşın müxtəlif tərifləri verilib. Bir çox hallarda o, keçmiş təcrübənin təşkili, qorunması və çoxaldılması prosesi, keçmiş hadisələrin yaddaşda qorumağın mental xüsusiyyətləri və yolları, ictimai şüurun xüsusi bir forması, biliklərin məcmusu və cəmiyyətin ortaq keçmiş haqqında təsəvvürləri, cəmiyyətin kollektiv yaddaşının modeli, keçmişin simvolik xatırlanması və s. kimi ifadə edilir.

Tarixi yaddaş keçmişin hadisə və prosesləri ilə əlaqəli bir sıra bilik, fikir, dəyərləndirmə, inanc və düşüncə toplusunu özündə cəmləşdirən xüsusi, daim inkişafda olan bir sosial-mədəni fenomendir.

Tarixi yaddaşın öyrənilməsinin zəruriliyi tarixi yaddaşın cəmiyyət həyatının mənalandırması, sosial qrupların davranışının bütövlükdə cəmiyyətin tənzimləyicisi olması, mədəni və milli kimliyin formalaşdırması ilə izah edilir. Tarixi yaddaş konsepsiyasının nəzəri təhlili, strukturu və məzmununun müəyyənləşdirilməsi, cəmiyyətdə formalaşma mexanizmlərinin öyrənilməsi və izahı dünyada ictimai elmlərin qarşısında duran tədqiqat vəzifələri siyahısında ön sıralarda durur.

"Tarix siyasəti" anlayışında xronoloji tarixin yerinə "sosial yaddaş" tipologiyası da gəlir. Müvafiq olaraq da özü ilə yeni metodoloji prinsiplər gətirir [16, s.20-21].

Yaddaş siyasətinin öyrənilməsi, artıq qeyd olunduğu kimi, humanitar elmlərdə yeni bir paradiqmaya - "yaddaş araşdırmaları" (memory studies) fənlərarası tədqiqatlar sahəsinə çevrildi. Sosial yaddaşın tipoloji anlamı, keçmişin obrazının kollektiv, ortaq bir fenomen kimi görmək nöqteyi-nəzərindən irəli gəlir. Onun parametrləri cəmiyyətdəki ictimai-siyasi münasibətlərlə müəyyən olunur. Buraya müxtəlif hakimiyyət-cəmiyyət münasibətlərində bütün səviyyələr - regional elitalar və mərkəz, cəmiyyətin sosial və siyasi məkanının bütün aktorları arasındakı münasibətlər aiddir.

Dövlət quruculuğunun, mövcud inkişaf proseslərinin, ictimai rəy və gənc nəslin identikliyinin formalaşdırılmasının legitimliyi üçün keçmişin obrazlarından mühüm resurs kimi istifadə edilməsi müasir dünyada tarix siyasətinin siyasi münasibətlərin ayrıca növü olaraq mövcudluğunu deməyə əsas verir.

Bəzi müəlliflərə görə, "yaddaş siyasəti" və "tarix siyasəti" terminlərinin bir-birindən ayrılması zəruridir. Məsələn, A.Dyukovun fikrincə, əgər cəmiyyət Vətən qəhrəmanlarının məzarına gül qoymağa gəldiyi zaman bu həm fərdi (bunu ürəklərin çağırışı ilə etdikləri üçün), həm də kollektiv olaraq (birgə çiçək qoymaq, yad etməklə) bir yaddaş siyasətidir.

Tarix və yaddaş siyasətində tarixin təhrif edilməsi,siyasi manipulyasiya başlayırsa, milli kimliyin unutdurulmasına, əvəz edilməsinə çalışılırsa, qurbanların və qəhrəmanların yeri dəyişdirilir, yeni panteonlarının yaradılmasına cəhdlər edilirsə, bu halda paralel olaraq həm də tarixin unutdurulmasına çalışılır [19].

Yaddaş siyasəti o zaman ön plana çıxır ki, müasir ictimai və siyasi vəziyyətin keçmişə münasibətinin deyil, onun

ayrı-ayrı elementlərinə baxışların yenilənməsini diktə edir. Tarixi hadisələrin mövcud şərhi və aktuallaşdırma strategiyaları köhnəlmiş olur.

Beləliklə, yaddaşın yaratdığı emosional və rasional dəyərlərin milli siyasətin prioritetləri ilə səsləşməsi onun dövlətin informasiya və maliyyə resursları ilə dəstəklənməsi, təbliği və gələcək nəsillərə ötürülməsi üçün mühüm şərtlərdəndir.

"Tarix siyasəti" mövcud zamanda hakimiyyətdə olan siyasi elitanın dövlətçilik tarixinin şərhinə həssas münasibətini nəzərdə tutur. Siyasi və ziyalı elita dövlətin inzibati, maliyyə, mədəni və s. resurslarından istifadə etməklə, tarixi keçmişin şüur və kollektiv yaddaş sahəsində cəmiyyətin ideoloji indokrtinasiyasını - mənəvi dəyərlərə proyeksiyasını həyata keçirirlər .

Dövlətin "yaddaş siyasəti" siyasi hakimiyyətin bütün mümkün resurslarından istifadə etməklə tarixi hadisələrin təhlilinin real tarixi hadisələrə əsaslanan, milli maraqlara cavab verən, indiki və gələcək nəsillərə çeşidli formalarda çatdırılması və təbliği ilə bağlı fəaliyyət və mexanizmlərin, vasitə və metodların məcmusudur. Yaddaş siyasəti - dövlətin və cəmiyyətin real tarixi, necə və nəyi yadda saxlamağa müstəqil qərar vermək imkanı, xalqın sovet dövründə olduğu kimi, diktə edilən ideoloji məqsədlərə tabe edilən tarixi deyil, onun keçmişlə bağlı nəyi, nə üçün və necə yadda saxlamağa müstəqil qərar vermək imkanı, öz azad seçimi ilə müəyyən etdiyi "yaddaş suverenliyi"dir. Bunun əksi suveren deyil, özgə qüvvələrin yazdığı saxtalaşdırılmış tarix və yaddaş, "narrativ (hekayə quruculuğu) müstəmləkəçiliyi"dir.

Yaddaş siyasəti həm keçmişdəki hadisələrin ictimai normalardan istifadə edərək siyasi-ideoloji seleksiyası və tənzimlənməsi, həm də onların kollektiv yaddaş üçün şərhini ifadə edən düşünülmüş məqsədyönlü prosesdir. Bu siyasət belə bir inamdan irəli gəlir ki, keçmişin formal (məsələn, məktəb) və ya qeyri-formal (məsələn, ailə) kanalları vasitəsilə şərhi və təsviri kollektiv səfərbərlik potensialına malikdir. Bu səfərbərlik xalqın "dahi şəxsiyyətlər panteonu", böyük tarixi, ideal-mənəvi standartları - asudə vaxt faktorundan siyasi təsir üçün lazım olan məqsədlərə yönəldilə bilir. Yaddaş siyasəti keçmiş hadisələri seçim etmək, süjetləri, yaxud unutdurmaq kimi-selektiv yanaşmalarla da müşayiət edilir.

Beləliklə, kollektiv yaddaş cəmiyyətin siyasi və mədəni qüvvələri tərəfindən formalaşdırılır. Dövlət siyasəti və sosial normalarla birlikdə götürülən kütləvi informasiya vasitələri, əyləncə sənayesi, hətta siyasi korrektlik normaları – bütün bunlar hadisələrin cəmiyyət tərəfindən xatırlanmasına və qəbul edilməsinə təsir göstərir.

Buna baxmayaraq, "yaddaş siyasəti" ilə "tarix siyasəti" arasındakı həssas fərqin olduğu da qeyd edilir. Tarix siyasəti "tarixin siyasi, yaxud partiya motivləri, onların düzgün hesab etdiyi şərhin düzgünlüyünə inandırmaq cəhdlərini əks etdirir" [23].

Onu da vurğulamaq lazımdır ki, bu və ya digər ölkədə yaddaş siyasətinin əsas aparıcısı tarixin bu və ya digər şərhini təsdiqləməyə yönəlmiş daxili qüvvələrin maraqları, istəkləri və səyləridir. Bununla yanaşı, keçmişlə bağlı yaddaş siyasətinə təsir göstərə bilən xarici oyunçuların rolu kəskin şəkildə arta bilər. Getdikcə daha çox yaddaş siyasəti dövlətlərarası qarşılıqlı əlaqələrin mövzusuna çevrilir; bu problemlər ətrafında fövqəlmilli qurumlar (ilk növbədə Avropa Birliyi) öz mövqelərini formalaşdırmağa başlayır.

Yaddaş siyasəti keçmişin elementlərinin müasir siyasi sistem və ya fərd üçün prioritet olan obrazları müxtəlif institusionallaşmış üsul, metod, mexanizm, texnologiyalar və təcrübələrin köməyi ilə yad etməyə, xatırlamağa yönəlib. Yaddaş siyasətinin əsas vəzifəsi keçmişin irsinə millətin, dünya birliyinin və s.-nin münasibətini, xalqın,elitanın dövlətçilik maraqlarına xidmət edən yöndə nəsillərin yaddaşının formalaşmasına, nəsillərarası kollektiv yaddaş

bağlarının kəsilməzliyinə imkan verən, məqbul sayılan kontekstə görə formalaşdırmaqdır [16, s.15-212].

Universal-ümumdünya kollektiv yaddaşdan fərqli olaraq, milli yaddaş dövlətin tarix və yaddaş siyasəti ilə müəyyən edilir.

Dövlətin yaddaş siyasəti, yaddaş siyasətinin çoxşaxəli formalarından biridir, burada subyekt həm dövlətin özü, həm də milli yaddaş siyasətinin formalaşmasında iştirak edən qurumları və ya strukturlarıdır.

Sirr deyil ki, fövqəladə sürətlə artan informasiya axını, informasiya hücumu, transmilli media fenomeni, sosial şəbəkələr, qloballaşma prosesi, milli yaddaşın hökmranlığı strategiyasının həyata keçirilməsinin təsirini yumşaq təsir mexanizmləri ilə ötürülən kollektiv yaddaş lehinə qismən neytrallaşdırır, məsələn, mədəni qloballaşma və humanitar diplomatiya bu sıradadır [18].

Milli yaddaş siyasətinin formalaşdırılmasına yönəlmiş strategiya və proqramların yaradılması milli kimliklə sıx əlaqəlidir, buna görə dövlətin yaddaş siyasətinə simvolik bir mənbə kimi də baxmaq olar. Bundan əlavə, vahid milli yaddaş siyasətinin olması ölkənin dünya siyasətində uğurlu mövqe tutması, milli kimliyin, tarixi dəyərlərin və ənənələrin qorunması, cəmiyyətin konsolidasiyası və s. üçün çox vacib şərtdir.

Hazırkı dövrdə cəmiyyətin ictimai-siyasi inkişaf proseslərinə tarixin şərh və izahları müxtəlif təbliğ olunan versiyalarının rəqabəti, toqquşması və qarşılıqlı təsiri şəraitində mövcuddur.

Bir sıra ölkələrdə "tarix siyasəti" kimi həyata keçirilən, reallıqda öz xalqını təhrif edilmiş hekayələrlə yanlış yönəldən, tarix duyumundan və perspektivlərdən məhrum edən fəaliyyət gerçəklikdə "tarixi unutdurmaq və ya ona biganəliyin" formalaşdırılması kimi əks nəticə verir. Azərbaycana qarşı ərazi iddiaları irəli sürən, torpaqlarımızı 30 ildən artıq işğal altında saxlayan Ermənistanın dövlət səviyyəsində həyata keçirdiyi tarix siyasəti buna əyani misal hesab edilə bilər. Bu baxımdan tarix siyasətinin real faktlara əsaslanmadan, birtərəfli aparılması əslində "tarixi unutdurmağın 4 üsulu" kimi səciyyələndirilir. Dəqiq deyilsə, dövlətçiliyin tarixinin yaddaşlara aşılanması üçün müxtəlif üsul və mexanizmlərin sintezdə deyil, fraqmentar aparılması tarixi yaddaşa deyil, onun unutdurulmasına səbəb ola bilir.

Tarix ənənə kimi tarixin funksiyası müəyyən sosial qrupların ənənələrini təbliğ etmək və gücləndirməkdən ibarətdir

Qeyd edildiyi kimi, dövlət siyasətində tarixin mərkəzi yerlərə gəlməsi tendensiyası dünyada 2000-ci illərin əvvəllərindən intensivləşib. Bu, bir sıra amillərlə - yeni kimliklər axtarışı, sovet keçmişinin qiymətləndirilməsində yekdil rəyin olmaması ilə şərtlənmişdi. Bir tərəfdən, SSRİ təcrübəsinin ideallaşdırılması, digər tərəfdən inkar edilməsi, həmçinin yeni ortaya çıxan postsovet reallığından məyusluq da mövcud idi.

4. Dünya ölkələrinin tarix və yaddaş siyasəti

"Millət ruhdur, ruhi bir prinsipdir. Gerçəklikdə vahid olan iki şey bu ruhu, mənəvi prinsipi yaradır. Onun

Tarixin təhrifinə, "unutdurulmasına" səbəb olan üsul/metodlar [22, s.141]

Tarix yaddaş kimi: tarixi mətn/ hekayə müəyyən qrupların "mədəni xatirələrini" tirajlamalı və ya gücləndirməlidir	**Tarix bir xatirə (kommemorasiya) kimi:** tarixin funksiyası insanlara əcdadları ilə ("ən böyük nəsli" ilə və s.) fəxr etmələrini təmin etməkdir (tarix dinə çevrilir, məsələn, ermənilər)

Tarixi savadsızlıq, cəhalət kimi: tarix haqda məlumatsızlıq və ya ona biganəlik: tarix "ölü və keçmişdə qalanların" faydasız öyrənilməsi kimi	**Tarix ənənə kimi:** tarixin funksiyası müəyyən sosial qrupların ənənələrini təbliğ etmək və gücləndirməkdən ibarətdir

biri keçmiş, digəri bu gündür. Bunlardan biri zəngin bir xatirə mirasına sahib olmaq, digəri həqiqi razılıq, birlikdə yaşamaq istəyi, miras qalmış, bölünməmiş irsdən istifadə etməyə davam etmək iradəsidir".

Ernest Renan
fransız tarixçisi, filosofu
(Sarbonna mühazirəsindən, 1882)

ABŞ

2020-ci ildə Amerika gözlənilmədən üç dərin problemlə qarşılaşdı - koronavirus, iqtisadi tənəzzül və kütləvi irqi iğtişaşlar. "Black Lives Matters (BLM)" - "Qara(dərililərin)ların həyatı da əhəmiyyətlidir" hərəkatı - son bir neçə ilin irqi əsaslı iğtişaşları göstərdi ki, bu ölkədə tarix siyasəti bütün sahələrə nüfuz edib. Qaradərililərin hərəkatının aksiyalara heykəlləri uçurtmaqla başlaması da simvolik mənaya malik idi. "Black Lives Matter" hərəkatı qarşısına polis zorakılığı ilə mübarizə vəzifəsini qoyduğu halda, hazırda onun siyasi avanqardı, yaxud kiçik aktivist qrupları abidələrin sökülməsindən təmizlənmələrə qədər aksiyaları da əhatə edən daha geniş ideoloji "özünütəmizləmə" prosesinə çevrilib. BLM tərəfdarlarının fikrinə görə, "yeni düşüncə" paradiqmasını qəbul etməyən şəxslər hər yerdən - universitetlərdən və mediadan getməli, özləri könüllü tərk etməlidir.

Hazırda ABŞ-da baş verən irqi ayrıseçkilik qarşıdurmasının pik vəziyyətə çatması, monumental-heykəl mübahisələri "Amerikada yeni bir millətin yaradılması hansı formada ola bilər, tarixin təməllərini məhv etmədən onu necə yenidən yazmaq, yaddaşlarda saxlamaq olar?" sualını gündəmə gətirdi. ABŞ-da əsrlərlə həyata keçirilən "Amerika müstəsnalığı" şüarı və tarix siyasətinin konseptual əsası kimi əsasən ağdərililərin üzərində qurulması üzə çıxdı.

1994-1995-ci illərdə ABŞ-ın Smithsonian İnstitutu tərəfindən Yaponiyaya atom bombasının atılmasının 50-ci ildönümünü qeyd etmək üçün təklif olunan sərgi ilə bağlı ziddiyyət ortaya çıxdı. 1995-ci ilin mayında açılması planlaşdırılan sərgi bir qrup veteran, siyasi və mədəni şərhçi və siyasətçinin müharibəni şərhi və onun bitməsinə yanaşmasına etiraz etdikləri üçün ləğv edildi. Problem yaradan suallar bundan ibarət idi: Bu sərgidə kimin yaddaşı qiymətləndirilməlidir? Yaxud yaddaş tarixçilərin və muzey işçilərinin təsəvvürlərinə cavab verən təqdimata münasibətdə güzəştə gedilməlidirmi?

Amerikada bütövlükdə "düzgün yaddaş" tələbi Vyetnam müharibəsinin bir nəticəsi kimi 1980-ci illərin əvvəllərində Vyetnam Veteranlarının Milli Memorialı ilə bağlı ortaya çıxan qarşıdurmalara səbəb olmuşdu. Arxitektor Meya Linin bu memorial üçün təklif etdiyi layihə bir çox veteran təşkilatlarının gözlənti-duyğularına cavab vermədiyi üçün onlar tərəfindən "qara, silinməz utanc ləkəsi" adlandırıldı.

Hər bir vətəndaşa ortaq bir bütövlük hissini aşılamaq üçün milli tarix haqqında kollektiv bir anlayışı bundan sonra necə inkişaf etdirməli?

Avropa, Rusiya və Avrasiya Araşdırmaları İnstitutunun direktoru (IERES) Marlene Laruelle hesab edir ki, amerikalıların bir qütbdən başqa qütbə yuvarlanması, bütün günahlarda "ağ irqçiliyi ittiham etməsi" hazırkı "yeni millət yaratmaq" səylərinin altına "saatlı bomba" qoymaq demək olardı. Bu, heç zaman konsensusa gətirib çıxara bilməz. Bu yanaşma yeni millətin təməlində da-

şı-daş üstdə qoymayacaq.

Amerikada tarixi şəxsiyyətlərin, abidələrin, atributların və s. təhqir edilməsi ilə əlaqədar "Kritik infrastrukturun qorunması ilə bağlı" qanunvericilikdə kifayət qədər sərt cəza tədbirləri nəzərdə tutulub. "Yaddaş məkanları" adlanan infrastruktur "strateji əhəmiyyətli dövlət obyektlərinə" aid edilir.

ABŞ-ın tarix siyasəti tarixçilər Çarlz Bird və onun həyat yoldaşı Meri Birdin tədqiqatları ilə yeni mərhələyə qədəm qoyub. Onların tarixə tamamilə yeni yanaşması Amerikanın özəl missiyalı bir dövlət olması imicini, nikbinlik və milli birlik ideyasını aşılamağa hesablanmışdı. "Amerika tarixi", "Amerika vətəndaşı olmaq", "Amerika sivilizasiyasının yüksəlişi", "Amerika ruhu" və s. əsərləri "Böyük depressiya" və sonrakı illərdə bir neçə nəsil amerikalının yaddaş siyasətinin, milli ruhun formalaşmasında taleyüklü rol oynayıb. ABŞ tarixinə həsr edilən tarix dərslikləri bestsellerə çevrilib, 5 milyon nüsxə satılıb. Dərsliklərin ana xətti gənc nəsildə inam və rüh yüksəkliyi yaratmaq idi (Məsələn, "Yazılı tarix bir inam aktı kimi" ("Written history as an act of faith")).

"Keçmişlə müharibə", yaxud ABŞ-da və ya digər dünya ölkələrində heykəllərin devrilməsi yeni bir trend deyil. Hələ Qədim Misirdə və Roma imperiyasında heykəllər müntəzəm olaraq məhv edilib, dağıdılmağa və ya vandalizm cəhdlərinə məruz qalıb. ABŞ-da Konfederasiya qəhrəmanlarını tərənnüm edən əsasən Corciya, Virciniya və Şimali Karolinada təxminən 1000 abidə var. Bundan əlavə, 80 rayon və şəhər, 100-ə yaxın orta məktəb və onlarla hərbi baza onların adını daşıyır. Vətəndaş müharibəsi və vətəndaş hüquqları hərəkatının rəmzləri uğrunda döyüşlər çoxdan başlamışdı. Son illərdə milli yaddaşla bağlı mövcud mübahisələr başlamamışdan əvvəl də Konfederasiya bayraqlarının ictimai binalardan götürülməsinin zəruriliyi getdikcə gündəmə gəlməyə başladı.

Bununla birlikdə, qaradərili Corc Floydun ölümü və çoxsaylı etirazların başlanmasından sonra abidələrin sökülməsinin gündəmdəki məsələlərdən yalnız biri olduğu mübahisələrdə yeni bir dönüş meydana çıxdı. Bir sözlə, cəmiyyətin qaradərili kəsimi ölkə tarixində və mədəniyyətində "ağlar"ın rolunun tamamilə yenidən düşünülməsini tələb edir. Mübahisənin irqi müstəviyə çevrilməsi, "qara" sözünün böyük hərflə yazılması təkliflərinin eşidilməsinə və "ağlar"ın Trampın prezident seçilməsi də daxil olmaqla bütün sosial problemlərin günahkarı kimi ittihamına səbəb oldu.

Ən paradoksal məqam, artıq qeyd edildiyi kimi, ağ irqçilik ittihamlarının əsasən etnik azlıqların özləri tərəfindən deyil, mütərəqqi "ağ" elitalar tərəfindən irəli sürülməsidir. İdeoloji saflıq uğrunda başlayan yeni hərəkatın tərəfdarları Amerikanın azad müzakirə və tolerantlıq ənənələrini əvəzləməyə çalışan yeni əxlaqi prinsiplər və siyasi öhdəliklər sisteminin artıq başlanğıcdan yanlış olmasını düşünən intellektuallar tərəfindən ciddi qınanır. Onlar hesab edirlər ki, "BLM" hərəkatının avanqardları tərəfindən formalaşdırılmasına can atılan bu yeni ideoloji dözümsüzlük forması, əslində, hamının ideoloji yekdilliyi, həmfikirliyi ilə sovet reallığının ən pis formada təzahürünə çevrilə bilər. Bir çox təhlilçilər hesab edir ki, Amerikada tarixin "qaraların iştrakı ilə yenidən yazılması" tələblərini irəli sürən bu hərəkatın əsas məqsədi liberal demokratiyaya son qoymaq, Qərb sivilizasiyasına meydan oxumaqdır.

Tarix siyasətinin gündəmə gəlməsinə işarə edən digər məqam da yeni heykəllərin ucaldılması ilə əlaqəlidir. Məsələn, Rusiyanın mərkəzində, Lubyankada A.Nevski və F.Dzerjinskiyə heykəllərin qoyulması ilə bağlı ictimai rəy sorğusunun keçirilməsi, yaxud əyalətlərdə Stalinə heykəl qoymaq cəhdləri və s. buna misal ola bilər.

Maraqlı məqamlardan biri də yeni

seçilmiş ABŞ Prezidenti C.Baydenin Ağ Evin "Şərq" zalında ölkə tarixçiləri ilə qapalı görüş keçirməsidir. Görüşdə Amerikada baş verən, son dərəcə böyük və sürətli tarixi dəyişikliklərin tarixdə analoqunun olub-olmaması, necə nəticələnməsi və s. müzakirə predmeti olub. XXI əsrin elmdə dönüş yaradan Ruzvelt dövründən tamamilə fərqli reallıq olması, Çinin ciddi uğurlarının ABŞ-a təhdidləri, daha sürətli addımlarla bağlı məsləhətlər aparılıb. Görüş iştirakçısı, ABŞ prezidentlik institutunu araşdıran tarixçi Maykl Beşlos qeyd edib ki, Baydenin "ölkəni qısa müddətdə vacib yollarla dəyişdirmək" iddiaları, ötən əsrdəki prezidentlər - FDR (F. Ruzvelt) və LB-J-un (L.Jonson) fövqəladə iddiaları ilə tam müqayisə edilə bilər. Görünən budur ki, C.Bayden öz iqtidarının nəhəg vəzifələrə köklənərək tamamilə yeni Amerika yaratmaq missiyası kimi təqdim etmək üçün tarixçilərə, tarix siyasətinə yeni tezislər gətirmək fikrindədir. Artıq mediada onun Ruzvelt dövrü ilə müqayisə edilən, lakin Amerikanın daha möhtəşəm tarixini yazmağa iddialı prezident kimi təqdim edilməsinə rast gəlmək mümkündür.

Fransa

Fransa Almaniyadakı "tarix siyasətindən" fərqli olan "yaddaş siyasəti" ifadəsini tətbiq edir. Fransada keçmişi aşmaq və onunla üzləşmək anlayışları alman dilinin semantik məna və fəlsəfəsi anlamında məlum deyil. Bu nəzəriyyəni fransız alimlər yaradıb. Fransız leksikonunda "yaddaş siyasətini" V Respublika prezidentləri (1958-ci ildən) Almaniya kanslerlərindən daha çox tarixini öz siyasətlərinin strateji aləti kimi müqayisəolunmaz dərəcədə geniş miqyasda istifadə edib.

"Tarix siyasəti" anlayışı bu formada ölkə leksikonuna nüfuz etməyib. Bundan fərqli olaraq, keçmişə olan münasibət "yaddaş problemi" və "yaddaşla iş" (travail de mémoire) problemi ilə sıx bağlıdır. 1978-ci ildə tarixçi Pyer Noranın "kollektiv yaddaş" məqaləsinin ortaya çıxması burada müəyyən bir hadisə oldu.

"Yaddaş siyasəti"nin ideoloji təməlləri kimi milli birliyin rəmzlərindən olan "Müqavimət hərəkatı", milli azadlıq mübarizəsi kimi qavranılır. İctimai müzakirələrdə əvvəlcə yalnız "yaddaş siyasəti" (politique de la mémoire = Erinnerungspolitik) konsepsiyasından və daha az - "keçmişin idarə olunması" (gestion du passé = Verwaltung der Vergangenheit) konsepsiyasından istifadə olunurdu. Beləliklə, bir tərəfdə yaddaşla bağlı siyasət - Fransa, digər tərəfdə tarixlə bağlı siyasət - Almaniya təcrübəsi var.

Fransanın "yaddaş siyasəti"nin Almaniyanın "tarix siyasəti"ndən həm mənbə, həm də məqsəd baxımından fərqli xüsusiyyətləri var. Müasir fransız tarixi və tarixşünaslığı "yaddaşın borcu, vəzifəsi" formulundan "keçmişin siyasi istifadəsi" (politique du passé, bəzən politiques du passé istifadə edir) formulunu üstün tutur.

De Qolldan Mitterana qədər tarix həm "terapevtik, həm də pedaqoji" funksiyaları yerinə yetirirdi. Yalnız keçmişin millət üçün faydalı görünən tərəfləri müzakirə edilirdi. De Qoll Fransanın bir neçə il ərzində nəhəng müstəmləkə imperiyasını itirdiyi bir dövrdə xalqın, millətin hər şeydən ucada olduğunu vurğuladı. Ondan sonra Jorj Pompidou, əksinə, "Fransaya hörmət olaraq, fransızları ayıran yaraları unutmağa" çağırdı. Mitterran fransızların mübahisə etdiyi inqilabçı diktatura və s. şiddət mövzularından yan keçərək, Fransanı inqilabın "sadiq və şücaətli varisi" kimi təqdim etdi. Mitterana görə, "inqilab yalnız insan haqlarını təcəssüm etdirirdi".

Fransa konstitusiya sistemi birinci şəxsə tarixin adından danışmaq və tarixi qorumaq imtiyazını verir. Millət adından tarixin müxtəlif şərhləri ilə bağlı hakim-arbitr kimi çıxış edir. Fransada dörd "memorial-yaddaş qanunu" var .

Qeyd edilməlidir ki, "yaddaş qanunları" lap əvvəldən Fransa ictimaiyyətinin etirazına səbəb oldu. Bir tərəfdən, çox sayda qurban və azlıq qruplarının bu "hüquqlardan" istifadə etmələrini və ya "yaddaş borcunu" yerinə yetirmələrini tələb edərək yalnız öz dar maraqlarını güdəcəyi qorxusu, digər tərəfdən, qanunverici orqanların fransız milli tarixi və tarixi kimliyi ilə əlaqəli məsələlərdən kənaraçıxma təhlükəsi var idi. Məsələn, erməni soyqırımının tanınmasında məhz belə oldu. Buna əsasən tarixçilər qanunvericiliyə yalnız tarixi araşdırmaların nəticəsində müdaxlə edilməsinə qarşı çıxış etdilər. Fransanın müstəmləkə metropolu kimi müsbət roluna dair qanun "rəsmi tarixin tədrisinə" qarşı ölkədə misilsiz etirazlara səbəb oldu. Etirazlarda tarix müəllimləri və tarixçilərindən əlavə, bütün "demokratik dövlətə layiq olmayan yaddaş qanunlarına" qarşı çıxan bir çox məşhur insanlar da iştirak edirdilər.

Yeri gəlmişkən, Fransanın 4 "memorial-yaddaş qanunu"nun yalnız 1-cinin maddələrinin inkar edilməsi cinayət məsuliyyəti yaradır:

1) Holokost cinayətlərini inkar etməyin cinayət məsuliyyəti haqqında "Gayso qanunu" (1990);

2) Türkiyədəki ermənilərin 1915-ci ildə məhv edilməsini soyqırım kimi tanıyan 2001-ci il qanunu;

3) Kölə ticarətini "insanlığa qarşı cinayət" elan edən "Tobir qanunu" (2001);

4) Keçmiş müstəmləkələrdə "Fransız varlığı" haqqında 2005-ci il qanunu.

Qəribəsi odur ki, hazırda Fransada "keçmişin tənzimlənməsi ilə bağlı yeni qanunların qəbuluna moratorium qoyulub. Ancaq qitənin digər ölkələrində və AB-nin mərkəzi orqanlarında keçmişin subyektiv şərhlərini "əbədiləşdirən" yaddaş qanunları ilə bağlı səylər hələ də özünü göstərməkdədir.

Fransa prezidentləri tarixə həssas olduqlarını ictimaiyyətlə təmaslarda xüsusilə təsdiqləyirlər. Məsələn, vəzifəsinə başladığı gün (21 may 1981-ci il) F.Mitterran "millətin böyük insanları" ilə sıx əlaqəsini nümayiş etdirmək üçün Panteonu ziyarət etdi. Tarixlə əlaqəni Fransa prezidentinin 1984-cü ildə AFR kansleri Helmut Kol ilə görüşməsində iki ölkənin həlak olmuş 800 min döyüşçüsünün məzarı üzərindən bir-birinin əl sıxmaları da göstərdi. Keçmiş "qarı düşmənlərin" barışıq əlaməti olaraq əl sıxmaları siyasi təşəbbüs nəticəsində ərsəyə gələn hər iki ölkənin ortaq tarix dərsliklərinə - yeni "Alman-Fransız tarixi" dərsliyinə daxil edildi.

İtaliya

XIX əsrdə "İtaliyanın Birlik və Müstəqillik hərəkatı - "Risorgimento"nun Haribaldi və Madzini kimi şəxsiyyətləri ilə yanaşı Kamillo Kavur (1810-1861), İtaliyanın əbədi varlıq strategiyasına çevrilən bu frazaya görə müstəsna ehtiramla yadda qaldı: "Biz İtaliyanı yaratdıq. İndi isə italyanları yaratmalıyıq". ("Abbiamo fatto l'Italia, ora dobbiamo fare gli italiani!")

K.di Kavur, C.Haribaldi və C.Madzini birlikdə 1870-ci ildə Birləşmiş İtaliyanı yaratdı və Papa dövlətini bugünkü Vatikanın hüdudlarına sıxışdırdı. O, silahdaşlarından fərqli olaraq, işğalçıların İtaliyadan müstəqil şəkildə qovulmasına və yarımadanı eyni bayraq altında yenidən birləşdirməklə yanaşı, onun sarsılmaz edilməsinə yetərli qədər gücləri olmadığını başa düşürdü. Şimali İtaliya Avstriya imperiyası ilə təkbaşına rəqabət apara bilməzdi. Ancaq ölkəni birləşdirmək üçün təkcə vətənpərvərli-

[1] 1) Holokost cinayətlərini inkar etməyin cinayət məsuliyyəti haqqında "Gayso qanunu" (1990); 2) Türkiyədəki ermənilərin 1915-ci ildə məhv edilməsini soyqırım kimi tanıyan 2001-ci il qanunu; 3) Kölə ticarətini "insanlığa qarşı cinayət" elan edən "Tobir qanunu" (2001); 4) Keçmiş müstəmləkələrdə "Fransız varlığı" haqqında 2005-ci il qanunu. Maraqlı, həm də kuryoz sayılacaq hal odur ki, hazırda Fransada "keçmişin tənzimlənməsi" ilə bağlı yeni qanunların qəbuluna moratorium qoyulub.

yin yetərli olmadığına,yaddaşla birləşməsinə qərar verdi.

XIX əsrdə xəritədəki "çəkməşəkilli" Apennin yarımadasında müxtəlif ərazilərdən və tarixə malik onlarla dövlətdən vahid İtaliya dövlətini yaratmaq kimi missiya başladı. O zamanların vahid İtaliyanın ilk hakim elitası dərk etdi ki, "italyanları yalnız ortaq tarixi keçmişə dair gerçək biliklər birləşdirə bilər. İtalyanların vahid milli özünüşüura malik bir xalq kimi yaradılması üçün gənc nəslə yalnız dərin tarixi biliklər aşılamaqla mümkündür. Xüsusilə ona görə ki, əsrlər boyu parçalanmış vəziyyətdə yaşayan, düşüncələri yalız yerli ərazilər və problemlər çərçivəsində mövcudluğa alışmış insanların vahid dövlətlə bağlı təsəvvürləri yox idi. Bu baxımdan, "italyanları yaratmaq" kimi yeganə milli layihənin missiyası - "yalnız ümumi tarixi yaddaşı formalaşdırmaqla italyanları sıx birləşdirmək" şüarı idi.

Yeni yaradılmış İtaliyanın siyasi elitası ortaq yaddaş və milli birliyə malik Böyük İtaliya - "La Grande Italia" xalqını yaratmağın yolunun gənclərə əsrlər boyu mövcud olan dövlətçilik tarixinə dair bilikləri möhkəm aşılamaqla mümkün olduğu qənaətinə gəldi. Bununla da "Religion of Fatherland" - "Ana Vətən dini" yeni yaddaş siyasətinin əsas xəttini təşkil etməli idi.

Həmin vaxtdan tarixin milli və mənəvi dəyərlərini aşılamaqla tədris, təlim prosesinə başlanıldı. "Risorgimento" vətənpərvərlik ritorikası, Avstriya ilə "müstəqillik uğrunda" müharibələrin romantizmi, Birinci Dünya müharibəsinin səngərləri, faşizm, kommunizm və s.- indi bütün bunlar arxada qalıb. Son iki yüz ilə yaxın müddətdə italyanlar milli layihəyə, regional, siyasi və dini kimliklərlə bağlı çağırışlara necə cavab veriblər? - bu da geniş müzakirə edilir. İtalyanların milli birlik şüuruna malik vahid xalq kimi formalaşması vəsiyyətinə əməl olunduğunu da, ənənənin pozulduğunu da deyənlər var. Elə italyanlar da var ki, iki əsr əvvəl "Təsisçi ataları" tərəfindən vəsiyyət edilmiş "milli layihənin" yalnız yarısının - 50 faizinin həyata keçirilməsinə nail olunduğunu düşünürlər.

İtalyan tarixinin dərsləri bu gün Avropada gedən parçalanma (Breksit və s.) prosesləri gedişində dərin təhlil edilir. Hesab edilir ki, Avropanı "vahid yaddaşa malik bir ölkə kimi" qura bilməməyin başlıca səbəblərindən biri avropalılarda inteqrasiya başlayandan "ortaq indi nin olduğu halda, "ortaq keçmiş, ortaq tale və ortaq gələcək hissi" yaratmağın zəruriliyinin diqqətdən kənarda qalması olub. "Vahid Avropa formalaşdırmaq üçün paralel olaraq avropalıları da formalaşdırmaq unudulub. Vacib olan gündəlikdə məsələnin həmişə aktual olaraq qalmasıdır.

Avropa Birliyi

Avropa Birliyi də onillərdir davam edən müharibələrə və parçalanmalara tarix siyasəti ilə cavab verməyi qərara alıb.

Avropa Parlamenti "Avropanın gələcəyi üçün tarixi yaddaşın qorunmasının vacibliyi haqqında" qətnamə qəbul edib. Qətnamədən sitat: "Hazırkı Rusiya rəhbərliyinin nəinki tarixi faktların təhrif etməsi və sovet totalitar rejiminin törətdiyi cinayətlərin ört-basdır edilməsi ilə bağlı narahatlıq ifadə edilib, həmçinin, Moskvanın bu siyasəti demokratik Avropaya qarşı yönəldilmiş informasiya müharibəsinin ən mühüm komponenti kimi səciyyələndirilib" [20].

Yaddaş siyasətinin problemləri həm ayrı-ayrı ölkələrdə, həm də beynəlxalq səviyyədə qarşıdurmaların dinamikasında bir amil kimi çıxış edə bilər. Yaddaş siyasətinin köməyi ilə ziddiyyətlər alovlana bilər, eyni zamanda münaqişədən sonrakı həll vasitəsinə çevrilə bilər. Başqa sözlə deyilsə, müharibədən sonrakı Qərbi Avropa ölkələrindəki yaddaş siyasəti, İkinci Dünya müharibəsinin faciəli təcrübəsinin, nasist rejiminin cinayətlərinin işlənməsinə və bu birləşdiri-

ci tarixi povest əsasında formalaşmasına mühüm töhfə verdi. Holokost Avropa yaddaş siyasətinin əsas elementinə çevrildi və onun Avropa və ümumiyyətlə, Qərbdəki yaddaş siyasətindəki əsas rolu Beynəlxalq Holokost Anım İttifaqı, Dünya Holokost Forumu və s. strukturlarda təcəssümünü tapdı. Holokost tədricən 1970-1980-ci illərdə Qərbi Avropa ölkələrində yaddaş siyasətinin əsas elementinə çevrildi. 2000-ci illərin əvvəllərində isə ortaq Avropa anma təcrübələrində möhkəmləndi.

Avropa Birliyinin Daxili Siyasət üzrə Baş Direksiyasının "Avropa tarixi yaddaşı: siyasət, çağırışlar və perspektivlər" adlı sənədinin "Təklif və tövsiyələr" bölməsində 7 konkret təklif əksini tapıb:

1) Tarixi yaddaşın fövqəladə zəruri konsepsiya kimi qəbul edilməsi;

2) Trans-Avropa tarixi yaddaşının çətinliklərinin aradan qaldırılması;

3) AB-nin tarixi uğurlarına dair məlumatlılığı artırmaq və təsdiqləməklə yaddaşın formalaşdırılması;

4) Mövcud AB yaddaş siyasətindəki çatışmazlıqların həll edilməsi;

5) Avropa "yaddaş mədəniyyəti"nin inkişaf etdirilməsi;

6) Yaddaş mədəniyyətinin formalaşmasında təhsilin mərkəzi rolunun təsdiqlənməsi;

7) Milli səviyyələrdə siyasəti dəstəkləmək üçün Avropa meyarlarından maksimum istifadə edilməsi" [31].

2007-ci ildə AB-nin 50 illiyi işığında fəal müzakirələrə təkan verildi. Avropa Parlamentinin keçmiş prezidenti, alman-mühafizəkar Hans Gert Pöttering bununla bağlı qeyd etdi: "Bir çox milli muzeylərimiz var - Londonda, Berlində və milli tarixin nümayiş olunduğu digər yerlərdə. Ancaq bunların heç biri bizə bütöv avropalıları birləşdirəcək bir tarixi göstərmir" .

Müzakirələr nəticəsində analoji muzey üçün biri Brüsseldə, digəri Axendə olmaqla iki layihə hazırlandı. Brüsseldə yunanlardan, romalılardan və keltlərdən qaynaqlanan vahid ayrılmaz bir Avropa tarixi konsepsiyası yaradıldı. Konsepsiya qədimliyə əlavə olaraq, xristianlığın dövrlərini, Maarifçilik dövrünü və Avropaya inteqrasiya proseslərini əhatə edir. Axen şəhərindəki layihə təşəbbüsü Avropa tarixinin əsas məqamları ətrafında təşkil edilmişdir. Yaradıcılarının sözlərinə görə, bu tarix 800-cü ildə başlayır və burada "Avropanın qurucu atası" Böyük Karldır (Charle Magne).

2007-ci ildə Avropa Birliyinin 50 illiyində avropalıları birləşdirəcək tarix muzeyi yaratmaq qərara alınıb. 2014-cü ildə muzey Brüsseldə açılıb. 52 milyon avroya başa gələn muzey "Avropa Tarix Evi" adlanır. Muzeyin sərgisi üzv dövlətlərin 24 dilində fəaliyyət göstərir. AB-nin yaddaş siyasəti fərqli səviyyələrdə siyasi aktorların - siyasətçilər, "Avropa bürokratları", "Avropa millət vəkilləri", tədqiqatçılar, ictimai rəy liderləri, kütləvi informasiya vasitələri, ayrı-ayrı ixtisaslaşmış təşkilatlar (məsələn, Polşadakı Milli Yaddaş İnstitutu və ya işğal muzeyləri kimi), vətəndaş qrupları "qurbanlar"ının öz töhfələrini verdiyi vahid fəaliyyət kimi mövcuddur.

Rusiya

Son zamanlarda "Levada" Mərkəzinin anketlərinə görə, "Rusiyada qürur hissi oyadan" fenomenlər arasında tarixi birinci yerə qoyan respondentlərin sayında ciddi artım müşahidə edilmişdir. 2016-cı ildə tarix ilk dəfə "Rusiyanın təbii sərvətləri"ndən önə keçib və qürur simvolları siyahısında birinci yeri tutub [24].

Son ildə Rusiyada müxalifət təmsilçisi A.Navalnı ilə bağlı proseslər, onun məhkəməsi gedir. Əsas ittiham "Müharibə veteranının təhqir edilməsi ilə Rusiya tarixi yaddaşına qəsd, Böyük Vətən müharibəsində onun rolunu kiçiltmək" kimi müəyyən edilib. Navalnının məhkəməyə verilməsinə əsas verən qanun 2009-cu ildə S.Şoyqunun təklifi ilə Dumada qəbul edilib.

Navalnı məhkəməsindən sonra tarixə həssas münasibətlə bağlı tədbirlər daha da sərtləşdirildi. Məhkəmədə hakimin sualı buna misal ola bilər: "Siz və tərəfdarlarınız məqsədyönlü şəkildə xalqımızın tarixi yaddaşının yox olması, tarixin saxtalaşdırılması ilə məşğulsunuz. Rusiyaya nifrət edirsiniz. Sovet İttifaqının II Dünya müharibəsində qələbəsini gözdən salırsınız". 24 fevral 2021-ci il tarixində Dövlət Duması veteranları təhqir etməyə görə həbs cəzası ilə bağlı dəyişikliklər edib. Nasizmin bərpasına və veteranların təhqir olunmasına görə cəza ilə bağlı qanun layihəsinə dəyişikliklər parlamentin aşağı palatasının vitse-spikeri İ.Yarovaya tərəfindən irəli sürülüb.

Təklif olunan dəyişikliklər sosial şəbəkələrdə nasizmin reabilitasiyasına, Nürnberg tribunalının təsbit etdiyi faktları inkar etdiyinə və internetdə II Dünya müharibəsi dövründə SSRİ haqqında bilərəkdən yalan məlumat yaymağa görə cəzanı sərtləşdirib, hüquqi şəxslər üçün üç milyon rubla qədər cərimə və ya beş ilədək həbs əlavə edilib.

Onu da yada salmaq lazım gəlir ki, "II Dünya müharibəsi" amilindən başqa, Rusiyada dövlətin inkişaf etməkdə olan demokratik dövlət quruculuğu üçün məqbul olan "yeni" tarix siyasəti qurmaq üçün etdiyi digər cəhdlər - "4 Noyabr - Milli Birlik Günü" və hazırda yalnız "Rus yürüşləri" adı ilə yadda qalan hökumətyönlü mitinqlər nəticəsiz olub, effekt verməyib.

Rusiya Hərbi doktrinasının yeni redaksiyasına görə, "11.Rusiyada tarixi və mənəvi ənənələrə qarşı aparılan istənilən fəaliyyət, Vətənin müdafiəsi sahəsindəki tarixi, mənəvi və vətənpərvərlik ənənələrini sarsıtmaq məqsədilə əhaliyə, ilk növbədə ölkənin gənc vətəndaşlarına informasiya axınları ilə təsir göstərmək səyləri hərbi təhlükə kimi qiymətləndirilir".

Rusiyada tarix siyasəti ilə bağlı onlarla institut, fond, təşkilatlar təsis edilib. Maraqlı olan ölkənin ali rəsmi şəxslərinin tarixə sayğı ilə bağlı bu təşkilatlarda çox fəal iştirak etməsidir. S.Şoyqu hər il dünya miqyasında Rusiyanın təbliği ilə bağlı keçirilən, milyonların iştirak etdiyi "Coğrafi imla" aksiyasının təşkilatçısıdır.

Digər maraqlı məqam Rusiyada Tarix Cəmiyyətinin sədrinin Sergey Narışkin olmasıdır. Bu faktlar Rusiyada tarix siyasətinə verilən önəmi ifadə edir. S. Narışkin 9 layihəyə - sənədli film, elmi populyar kitab, müsabiqələr, sərgi və s. şəxsən rəhbərlik edir. Onun rəhbərlik etdiyi "Vətən Tarixi Fondu" ölkə üzrə bütün layihələri qəbul edir, reallaşdırır. "Rus imperiya dövründən üzü bəri həlak olmuş döyüşçülərin rəqəmsal elektron kitabxana-kartotekası"nın yaradılması miqyaslı tarix siyasətidir. Söhbət 10-15 milyon rus döyüşçüsünün sayından gedir. "Heç kim unudulmur" demək bir, bu cür kitabxana yaratmaq başqa məsələdir.

Rəsmi tarix siyasəti sahəsində yaradılan analitik mərkəzlərə misal kimi Rusiya EA-nın Elmi Məlumat və Strateji Araşdırmalar institutlarını, "Tarixi Yaddaş" Fondunu, Tarixi Ekspertiza Mərkəzini və s. göstərmək olar. Bütün ictimai-humanitar, hərbi profilli ali məktəblərdə tarixi yaddaş siyasəti dərindən tədris edilir. Rusiya XİN-in "Strategiya XXI" sənədində rus kollektiv kimliyinin formalaşmasının əsası kimi tarixi yaddaş siyasətinin problemlərinə xüsusi diqqət yetirilib. Sitat: "1990-2000-ci illər ərzində həyata keçirilən yaddaş siyasəti səmərəli olmayıb. Rusiya hakimiyyət orqanlarının tarixi yaddaş problemlərinə yanaşmasında vahid bir strategiya

[2] II Dünya müharibəsində SSRİ-nin rolu barədə "səhv" ifadələrə görə cinayət təqibini təhdid edən qanunun qəbul edilməsinin zəruriliyini ilk dəfə irəli sürən həmin dövrdə Rusiyanın fövqəladə hallar naziri olan Sergey Şoyqu olub. 2009-cu ildə S.Şoyqu II Dünya müharibəsində SSRİ-nin qələbəsini inkar etdiyi üçün cinayət cəzasının tətbiq edilməsini təklif edib.

və ardıcıllıq olmayıb. Yaddaş siyasəti çərçivəsində hansı vəzifələrin həll edilməli olduğunun başa düşülməməsi böyük ölçüdə ölkənin gələcəyi ilə bağlı əsas sualların həll olunmaması və təbliğ edilən şəxsiyyət modelinin uyğunsuzluğu ilə əlaqədardır. Bu illər ərzində dəyişmiş sosial şərtlərə uyğun yeniləri yaradılmamışdır. Təsirli yaddaş siyasəti mexanizmləri, ölkədə həyata keçirilə biləcək bir media infrastrukturu yoxdur. Son 20 ildə yaddaş siyasəti, milli həmrəyliyi səfərbər etmək və başqalarını həll etmək üçün istifadə olunan keçmiş simvolların, hadisələrin, rəqəmlərin son dərəcə cüzi bir repertuarı ilə xarakterizə olunur".

Bütün dünyada miqyaslı tarix siyasəti aparan Rusiya təcrübəsi son illərdə Baltikyanı, Şərqi Avropa və çoxsaylı ölkələrin əks-kəşfiyyatının başlıca fəaliyyət istiqamətlərindən birinə çevrilib.

Qələbənin 75 illiyi, II Dünya müharibəsi Rusiyada dövlət rəsmilərinin həssas diqqəti altındadır. Müharibədə Rusiyanın rolunun ümumi baxış və mövqeyə uyğun verilməsində dövlət israrlıdır və bu yöndə tarix siyasəti qlobal miqyasda aparılır. Son dövrlərdə Rusiyanın bu istiqamətdə Böyük Vətən müharibəsində faşizm üzərində qələbənin dövlət tərəfindən dəstəklənən "Zəfərə ehtiramı" tendensiyası, eləcə də sovet hökumətinin XX əsrin bəzi dövrlərindəki fəaliyyətinin qismən təsdiqlənməsi haqqında tədbirlər diqqəti cəlb edir. Burada əsas vurğu Qərbi Avropa dövlətlərinin analoji narrativ siyasətində təqdim edilən "bizonlar" dixotomiyasında fərqli olduğu hesab edilən "rus xalqının özəlliyi, tarixi missiyası və s. kimi" məqamlar vurğulanır.

Bu istiqamətdə görülən işlərə misal kimi, Rusiyanın mənafeyinə ziyan vuran "Tarixin saxtalaşdırılması cəhdlərinə qarşı komissiya" yaradılması, onun dövlət mediasında "aqressiv təbliğat kampaniyasını, həmçinin, II Dünya müharibəsinin 70 illiyi ərəfəsində başqa dərsliklərlə müqayisədə ideoloji cəhətdən təsdiqlənmiş və dövlət strukturları tərəfindən dəstəklənən XX əsrin tarixinə dair dərsliyin nəhəng tirajla çap olunması və s. qeyd edilə bilər.

Dövlət bir sıra hallarda yaddaş siyasətində təşəbbüskarlığını itirib, bu da xüsusilə əsas hadisə olan "Milli Birlik Günü" bayramının tarixində özünü göstərib. 12 iyun 1994-cü ildən Rusiyanın Dövlət Suverenliyi Bəyannaməsinin qəbulu günü kimi qeyd edilib. 2002-ci-ildən isə 12 iyun Rusiya Günü adlandırılıb. Bununla yanaşı, onun qeyd edilməsi uğurlu alınmayıb. Bu məqam tarix siyasətinin nə qədər həssas və ictimai şüurla səsləşən sosial-psixoloji fenomen olduğuna dəlalət edir. Belə ki, 2018-ci ildə keçirilmiş sorğuya görə, Rusiya əhalisinin yarısı dövlətin adı ilə səsləşən 12 iyun milli bayramının necə adlanmasını xatırlaya bilməyib. Respondentlərin 34 %-i isə onu "Müstəqillik Günü" adlandırıb. Beləliklə, demək olar ki,əhalinin 100%-ə yaxını 12 iyunun Rusiya Günü olması haqda məlumatsız olub. Bu məsələ rusiyalı alimlər arasında çox ciddi müzakirələrə səbəb olub. Dolayısilə, tarix siyasətinə ehtiyacın olması da buna bənzər hallarla bir daha sübut edilib. Xalqın zehniyyətində dövlətçiliyin qaynaqlarının (imperiyamı, postimperiyamı, yaxud milli suverenlik mərhələsimi?!) nə üçün 12 iyunda başlanmasına cavab tapılması alınmayıb.

Bundan fərqli olaraq, faşizm üzərində qələbə bütün rusiyalıları birləşdirən vahid ideologema kimi çıxış edir. Rus ictimai elmində tarix siyasəti konsepsiyasını fəal inkişaf etdirən tarixçi alim

Onun bu təklifi 2014-cü ilin aprelində Duma tərəfindən təsdiqləndi və həmin il mayın 5-də V.Putin tərəfindən imzalandı. Belə bir təşəbbüsün əsas məqsədi II Dünya müharibəsi dövründə baş verən hadisələrin tarixi yaddaşa təcavüz cəhdlərinə qarşı durmaqdır. Bundan əvvəl 2009-cu ilin mayında Rusiya Federasiyasının Prezidenti yanında "Rusiyanın maraqlarına xələl gətirən tarixi saxtalaşdırmaq cəhdlərinə qarşı mübarizə üzrə Komissiya"yaradılıb.

Aleksey Millerdir.

A.Millerə görə, "Dövlətin inzibati və maliyyə resurslarından istifadə edərək, hakimiyyətdə olan siyasi qüvvələr cəmiyyətdə tarixi şüur və kollektiv yaddaş sahəsində ideoloji indoktrinasiya prosesini həyata keçirirlər. Tarix siyasəti fenomenini anlamaq üçün nəinki nəyin təbliğ edildiyi məsələsi vacibdir, daha vacib olan bu təbliğat işinin necə və hansı metodlardan istifadə etməklə aparılmasıdır" [23].

Polşa

Polşada dövlət tarix siyasəti tətbiqi baxımından dünyada ən qabaqcıl təcrübə sayıla bilər. Polşada yaddaş və tarix siyasəti, demək olar ki, eyni mənalı olub, təcrübədən nəzəriyyəyə doğru təkamül etmişdir.

2004-cü ildə bir qrup Polşa tarixçisi ölkənin tarix siyasətinin öz versiyasını hazırlamalı və həyata keçirməli olduğunu elan etdi. Onlar bu termini (Polityka historyczna) alman dilində olan "Geschichtspolitik"dən götürdüklərini inkar etmirdilər [27, s.44-64].

1998-ci ildə parlamentin qərarı ilə analoqu olmayan "Polşa Milli Yaddaş İnstitutu" yaradılıb. Burada 1200 nəfər əməkdaş çalışır. Əmək haqları ölkədəki digər tarixçilərin maaşları ilə müqayisədə bir neçə dəfə çoxdur. İnstitutun tədqiqat büdcəsi ölkədə XX əsr Polşa tarixinin öyrənilməsi yönündə fəaliyyət göstərən bütün digər mərkəzlərin büdcələrinin cəmindən çoxdur. Yaddaş İnstitutunda tədqiqat fəaliyyəti ilə istintaq orqanlarının bəzi funksiyalarının birləşməsi onlara böyük səlahiyyətlər verir və tarixi yaddaşın formalaşması ilə bağlı həm də ən ciddi məsuliyyəti müəyyən edir. Məsələnin digər tərəfi bu qurumların həm ölkədə lüstrasiya haqqında qanunların tətbiqində, yaxud da antidövlətçi qüvvələri, siyasi rəqibləri nüfuzdan salan məlumatların gündəmə gətirilməsi ilə əlaqədar güclü ictimai-siyasi rəyi formalaşdırmaq silahı kimi çıxış edir. "Yeni tarix siyasəti" adlandırılan yaddaş siyasətinin əsas şüarı "ifrat tənqidi vətənpərvərliyin" rədd edilməsi və "gələcəyin vətənpərvərliyi" milli ideologiyasına qayıdılmasını şərtləndirməkdir. Polşa tarixinin, prezidentinin, siyasi sisteminin, Polşa xalqının mediada ictimai şəkildə təhqir edilməsi, rişxəndlə ələ salınması 4 il həbslə cəzalanır.

Polşada tarix siyasəti yaddaş siyasətindən fərqli olaraq, sağ mühafizəkar mənada açıq bir doktrina xarakteri daşıyır. Hakim siyasi partiyanın tarixi keçmişə siyasi baxışı kimi həm ölkə daxilində keçmişə dair öz təsəvvürləri olan müxtəlif sosial və etnik qruplar arasında, həm də ölkə xaricində artan konfliktogen potensialla xarakterizə olunur. Tarix siyasəti üçün heç bir müzakirə aparılmır və buna görə kimin "günahkar", kimin "günahsız" olduğu aydındır, əsas məsələ bu fikri geniş kütlələrə çatdırmaq və onu siyasətdə başlıca tezis etməkdir [23].

Kaçinski qardaşlarının Qərbi Avropanın Yalta müqavilələrinə görə Polşaya "borclu olması" ilə bağlı açıqlamaları, "milyonlarla polyak"ın qətlinə görə müasir Almaniyaya iddialarını", hakim dairələrin Holokost dövründə yəhudi əhalisinin məhv edilməsində könüllü iştirakı və ya Rusiyaya qarşı Katın ətrafındakı vəziyyətlə bağlı mübahisələrə əsəbi reaksiyası - məhz 2000-ci illərdəki Polşa tarix siyasətinin nümunəsində nəzərdən keçirilə bilər.

Ukrayna

2006-cı ildə vacib statusa malik Ukrayna Milli Yaddaş İnstitutu (UMYİ) yaradılıb. Bundan başqa, vaxtilə xanım Yuşşenkonun rəhbərlik etdiyi "Ukrayna-300" Fondu tarix siyasəti ilə məşğul idi. UMYİ-nin əməkdaşları Ukraynanın Təhlükəsizlik Xidmətinin (UTX) arxivlərinə üstün icazəyə malikdir. İnstitutun direktor müavini V.Vyatroviç eyni zamanda həm də UTX direktorunun məsləhətçisidir. Vaxtilə Prezident Yuşşenko

tarix siyasətini milli quruculuğun ideoloji əsası kimi müəyyən etmişdi.

Ukrayna tarixi narrativlərinə gəldikdə burada iki əsas tarixi hekayə bir-biri ilə rəqabət aparır. Elmi olaraq hər iki yanaşma bir şəkildə Ukrayna tarixinin şərhlərinə əsaslanır, əsasən Mixail Hruşevski və onun tərəfdarlarının əsərlərində təqdim olunur. Eyni zamanda, müasir şərhlər tarixi materialı postsovet Ukrayna həqiqətlərinə uyğunlaşdırır. Məsələn, Kiyev Rusunun tarixinin "Ukraynalaşdırılması" çoxsaylı nümunələrdən biridir. Ukraynanın Rusiya imperiyası və Sovet İttifaqının tərkibində olduğu dövrlərdə belə özəl, özünəməxsus kimliyə malik olması vurğulanır.

Bu xəttin əleyhdarları, xüsusilə ölkənin XX əsrə qədərki tarixi ilə əlaqədar olaraq milli narrativlərin bir çox elementini əks etdirməkdədir. Burada sovet dövrü o qədər də mənfi qiymətləndirilmir, Qolodomor əhəmiyyətli bir yer tutsa da, Ukrayna xalqının soyqırımı kimi təqdim edilmir. Radikal millətçilik mənfi qəbul edilir. Keçmiş prezident Leonid Kuçmanın "Ukrayna Rusiya deyil" adlı, çarpıcı başlıqlı kitabı burada nümunə sayıla bilər. Ukraynanın yaddaş mədəniyyətlərindəki fərqlərin, şübhəsiz ki, 2014-cü il müharibəsindən sonra da davam edən regional səbəbi - ölçüsü var.

"Maydan" hərəkatından sonra Ukraynada Avropa tarix siyasətindən bəhrələnmə baş verdi. "Ukrayna - Avropadır" yaddaş siyasətinin leytmotivi bu şüarı Avromaydandan, Krımdakı və Donbasdakı hadisələrdən sonra Ukraynanın yeni rəhbərliyi simvolik məkanı yenidən formatlaşdırmağı və ölkədə gedən "yaddaş müharibəsini" intensiv mərhələyə keçirməyi faydalı hesab etdi. 2015-ci ilin aprelində Ali Rada ardıcıl 4 qanun - "Kommunist və nasional sosialist (Nasist) totalitar rejimlərin məhkum edilməsi haqqında", "II Dünya müharibəsində nasizm üzərində zəfərin əbədiləşdirilməsi haqqında", "XX əsrdə Ukraynanın müstəqilliyi uğrunda vuruşan döyüşçülərin hüquqi statusu və xatirəsinin əbədiləşdirilməsi haqqında" və "Kommunist totalitar rejimin repressiv orqanlarının arxivlərinə giriş haqqında " qanunlar qəbul etdi. Bu sənədlər Ukrayna ictimai məkanının rəsmi "dekommunizasiyasına" start verdi. Yeni hökumətin bəzi tərəfdarları bu aktların qəbul edilməsini təhlükəsizlik vəzifələri kimi izah etdilər, çünki sovet keçmişinə münasibət dəqiq bir milli təhlükəsizlik problemi kimi qəbul edildi. Aydındır ki, bu təfsir Moskva və Kiyevdə qəbul edilən xəttə şübhə ilə yanaşan ukraynalılarla ideoloji qarşıdurma çərçivəsində ortaya çıxdı.

Burada Ukrayna Milli Yaddaş İnstitutunun bu qanunların hazırlanmasında əsas rolunu da vurğulamaq lazımdır. Sosialist keçmişi olan digər ölkələrin komissiya və təsisatlarının nümunəsində yaradılan institut son illərdə bir çox əks-səda doğuran qərar və bəyannamələrin mənbəyinə çevrildi. "II Dünya müharibəsində nasizm üzərində zəfərin əbədiləşdirilməsi haqqında" qanunun yeniliyi ondan ibarət idi ki, burunla da 8 may "Yaddaş və Barış Günü", eyni zamanda 9 may "İkinci Dünya müharibəsində nasizm üzərində Zəfər Günü" təsis edildi. Ukrayna rəhbərliyi Zəfər Gününə fərqli bir məna verdi.

2017-ci ildə Milli Yaddaş İnstitutu dövlət bayramları və tarixi günlər haqqında qanunun yeni versiyasını təklif etdi. Əhəmiyyətli bir dəyişiklik, həftə sonunun 9 may tarixindən 8 may tarixinə köçürülməsi oldu. Bu qərar İkinci Dünya müharibəsinin başa çatmasını Avropa ənənəsindəki münasibətlə eyniləşdirildi.

Ukrayna yaddaş siyasətinin postavromaydan versiyası rəsmi Kiyevin təhsil, dil və informasiya siyasəti sahəsindəki digər hərəkətləri ilə birlikdə Ukraynanın gələcəyi, Avropa Birliyi, Rusiya və digər ölkələrlə əlaqələri üçün uzunmüddətli nəticələrə səbəb oldu və olacaqdır.

Latviya

Latviyanın Konstitusiyanı Müdafiə Bürosu (KMF-əks-kəşfiyyat qurumu) Rusiya Tarix Cəmiyyətinin 2019-cu ildəki fəaliyyətinə dair hesabatında qeyd edilir: "Kreml Baltikyanı ölkələrdə əlverişli tarixi yaddaşı formalaşdırmaq üçün birbaşa və dolayı yolla bir sıra yalançı akademik qurumlar və müxtəlif nəşr və videmateriallar üçün maliyyə ayırır. Məsələn, Tarixi Yaddaş Fondu əsasən Baltikyanı ölkələr yönündə ixtisaslaşmışdır. Fondun ən görkəmli şəxsləri Latviyada *persona non qrata* kimi şəxslərdir".

Latviyada 1998-ci ildə "Prezident yanında Tarixçilər Komissiyası" yaradılıb. Bu strukturun əsas vəzifəsi rəsmi şəxsləri tarix siyasətinin tezisləri ilə təmin etməkdir. Latviya müstəqilliyini elan etdiyi andan bu günə qədər apardığı dövlət tarixi siyasətini qonşu Baltikyanı ölkələr kimi hələ yenidənqurma illərindən bəri, SSRİ-də ümumiyyətlə qəbul edilmiş tarixin interpretasiyasını sürətlə dəyişdirməyə başlayıb. Müstəqillik qazandıqdan sonra keçmişin qiymətləndirmələri yalnız siyasi mübarizənin ayrılmaz bir hissəsi oldu, həm də daxili və xarici siyasi kursun əsaslandırılması üçün əsas rolunu oynadı. Hazırda da rəsmi tarix elmi, məktəb sistemi, kinematoqrafiya, muzeylər, elmi və populyar ədəbiyyatın nəşri - hamısı mövcud dövlət tarixi siyasətini təsdiqləmək və populyarlaşdırmaq üçün çalışır.

Estoniya

Estoniyada 1993-cü ildə parlament nəzdində Tarixi Araşdırmalar Komissiyası, Prezident yanında İnsanlıq əleyhinə tarixi cinayətləri araşdırma komissiyası, 2008-ci ildə onun əsasında Milli Yaddaş İnstitutu yaradılıb.

Belarus

2010-cu illərdən bəri Belarus MEA-nın bölməsi tarixi yaddaşın Belarus cəmiyyətinin konsolidasiyası amillərindən biri kimi qəbul edən fundamental tədqiqatlar aparır.

Qazaxıstan

Qazaxıstan Prezidenti Tokayev Rusiya Dövlət Dumasının deputatı, hakim partiyanın üzvü V.Nikonov Qazaxıstanın ona verilən rus torpaqlarının hesabına qurulması ilə bağlı iddialarla çıxışından sonra tarix siyasəti ilə bağlı proqram xarakterli məqalə ilə çıxış edib, Qazaxıstan tarixinin öyrənilməsi ilə bağlı sərəncam verib.

Dünya ölkələrində tarix və yaddaş siyasəti ilə bağlı qurumların hamısını sadalamaq qeyri-mümkündür. Yekun olaraq, onu demək olar ki, "yaddaş nazirlikləri" də adlanan bu qurumlar ümumilikdə milli maraq və təhlükəsizliyə cavab verən, xarici təsirləri neytrallaşdırmağa yönələn fəaliyyət həyata keçirirlər.

"Bu gün təəssüflə qeyd edilməlidir ki, ötən illər ərzində tarix siyasəti bir çox dövlətlərin anlamında "tarixin siyasiləşməsi" kimi başa düşülür. Nəinki barışmaq və şiddətli polemikalara səbəb olur, həm də qarşıdurma alətinə çevrilir. Bir çox siyasətçilər tamamilə siyasi məqsədlər güdərək aşkar millətçilik mövqeyindən yanaşaraq tarixə və keçmişə baxışlarını başqalarına da zorla qəbul etdirmək üçün əllərindən gələni edirlər. Bu, Avropa Birliyi, Polşa, Ukrayna və Rusiya siyasətçilərinin tarixi qanunauyğunluqları və yubileyləri necə şərh etdiklərinə aiddir" [25].

Tarixin siyasiləşdirilməsinə misal kimi ilk növbədə Ermənistanın adının çəkilməsi daha düzgün olardı. Rusiyalı politoloq S.V.Lezov mif üzərində qurulan tarix siyasətinə misal kimi erməni mifində üç komponenti müəyyənləşdirir: 1.Qədim irsə sahib olmaq əsasında üzərinə düşən sivilizator funksiyasına inam; 2.Xristianlığın Şərqdə forpostu ilə eyniləşdirmə; 3.Özünə bəşəriyyət naminə "Şərq barbarlarının üzündən" əbədi əzab çəkən bir qurban obrazı kimi baxmaq [21].

5. Dövlətçilik tarixində müharibə fenomeni - tarix və yaddaş siyasətində onun yeri və rolu

2020-ci ildə müstəqil Azərbaycan dövlətçiliyinin tarixinə II Qarabağ - Vətən müharibəsi, Böyük Qələbə və 8 Noyabr Zəfər Günü qızıl hərflərlə həkk edildi.

Müharibə başa çatsa da, XXI əsr müharibəsində qalib dövlət statusunu təmin edərək, işğala məruz qalan ölkələr üçün cəlbedici-inam/ümid simvoluna çevrilən Azərbaycanın regionun geosiyasi mənzərəsini köklü şəkildə dəyişən beynəlxalq nüfuzu müzakirələrin mövzusudur.

44 günlük müharibə müddətində Azərbaycan cəmiyyəti öz tarixində görünməmiş milli birlik, həmrəylik, "10 milyonluq xalqın bir ürək kimi döyünməsi" mərhələsindən keçdi. Ali Baş Komandan ətrafında sıx birlik, nəsillər, siyasi qüvvələr, sosial təbəqələrarası münasibətlərdəki heyrətamiz dəstək və yardımlaşma, "Azərbaycanlı olmağın" ən ülvi, mənəvi meyarlarının bir vulkan kimi püskürməsi baş verdi. Xalq-ordu birliyi, paylaşma və xeyirxahlıq hər kəsin can atdığı cəlbedici qüvvəyə çevrildi.

Azərbaycan xalqı Vətən müharibəsində, bəlkə də, son yüzilliklərdə ilk dəfə cəmiyyətdə hələlik dərk edilməyən, eyni zamanda, Qələbə və Zəfər qədər də fövqəladə dəyər kəsb edən, milli "passionar enerji" fenomenini yaşadı. L.Qumilyovun etnogenez nəzəriyyəsi kontekstində elmə gətirdiyi bu fenomen tarixən dövlətlərin taleyində həlledici rol oynayıb, dünya siyasi xəritəsinin dəyişməsinə təkan verən proseslərə yol açıb. Tarixdən o da məlumdur ki, passionar milli enerji lider tərəfindən düzgün məcraya yönəldildikdə mümkünsüz görünən qalibiyyətlər baş verir. Yaxud da əksinə, passionar enerji qurucu-yaradıcı məqsədlərə yönəldilməzsə, əhatəsində xaos yarada, dağıdıcılığa meyillənə bilir. 44 günlük müharibədə "Birlikdə güclüyük!" çağırışı ilə xalqımızın Qarabağı azad etməklə bağlı gözlədiyi məqamda milli enerjinin "dəmir yumruq" kimi birləşməsi, qələbəyə yönəldilməsi baş verdi.

Bu baxımdan, Zəfər tarixinin yeni qələbələrin zəmini olmağa yönəldilməsi, qalib vətəndaş yaşantısının ənənəyə çevrilməsi böyük dərəcədə həm də yaddaş və tarix siyasətindən çox asılıdır.

Öz növbəsində bu vəzifə də ictimai-siyasi, ideoloji təbliğat sahəsində müvafiq dövlət siyasətinin, təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini diktə edir.

Bütövlükdə cəmiyyətin sosial-psixoloji, elm-təhsil, mədəniyyət və informasiya məkanında müharibə obrazını təqdim etməsi tarix və yaddaş siyasətində əvəzsiz rola malikdir. Bu obraz müharibəyə dair fəlsəfi konsepsiyaların müharibə obrazlarını cəmyyətə bu və ya digər formada təqdim edən sadələşdirilmiş və stereotip narrativəri ilə bağlıdır. Həmin narrativlər bir-birinə əks məzmunda ola bilir. Bunlardan biri xalqın rəşadət və qəhrəmanlıqlarında əksini tapan müharibənin qalibiyyət-qəhrəmanlıq obrazıdır. Bu obraz ənənəvi olaraq fəxarət, cəsarət və şərəf anlayışları üzərində dayanmaqla, məğlubedilməz, sarsılmaz milli birlik nümunəsinə çevrilir. Bu narrativ çərçivəsində xalqın öz dövlətini, vətəninin azadlığını və müstəqilliyini qorumağa qurban verməyə hər an hazır olması diqqət mərkəzindədir.

Müharibənin digər obrazı faciəli, məğlubiyyətlə bitən müharibə obrazıdır. Burada müharibə dəhşəti, çoxsaylı qurban, insanların qətli, hərbi cinayətlər, sonsuz kədər və faciə timsalında faciə yaddaşı kimi mövcuddur. Qeyd edilməlidir ki, faciə yaddaşı olduqca fundamental mahiyyətə malikdir. Faciələr paradoksal olaraq, xalqın yaddaşını formalaşdıran mühüm hadisələrdəndir.

Azərbaycan xalqının taleyində 30 il əvvəl məğlubiyyətlə başa çatan müharibəyə son qoyaraq, qalibiyyətə nail

olmaq, zəfər yazmaq nəsib olmuşdur. Faciə tarixindən fərqli olaraq, qələbə tarixinin yazılması, yaşadılması tarix siyasətinin mühüm vəzifələrindəndir.

Dünyada olduğu kimi, Azərbaycanda da polietnik və çoxkonfessiyalı ölkə kimi vətəndaş kimliyinin təməli olan kollektiv tarixi yaddaşın formalaşması aktual məsələdir. Qələbənin, tarixə qovuşan Zəfər tarixinin yazılması, milli keçmişin variantlarının qurulmasında həlledici rol siyasi elitalara məxsusdur Tarixə qovuşan Zəfər obrazımızın milli birlik təməllərinə çevrilməsinin, yaddaşlara həkk edilməsinin yazılı, vizual və şifahi müxanizmlərinin nəzəri və tətbiqi metodlarının araşdırılması, müəyyən edilməsi öz növbəsini gözləyir.

Beləliklə, hazırkı məqamda Azərbaycanın tarix siyasəti və yaddaş siyasətinin ən aktual olan bir çağında yaşayırıq. Ölkəmizdə əsrlərin simvolu - Qarabağ, Zəfər/Qələbə simvolunun xalqımızda yaşatdığı qürur hissi tariximiz üçün, onun yeni qızıl səhifələri yazıldığı üçün misilsiz fəxarət hissini yaşadır. Heç bir başqa uğur və qələbə ilə müqayisəedilməz dərəcəyə çatır.

6. Müstəqil Azərbaycanda tarix və yaddaş siyasətinin vəziyyəti

Müxtəlif ölkələrdə olduğu kimi Azərbaycan tarixində də tarixi hadisələrin siyasi konyunktura prizmasından, sinif və partiya yanaşması ilə şərhinin mənfi nümunələri kifayət qədər olmuşdur və məlumdur. Bu vəziyyət klassik hesab edilən, tarix və siyasətin qarşılıqlı nisbətini əks etdirən məlum deyimlə ugurlu ifadə edilib: “Tarix keçmiş siyasətidir *(keçmişə münasibət siyasətidir* - **red.**), onsuz indiki siyasəti başa düşmək mümkün deyil”.

T.L.Nevostruyevanın araşdırmasına əsasən: "Sosial bazar iqtisadiyyatında – iqtisadi siyasətdə təsərrüfat subyektlərinin fəaliyyət forma və qaydaları təsis edilir; yaradılan fəaliyyət forma və qaydaları azad rəqabət imkanlarının və açıq bazarın formalaşdırılmasına, maksimal sayda xüsusi şəxslərin təşəbbüslərinin stimullaşdırılmasına yönəlir; geniş antiinhisar siyasəti aparılır; sahib karlıq dəstəklənir; iqtisadiyyatın bütün elementləri və sahibkarlıq fəaliyyəti, pul siyasəti, bank sistemi və s. qarşılıqlı uyğunlaşdırılır; pul tədavülünün sabitliyi, sərmayə qoyma şərtləri proqnozlaşdırılır; istehlakın mühafizəkar strukturu ləğv edilərək, vergi ödənməsi imkanlarına bərabərləşdirilir" [23, s.45-47].

Dövlətin nəzarəti altında təkmilləşən sosial bazar iqtisadiyyatı sosial dövlətin başlıca prinsiplərindən çıxış etməklə sosial siyasəti dəstəkləyir.

Sosial bazarın prinsipləri belədir: "1.Dövlətin xammal ixracı siyasətinin iqtisadiyyatın real bölməsinin inkişafı ilə əvəzlənməsi. 2.Büdcə mədaxilinin xammal ixracı sektoru hesabına deyil, daxili qaynaqlar zəminində formalaşdırılması və dövlət büdcəsinin tənzimlənməsi, hamar vergi şkalasından imtina edilməsi. 3.Dövlətin iqtisadiyyatda neo industrial struktur dəyişiklikləri etməsi əsasında dəqiq müəyyənləşmiş inkişaf istiqamətlərinin qısamüddətli və strateji planlaşdırılması" [19, s.156-161].

Sağlam rəqabət üzərində qurulan sosial bazar iqtisadiyyatında "İctimai istehsal istehlak predmetinin və əmək vasitələrinin inkişaf etdirilməsinin xeyrinə olaraq formalaşdırılır, istehlak fondu və yığım fondu ümumi ictimai məhsulu müəyyənləşdirir, ixracın istehlak predmetlərilə dəyişdirilməsi istiqamətində rasional siyasət yürüdür, hökumətin sosial vəzifələrini nəzərə alır, vergi siyasətini dəstəkləyir, yüksək texnologiyalı istehsal və innovativ iqtisadiyyatla bağlı olur" [24, s.15-18].

Sosial bazar iqtisadiyyatı məcmu mədaxilin vətəndaşların rifahının yüksəldilməsinə yönəldilməsini, sahibkarlığın inkişafını, sağlam rəqabətin bərqərar olmasını, keyfiyyətli sosial xidmətlərin təşkilini, tam məşğulluğu, o cümlədən əmək münasibətlərində sabitliyi qorumaq üçün əməkdaşlığın təminatını əsas götürür. Sosial bazar iqtisadiyyatatı bilavasitə sosial sığorta üzərində qurulur. Sosial sığorta ETT və innovosion iqtisadi islahatlar prosesində mümkün sosial böhranın qarşısının alınmasına, yaxud böhranın idarə edilməsinə zəmanətdir. Yeni texnologiyaların istifadəsi zəruri hal olaraq meydana çıxsa da, işçilərin yenidən ixtisaslaşması, ixtisarlar və işsizlik problemlərini yarada bilir. Sosial sığorta işçilərin maddi itkilərini təmin etməyə (yenidən ixtisas-

laşma, işsizlik və s.) yönəldiyindən iqtisadi münasibətlərdə sosial xaos idarə edilə bilir. Sosial sığorta sahibkarların və ya orta təbəqənin müflis olmasının qarşısının alınmasına kömək edə bilir, istehsala qoyulan sərmayə dəyərsizləşmir. Böhranın idarə edilməsi sosial dialoqun qorunub saxlanılmasına və sosial əməkdaşlığın genişlənməsinə gətirib çıxarır.

1. Sosial bazar iqtisadiyyatı və sosial dövlət

Sosial bazar iqtisadiyyatı üzərində qurulan sosial dövlət qeyd edilən proseslərdə fəal subyekt kimi təsirli gücə malik olduğundan innovasion islahatlar dövründə sosiumda sosial həmrəyliyin qorunub saxlanılmasına cavabdeh tərəf olub, böhrandan müdafiə zəmanəti verir və öncəliklə həssas təbəqələrin mənafeyinə uyğun sosial siyasət həyata keçirir.

Sosial dövlətin təsərrüfat sistemi sosial risklərin azaldılmasına yönələn xüsusi sosial inteqrasiya prosesi kimi qiymətləndirilir və aşağıdakı əlamətləri ilə seçilir. Sosial dövlətin iqtisadi əsaslarının reallaşdırılması meyarları kimi çox zaman: kasıblıq səviyyəsi; sosial proqramların kasıblıq səviyyəsinə nisbi təsiri; sosial proqramlarla bağlı ÜDM-dən ayrılan çıxar göstərilir. Bu dövlət qurumunun əsas sosial və iqtisadi meyarları aşağıdakılarla bağlıdır:

"1.Dövlət gəlirlərinin polis-bürokratik funksiyaları (ictimai nizamın qorunması, milli təhlikəsizliyin təmin edilməsi, bürokratik aparatın, polis, ordu, məhkəmə və s. mədaxil). 2.Cini indeksi (daha təminatlı kvintelin (əhalinin 20%) sərvətinin daha az təminatlı əhali ilə müqayisəsi). 3.İnsan inkişafı potensialının indeksi. 4.Sağlam həyat davamlılığının orta yaş hüdudları. 5.Kasıblıq səviyyəsi. 6.Sen-indeks (kasıblıq həddinin müəyyənləşdirilməsi göstəricisi). 7.V.D.Roikin sosial indikatorları (yüksək gəlirlər, əhalinin differensiasiyası, sosial müdafiənin təkmilləşdirilməsi). 8.Orta sinfin hüdudlarının şərti müəyyənləşdirilməsi metodu. 9.Əhalinin əmanətlərinin miqdarı".

Bu indikatorlar üç meyar əsasında ümumiləşdirilir: "1.Minimum, yaxud "təməl sosial təminat". 2. Əmək hüquqları. 3.Sosial bərabərsizliyin minimum səviyyəsi" [25, s.215-217].

Aparıcı ölkələrin əsas inkişaf indiqatorları kimi "ÜDM-ə münasibətdə real orta zəhmət haqqı, ailənin qida xərcləri, qocalığa görə minimal təqaüdün minimum yaşayış səviyyəsinə uyğunluğu, əhalinin təbii dinamikasının əmsalı (ölənlərlə doğulanların sayındakı fərq), orta yaş həddi, insan inkişafı indeksi və s. müəyyənləşdirilmişdir" [21, s.54-57].

2. Azərbaycanda sosial bazar iqtisadiyyatının inkişaf istiqamətləri

Yaşadığımız qərinədə innovasion iqtisadi proseslər ölkəmizdə də yerli iqtisadiyyatın yenidən formalaşdırılmasına, yeni mexanizmlərlə idarə və inkişaf etdirilməsinə əsas olmuşdur. Son onillikdə bazar iqtisadiyyatının qurulması Azərbaycan dövlətinin əsas amalı olaraq Konstitusiyada hüquqi status almışdır. Konstitusiyada Azərbaycan dövlətinin "sosial yönümlü iqtisadiyyata, yaxud bazar münasibətlərinə, azad sahibkarlığın tərəqqisinə" üstünlük verdiyi bildirilir [1, Maddə 15.2] və bu, iqtisadiyyatın sosiallaşması deməkdir. Sosial-iqtisadi tərəqqi yönlü tədbirlərin genişləndirilməsi və tətbiqi yönündə dövlətin optimal siyasəti vardır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 24 noyabr 2003-cü il tarixli Fərmanında "iqtisadiyyatda müşahidə olunan müsbət meyilləri möhkəmləndirmək və daha da inkişaf etdirmək, sosial sahədə qarşıda duran problemlərin həllini sürətləndirmək" başlıca məram olaraq göstərilmişdir. Fərmanda sosial problemlərin həlli işsizliyin azaldılması

və əhalinin, xüsusilə gənclərin faydalı əməklə məşğulluğunun artırılması, qaçqınlar və məcburi köçkünlər üçün yeni müvəqqəti qəsəbələrin və evlərin tikilməsi, onların yaşayış şəraitinin yaxşılaşdırılması və məşqulluğununun artırılması, regionların yerli resusları və digər amillər nəzərə alınmaqla sosial-iqtisadi inkişafı, alternativ enerji mənbələrinin istifadə və inkişaf etdirilməsi, qeyri-neft sektorunun sürətli inkişafının təmin edilməsi, məhsul istehsalının və ixracın stimullaşdırılması, yüksək keyfiyyətli məhsul və dərman ləvazimatlarının istehsalı və idxalının təmin edilməsi, aqrar sektorda islahatların ikinci mərhələsinə başlanması, əməkhaqqı və təqaüd sisteminin təkmilləşdirilməsi və s. zəruri tədbirlərə aid edilmişdir [2].

Bazar münasibətlərinə üstünlük verən dövlətimizin iqtisadi islahatları və innovativ tədbirləri nəticəsində iqtisadi keçid sona çatmış və sosial yönümlü bazar iqtisadiyyatı quruculuğu başlanmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2009-cu ildə bildirmişdir ki, “biz artıq iqtisadi sahədə keçid dövrünü başa vurmuşuq” [9, s.1-2]. Azərbaycanda keyfiyyətcə fərqli iqtisadi tərəqqini səciyyələndirən başlıca əlamətlər bazar iqtisadiyyatının qanunvericilik bazasının möhkəmləndirilməsi, sahibkarlar institutunun formalaşması, mülkiyyətin çoxnövlülüyünün təmin olunması, özəlləşdirmə, aqrar islahatlar, ayrılıqda müəssisələrin təsərrüfatında və ümumilikdə iqtisadiyyatda dövlətin müdaxiləsinin minimallaşdırılması, bazar institutlarının formalaşdırılması, daxili və xarici iqtisadi fəaliyyətin liberallaşdırılması, qiymətlərin bazar tərəfindən müəyyənləşdirilməsi, institusional islahatların həyata keçirilməsi və s.-dən ibarətdir [14, s.10].

Sosial bazar iqtisadiyyatı quruculuğu sosial sahədəki problemlərin həlli, sosial xidmətlərin keyfiyyətinin yüksəldilməsi və yeni istiqamətlərin müəyyən edilməsi və nəticə olaraq əhalinin sosial-iqtisadi firavanlığının təminatı ilə bağlıdır. Sosial-iqtisadi rifah dedikdə, həm fərdlərin maddi vəziyyətinin obyektiv qiymətləndirilməsi, əhalinin sağlamlıq vəziyyəti və ətraf mühit, həm də subyektiv məmnunluq, yəni şəxsiyyətin əldə edilən maddi vəziyyətə münasibəti, onun sosial qarşılıqlı əlaqələrinin inkişafı, öz sağlamlığı və ətraf mühitin vəziyyətindən məmnunluğu başa düşülür [19, s.156-158]. Əhalinin sosial firavanlığının təminatı iqtisadiyyatın inkişafının sosial sahələrə yönəldilməsini, yaxud sosial iqtisadiyyatın təkmilləşdirilməsini ehtiva edir. Azərbaycanda iqtisadi dəyişikliklərin təhlili XXI yüzilliyin əvvəllərindən ölkənin yeni inkişaf səviyyəsinə keçdiyini nümayiş etdirir.

2013-cü ildə ölkədə iqtisadiyyatın və sosial sahələrin inkişafına bütün maliyyə mənbələri hesabına 17872,1 mln. manat, 2014-cü ildə 17615,8 mln. manat, 2015-ci ildə 15957,0 mln. manat, 2016-cı ildə 14903,4 mln. manat əsas kapitala investisiya yönəldilmişdir. 2013-cü ildə əsas kapitala qoyulmuş vəsaitin 76,7%-ni daxili investisiyalar, 23,3%-ni isə xarici investisiyalar, 2014-cü ildə əsas kapitala qoyulmuş vəsaitin 72,3%-ni daxili investisiyalar, 27,7%-ni isə xarici investisiyalar, 2016-cı ildə əsas kapitala qoyulmuş vəsaitin 40,5%-ni daxili investisiyalar, 59,5%-ni isə xarici investisiyalar təşkil etmişdir. 2017-ci ildə iqtisadiyyata yönəldilən ümumi investisiyaların həcmi 24462,5 mln. manat, 2018-ci ildə 25877,0 mln. manat, 2019-cu ildə 24986,6 mln. manat olmuşdur.

2013-cü ildə əsas kapitala yönəldilmiş ümumi investisiyaların 13047,3 milyon manatı (73,0%-i), 2014-cü ildə 11651.6 milyon manatı (66,1%-i), 2015-ci ildə 8796,3 milyon manatı (55,1%-i), 2016-cı ildə 6286,0 milyon manatı (42,2%-i), 2018-ci ildə 46671,3 milyon manatı (55,7%) qeyri-neft sektorunun inkişafına sərf olunmuşdur, 2020-ci ilin

yanvar-sentyabr ayları ərzində iqtisadiyyatın qeyri-neft sektorunda 36319,6 milyon manatlıq əlavə dəyər yaradılmışdır ki, bu əlavə dəyərin ÜDM-də xüsusi çəkisi 69.8% təşkil etmişdir [3].

2020-ci ilin yanvar-sentyabr ayları ərzində qeyri-neft sektorunda ticarət və nəqliyyat vasitələrinin təmiri sahəsinin xüsusi çəkisi 16,4%, kənd, meşə və balıqçılıq təsərrüfatlarının 10,9%, nəqliyyat və anbar təsərrüfatının 10.6%, tikintinin 9%, qeyri-neft sənayesinin 8,5% olmuşdur.

2019-cu ilin müvafiq dövrünə nisbətən 2020-ci ildə qeyri-neft sənayesində 10,5%, nəqliyyat və anbar təsərrüfatı sahəsində 5,5%, informasiya və rabitə sahəsində 2,7%, kənd, meşə və balıqçılıq təsərrüfatları sahəsində 1,5% artım qeydə alınmışdır [18].

2020-ci ildə ölkə əhalisinin sayı 10067,1 min nəfər olmuşdur. Əhalinin 52,8%-i şəhər, 47,2%-i kənd sakinlərinin payına düşür. 2020-ci ildə iqtisadi fəal əhalinin sayı 5 251,3 min nəfər olmuş, onlardan 4 887,8 min nəfərini iqtisadi əmək fəaliyyəti ilə məşğul olan əhali təşkil etmişdir. 2020-ci ildə məşğulluq xidməti orqanları tərəfindən ölkə üzrə rəsmi işsiz statusu verilmiş şəxslərin sayı 81,3 min nəfər olmuş, onların 37,7%-ni qadınlar təşkil etmişdir. İşsizliyə görə müavinətin orta məbləği 276,4 manat olmuşdur [16].

8 oktyabr 2019-cu il tarixli Ümumdünya İqtisadi Forumu tərəfindən nəşr edilən "Qlobal Rəqabətlilik İndeksi"nə əsasən Azərbaycan 11 pillə irəliləyərək 141 ölkə arasında 58-ci mövqedə qərarlaşıb. Hesabat 12 istiqaməti əks etdirməklə iqtisadi və sosial sferanın bütün sahələrini əhatə edir. İnstitutlar, infrastruktur, informasiya texnologiyaları, makroiqtisadi vəziyyət, səhiyyə, təhsil, istehlak məhsulları bazarı, əmək bazarı, maliyyə sistemi, bazar həcminin genişliyi, biznesin dinamikliyi və innovasiya kimi istiqamətləri özündə ehtiva edən "Qlobal Rəqabətlilik İndeksi" son hesabatda 141 ölkəni özündə cəmləşdirib. Hesabatın son nəşrinə əsasən, Azərbaycan 12 indikatordan 8-i üzrə ("makroiqtisadi sabitlik" indikatoru üzrə 23 pillə, aktiv əhali arasında rəqəmsal bacarıqlar üzrə 6 pillə, "əmtəə bazarı" göstəricisi üzrə 14 pillə, "Əmək bazarı" üzrə 19 pillə, "biznesin dinamikliyi" və "innovasiya" üzrə müvafiq olaraq 8 və 3 pillə) irəliləyərək MDB ölkələri arasında lider mövqelər sırasında yerləşib. Biznesin dinamikliyi üzrə Azərbaycan 141 ölkə arasında 31-ci mövqedə qərarlaşıb [4].

Sürətli innovativ islahatlar dövrü olan XXI yüzillikdə Azərbaycada da sürətli dəyişikliklər prosesi izlənməkdədir. Ölkəmiz xüsusilə də sosial iqtisadi sektoru əhatə edən islahatların dinamikliyi

Qrafik 1. *Qeyri-neft sektorunda 2020-ci ilin yanvar-sentyabr ayları ərzində yaradılmış əlavə dəyərin sahələr üzrə bölgüsü*



ilə seçilir.

Respublikanın dayanıqlı inkişafında özəl təsərrüfatın tərəqqisi nəzərə alınır. "Sahibkarlıq mühitinin daha yaxşı vəziyyətə gətirilməsi, sahibkarlara fəaliyyət şəraitinin formalaşdırılması, özəl təsərrüfatın təkmilləşdirilməsi tədbirləri strateji əhəmiyyət daşıyır" [17].

Dövlətimiz sahibkarlıq institutunun formalaşmasına xüsusi diqqət ayırır. Sosial dövlətin sütunu olan orta sinfin və sahibkarlığın inkişafının prioritet olaraq müəyyənləşdirilməsi sosial yönlü bazarın tərəqqisini nəzərdə tutur. Dövlətimiz sahibkarlığın normativ əsaslarını möhkəmləndirərək çox sayda qanunlar, sərəncamlar və fərmanlar qəbul etmişdir. Ölkəmizdə sahibkarlıq fəaliyyəti – Azərbaycan Respublikasının Konstitusiyası, "Sahibkarlıq fəaliyyəti haqqında" Qanun, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı, "Azərbaycan Respublikasının iqtisadi müstəqilliyi haqqında" Konstitusiya Qanunu, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu, "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı və bunların əsasında qəbul edilmiş digər qanunvericilik aktları ilə tənzimlənir.

"Azərbaycan Respublikasında sahib karlığın inkişafı ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanına [8] əsasən "ölkədə kiçik və orta sahibkarlığın, biznes mühitinin yaxşılaşdırılması, biznesə başlama prosedurlarının sadələşdirilməsi, sağlam rəqabətin təmin edilməsi, sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi, sahibkarların maarifləndirilməsi, qanunvericilik bazasının təkmilləşdirilməsi və digər tədbirlərin həyata keçirilməsi nəticəsində "Ümumi Daxili Məhsulun həcmində özəl sektorun payı 2016-cı ildə 81,2% təşkil etmişdir. Sənayedə qeyri-dövlət sektorunun payı 80,0% olmuşdur. Ümumi istehsalın 86,2%-i sənaye məhsulunun istehsalı, 13,8%-i isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaradılmışdır. 2016-cı ilin 1 iyul tarixinə qeydiyyatdan keçmiş ümumi sahibkarların 36,1%-i Bakı şəhərində, 63,9%-i regionlarda qeydiyyatdan keçmişdir. Sahibkarların ümumi bölgüsünə görə onların təqribən 14,6%-ni hüquqi şəxslər, 85,4%-ni isə fiziki şəxslər təşkil edir" [17].

Azərbaycanda sahibkarlıq fəaliyyətinin tənzimlənməsi istiqamətində 1999-cu ildə Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) yaradılmışdır. "Konfederasiya özündə 6000-dən çox sahibkarlıq subyektini, o cümlədən 70-ə qədər iqtisadi və sosial yönümlü assosiasiya və ittifaqı birləşdirir. Konfederasiyanın Azərbaycanın 10 rayonunda regional nümayəndəlikləri fəaliyyət göstərir" [6].

AR İqtisadiyyat Nazirliyinin məlumatlarına görə, ölkədə 2019-cu ildə 271304 nəfər sahibkarlıq fəaliyyəti qeydə alınmışdır ki, onlardan 31196 nəfəri hüquqi şəxs, 240108 nəfəri fərdi sahibkarlardır. Onların da böyük bir qismi – 262622 nəfəri (97%) mikrosahibkarlıq, 5956 nəfəri (2%) kiçik sahibkarlıq, 2726 nəfəri (1%) isə orta sahibkarlıqla məşğuldur.

Göründüyü kimi, orta sahibkarların say göstəricisi çox aşağıdır. Ümumi sahbkarların 271304 nəfəri Bakı şəhərindədir. Aran bölgəsində (37403 nəfər), Qazax-Gəncə bölgəsində (24825 nəfər) sahibkarların sayı xüsusi olaraq diqqət çəkir və regionların, o cümlədən qeyri-neft sektorunun inkişaf göstəricisidir.

AR İqtisadiyyat Nazirliyinin məlumatlarına görə, sahibkarlıq təsərrüfatı əsasən kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq (2941), ticarət, nəq-

liyyat vasitələrinin təmiri (82207 nəfər), tikinti (5149 nəfər) sahələrini əhatə edir.

Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyasının 2016-cı ilin oktyabrında dərc edilmiş "Doing Business – 2017" hesabatında ölkəmiz işgüzar mühitin əlverişliliyi səviyyəsinə görə tədqiqatın aparıldığı 190 ölkə sırasında 65-ci yerdə qərarlaşıb. Ölkəmiz bu hesabatda 4 göstərici üzrə ilk 40 ölkə sırasında olub:

1. "biznesə başlamaq" – 5-ci yer,
2. "mülkiyyətin qeydiyyatı" – 22-ci yer,
3. "investorların müdafiəsi" – 32-ci yer,
4. "vergilərin ödənişi" – 40-cı yer.

Hesabatda Azərbaycan "biznesə başlama prosedurlarının sayı" (3-cü yer), "biznesə başlamaq üçün günlərin sayı" (9-cu yer) kimi alt göstəricilər üzrə ilk 20 ölkə sırasına aid edilib [4].

Dünya Bankının növbəti 2018-ci il "Doing Business" hesabatında 150-dən çox ölkə arasında Azərbaycan biznesin asanlaşdırılmasında nailiyyətlər əldə edən ilk 10 ölkə sırasında yer almışdır. Azərbaycan 2016-cı ilin hesabatında reytinq üzrə 65-ci idisə, 2018-ci ildə 57-ci olub. 2019-cu ildə dünyanın 10 ən islahatçı dövləti siyahısına daxil edilən Azərbaycan 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerə yüksəlib. "Doing Business" hesabatında "Azərbaycan Cənubi Qafqaz dövlətləri arasında yeganə sürətli inkişaf edən, biznes mühitinin asanlaşdırılması istiqamətində ciddi islahatlar aparan ölkə" kimi təqdim edilir [13].

"Doing Business 2020" hesabatında ölkəmiz 1 il əvvəl qazandığı mövqeyini 9 pillə itirərək, 190 ölkə arasında 34-cü yerədək geriləyib [4].

Bunun da əsas səbəblərindən biri COVID-19 pandemiyası ilə əlaqədar həm lokal, həm də qlobal səviyyəli karantin rejiminin tətbiq edilməsi, sosial xidmət və biznes sahəsində tətbiq edilən ciddi məhdudiyyətlərlə bağlı olmuşdur. Bununla belə, böhranlı vəziyyətlərin idarə edilməsi mexanizmlərini tətbiq etmək bacarıqları, sahibkarlara dövlət yardımı və güzəştlərin edilməsi tədbirlərinin tətbiqi qlobal sosial, iqtisadi böhranın nəticələrini bir qədər yumşaltmağa imkan yaratmışdır. Belə ki, hökumət "Sahibkarlığın İnkişafı Fondunun vəsaitləri hesabına 2020-ci ilin 9 ayı ərzində layihələrin ümumi dəyəri 274,1 milyon manat olan 574 sahibkara geri qaytarılan vəsaitlər hesabına 84.4 milyon manat, o cümlədən 549 kiçik və orta həcmli layihəyə 19,4 milyon manat güzəştli kredit verilmişdir. Bu kreditlər hesabına 1973 yeni iş yerinin açılması imkanı yaranmışdır. Güzəştli kreditlərin 57%-i aqrar sektorun, 43%-i müxtəlif sənaye məhsullarının istehsalı və emalının inkişafına verilmişdir. Verilmiş kreditlərin 79,1%-i regionların, 20,9%-i isə Bakı şəhərinin qəsəbələrinin payına düşür" [7, s.5].

İllər üzrə təqdim edilən statistik indikatorların müqayisəli təhlili Azərbaycanda sahibkarlığın inkişafına optimal imkanların yaradıldığını göstərir. Ölkəmizdə sahibkarların investisiya təminatının gücləndirilməsinə dövlət səviyyəsində xüsusi qayğı göstərilir, sahibkarlıq subyektlərinə elektron xidmətlərin təşkili genişləndirilir, sahibkarların işgüzar əlaqələrinin inkişafı və ixrac imkanları dəstəklənir. Sahibkarlığın güzəştli maliyyələşməsi mexanizmi yaradılıb, həmçinin sahibkarların hüquqlarının müdafiəsi yönündə əsaslı tədbirlər görülür. Xüsusi iqtisadi zonaların, sənaye parkları və məhəllələrinin yaradılması sahibkarlığın stimullaşdırılması və inkişafı istiqamətində atılan əhəmiyyətli addımlardır. Sahibkarlıq subyektlərinin müəyyənləşdirilməsi meyarları dəqiqləşdirilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 iyun 2015-ci il tarixli 215 nömrəli Qərarı ilə təsdiq olunmuş "İri, orta və kiçik sahib kar meyarları"na əsasən "işçilərin orta siyahı sayı 25 nəfərədək, illik gəliri 200 min manatadək olan sahibkarlar kiçik, işçilərin orta siyahı sayı 25 nəfərdən 125 nəfərədək, illik gəliri 200 min ma-

natdan 1.250 min manatadək olan sahibkarlar orta və işçilərin orta siyahı sayı 125 nəfər və ondan yuxarı, illik gəliri 1.250 min manatdan və ondan yuxarı olan sahibkarlar iri sahibkar" müəyyən olunmuşdur [15].

Sahibkarlığın inkişafı vergi sistemində yeniliklərə səbəb olmuşdur ki, bu da orta sinfin və şəxsi mülkiyyətin genişləndirilməsinə yardım məqsədlidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 31 iyul 2018-ci il tarixli Fərmanına əsasən sahibkarlığın inkişafına dəstək mexanizminin təkmilləşdirilməsi, qeyri-neft sektorunda innovativ texnologiyalara əsaslanan yeni istehsal, emal və infrastruktur müəssisələrinin yaradılması, ixrac əməliyyatlarının maliyyələşdirilməsi, real sektora investisiya qoyuluşlarının sürətləndirilməsi və özəl sektorda fəaliyyət göstərən təsərrüfat subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi məqsədilə Sahibkarlığın İnkişafı Fondu yaradılmışdır. Fondun məqsədi sahibkarlığın inkişafına maliyyə dəstəyi verməkdən ibarətdir [8].

Pnademiyadan əsasən aşağıdakı fəaliyyət sahələrinin ciddi zərər çəkdiyi müəyyənləşdirilmişdir: istehsal (ərzaq, dərman, tütün, alkoqollu və alkoqolsuz içki, neft məhsulları istisna); topdan və pərakəndə ticarət (ərzaq, dərman və neft məhsullarının satışı istisna); avtomobillərə texniki xidmət göstərilməsi və onların təmiri, sifarişlər üzrə malların, o cümlədən yeməklərin, ərzaq və qeyri-ərzaq mallarının daşınması və (və ya) çatdırılması xidmətləri; ölkədaxili yük və sərnişindaşıma (o cümlədən taksi ilə) fəaliyyəti; yerləşmə vasitələri hesab edilən mehmanxana, motel, hostel və oxşar obyektlərin fəaliyyəti; ictimai iaşə fəaliyyəti; turoperator və turagent fəaliyyəti; sərgilərin təşkili, səhnə, istirahət və əyləncə (oyun), kinoteatr, teatr, muzey və konsert zallarının fəaliyyəti; özəl təhsil müəssisələri (o cümlədən, uşaq bağçaları); hazırlıq (tədris) və ixtisas artıma kurslarının, uşaq tədris və inkişaf mərkəzləri, uşaq klubları, psixoloji mərkəzlərinin fəaliyyəti; İdman-sağlamlıq obyektlərinin fəaliyyəti; bərbərxanaların, gözəllik salonlarının fəaliyyəti və digər sahələr.

COVID-19 pandemiyasının səbəb olduğu qlobal sosial iqtisadi böhran şəraitində "Koronavirus (COVID-19) pandemiyasının ölkə iqtisadiyyatına mənfi təsirinin azaldılması üçün sahibkarlıq subyektlərinin kreditlərinə dövlət dəstəyinin verilməsi ilə bağlı bir sıra tədbirlər barədə" Azərbaycan Respublikasının Nazirlər Kabineti 9 iyul 2020-ci il tarixli 249 №-li Qərar vermişdir. Həmin qərara əsasən, sahibkarlıq subyektləri tərəfindən alınacaq kreditlər 2020-ci il üzrə 90 (doxsan) milyon manat məbləğinədək, 2021-ci il üzrə 210 (iki yüz on) milyon manat məbləğinədək olmaqla, ümumilikdə 300 (üç yüz) milyon manat təyin olunmuş və kreditlər üzrə dövlət zəmanətinin verilməsi və kredit faizlərinin subsidiyalaşdırılması qərara alınmışdır. Bu qərar əsasında 4 mərhələdə Koronavirus (COVİD-19) pandemiyasından zərər çəkdiyinə görə ümumi olaraq 83.162 nəfər fərdi (mikro) sahib kara 29.501,8 min manat, 18846 kiçik və orta sahibkara 39.068,7 min manat vəsait ödənilmişdir, onlar muzdlu işçilərinə əmək haqqının müəyyən hissəsinin ödənilməsi üçün dövlətdən maliyyə dəstəyi almışlar [12].

Son onilliklərdə dünya maliyyə-iqtisadi böhranları ilə mübarizə, böhranlı vəziyyətlərin idrə edilməsi proqramlarının tətbiqi "İnkişafın Azərbaycan modeli" [14, s.10] haqqında danışmağa imkan verir. Dövlətimizin hazırki sosial-iqtisadi quruluşunu "qarışıq iqtisadi sistem" kimi müəyyənləşdirən Ə.R.Babayevə görə, bu "iqtisadi inkişaf modeli planlı tənzimlənən sosialyönümlü bazar iqtisadiyyatıdır" və onun fikrincə, "Azərbaycan milli iqtisadi inkişaf modelinin qurulmasında bir çox dünya ölkələrinin iqtisadi inkişaf modellərindən istifadə olunmuşdur" [10,

s.144-145]. Vurğulanmalıdır ki, real kapitalist sisteminin əsas əlamətləri məhz "qarışıq iqtisadiyyat (şəxsi mülkiyyətin üstünlüyü), əmtəə və xidmətlərin bazar mexanizmlərinə əsaslanaraq bölüşdürülməsi, o cümlədən gəlirlərin yüksək səviyyədə kapitallaşması" ilə bağlıdır [22, s.344-347].

Azərbaycan milli ənənələri və innovativ tərəqqi qanunauyğunluqlarını prioritet tutan sosial iqtisadi inkişaf modelinə malikdir. Bu qanunlar və münasibətlər bilavasitə sosial yönümlü, cəmiyyətin sosial tələbatlarını, sosial sabitliyi nəzərdə saxlayır və buna zəmanət verən iqtisadi siyasəti reallaşdırır, ölkəmizdə institusional sosial bazar iqtisadiyyatı formalaşdırılır.

V.L.Dikanın qeyd etdiyi kimi: "Sosial yönümlü bazar təsərrüfatında dövlət fəal iştirakçı olur və sosial iqtisadi sabitliyin saxlanılmasına, maksimum firavanlığın təminatına, sosial tərəqqiyə, ictimai dəyərlərin, ətraf mühitin, rəqabətin, şəxsi təşəbbüsün qorunub-saxlanılmasına yönəlir. Dövlət makroiqtisadi nailiyyətlərlə yanaşı, öz qarşısında sosial məqsədlər də qoyur, onun fəaliyyəti bazarın natamamlığının aradan qaldırılması, sosial yönümlülüyünün artırılmasıdır" [20, s.15-19].

Dövlətimizə xas "sosial yönümlü bazar iqtisadiyyatı" modeli qlobal və lokal xüsusiyyətlər üzərində qurulduğundan mütləq digərlərindən fərqlidir. Azərbaycanda sosial yönümlü bazar iqtisadiyyatı quruculuğuna təsir edən indikatorlar – "iqtisadi fəal əhalinin sayı, ətraf mühitin keyfiyyəti, elmi-texniki inkişaf səviyyəsi, sosial institutların keyfiyyəti və qloballaşmanın xarici təsirləri, kölgəli iqtisadiyyatın inkişafı, korrupsiyanın genişlənməsi, ÜDM-in inkişafı, həyat keyfiyyəti, ölkənin rəqabət bacarıqlarının inkişafı, həyatın dəyəri, istirahətin keyfiyyəti və mədəniyyətin səviyyəsi, iqtisadi inkişaf, insan haqlarının və azadlıqlarının təminatı, səhiyyənin inkişafı, həyat fəaliyyətinin təhlükəsizliyi, təbii resurslardan istifadə, meşə əraziləri, dəniz və okeanların sahəsi, təsərrüfata yararlı torpaqlar, təbii yanacaq ehtiyatları və digərləridir" [26, s.93-95].

NƏTİCƏ

"Sosial yönümlü iqtisadiyyat" reallaşdırılarkən insanların yaşayış keyfiyyətinin və insan resurslarının rəqabət bacarıqlarının yüksəldilməsi, həmçinin iqtisadiyyatın nizama salınması və dayanıqlı olması, təbii ehtiyatların qorunaraq növbəti nəsillərə ötürülməsi vacib şərtlərdir. İqtisadi inkişafın Azərbaycan modelinin özünəməxsusluqları aşağıdakılarla bağlıdır: "I.Fərqli mülkiyyət və təsərrüfat formalarına söykənən qarışıq iqtisadiyyat yaranır; iqtisadiyyatın əsas tənzimləyicisi olan dövlət əmtəənin daxili və xarici bazarlarda rəqabətliliyinin yüksəldilməsinə şərait yaradır; antiinhisar fəaliyyəti genişləndirilir; məşğulluq, kasıblığın azaldılması sosial iqtisadi siyasətin əsas tərəfidir" [10, s.3].

Azərbaycan dövlətinin "sosial yönümlü bazar iqtisadiyyatı" modeli özündə Qərb ölkələrinin təsərrüfat ənənələrini birləşdirir. Dövlətimiz Avropa İttifaqının sosial siyasət proqramına qoşulub. Ölkəmizdə bazar iqtisadiyyatının hüquqi əsasları beynəlxalq qanunlara söykənir. Sosial yönlü bazar iqtisadiyyatı quruculuğu inkişaf etmiş dünya dövlətlərinin təcrübəsinə söykənir.

Azərbaycanın sosial mahiyyət daşıyan iqtisadi inkişaf modeli dayanıqlılığı və insan kapitalı amilini əsas götürür. Ölkəmizdə innovativ və dayanıqlı iqtisadi inkişaf, sosial modernləşmə strategiyası reallaşdırılır, iqtisadi münasibətlərin təkmilləşdirilməsi yönündə davamlı islahatlar proqramı tətbiq edilir.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

Azərbaycan dilində:

1. Azərbaycan Respublikasının Konstitusiyası // 12 noyabr 1995-ci ildə qəbul edilmişdir (24 avqust 2002-ci il tarixdə olan dəyişiklik və əlavələr). – Bakı: Qanun, 2005, 64 s.

2. "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikasının Prezidentinin Fərmanı. /24.11.2003/ № 4 // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, 11

3. Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafı 2013.: [Elektron resurs] URL: http://www.economy.gov.az/index.php?option=com_content&view=article&id=1143:2013-c%C3%BC-ilin-yanvar-mart-aylar%C4%B1-%C3%BCzr%C9%99-az%C9%99rbaycan-respublikas%C4%B1n%C4%B1n-sosial-iqtisadi-inki%C5%9Faf%C4%B1na-dair&catid=110:eig-2013&lang=az

4. Azərbaycan "Qlobal Rəqabətlilik İndeksi"-ndə 11 pillə irəliləyərək 58-ci mövqedə qərarlaşıb.: [Elektron resurs] URL: https://iqtisadiislahat.org/news/azerbaycan_qlobal_reqabetlilik_indeksi_nde_11_pille_irelileyerek_58_ci_movqede_qerarlasib-813; https://www.turan.az/ext/news/2019/10/free/analytics/az/121378.htm

5. "Azərbaycan Respublikasında sahibkarlığın inkişafı ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. /30.04.2007/ № 567 / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, -2007, 04.

6. Azərbaycan Respublikası Sahibkarlar (İşə götürənlər) Təşkilatları Milli Konfederasiyası.: [Elektron resurs] URL: http://ask.org.az/site/static/25

7. Azərbaycan Respublikasında 2020-ci ilin yanvar-sentyabr ayları üzrə qeyri-neft sektorunun inkişafı. https://economy.gov.az//uploads/fm/files/iqtisadiyyat/qeyri-neft.pdf s.5

8. Azərbaycan Respublikasında sahibkarlığın inkişafı ilə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 30.04.2007

№ 567 // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, - 2007, 04.

9. Bakı Dövlət Universitetinin 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasim Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir // Xalq qəzeti. – 2009, 3 noyabr. – s. 1-2.

10. Bayramov V. Azərbaycan BMT-nin 2020-ci il hesabatında regionun lider ölkəsidir. [Elektron resurs]. URL: https://1news.az/az/news/vuqar-bayramov-azerbaycan-bmt-nin-2020-ci-il-hesabatinda-regionun-lider-olkesidir

12. İqtisadi artıma və sahibkarlara dövlət dəstəyi tədbirlərinin mexanizmləri. - https://www.taxes.gov.az/az/page/iqtisadi-artima-ve-sahibkarlara-dovlet-desteyi-tedbirlerinin-mexanizmleri

13. İsmayılov S. Prezident İlham Əliyevin vətəndaş müraciətlərinə münasibəti bütün məmurlara örnəkdir. // "Azərbaycan", 2019, 9 fevral, № 32 (8055), s.2-3.

14. Nəbiyev R. Azərbaycada sosial bazar iqtisadiyyatı // "Azərbaycan", 2011, 6 may, s.10.

15. Sahibkarlığa dəstək // Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi. [Elektron resurs]. URL:https://www.economy.gov.az/article/sahibkarl%C4%B1%C4%9Fa-d%C9%99st%C9%99k/21387

16. Sosial sahələrin inkişafı. // Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi. [Elektron resurs]. URL: https://apa.az/az/sosial_xeberler/Azrbaycanda-rsmi-issizlrin-sayi-aciqlanib-568294

17. 2016-cı ilin 6 ayı üzrə Azərbaycanda sahibkarlığın inkişaf dinamikası. [Elekt-

ron resurs]. URL: https://economy.gov.az/article/az-sid-6-ay/22982
18. 2020-cı ilin yanvar-sentyabr aylarında qeyri-neft sektorunun inkişafı. [Elektron resurs]. URL: https://economy.gov.az//uploads/fm/files/iqtisadiyyat/qeyri-neft.pdf

Rus dilində:

19. Гафуров З.Ш., Николаенко И.Н. Социально-правовое государство: Генезис, объективные основы, социальная природа // – Москва: Ученые записки российского государственного социального университета, 2008, № 4, с.64-67.
20. Дина О'Брайен. Краткий обзор эволюции социальной политики // Москва: Обзоры литературы и статистики. Центр Экономического Анализа "Ракурс», 2009, № 6.2, с.1-2.
21. Костина Е.Ю. Социальное благополучие и социальная безопасность в условиях глобализации современного общества: [Электронный ресурс] // Universum: Общественные науки: электрон.научн. журн. 2015. № 6 (16). – URL: http://7universum.com/ru/social/archive/item/2277
22. Мицкая Е.В. Основные направления взаимодействия государства и гражданского общества как важное условие реализации политических прав и свобод граждан // Москва: Право, 2008, с.140-143.
23. Нейматов Я. Образование в XXI веке: тенденции и прогнозы / Я.Нейматов. Москва:Алгоритм, 2002, 480 с.
24. Потемкина Т.В. Миграционные процессы в современной системе международных отношений» // – Москва: Знание. Понимание. Умение. 2008. № 3, с. 116-122.
25. Синдеев А. Земельный уровень в становлении европейской политики Германии (1947–1948гг.) // Материалы конференции российских и немецких историков «Российско-немецкий опыт и перспективы», Москва: 28–30 октября, 2005, с.70-80.
26. Фолькер Кроненберг. Немецкая перспектива после катастрофы 1945 г.: нация, основной закон, отечество, послевоенная история германии. Российско-немецкий опыт и перспективы // Материалы конференции российских и немецких историков. Москва: 28–30 октября, 2007, с. 25-35.
27. Этьен Кабе. Путишествие в Икарию / Этьен Кабе. – Москва: Vive Liberta и Век Просвещения, 2011, 100 с.

Saadet Mammadova

Prospects for the development of the social state and socially oriented market economy in new times

Abstract

The development of a social market economy in modern countries is the main goal of social policy. A social market economy is a form of economy that takes into account the needs and desires of people and is based on meeting these needs and desires. If the previous socio-economic structures were determined on the basis of labor relations between the dominant and subordinate classes (slave and slave, landowner and peasant, capitalist and worker), then in the social state society-economy, producer-consumer relations come to the forefront.

Innovative economic processes in our country have become the basis for the restructuring, management and development of the local economy in our country,

and the creation of a market economy in the last decade has received legal status in the Constitution as the main goal of the Azerbaijani state.

The model of the "socially oriented market economy" of the Azerbaijani state combines the economic traditions of Western countries, our country has joined the program of social policy of the European Union, and the legal basis of the market economy in our country is based on international law. Building a socially oriented market economy is based on the experience of developed countries.

The model of socio-economic development of Azerbaijan is based on the factor of sustainability and human capital. Our country implements innovative and sustainable economic development, a strategy of social modernization and a program of sustainable reforms to improve economic relations.

Key words: social policy, market economy, socially oriented market economy, entrepreneurship, social crisis.

Саадет Мамедова

Перспективы развития социального государства и социально ориентированной рыночной экономики в новое время

Резюме

Развитие социальной рыночной экономики в современных странах является основной целью социальной политики. Социальная рыночная экономика - это форма экономики, которая учитывает потребности и желания людей и основана на удовлетворении этих потребностей и желаний. Если прежние социально-экономические структуры определялись на основе трудовых отношений между господствующим и подчиненным классами (раб и раб, помещик и крестьянин, капиталист и рабочий), то в социальном государстве, отношения производитель-потребитель преходят на передний план.

Инновационные экономические процессы в нашей стране стали основой для перестройки, управления и развития местной экономики в нашей стране, а создание рыночной экономики в последнее десятилетие получило правовой статус в Конституции как основная цель азербайджанского государства.

Модель «социально ориентированной рыночной экономики» Азербайджанского государства сочетает в себе экономические традиции западных стран, наша страна присоединилась к программе социальной политики Европейского Союза, а правовая основа рыночной экономики в нашей стране основана на международном праве. Построение социально ориентированной рыночной экономики основано на опыте развитых стран.

Модель социально-экономического развития Азербайджана основана на факторе устойчивости и человеческого капитала. Наша страна реализует инновационное и устойчивое экономическое развитие, стратегию социальной модернизации и программу устойчивых реформ для улучшения экономических отношений.

Ключевые слова: социальная политика, рыночная экономика, социально ориентированная рыночная экономика, предпринимательство, социальный кризис.

Koronavirus (COVID-19) pandemiyası dövründə Azərbaycan dövlətinin sosial siyasəti

Üzeyir ŞƏFİYEV
Bakı Dövlət Universitetinin Sosial iş kafedrasının müdiri, sosiologiya üzrə fəlsəfə doktoru, dosent

Bakı, Azərbaycan
Email: uzeyir.shafiyev@gmail.com

Xülasə. Məqalədə yeni növ koronovirus pandemiyası dövründə Azərbaycan dövlətinin sosial təhlükəsizlik tədbirləri, dövlətin sosial siyasəti, problemlərlə mübarizədə əldə edilən uğurlar və qarşıda duran vəzifələr sosioloji araşdırma predmetini təşkil edir. Məqalədə pandemiya ilə bağlı qlobal vəziyyət, Azərbaycandakı durum, görülən tədbirlər müqayisəli təhlil edilmiş, problemin yaranma və inkişaf dinamikası, eyni zamanda onun yayılmaması ilə bağlı preventiv tədbirlərdən geniş bəhs edilmişdir. Həmçinin pandemiya ilə mübarizədə Azərbaycanın uğur hekayəsinin fəlsəfəsi açılmış, dövlətimizin vətəndaşlara və dünya səhiyyəsinə verdiyi töhfələr təhlil edilmişdir. Bununla yanaşı, məqalədə pandemiyanın qlobal müstəvidə, eləcə də Azərbaycanda yaratdığı fəsadlar, yaranmış yeni reallıqlar və qarşıda duran vəzifələr barədə mülahizələr irəli sürülmüşdür.

Açar söz: koronavirus, pandemiya, sosial dəstək, sosial xidmət, sosial siyasət, sosial müdafiə, ictimai həmrəylik

Dünyanın qarşılaşdığı koronavirus pandemiyası qlobal miqyasda proqnozlaşdırıla bilməyən sosial-psixoloji iqlim yaratdı, domino effekti ilə Yer kürəsinin hər bir bucağını əhatə edərək, bəşəriyyəti yaxşı yaşamaq uğrunda mübarizəyə deyil, sadəcə yaşamaq uğrunda mübarizəyə səfərbər edə bildi. Virusun fəsadları dinamik səciyyə daşıyaraq ölçüyəgəlməz səviyyədə artmağa meyillidir. Baş vermiş kürəsəl fəlakətdən bu və ya digər miqyasda olsa da heç bir dövlət yan keçə bilmədi. Ancaq virusun yarada biləcəyi ehtimali fəsadları təxmin edə biləcək, tarixi müqayisəli, qoşamüqayisəli təhlil bacarığı olan, vətəndaş qarşısında sosial məsuliyyətini dərk edən dövlət rəhbərləri pandemiyanın ağır fəsadlarindan ölkəsini az itkilərlə xilas edə bildi.

Hər bir dövlətin sosial mahiyyəti həm də onun vətəndaşına münasibətində ifadə olunur. Dövlət-vətəndaş münasibətləri xüsusi tarixi şəraitlərdə, ehtimali və qeyri-ehtimali vəziyyətlərdə sınanır, necə deyərlər, bərkdən-boşdan çıxır. Hər bir xalq, cəmiyyət o vaxt şanslı olur ki, onun seçdiyi rəhbər müdrik və tədbirli olur, zamanın ruhunu, çağrışlarını vaxtında adekvat dəyərləndirməyi bacarır. Bu baxımdan, Azərbaycan xalqı çox şanslı xalqdır. Çünki onun rasional lider keyfiyyətlərinə malik dövlət rəhbəri vardır. Bu özünü son dövrlər bütün dünya evini təhdid edən karonavirus pandemiyası zamanı bir daha sübut etdi.

Acı həqiqət olsa da heç kimə sirr deyil ki, virusun hələ pandemiya həddinə çatmadığı dönəmdə bir sıra dövlət rəhbərləri (Böyük Britaniyanın baş naziri Boris Conson, ABŞ-ın eks-prezidenti Donald Tramp və b.) adekvat qiymətləndirməyərək, ona qeyri-ciddi münasibət sərgilədilər, heç bir qabaqlayıcı sosial təhlükəsizlik tədbirləri görmədilər. Çox qısa zamanda virus pandemiya halına keçərək sözügedən dövlətləri dərin itkilər qarşısında qoydu və həmin dövlət başçıları virusa münasibətdə səhv etdiklərini sonradan etiraf etdilər.

Mübaliğəsiz demək olar ki, sosial dövlət quruculuğu istiqamətində kardinal addımlar atan Azərbaycanın dövlət başçısı İlham Əliyev bu taleyüklü anlarda da tarixin sərt sınağından üzüağ çıxmağı bacarmaqla yanaşı, özünü sosial dövlət hesab edən bir sıra dövlətlərin başçılarına örnək ola biləcək nümunələr, karonavirusla mübarizədə Azərbaycan təcrübəsini sərgilədi. Bu, təkcə öz vətəndaşlarına münasibətdə deyil, yaxın və uzaq qonşularına, bütövlükdə dünya evinə verdiyi töhfələrdə təcəssüm olundu.

Belə ki, Azərbaycan pandemiyaya qarşı mübarizədə ilk günlərdən Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) ilə səmərəli əməkdaşlıq etdiyindən 2020-ci ilin 9-13 mart tarixlərində ÜST-ün aparıcı mütəxəssislərindən ibarət heyət ölkəmizdə səfərdə olarkən vəziyyətlə tanış olaraq, görülmüş işlərə müsbət qiymət vermiş, Azərbaycanı pandemiyaya qarşı görülmüş tədbirlərə görə nümunəvi ölkə kimi dəyərləndirmişdilər. Xatirlatmaq yerinə düşər ki, ÜST ilə sıx əlaqələrin yaradılması və pandemiya ilə mübarizəyə Azərbaycan dövlətinin dəstəyi olaraq ilkin mərhələdə 5 milyon manat vəsaitin BMT-yə ianə edilməsi də beynəlxalq ictimaiyyətə istiqamətlənmiş töhfələrdən sayılmalıdır.

Bundan başqa, Azərbaycan Prezidentinin təşəbbüsü ilə aprelin 10-da Türk Şurasının videokonfrans vasitəsilə keçirilən fövqəladə Zirvə görüşü koronavirus pandemiyası ilə mübarizə tədbirlərinə həsr edildi. Zirvə görüşündə ÜST-ün Baş direktoru Tedros Adhanom Qebreyesus da iştirak etmiş, pandemiya ilə mübarizədə Azərbaycanın uğurlarını qeyd etmiş, ölkəmizin dünya birliyinə töhfəsini yüksək qiymətləndirmişdir [4].

Ədalət naminə qeyd edək ki, virusun hələ ölkə hüdudlarına daxil olmasından öncə ölkə rəhbəri İlham Əliyev uzaqgörənlik nümayiş etdirərək bir sıra qabaqlayıcı sosial təhlükəsizlik tədbirlərinin anonsunu verdi, ölkə vətəndaşlarını, məsul strukturları sayıqlığa və məsuliyyətə dəvət etdi. Bu xəbərdarlıq az sonra Azərbaycan Prezidentinin xalqa ənənəvi "Novruz" müraciətində daha aydın ifadəsini tapdı: "Bu xəstəliyin yayılmaması

üçün ilk növbədə bütün dövlət tədbirləri ilə yanaşı, vətəndaşlar da məsuliyyətli olmalıdırlar. Əgər kimsə özündə xəstəlik simptomu hiss edərsə, dərhal həkimlərə müraciət etməlidir, dərhal özünü təcrid etməlidir, kütləvi yerlərə getməməlidir, lazım olmadan kütləvi tədbirlərdə iştirak etməməlidir. Bu tədbirlər artıq ləğv olunub, amma istisna deyil ki, hansısa məsuliyyətsiz adamlar qaydalara uyğun olmayan hərəkətlər etsinlər. Mən bəri başdan hər kəsi xəbərdar etmək istəyirəm, ciddi tədbirlər görüləcək. Çünki bu, milli məsələdir, xalqımızın sağlamlığıdır, dövlətimizin təhlükəsizliyidir" [3].

İlk koronavirus xəstəsinin aşkar edildiyi 28 fevral 2020-ci il tarixindən Azərbaycan koronavirusla mübarizədə müstəqil hərəkət etdiyi halda, dünyanın 80-dən çox ölkəsi Beynəlxalq Valyuta Fonduna koronavirusla mübarizədə maliyyə yardımı üçün müraciət etdi. Azərbaycanda virusun yayıldığı ilk gündən qabaqlayıcı sosial təhlükəsizlik tədbirləri görülməyə başlandı. Bu tədbirlər istisnasız olaraq əhalinin bütün təbəqələrini, hər bir vətəndaşın sosial-iqtisadi, psixoloji təhlükəsizliyini əhatə edirdi. Qeyd edək ki, Azərbaycanda pandemiya ilə mübarizədə əsas iki istiqamətdə - maarifləndirmə və sərt yasaqlayıcı tədbirlər görülməyi nəzərdə tutan işçi planı reallaşdırıldı. Qeyd olunan tədbirlər sırasında ilk öncə aşağıdakı tədbirlər öz əksini tapmışdı:

- Koronavirusla mübarizənin kompleks və bir mərkəzdən idarə edilməsi məqsədi ilə Prezidentin 24 yanvar 2020-ci il tarixli sərəncamı ilə Baş nazirin rəhbərliyi ilə Operativ Qərargahın və Koronavirusla Mübarizəyə Dəstək Fondunun yaradılması;

- Nazirlər Kabinetinin 30 yanvar 2020-ci il tarixli sərəncamı ilə Azərbaycanda yeni növ koronavirus xəstəliyinin yayılmasının qarşısının alınmasına dair Fəaliyyət Planının təsdiq edilməsi;

- əhalinin panikaya düşməsinin qarşısını almaq məqsədilə müvafiq sahə mütəxəssislərinin KİV vasitəsilə maarifləndirmə işlərinə cəlb edilməsi;

- pandemiyanın sosial-iqtisadi fəsadlarının azaldılması və postpandemiya dövrünə hazırlıq məqsədilə görüləcək tədbirlərin maliyyələşdirilməsi üçün büdcədən 1 milyard manat vəsait ayrılması;

- ölkənin ən yaxşı otellərində karantin şəraitində olan 15000-dən çox xaricdən təxliyə olunan vətəndaşımızın tam dövlət hesabına saxlanılması;

- koronavirus infeksiyasina tutulmuş xəstələrin ixtisaslı müalicəsi üçün 6-sı dövlət, 4-ü özəl olmaqla 10 yeni xəstəxananın tikilməsinə qərar verilməsi və bu məqsədlə 14.8 milyon manat, tibb avadanlığının alınması üçün 97 milyon manat ayrılması barədə Prezident sərancamının imzalanması [6; 9; 11].

Aprelin 6-da Sumqayıt Kimya Sənaye Parkında "Bakı Tekstil Fabriki" MMC-nin nəzdində yaradılan tibbi maska istehsalı müəssisəsinin açılışı, pandemiya ilə əlaqədar olaraq 575 çarpayılıq "Yeni klinika"nın açlışı, müxtəlif bölgələri əhatə edən 20-dən artıq klinikanın koronaviruslu xəstələrin müalicəsi üçün səfərbər edilməsi, iki həftə ərzində ölkə daxilində dezinfeksiyaedici vasitələrin və tibbi maska istehsalının təşkil edilməsi dövlətin pandemik şəraitə operativ reaksiyası kimi diqqətçəkən idi [1].

Azərbaycanda ÜST-ün "Evdə qal!" çağırışına ciddi şəkildə əməl edildi. Beləliklə, bütün istehsal və xidmət sahələrinin fəaliyyəti dayandırıldı. Sahibkarlar özlərindən asılı olmayan səbəb üzündən maddi vəsait itkisinə məruz qaldılar. Eyni zamanda, həmin obyektlərdə çalışanlar da qazancdan məhrum oldular. Azərbaycan Prezidentinin 19 mart 2020-ci il tarixdə imzaladığı koronavirus pandemiyasının ölkənin sosial-iqtisadi həyatına mənfi təsirlərinin azaldılmasını və postpandemiya dövrünün inkişaf perspektivlərini nəzərdə tutan "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyekt-

lərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" sərəncamı [11] xüsusi rol oynadı.

Ölkədə virusun yayılmasının qarşısının alınması ilə bağlı preventiv tədbirlər kimi fevralın axırında İranla, martın ortalarında isə Gürcüstan, Rusiya və Türkiyə ilə gediş-gəlisin dayandırılması, əvvəl uşaq bağçalarının, məktəblərin, universitetlərin, daha sonra isə digər sosial, ictimai obyektlərin fəaliyyətlərinin dayandırılması problemlə mübarizədə ciddi önləyici addımlardan idi.

Azərbaycan Prezidenti İlham Əliyev pandemiya ilə mübarizədə təkcə sosial-iqtisadi təhlükəsizlik tədbirləri ilə bağlı sərəncam verməklə kifayətlənmədi, Ali Baş Komandan olaraq bu mübarizənin ön cəbhəsində özünə yer alaraq vətəndaşların maarifləndirilməsində, onları sosial məsuliyyətə dəvət etmədə, insanlara psixoloji dəstək vermə istiqamətində də örnək addımlar atdı. Ölkə başçısının "Biz birlikdə güclüyük" çağırışı həmin günlərdə sosial həmrəylik üçün dərin psixoloji gücə malik bir şüara çevrilərək xalqımızın vahid bir mərkəzdə səfərbərliyinə töhfə verdi. Prezidentin təşəbbüsü ilə yaradılan Koronavirusla Mübarizəyə Dəstək Fondu bu ictimai həmrəyliyin bariz təzahürlərindən biri idi. Xatırladaq ki, bu fonda ölkə başçısı və xanımı bir illik məvacibini köçürməklə göstərdiyi örnəyə ölkə ictimaiyyəti və hüquqi şəxslərdən böyük dəstək gəldi. Bununla bağlı ölkə başçısı öz çıxışında qeyd edirdi: "Ölkəmizdə milli həmrəylik bu günə qədər müşahidə edilməyən dərəcədə artıb. Bu, bir daha bizim xalqımızın böyüklüyünü göstərir. Göstərir ki, biz xalq olaraq, dövlət olaraq çətin günlərdə maksimum həmrəylik nümayiş etdiririk, bir-birimizə kömək edirik, xüsusilə aztəminatlı ailələrə kömək göstəririk... İlk növbədə, dövlət, eyni zamanda, sahibkarlar, ictimai təşkilatlar, ayrı-ayrı şəxslər – biz xalqımıza xas olan ən ülvi xüsusiyyətləri bir daha nümayiş etdiririk" [2].

Vətəndaşların maarifləndirilməsi, reallıqla barışmasında, onların sosial məsuliyyətə cəlb olunmasında, vətəndaş həmrəyliyinə dəvət olunmasında, vətəndaş laqeyidliyinin qarşısının alınmasında ölkənin Birinci vitse-prezidenti Mehriban Əliyevanın pandemiyanın ilk günlərində "Sizin Mehriban" imzası ilə xalqa tarixi müraciətinin də mühüm əhəmiyyəti oldu. Öz xalqına bir övlad, bir həyat yoldaşı, bir ana və nənə olaraq müracət edən ölkənin birinci xanımının hər bir vətəndaşın həmrəylik hislərini cilalayan "Virusa qarşı immunitet vaksin tapıldıqdan sonra yaranacaq. Biganəliyə qarşı immuniteti isə hər kəs özündə formalaşdırmalıdır.." fikri vətəndaş sosial məsuliyətinin aşılanması üçün mühüm məna kəsb edirdi [13].

Prezident İlham Əliyevin koronavirus pandemiyasının ölkə iqtisadiyyatına və vətəndaşların həyat səviyyəsinə mənfi təsirlətinin azaldılması ilə bağlı 10 mart 2020-il tarixli sərəncamının icrası olaraq Nazirlər Kabineti tədbirlər planı hazırladı [12]. Bu tədbirlər sırasında məşğulluğa və sosial rifaha dəstək xüsusi yer tutur. Dövlət başçısının 2020-ci il 19 mart tarixli Sərəncamının icrası ilə bağlı təsdiqlənmiş Tədbirlər Planında məşğulluğa və sosial rifaha dəstək məqsədilə 4 istiqamət üzrə 10 tədbir əksini tapdı. Aprelin 17-də Azərbaycan Respublikasının Prezidenti tərəfindən elan edilən yeni dəstək tədbirləri ilə 2,5 milyon vətəndaşı əhatə edən məşğulluq və sosial rifah istiqamətinə 600 milyon manat vəsait ayrıldı.

65 yaşdan yuxarı, tənha insanların evdən çıxmaması üçün onlara göstərilən bütün sosial və məişət xidmətlərini Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi öz üzərinə götürdü. Bu xidmətlər gündəlik olaraq sosial işçilər və könüllülər tərəfindən ləyaqətlə həyata keçirildi. 330 min nəfərə ünvanlı dövlət sosial yardımı verildi və sosial təcrid rejimi ilə əlaqədar ünvanlı sosial yardım verilməsi sadələşdirildi. Yardım almaq müddəti isə heç bir diaqnostika aparılmadan avtomatik olaraq uzadıldı.

Əgər nəzərə alsaq ki, inkişaf etmiş Avropa ölkələrində, eyni zamanda, ABŞ-da minlərlə ahıl virusun qurbanı oldu, o zaman ölkəmizdə ahıllarla bağlı təhlükəsizlik tədbirləri sayəsində əldə olunan

nəticə heyrətamiz dərəcədə təqdirəlayiqdir. Onu da vurğulamaq yerinə düşər ki, karantin dövründə sosial işçilərin və xidmətçilərin xüsusi fədakar fəaliyyəti ölkə başçısının diqqətindən yayınmadı. Məhz buna görə də ölkə başçısı Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq koronavirus pandemiyasına qarşı mübarizə sahəsində ölkədə elan edilmiş xüsusi karantin rejimi dövründə çətin vəziyyətdə olan şəxslərə və tənha yaşayan 65 yaşdan yuxarı vətəndaşlara sosial xidmətlər göstərilməsinin səmərəli təşkili məqsədilə "Azərbaycan Respublikasında xüsusi karantin rejimi dövründə sosial xidmətlər göstərilməsində iştirak edən işçilərin sosial müdafiəsinin gücləndirilməsi haqqında" 14 aprel 2020-ci il tarixli sərəncam imzaladı [9]. Sərəncamda xüsusi karantin rejimi dövründə sosial xidmətlər göstərilməsinə cəlb edilən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun rayon (şəhər) şöbələrində və tabeliyindəki sosial xidmət müəssisələrində çalışan işçilərin əməkhaqlarına aylıq vəzifə (tarif) maaşının 1 (bir) misli miqdarında müddətli əlavə müəyyən edilməsi nəzərdə tutulurdu.

Analoji dəstək proqramı tibb işçiləri ilə bağlı verildi. Belə ki, Nazirlər Kabineti "Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 18 mart tarixli 1947 nömrəli sərəncamının icrasını təmin etmək məqsədilə "Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" qərar qəbul etdi [15]. Qərarda:

- tibbi-profilaktik tədbirləri həyata keçirən işçilərə - aylıq vəzifə (tarif) maaşının üç misli məbləğində;

- təcili tibbi yardım xidməti göstərən tibb işçilərinə, həmçinin bioloji materialın müayinəsi ilə məşğul olan laboratoriya işçilərinə, o cümlədən Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin və Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun işçilərinə - aylıq vəzifə (tarif) maaşının dörd misli məbləğində;

- pasiyentlərə stasionar tibbi xidmət göstərən işçilərə - aylıq vəzifə (tarif) maaşının beş misli məbləğində iş vaxtına mütənasib olaraq 2020-ci il martın 1-dən iyunun 1-dək olan müddət üçün ödənilməsi nəzərdə tutuldu [15].

Eyni zamanda, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən digər sosial tərəfdaşları ilə birlikdə 45 min ailəyə ərzaq yardımı göstərilməsi proqramını həyata keçirildi. Dövlətin bu təşəbbüsünə ölkə içtimaiyyətinin mühüm bir hissəsi əməli həmrəyliklə qoşuldu.

"Koronavirus (COVID-19) pandemiyası dövründə xüsusi karantin rejiminin tətbiq olunması ilə əlaqədar işsiz kimi qeydiyyatda olan şəxslərə birdəfəlik ödəmənin verilməsi şərtləri və qaydası"nın təsdiq edilməsi barədə "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli 1950 nömrəli Sərəncamının 10.5-ci bəndinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 4 aprel tarixli 135s nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli 1950 nömrəli Sərəncamının 10.2-ci bəndinin icrası ilə bağlı tədbirlər planı"nın II hissəsinin 4-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının

Nazirlər Kabineti Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Məşğulluq" altsistemində işsiz kimi qeydiyyatda olan şəxslərə koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar xüsusi karantin rejiminin tətbiq olunduğu dövrdə aylıq 190 (yüz doxsan) manat məbləğində birdəfəlik ödəmə verilməsi haqqında qərar qəbul etdi. 200 min şəxsə yaşayış minimumu (190 manat) məbləğində iki aylıq müavinət verilməsinə başlanıldı. İki ay müddətində 190 manat birdəfəlik müavinət verilməsi üçün dövlət büdcəsindən 70 milyon manat vəsait ayrıldı. Ancaq Prezident hesab etdi ki, ümumi vəziyyəti nəzərə alaraq və insanların sosial müdafiəsini gücləndirmək üçün bu kateqoriyaya aid olan insanların sayı 600 minə çatdırılsın. Beləliklə, 200 min əvəzinə, 600 min insana iki ay ərzində hər ay 190 manat vəsaitin verilməsi qərara alındı. Xatırladaq ki, bu kateqoriyaya aid olan insanlar aztəminatlı təbəqənin nümayəndələridir, eyni zamanda, koronavirusla bağlı işini itirən və qeyri-formal məşğulluqla məşğul olan insanlardır.

Prezident İlham Əliyevin sərəncamı ilə koronavirus pandemiyasının fəsadlarının azaldılması məqsədilə büdcədən ayrılmış 1 milyard manat vəsaitin xeyli hissəsi vətəndaşlarımızın iş yerlərinin qorunub-saxlanılmasına, ixtisar hallarına yol verilməməsinə, əməkhaqlarının karantin şəraitində də verilməsinə yönəldildi. Ümumilikdə 1 milyon 629 min işçinin, o cümlədən dövlət sektoru üzrə 910 min, özəl sektor üzrə 719 min işçinin əməkhaqqı saxlanılmaqla məşğulluğu təmin edildi.

Dövlət büdcəsindən ayrılan vəsaitə Dövlət Sosial Müdafiə Fondunun vəsaiti hesabına 203 milyon manat, İşsizlikdən Sığorta Fondunun vəsaitindən 91 milyon manat vəsait də əlavə olunmaqla sosial müdafiə tədbirlərinə 394 milyon manat vəsaitin sərf olunması nəzərdə tutuldu.

Pandemiyanın zərər vurduğu fəaliyyət sahələrində çalışan, əmək müqaviləsi olan 300 min muzdlu işçinin əməkhaqlarının müəyyən hissəsinin ödənilməsi üçün sahibkarlara dövlət tərəfindən 215 milyon manat maliyyə dəstəyinin göstərilməsi qərara alındı. Həmçinin COVID-19 pandemiyasının zərər vurduğu fəaliyyət sahələrində sahibkarlıq fəaliyyəti göstərən 300 min fərdi sahibkara dövlət tərəfindən 80 milyon manat həcmində maliyyə dəstəyi göstərildi.

Karantin dövrünün sosial layihələrindən biri də Prezidentin təşəbbüsü ilə elan edilən haqqı ödənilən ictimai iş yerləri proqramıdır. İşsiz və iş axtaran vətəndaşlar, xüsusilə qeyri-leqal, əmək müqaviləsi olmadan çalışan karantin dövründə isə işsiz qalan şəxslərin sosial müdafəsini təmin etmək üçün aylıq əməkhaqqı 250 manat olmaqla 50 min sosial iş yeri açıldı. Bunun üçün 30 milyon manat vəsait ayrıldı. Nazirlərlə onlayn görüşdə bu məsələyə münasibət bildirən dövlət başçısı 50 min ictimai iş yeri ilə razılaşmadığını bildirdi: "Mən göstəriş vermişdim ki, biz ilkin mərhələdə bu rəqəmi 50 minə çatdıraq. Amma indi hesab edirəm ki, biz daha böyük rəqəmə çatmalıyıq və bu il 90 min ödənişli ictimai iş yeri yaradılmalıdır. Onu da bildirməliyəm ki, insan-ların vəziyyətini yaxşılaşdırmaq üçün çox böyük sosial və iqtisadi paket təqdim olunur. Əvvəlki dövrlərdə 1 milyard manat məbləğində dəyərləndirilirdi, ondan sonra 2,5 milyard manat həcmində dəyərləndirilirdi. İndi verdiyim tapşırıqlar nəticəsində bu iqtisadi paket 3 milyard manatı, bəlkə də 3,5 milyard manatı ötəcək. Nə qədər lazımdır, biz bunu edəcəyik. Azərbaycan bütün imkanları səfərbər edib ki, bu vəziyyətdən az itkilərlə çıxsın, insanların həyatını qorusun və postpandemiya dövrünə hazır olsun" [2].

Bununla yanaşı, sosial proqramların təxirəsalınmazlığı təmin olunmaqla, iki milyondan artıq insanı əhatə edən pensiya, müavinət, təqaüd və ödənişlərin vaxtından əvvəl həyata keçirilməsi təmin olundu. Pensiya və digər ödənişlərin yalnız müvəkkil bankomatdan deyil, ən yaxında yerləşən istənilən bankomatdan əlavə xidmət haqqı ödənilmədən alınması imkanları yaradıldı.

Sosial dəstəyin başqa bir forması isə özünəməşğulluq proqramı çərçivəsində həyata keçirilir ki, bu çərçivədə 2020-ci il ərzində 12 minə yaxın ailənin özünüməşğulluq proqramına cəlb edilməsi nəzərdə tutuldu. Burada həm dövlət vəsaitləri, həm Dünya Bankının, həm də özəl banklarımızın vəsaitləri birgə nəzərə alınır. Bunun üçün İşsizlikdən Sığorta Fondundan 70 milyon manat ayrılıb. 20 min nəfərə işsizlikdən sığorta müavinəti veriləcəyi, bu məqsəd üçün İşsizlikdən Sığorta Fondunun hesabına 20 milyon manat ayrılması qərara alındı. Əmək müqaviləsinin müddəti bitmiş şəxslərə də işsizlikdən sığorta ödənişi şamil ediləcək. Belə ki, işsizlikdən sığorta ödənişi ancaq vətəndaşın iradəsindən kənar olan işsizlik səbəblərindən ödənilirdi. Yəni əgər vətəndaş öz ərizəsi, yaxud onunla imzalanan müqavilənin müddəti başa çatdığına görə işdən çıxırdısa, onlara işsizlik sığortası ödənilmirdi. Müvafiq qanunvericiliyə dəyişikliklər edildikdən sonra müddətli müqavilələr üzrə müqavilə müddəti bitən şəxslərə də işsizlikdən sığorta ödənilməsi nəzərdə tutuldu. Həmçinin, 2 min nəfər peşə hazırlığı kurslarının müdavimlərinə iki aylıq ödəniş həyata keçiriləcəkdir.

Bildiyimiz kimi, Dünya Bankı ilə də başlanan birgə layihə nəticəsində hər il 5 min ailənin özünüməşğulluğu təmin ediləcək. Həmçinin BMT-nin İnkişaf Proqramı ilə birgə əlilliyi olan 500 şəxsin biznesə çıxışına dəstək verilməsi nəzərdə tutulub.

Ölkəmizdə koronavirus pandemiyasına qarşı mübarizə tədbirləri çərçivəsində aztəminatlı ailələrin sosial müdafiəsi diqqətdə saxlanılır. Nazirlər Kabinetinin "Yeni növ koronavirus (COVID-19) pandemiyası ilə mübarizə şəraitində aztəminatlı ailələrə ünvanlı dövlət sosial yardımının verilməsi prosedurunun sadələşdirilməsi barədə" 1 aprel 2020-ci il tarixli Qərarı [16] da bu məqsədə xidmət edirdi. Qərara əsasən, ölkəmizdə martın 1-dən etibarən xüsusi karantin rejimi müddətində ünvanlı dövlət sosial yardımının təyin olunma müddəti bitən aztəminatlı ailələrə bu yardımın verilməsi karantin rejimi başa çatdığı tarixdən sonrakı ayın 1-dək uzadıldı.

Belə ki, qanunvericiliyə uyğun olaraq, ünvanlı sosial yardım ailəyə iki il müddətinə təyin olunur. Lakin indiki şəraitdə bu müddət bitdiyi halda, ailəyə yardımın verilməsi dayandırılmır. Ailənin təkrar olaraq yardım üçün müraciət etməsinə ehtiyac qalmadan, eyni məbləğdə həmin yardımın xüsusi karantin rejimi dövründə də ödənişi davam edəcəyinə qərar verildi. Hazırda 70 minədək ailə ünvanlı dövlət sosial yardımı ilə təmin olunur və orta hesabla hər ailəyə aylıq 216 manat sosial yardım verilir. Mart ayı ərzində 3516 ailəyə sosial yardımın verilmə müddəti başa çatsa da, yardımın ödənişi davam etdiriləcəyi nəzərdə tutuldu.

Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan 17 min tələbələnin təhsil haqqı xərclərinin ödənilməsi ilə bağlı qərar da dövlətimizin sosial mahiyyətini təqdim edən hadisələrdən biri idi.

Əlbəttə, pandemiya dövründə Azərbaycan öz sosial dövlət mahiyyətini ortaya qoydu, hərçənd pandemiya bütün dünyada olduğu kimi, olkəmizdə də bir sıra həlli vacib məsələləri gündəmə gətirdi. Bu problemlər hər bir dövlət üçün spesifik və özünəməxsusdur. Azərbaycanda bütün mümkün addımlarla yanaşı, bir sıra sahələrdə problemlərin olduğu aşkarlandı. Bu məqalədə pandemiyanın birinci dalğası zamanı mövcud vəziyyət təhlil edilmiş, problemlər və uğur hekayəsinə nəzər yetirilmişdir.

Beləliklə, birinci dalğa zamanı qarşıya çıxan problemlərə işıq salaq. İlk növbədə bir sıra dövlət strukturlarının öz fəaliyyətlərində dəqiq, səhih informasiya bankına malik olmaması, ölkənin sosial, demoqrafik xəritəsi ilə bağlı dürüst mənzərə yaratmağı əngəlləyirdi. Bu səbəbdən ehtiyacı olanlara dəstək proqramında auditoriya statik deyil, dinamik və mütəhərrik səciyyə daşıdı. Bu xüsusilə əhalinin işsiz təbəqəsinə 190 manatlıq sosial dəstək layihəsinin tətbiqi zamanı auditoriyanın müəyyənləşdirilməsi vaxtı ortaya çıxdı. Prezident

İlham Əliyev videokonfrans rejimində keçirdiyi müşavirə zamanı birdəfəlik ödəmə ilə bağlı e-sosial.az saytına müraciət edən işsizlərin sayının kəskin artdığını dedi və araşdırılmasını tapşırdı: "Mənə verilən məlumata görə, son günlər ərzində müraciətlərin dinamikası çox sürətlidir və bu, müəyyən şübhələr doğurur. Dövlət orqanlarının kifayət qədər imkanı var ki, bu məsələ araşdırılsın və ehtiyacı olan insanlar dövlətdən yardım alsınlar" [5].

Yəni əgər Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi zamanında ölkənin sosial xərtəsini dəqiqliklə təqdim etsəydi, yaxud Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi işsiz əhalinin, qeyri-formal məşğul əhalinin statistik qiymətləndirməsini vaxtında aparmış olsaydı, o zanan bir qərara yeni yanaşmalara lüzum qalmazdı. Bu məqamla bağlı ölkə başçısı nazirlərlə görüşdə də öz xəbərdarlığını bildirdi.

İkinci məqam KİV-lərlə bağlı idi. İlk növbədə onu qeyd edək ki, pandemiya dövründə fədəkarlıq, böyük vətənpərvərlik, yüksək peşə etikası sərgiləyən mətbu orqanlar, jurnalistlərimiz xüsusilə fərqləndilər. Ancaq bəzi KİV-lər pandemiya sınağından üzüağ çıxa bilmədi. Belə ki, bir sıra rəsmi mətbu orqanlar istisna olmaqla, ictimai rəyə təsir gücü olan bir şox müstəqil saytlar, əfsuslar olsun ki, reytinq əldə etmək, gündəm yaratmaq naminə bu taleyüklü dönəmdə də peşə etikasına xilaf çıxırdılar. Bu məqam ölkə başçısının Bakı Dövlət Universitetinin yubleyində vurğuladığı bəzi ideoloji boşluqların mətbuatda təzahürlərindən biri idi.

Pandemiya dövründə sosial nəzarət, ictimai qınaq mühüm əhəmiyyətə malik olub, cəmiyyətin taleyüklü məsələlərində qərarqəbuetmədə ictimai iştirakçılığı zəruri hesab edirdi. Bu istiqamətdə bir sıra uğurlarla yanaşı, çatışmazlıqlar da özünü göstərirdi. Əfsuslar olsun ki, ictimai rəyin formalaşmasında, istiqamətlənməsində əsas rupor olan sosial mediada bəzi ictimai-siyasi qüvvələrin pandemiya dövründə ehtimal edilən problemlərə öz merkantil siyasi məqsədləri üçün fürsətcil mövqe sərgiləməsi, sosial barış sahəsində hələ bəzi problemlərin olduğunu, ideoloji istiqamətdə həlli vacib işlərin görülməsini aktuallaşdırdı. Ölkə başçısı pandemiya ilə mübarizə günlərində sosial mediadakı bu arzuolunmaz vəziyyətə də tez-tez münasibət bildirməli olur, ictimai rəyi düzgün istiqamətə yönəltməyə çalışırdı.

Digər məqam səhiyə, təhsil, fövqəladə hallar strukturlarının forsmajor situasiyalar üçün işlək mexanizm və resurslara malik olmalarını aktuallaşdırdı. Əlbəttə, pandemiya dövründə həkimlərin, onlayn fəaliyyət göstərən müəllimlərin cəfakeş fəaliyyəti danılmazdır. Ancaq məhz gözlənilməz vəziyyətlər qeyd olunan strukturlardan daha çevik resursların hərəkətlənməsini tələb edir.

Pandemiya dövründə bəzi QHT-lər istisna olmaqla üçüncü sektor yalnız mətbuatın qonağından sonra hərəkətlənməli oldu. Onların bu hərəkətliliyi də bir sıra hallarda imitasiya xarakterli oldu. Bu, heç şübhəsiz, üçüncü sektorun öz fəaliyyətinə yenidən nəzər yetirmə zərurətini gündəmə gətirdi.

Koronavirus (COVID-19) pandemiyası bir daha göstərdi ki, Azərbaycan sosial dövlət olaraq vətəndaşının yanındadır. Sosial Tədqiqatlar Mərkəzinin "Azərbaycanda pandemiya ilə mübarizə ictimai rəydə" analitik hesabatında [7] əks olunduğu kimi respondentlərin əksəriyyətinin (87,8 faiz) hər hansı problemlə qarşılaşacaqları təqdirdə dövlətin onlara dəstək göstərəcəyinə əminliyini ifadə etməsi bunu bir daha sübut edir. Tam əminliklə demək olar ki, Azərbaycan koronovirus pandemiyası ilə mübarizədən az itkilərlə çıxan azsaylı ölkələrdəndir. Bu uğurun əsasında xalq-dövlət rəhbəri birliyi, dövlətin sosial rifah dövləti mahiyyətində olmasıdır. Reallıq ondan ibarətdir ki, ölkənin rəhbəri həm də xalqın lideridir. İlham Əliyev ölkədə həm legitim, həm nüfuz hakimiyyətinə malik rasional-leqal liderdir. Ölkədə gerçəkdən Prezident-Xalq birliyi var və ölkə başçısı bu birliyin məntiqi nəticəsi olaraq "Biz birlikdə güclüyük!" şüarını bu günün və gələcəyin şüarı kimi ifadə etmişdir.

İstifadə olunmuş ədəbiyyat:

1. Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında tibbi maska istehsalı müəssisəsinin açılışında iştirak edib. /06.04.2020/ - https://president.az/articles/36333

2. Prezident İlham Əliyev Əmək və Əhalinin Sosial Müdafiəsi və İqtisadiyyat nazirlərinin iştirakı ilə videobağlantı formatında iclas keçirib. /17.04.2020/. URL: https://president.az/articles/36654

3. Prezident İlham Əliyevin Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbriki/ /19.03.2020/ - https://president.az/articles/36212

4. Prezident İlham Əliyevin təşəbbüsü ilə Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü keçirilib. /10.04.2020/ - https://president.az/articles/36412

5. Prezident İlham Əliyevin sədrliyi ilə ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində müşavirə keçirilib. /14.04.2020/ - https://president.az/articles/36526

6. "Azərbaycan Respublikasında əhalinin sağlamlığının qorunması və koronavirus infeksiyasına qarşı mübarizənin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. /19.03.2020/ - https://president.az/articles/36216

7. Azərbaycanda pandemiya ilə mübarizə ictimai rəydə. /Sosial Tədqiqatlar Mərkəzinin analitik hesabatı// "Azərbaycan barometri" jurnalı, 9-cu buraxılış, aprel 2020.

8. "Azərbaycan Respublikasında 2020-ci il üçün yaşayış minimumu haqqında" Azərbaycan Respublikasının Qanunu. /16.12.2019/. URL: https://president.az/articles/35202

9. "Xüsusi karantin rejimi dövründə sosial xidmətlər göstərilməsində iştirak edən işçilərin sosial müdafiəsinin gücləndirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. /14.04.2020/ - https://president.az/articles/36518/print

10. "Koronavirus (COVID-19) pandemiyası dövründə xüsusi karantin rejiminin tətbiq olunması ilə əlaqədar işsiz kimi qeydiyyatda olan şəxslərə birdəfəlik ödəmənin verilməsi şərtləri və qaydası"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabineti qərarı. /07.04.2020/. URL: https://nk.gov.az/az/document/4371/

11. "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. /19.03.2020/ - https://president.az/articles/36228

12. "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli 1950 nömrəli Sərəncamının 10.2-ci bəndinin icrası ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabineti Qərarı. /04.04.2020/. URL: https://nk.gov.az/az/document/4367/

13. Mehriban Əliyeva: "Əminəm ki, müdrik xalqımızın ən gözəl xüsusiyyətləri – ruh yüksəkliyi və mərdlik, mərhəmət və şəfqət, inam və məhəbbət sayəsində biz birlikdə bu ciddi çağırışın öhdəsindən gələcəyik". /18.03.2020/ - https://mehriban-aliyeva.az/news/node/848310

14. "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunu. URL: http://www.e-qanun.az/framework/39846

15. Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı. /25.03.2020/ - http://e-qanun.az/framework/44821

16. "Yeni növ koronavirus (COVID-19) pandemiyası ilə mübarizə şəraitində aztəminatlı ailələrə ünvanlı dövlət sosial yardımının verilməsi prosedurunun sadələşdirilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı, 1 aprel 2020-ci il.

Uzeyir Shafiev

Social policy of Azerbaijan during the coronavirus (COVID-19) pandemic

Abstract

The article is the subject of a sociological study of the measures of social protection of the Azerbaijan, the social policy of the state, success in combating the problems and the challenges they face during a new type of coronavirus pandemic. This article provides a comparative analysis of the global pandemic situation, the dynamics of the problem and its development, as well as preventive measures to prevent its spread. The philosophy of Azerbaijan's success story in the fight against the pandemic is also revealed, the contribution of the state to the lives of its citizens and to the world, community is analyzed. Moreover, the article examines the consequences of the pandemic on a global scale, emerging new realities and upcoming challenges in Azerbaijan.

Key words: coronavirus, pandemic, social support, social services, social policy, social protection, public solidarity

Узеир Шафиев

Социальная политика азербайджанского государства во время пандемии коронавируса (COVID-19)

Резюме

Представленная статья является предметом социологического исследования мер социальной защиты азербайджанского государства, социальной политики государства, успехов в борьбе с проблемами и стоящих перед ними задач во время нового типа пандемии коронавируса. В статье дается сравнительный анализ глобальной пандемической ситуации, ситуации в Азербайджане, принятых мер, динамики проблемы и ее развития, а также превентивных мер по предотвращению ее распространения. Также раскрывается философия истории успеха Азербайджана в борьбе с пандемией, анализируется вклад государства в жизнь своих граждан и в мировое сообщество . Вместе с этим, в статье рассматриваются последствия пандемии в глобальном масштабе, а также в Азербайджане, возникающие новые реалии и предстоящие задачи .

Ключевые слова: коронавирус, пандемия, социальная поддержка, социальные услуги, социальная политика, социальная защита, общественная солидарность.

NİFRƏT NİTQİ - HÜQUQİ, SİYASİ, MƏDƏNİ ASPEKTLƏRİ. HÜQUQİ TƏNZİMLƏNMƏSİ İLƏ BAĞLI DÜNYA TƏCRÜBƏSİ

Lalə ƏKBƏROVA
AMEA Hüquq və İnsan Haqları İnstitutunun doktorantı,
Milli Məclisin İnsan hüquqları komitəsinin eksperti
Bakı, Azərbaycan

E-mail: l.akbarova88@gmail.com

Xülasə. Məqalədə “nifrət nitqi”nin hüquqi, siyasi, mədəni aspektləri və onun tənzimlənməsində dünya təcrübəsi təhlil edilir. Qeyd olunur ki, son illərdə qanuni və siyasi leksikona daxil olan nifrət nitqi və nifrət cinayətləri insan haqlarını, insan ləyaqətini və bərabərliyini təhdid edir, sosial qruplar arasındakı gərginliyi artırır, ictimai asayişi pozur və dinc yanaşı yaşamağı təhlükə altına alır. Müxtəlif ölkələrdə bu sahədə müvafiq profilaktik və cavab tədbirlərinin olmaması ümumbəşəri dəyərlərə xələl gətirir.

Son illər nifrət nitqi ilə bağlı tədqiqatlar nisbətən geniş yayılıb və bir çox elm sahələri, o cümlədən hüquq, politologiya, dilçilik, mədəniyyətşünaslıq, mediologiya və s. problemin radikal tərəflərini öyrənir. Lakin buna baxmayaraq, nifrət nitqinin elmi termin kimi dolğun tərifi formalaşdırılmamışdır.

Məqalədə sosial mediada və COVID-19 pandemiyası dövründə nifrət nitqinin artması təhlil edilmişdir.

Dünyadakı "nifrət hüququ" təcrübəsi nəzərdən keçirildiyi zaman ifadə azadlığı ilə nifrət nitqindəki məhdudiyyətlər arasındakı paradoks və ziddiyyətlərin bu sahədə müsbət nəticələrin əldə olunmasına mane olduğu qeyd olunur.

Tədqiqatda dünya ölkələrində - Avropa Birliyi ölkələri, ABŞ, Yaponiya və digər ölkələrdə mövcud olan təcrübələrin müqayisəsi əsasında nifrət nitqinə və nifrət cinayətlərinə qarşı konkret tətbiq oluna bilən qanunvericilik nümunələri təhlil edilir. Azərbaycanda bu praktikanın tətbiqinin mümkün nəticələri ilə bağlı müəllifin qənaətləri təqdim edilir.

Sonda nifrət nitqinin ümumi qəbulunu yaxşılaşdırmaq, nifrət nitqi ilə mübarizə üçün mövcud standartları təkmilləşdirmək və nifrət cinayətlərinə qarşı tədbir görmək üçün qanuni müddəalara ehtiyac olduğu vurğulanır.

Açar sözlər: nifrət nitqi, hüquqi, siyasi, mədəni aspektlər, sosial şəbəkələr, nifrət cinayətləri, tənzimlənməsi, dünya təcrübəsi, Avropa Birliyi, ABŞ, Yaponiya, Azərbaycan

Giriş

Şiddət-aqressivlik və ekstremizm yaranandan bəri cəmiyyət və insan həyatının ayrılmaz hissəsi olmuşdur. Şiddətin səbəbi, mahiyyəti, təzahürü və aradan qaldırılmasının araşdırılması üzərində müxtəlif elm sahələrində - psixologya, pedaqogika, sosiologiya, politologiya və s. istiqamətlərdə tədqiqatlar aparılıb. Bununla yanaşı, XXI yüzillikdə şiddət və nifrət təzahürləri nə cəmiyyətdə insanlar arasında, nə də ki dünyada dövlətlər arasında nəinki aradan qaldırılıb, hətta daha da artıb.

Müasir dünyada dini, irqi, etnik və milli amillər, dözümsüzlüyün müxtəlif formalarının təzahürü, fanatizm, dini zəmində silahlı toqquşmalar bəzi bölgələrdəki ictimai-siyasi vəziyyəti və inkişaf meyillərini böyük ölçüdə müəyyənləşdirir.

Terrorizmin müxtəlif növlərinə qarşı mübarizə, millətlərarası və konfessiyalararası münaqişələrin davam etməsi, ölkənin təhlükəsizliyinə birbaşa təhdid olan milli və dini ekstremizmin artması ilə əlaqəli məsələlər Azərbaycan kimi polietnik və çoxkonfessiyalı bir çox dövlətlər üçün xüsusi aktuallıq kəsb edir. Müasir dövrdə xarici mənbələrdən yönəldilən separatçılıq, ksenofobiya, fanatizm və fundamentalizm kimi ziyanlı təlimlərin yayılmasına dəstək verilməsi açıq şəkildə özünü göstərir.

Terrorun miqyası, dövlətlərarası xarakteri ona qarşı mübarizə sistemini inkişaf etdirməyi, müxtəlif dövlətlərin səylərini uzunmüddətli perspektivdə əlaqələndirməyi zəruri edir.

Aparılan sosioloji tədqiqatlar, ictimai rəy sorğuları nəticəsində əldə edilən məlumatlar göstərir ki, prinsip etibarilə insanların əksəriyyəti şiddət və dözümsüz davranışı təqdir etməsə də, bir çox hallarda emosional-psixoloji səbəbləri əsas gətirərək belə davranışları müdafiə edirlər.

Bir çox ölkələrdə insanlar (yüzdə 33-42 %-ə qədər) həyatında tez-tez aqressiv hərəkətlər etdiyini, ictimai norma və qaydaları, ziddiyyətləri aydın başa düşsələr də, eyni zamanda sözügedən hərəkətə məcbur olduqlarını və yaxud bunu müəyyən hərəkətlərə cavab kimi etmək hüquqlarına sahib olduqlarını bildiriblər [34; 35].

Şiddət-aqressiya və nifrət, motivasiyasız təcavüz hallarının səviyyəsi tarixən başqa millətlərin-özgələrin nümayəndələrinə münasibətdə daha yüksək olub. Təsadüfi deyil ki, məhz bu səbəbdən də tarixən etno-siyasi münaqişələr, siyasi ekstremizm və ksenofobiya, millətçilik, şovinizm, antisemitizm, nifrətin ən ağır formalarından olan soyqırım, etnik təmizləmə, terrorçuluq siyasətinin tərəfdarları həmişə sui-istifadə edirlər. Sadəcə qarşıdurmalar deyil, şiddətin təşkilatlanmış təbliği, müxtəlif ölkələrdə onlarla hərbiləşdirilmiş ekstremist, terrorçu və s. təşkilatlar fəaliyyət göstərir, etnik, dini və sosial çəkişmələrin təbliğ olunduğu yüzlərlə çap məhsulu - qəzet, kitab, broşura nəşr olunur, abidələr ucaldılır. Bir çox Qərb ölkələrində islam dininin müqəddəs kitabı - Quranın yandırılması halları vaxtaşırı baş verib [31]. Yaxud Fransada “Charlie Hebdo” jurnalının Məhəmməd peyğəmbərin karikaturalarını dərc etməsi ilə bağlı baş verən proseslər də məlumdur [3]. ABŞ-da qaradərili C.Floydun ölümü ilə başlayan etiraz aksiyaları, yaxud pandemiya dövründə bir çox ölkələrdə çinli və asiyalılara qarşı nifrət əsaslı davranışlar da misal olaraq göstərilə bilər [4].

Hazırkı informasiya-kommunikasiya texnologiyalarının inkişaf etdiyi şəraitdə internetdə insanların aqressiv davranışlarının daha da artması müşahidə edilir.

Məqsədyönlü zorakılığın tətbiq edilməsinə haqq qazandırmaq, qanuni seçilmiş hökumətləri devirmək və s. üçün pozucu fəaliyyətlər, psixoloji təlimlər həm onlayn, həm də oflayn virtual mə-

kanda aparılır.

Sosioloqların fikrincə, getdikcə milli şovinizm ideologiyası təkcə əhalinin bir hissəsi deyil, həm də dövlət aparatı işçiləri, hərbi qulluqçular və hüquq-mühafizə orqanlarının əməkdaşları arasında dəstək tapır.

1. Nifrət nitqi, nifrət dili: anlayışların məzmunu və mənası

Nifrət dili/nitqi nədir? Nifrət nitqi emosional-duyğusal yüklü bir anlayışdır. Beynəlxalq insan haqları hüququnda bunun üçün qəbul edilmiş tərif yoxdur. Bir çoxları hesab edir ki, yalnız insan nifrət nitqi ilə qarşılaşdığı zaman onunla bağlı fikir yürütməyin mümkünlüyünü söyləyir, amma bunun meyarları çox vaxt qeyri-müəyyən və ya ziddiyyətlidir [41].

Kembric lüğətində bununla bağlı qeyd olunur: “Nifrət nitqi - irqi, dini, cinsi və ya cinsi oriyentasiya amilləri əsasında insana və ya insan qruplarına nifrət ifadə edən və ya şiddəti təşviq edən kütləvi nitqlər, çıxışlardır” [13].

Digər qisim tədqiqatçılara görə, "nifrətə təhrik etmə" - ümumiyyətlə hər hansı bir şəxsə və şəxslər qrupuna qarşı irq, milli mənşə, cins, fiziki qüsur, din və ya cinsi oriyentasiya kimi qrupa xas olan xüsusiyyətlərinə görə düşmənçiliyi və ya nifrəti ifadə edir” [1, s.1277-1279].

Dünya humanitar elmlərində nifrət nitqinin tədqiqi XX əsrin ortalarında elmin müxtəlif sahələrində eyni vaxtda başladı. Belə ki, 1954-cü ildə özünün inqilabi “Qərəzin təbiəti” kitabında amerikan psixoloqu Q.Olport tərəfindən verbal özünüifadə kimi təqdim olunan “zərərsizləşdirmə” – müasir dövrdə “nifrət nitqi” adlandırdığımız ifadəni ilk dəfə dilə gətirərək diskriminasiya edən qrupun fiziki şiddət göstərməsinə səbəb olacaq ilk addım kimi qiymətləndirilmişdir [2, s.14-15].

Elmi tədqiqatlarda “Hate speech” fenomeni nisbətən geniş əhatə dairəsinə son iki onillikdə çatmışdır: hazırda nifrət dilinə politoloqlar, hüquq müdafiəçiləri, linqvistlər və dünyanın hər bir tərəfindən digər humanitar elm nümayəndələri müraciət edirlər. Aydındır ki, onun yaranmasındakı çətinlik fenomenin kompleks, dissiplinlərarası yanaşma fonunda araşdırılmasını tələb edir.

Misal üçün macar linqvist D.Boromiş-Habaşinin tədqiqatlarında “nifrət dili” mədəni yanaşma kontekstində araşdırılır [5, s.44]. Lakin amerikan hüquqşünası K.U.Sandersin əsərində ədəbsizlik və nifrət nitqi arasındakı əlaqə izlənilir: müəllif ədəbsiz xarakterin təsviri ilə başlayıb nifrət nitqinə gətirib çıxaran deqradasiyanın hüquqi trayektoriyasını tərtib edir [39, s.91].

Dünyadakı alimlərin araşdırmalarında nifrət nitqindən istifadə etməyin zərərli nəticələrinə diqqət çəkilir. Müxtəlif demokratik ölkələrdə nifrət nitqini tənzimləmək üçün qanunvericilik tədbirləri Avropa və Amerika tədqiqatçılarının əsərlərində yer alır [32, s.201].

Nifrət nitqinin nitq hərəkətləri nəzəriyyəsi ilə əlaqəsi bir çox linqvistik və hüquqi əsərlərdə vurğulanmışdır [10].

Bəzi tədqiqatçılar nifrət nitqinin bir sosial fenomen kimi araşdırılmasını önəmli sayır, KİV-lərdəki nifrət manifestasiyasını etnik, dini və digər sosial mənsubluğa görə təsnifləşdirirlər. Hesab edilir ki, nifrət əhalinin müəyyən etnik qruplara qarşı düşmənçiliyinin verbal hala gətirilməsidir. Həmçinin, KİV-lərdə media və jurnalistlərin fəaliyyətinin təhlili tədqiqatçıların diqqət mərkəzindədir. Məsələn, media mətnlərində düşmənçiliyin nitqdə təzahürü ilə bağlı əsas strategiya və taktikalar təsvir edirlır. Jurnalistlərin sosial məsuliyyətinin artırılmasına yönəlmiş tədbirlərin həyata keçirilməsi vacib hesab edilir.

Bütövlükdə, hazırda nifrət nitqi hüquq, linqvistika, media və s. sahələr çərçivəsini aşaraq, siyasət, dövlət

idarəçiliyi və cəmiyyətdə qarşılıqlı münasibətlər kimi sosial sistemin ən mühüm məsələsinə çevrilib.

Hər hansı digər sosial fenomen kimi "nifrət nitqi" də bir tərəfdən meydana çıxması və fəaliyyət göstərməsi üçün müəyyən şərtlərə malikdir, digər tərəfdən də cəmiyyətin inkişafını əvvəlcədən müəyyənləşdirir. Məsələn, "1990-cı illərdə Amerikadakı bir sıra təhsil müəssisələrində nifrət nitqinin tənzimlənməsinə başlanılması cəmiyyətdəki müəyyən hüquqi, siyasi və sosial proseslərin müzakirəsini canlandırıb. S.Qoş yazır ki, Cənubi Asiyada son iyirmi ildə fərdi dini və ya etnik toplumlara vəhşicəsinə zülm edən sağçı hərəkatların ortaya çıxması ilə nifrət nitqinin qanuni tənzimlənməsi ilə bağlı mübahisələr meydana çıxıb.

J.Ualdron nifrət nitqindən istifadənin yalnız ayrı-seçkiliyə və şiddətə yol açdığını deyil, eyni zamanda cəmiyyətdə real kabuslar yaratdığını qeyd edir. O, nifrət nitqini sosial mühitə ekoloji təhdid yaradan, tədricən təsir edən bir zəhər kimi təsvir edərək nəticədə hətta cəmiyyətin xoşməramlı üzvlərini belə cəmiyyətin rifahına dəstək olmaqda maneə törədəcək bir element kimi qələmə verir [44, s. 4].

Ümumi qənaətə görə, nifrət nitqinin sosial baxımdan təhlükəli bir fenomen kimi öyrənilməsinə böyük ehtiyac var. Belə ki, bu aspektlər yalnız hüquq elminin maraq dairəsi ilə yekunlaşmır. Qanunvericiliklə insan nitqi və onun fəaliyyəti, dünyagörüşü, baxışları, mədəniyyəti, əxlaqı və s. arasındakı əlaqə, ilk növbədə, nitq fenomeninin nisbi müstəqilliklə yanaşı, bir çox xüsusiyyətlərin vəhdətini ifadə etməsi ilə bağlıdır. Nifrət nitqinin sosial bir fenomen olması onun nəticələrinin ikiqat zərər verməsi ilə aşkara çıxır. Bu zərər, birincisi, şəxslərə və qruplara qarşı yönəldilib, psixoloji və mənəvi ziyan vurur. İkincisi, bütövlükdə dövlətə, onun sosial və mənəvi quruluşuna qarşı yönəlməklə sabitliyin, birgəyaşamın əsaslarını sarsıda bilir [37, s.200].

2. Nifrət dili/nitqi necə müəyyən edilir? İfadə hüququ və nifrət nitqi arasındakı kövrək sərhədlər

BMT-nin ifadə azadlığı üzrə xüsusi məruzəçisi Devid Key nifrət nitqi və ifadə azadlığı arasındakı nisbətlə bağlı yazır: "Beynəlxalq insan hüquqları sahəsində qanunları diqqətlə təhlil etsək, ilk baxışda bir-birinə əks, paradoksal görünən dəyərləri əks etdiyini görərik: Qanunlar bir tərəfdən ifadə azadlığı hüququnu təmin edir və bu hüquq ciddi qorunur. Eyni zamanda, digər tərəfdən ayrı-seçkilikdən və şiddətdən azad olmaq, ictimai həyatda iştirak etmək hüququ mövcuddur. Bəzən ifadə azadlığı hüququnun digər hüquqlara zidd olduğunu görürük. Beləliklə, dilemma ortaya çıxır. Problemin həlli beynəlxalq hüququn müddəalarında mövcuddur. Beynəlxalq hüquq şiddətə, ayrı-seçkiliyə və düşmənçiliyə təhrik edən milli, irqi və ya dini nifrətin təbliğinin qanunla qadağan olduğunu bildirir." Bu cür hadisələr cinayət təqibinə məruz qalmasa da, aşkar şəkildə onların qanunsuzluqlarına dəlalət edir. Nifrət nitqinin qanuni bir tərifi hələlik müəyyən edilməyib. Bu, bir konsepsiya kimi gündəlik həyata daxil olub. Aydın olan odur ki, nifrət nitqi məhdud olmalıdır və bunun üçün meyarlar var. Bu cür ifadələr digərləri kimi tənzimlənməlidir, yəni hökumət tətbiq olunan məhdudiyyətlərin zəruri, qanuni olduğunu, yəni açıq şəkildə formalaşdırıldığını və hökumətin tətbiq etməsinə icazə verməməsini, onun təqdirini və istifadəsinin haqlı olduğunu sübut etməlidir [28].

Avropa Şurası Nazirlər Kabinetinin R (97) 20 saylı tövsiyəsinə görə, nifrət nitqi – kesonofobiya, antisemitizm, təhrik etmə, stimullaşdırma, yaxud nifrə-

tin digər təzahürlərinin yayılması kimi özünüifadə formalarının bütün növləri, eyni zamanda aqqressiv milliyyətçilik, etnosentrizm, azlıqlara, miqrantlara və emiqrantlara qarşı diskriminasiya kimi izah edilir. Dzyaloşinskinin qeyd etdiyi kimi, "nifrət nitqi" ifadəsi "nitq təcavüzü" konsepsiyasının məcazi bir ekvivalentidir və danışanın təcavüzkar vəziyyətindən irəli gələn spesifik nitq davranışı formasını bildirir [46, s.63].

"ARTİCLE 19" təşkilatı dünyada ifadə azadlığının və bərabərliyin qorunması istiqamətində fəaliyyət göstərir [17]. Təşkilat nifrət nitqi sahəsində də vaxtaşırı təlimatlar hazırlayır. Bu cür təlimatların birində "ARTİCLE 19" təşkilatı "nifrət nitqi/nifrət dili" ifadəsinin definisiyası, mənası və belə hallara qarşı hüquqi qanunverici əsaslarla səmərəli mübarizə aparılmasının bəzi məqamları ilə bağlı təlimat təqdim edib.

Hazırkı dövr üçün bu sahədə ortaya çıxan suallar belə təsnifləşdirilir:

1. Məhdudlaşdırılması zəruri olan "nifrət dili"ni necə müəyyənləşdirmək, onu necə ayırd etmək olar?

2. Nifrət nitqinə qarşı müxtəlif dövlətlər tərəfindən nə kimi tədbirlər görülür?

3. Nifrət nitqi hansı kateqoriyalar və hansı şərtlərlə dövlət tərəfindən qadağan edilməlidir?

Əvvəla, qeyd edilməlidir ki, beynəlxalq hüquqda nifrət nitqinin ümumən qəbul edilmiş vahid tərifi yoxdur. Daha doğrusu, hələlik geniş ifadələri əhatə edən ümumi bir anlayışdır.

4. Bununla belə, insan hüquqları sahəsində dövlətlərin beynəlxalq hüquqi öhdəliklərini rəhbər tutaraq, şiddət dərəcələrindən asılı olaraq nifrət nitqinin müxtəlif formalarını tanımaq və ayırmaq üçün bir tipologiya təklif edir. O cümlədən, dövlətin beynəlxalq hüquqa uyğun olaraq qadağanı tətbiq etmək məcburiyyətində olduğu nifrət nitqinin ən aşkar formaları və müstəsna halların bir qismi barədə mənbələr mövcuddur.

Həmçinin, beynəlxalq qanunlara görə, hər bir dövlətin beynəlxalq öhdəliyinə əsasən nifrət nitqini məhdudlaşdıra biləcəyi hallar var. Buraya bu cür qadağalardan sui-istifadə hallarının qarşısını almaq və sanksiyalar tətbiq olunarsa, onların ağlabatan və mütənasib olmasını təmin etməklə yanaşı "nifrət dili" qurbanlarına dəstək və təzminat təmin etmək barədə təlimatlar daxildir.

Nifrət nitqinin nə olduğunu ayırd etmək üçün ilk növbədə bir-biri ilə qarşılıqlı bağlı olan iki hüququn vacibliyini başa düşmək lazımdır:

- ifadə azadlığı;
- bərabərlik hüququ [18].

İfadə azadlığı hüququ Ümumdünya İnsan Haqları Bəyannaməsinin (ÜİHB) 19-cu maddəsi ilə təmin edilmiş və insan hüquqları üzrə bütün əsas və regional müqavilələr tərəfindən qanuni olaraq qəbul edilmiş əsas insan hüququdur. Doğrudur, ÜİHB dövlətlər üçün məcburi qanuni sənəd deyil. Bununla yanaşı, onun bir çox müddəalarının qəbul edildiyi vaxtdan bəri adi beynəlxalq hüquq statusu aldığı güman edilir.

Beynəlxalq hüquq hamı üçün bərabərlik hüququnu və ayrı-seçkiliyin qadağasını müəyyən edib. İnsanın şərəf və ləyaqətinin ayrı-seçkilik qoyulmadan qorunması məhz nifrət dilinin müəyyən edilməsində açar rolunu oynaya bilər.

Nifrət nitqi və nifrət cinayətləri fərdi hüquqlarını, insan ləyaqətini və bərabərliyini təhdid edərək, sosial qruplar arasındakı gərginliyi gücləndirərək, ictimai barışı və ictimai asayişi pozaraq və dinc yanaşı yaşamağı təhlükə altına alaraq cəmiyyətləri zəhərləyir. Sosial birliyi, həmrəyliyi və cəmiyyət üzvləri arasındakı inamı azaldır. Nifrət nitqi heç bir demokratiyanın mövcud ola bilməyəcəyi rasional ictimai müzakirələrə maneə törədir, bu qanunun aliliyinə təhlükə yaradan hüquqların sui-istifadəsinə səbəb olur. Nifrət və nifrət cinayətləri son on ildə durmadan artmaqdadır.

Ən arzuolunmaz hal odur ki, Avropa Birliyinə üzv bəzi ölkələrdə nifrət nitqinin siyasətə çevrilməsi dövlət idarəçiliyinin ən yüksək səviyyəsində ortaya çıxmağa başlayıb.

Heç bir cəmiyyət nifrət təzahürlərinə qarşı immunitetə malik deyil. Bununla yanaşı, nifrətin dərinləşməsi sosial mühit və görülə biləcək tədbirlərdən asılıdır. İstər nitqlə, istər hərəkətlə, istərsə də hərəkətsizliklə dövlətin reaksiyası müəyyən sosial normalar yaradır və mövcud standartlar barədə cəmiyyəti məlumatlandırır.

Son akademik ədəbiyyata görə, nifrət nitqinə qarşı əks-nitq (counter speech) irqçilik və digər dözümsüzlüklə mübarizə çox vacibdir. Əks nitq-çıxış dəstəklənməlidir, təhsil, məlumatlandırma və iqtisadi bərabərsizlikləri aradan qaldırmaq üçün sosial proqramların reallaşması, nifrət cinayətləri ilə mübarizə üçün institusional sistemin gücləndirilməsi zəruri hesab edilir.

3.Nifrət dili beynəlxalq hüquq, normativ aktlar və sənədlərdə

Hər il iyulun 22-də "Avropa Nifrət Cinayətləri və Qurbanları Günü" qeyd edilir. ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu (DTİHB) 2008-ci ildə "Nifrət Cinayət Qanunları/Praktiki Rəhbər prinsiplər"adlı sənəd hazırlayıb. Sənədlə bağlı müzakirələrdə Azərbaycandan Baş Prokurorluq təmsilçiləri iştirak edib. Sənəddə problem kimi cavab axtarılan əsas suallardan biri budur: Nifrət cinayətləri: yeni cinayət növü, yoxsa mövcud cəzaların daha da sərtləşdirilməsidir? Ümumilikdə, DTİHB nifrət qanunvericiliyinin işlək olması və cəzanın ədalətli və adekvatlığı probleminin həllinə nail olmaq üçün əsas suallara cavab verilməsini vacib hesab edir. Belə ki, zorakılığa çağırış olmayan nifrət nitqlərinin qadağan olunması ifadə azadlığı hüququ ilə "toqquşa" bilər. Rəhbər prinsiplərdə nifrət qaninvericiliyində həlledici olan aşağıdakı 5 strateji sual irəli sürülür:

Strateji sual 1: Qanunda yeni cinayət növü müəyyən edilməlidir, yoxsa mövcud cinayət növlərinə görə daha sərt cəzaların verilməsi kifayətdir?

Strateji sual 2: Qanuna hansı qorunmalı olan xüsusiyyətlər daxil edilməlidir?

Strateji sual 3: Qanunda cinayətin motivi necə müəyyənləşdirilməlidir?

Strateji sualı 4: Qurbanın kimliyi ilə bağlı mənsubiyyət, aidiyyət və yanlış anlama məsələləri necə həll edilməlidir?

Strateji sual 5: Hansı motivlərin sübutu tələb olunur və zəruri motivasiya dərəcəsi nə qədərdir? [47].

Nifrət cinayətləri müəyyən bir sosial qrupa qarşı dözümsüzlükdən qaynaqlanan cinayət növüdür. Bu cür cinayətlər konkret bir şəxsə qarşı deyil, bütün sosial qrupa qarşı yönəldilməsi ilə xarakterizə olunur. Qərb ölkələrində sağçı və solçu populizm və ekstremizmin artmasının trendə çevrilməsi fonunda nifrət cinayətləri ilə bağlı qanunlar, bir çox ölkədə irqçi və ya digər qərəzli motivlərlə törədilən cinayətləri daha sərt tənzimləyən qanunlar haqqında uzun illərdir müzakirələr aparılır.

Son illər qanunun aliliyi, demokratiya və təməl hüquqlardan ibarət üçlükdə dünya səviyyəsindəki tənəzzül prosesləri baş verir. Paralel olaraq dövlətlər cəmiyyətdəki nifrəti aradan qaldırmaqda hələlik nəinki uğursuz görünür, həmçinin buna təhrik edən mühiti də formalaşdırır. BMT-nin Xüsusi məruzəçisinin qeyd etdiyi kimi, müasir irqçilik, irqi ayrı-seçkilik, ksenofobiya, siyasi ritorika, xüsusən millətçi populist ideologiyalar ayrı-seçkilik və dözümsüzlüyü artıraraq bərabərliklərə təhdid yaradır.

2019-cu ilin mayında Avropa Parlamentinə (AP) seçkilərdən əvvəl AP-nin üzvləri Avropadakı neofaşist zorakılığa dair bir qərar qəbul edilməsinə ehtiyac duydular. Məhkəmə "siyasətçilər və

dövlət məmurları tərəfindən cəmiyyətdə nifrət və şiddəti birbaşa normallaşdırdıqları və gücləndirdikləri üçün nifrət nitqlərini qınadı.

İnsan hüquqları, cinayət və ədalət arasındakı hüdudlarda yerləşən nifrət cinayətləri məsələsini həll etmək üçün çoxşaxəli tənzimləmə və ortaq bir məsuliyyətin formalaşması önəmlidir.

Beynəlxalq hüquq nifrətin sosial fenomen olaraq qarşısının alınması və aradan qaldırılması üçün təlimatlar verir. Bununla yanaşı, nifrət nitqi və nifrət cinayətləri ilə səmərəli mübarizə tədbirlərinin həyata keçirilməsi dövlətlərin öz əllərindədir. Milli dövlət səviyyəsində bu məqsədə çatmaq üçün güc strukturları - polis, prokurorluq, məhkəmə, zərərçəkmişlər, vətəndaş cəmiyyəti təşkilatlarının əməkdaşlığına ehtiyac yaranır.

Müəyyən bir sosial qrupun nümayəndələrinə qarşı verbalizasiya və ya digər düşmənçiliyin təzahürü ilə bağlı beynəlxalq birliyin mövqeyi nifrət nitqinin istifadəsini məhdudlaşdırmağa yönəlmiş beynəlxalq müqavilələrin qəbul edilməsi ilə təsdiqlənir.

Milli "nifrət qanunvericiliyinin", aktları və normalarının tətbiqinin məqsədi ümumi qənaətə görə, nifrət cinayətlərindən zərər çəkənlərin minimum və şərti nisbi xarakterli qorunmasının təmin edilməsidir.

Tədqiqatçıların bu sahədə araşdırmaları cəmiyyətdə ciddi qarşıdurma problemlərinin həllində cinayət qanunvericiliyinin müsbət təsirini vurğulayır [40].

Məsələyə ümumi baxış, həm də belə bir məqamı üzə çəxarır ki, nifrət cinayətləri qanunlarının və ya müddəalarının işləməsi üçün dövlətlərin demokratiya və qanunun aliliyi baxımından müəyyən bir yetkinlik səviyyəsinə çatması lazım gəlir. Bütün hallarda ilk vacib məsələ qanun yaradıcılığının faydasının dərk edilməsidir. Sosial gərginliyi həll etmək üçün cinayətkarlıqla bağlı qanunvericilikdə Cinayət Məcəlləsinin dəyişdirilməsi sosioloji, iqtisadi və tarixi amilləri aradan qaldırmaq üçün təsirli addımlar atmaqdan daha ucuz, daha sadə və daha sürətli başa gəlir. Bununla yanaşı, nifrət cinayətlərinin təsnifləşdirilməsi çətinliklər yaradır. Azlıqlar adlanan kateqoriyaları qorumaq üçün qanunvericilik tələb olunur. Bu da hakimiyyət qollarının mükəmməl qanunlar hazırlaya biləcəyini şübhə altına alır. Onlar xalq dəstəyini itirmək qorxusundan problemi azalda bilər, güc mənasında əksəriyyətin və azlığın qorunmasının bərabərləşdirilməsində israr edə və ya eyni səbəblərdən qorunan qrupların açıq bir siyahısını hazırlaya bilərlər. Məhkəmə işlərinin tədqiqi onu göstərir ki, yetkinləşmiş demokratiyanın formalaşmadığı cəmiyyətlərdə qanunverici orqanlar populyar olmayan sosial qrupların qorunmasını tənzimləmək üçün ağlabatan həll yolları hazırlamağa həvəsli deyil.

Burada digər məsələ məhkəmə sisteminin məsuliyyətinin ortaya çıxmasıdır. Belə ki, bir çox vəziyyətlərdə, istənilən məhkəmə qərarları günahkarların cəzasız qalması ilə nəticələnə bilər.

Ədalət sistemi daxilində nifrət cinayətləri sənədlərini heç olmasa minimum dərəcədə qəbul etməyən ölkələrdə məhkəmə sistemi hüquqşünasın səhvlərini aradan qaldırmaq kimi korrektləşdirici funksiyasından istifadə edə bilmir.

Radikallaşma, irqçilik, ksenofobiya, antisemitizm, çoxşaxəli fobiyaların baş verdiyi cəmyyətlərdə nifrət cinayətləri ilə bağlı qanunlar ya istifadə edilməmiş qala, ya da əks nəticə verə bilər.

Birinci ssenarinin əks effekti odur ki, tarixən qeyri-populyar sayılan məzlum və həssas qruplara simvolik himayədarlıq etmək əvəzinə, dövlət irqçiliyin gündəlik mövcudluğunu etiraf etmir, antisemitizm, ksenofobiya, dini dözümsüzlük və homofobiya qurbanların təcrübələrini əhəmiyyətsiz hesab edir, yaxud da görməzdən gəlir. Buna misal olaraq, faktiki

nifrət cinayətlərinin yalnız kiçik bir hissəsini əks etdirən, sosial fenomen kimi nifrət dilinin mövcudluğunu təhrif edən statistikaya nəzər salmaq kifayətdir. İkinci ssenari daha arzuolunmazdır. Belə ki, bu halda məhz məhkəmələr ilk növbədə qorumalı olduğu qruplara qarşı qanunun aliliyi, bərabərlik və insan ləyaqəti kimi əsas dəyərləri inkar edən qrupların lehinə hökm çıxarır. Hüquqlardan sui-istifadə ilə nəticələnə bilən məhkəmə qərarları ilə məhkəmələr təməl dəyərlərə hücum edənlərə rəğbətlə yanaşaşır (İnsan Hüquqları üzrə Avropa Konvensiyasının 17-ci bəndi).

Bütövlükdə, aidiyyəti qurumlar, səmərəli prosedurlar və insan haqlarına uyğun sosial mühit nifrət cinayətlərinə qarşı effektiv mübarizənin reallaşdırılması üçün son dərəcə vacibdir. Bu isə yalnız nifrət dili ilə bağlı yuxarıdakı tövsiyələr yerinə yetirildikdə əldə edilə bilər. Nifrət cinayətləri müddəalarının tətbiqi və cəzanın artırılması kimi "keçmiş, postfaktum" cavablar müxtəliflik, tolerantlıq və şəffaflığın təşviqi ilə birlikdə olmalıdır.

İfadə azadlığı hüququ Ümumdünya İnsan Haqları Bəyannaməsinin 19-cu maddəsində təsbit edilmişdir: "Hər kəsin fikir və ifadə azadlığı vardır; bu hüquqa heç bir maneə olmadan inancını davam etdirmə azadlığı və dövlət sərhədlərindən asılı olmayaraq hər hansı bir vasitə ilə məlumat və fikir axtarma, əldə etmə və yayma azadlığı daxildir". 1966-cı ildə BMT-nin Baş Assambleyası tərəfindən qəbul edilmiş Mülki və Siyasi Hüquqlara dair Beynəlxalq Paktın 19-cu maddəsində qeyd olunur.

Məlum olduğu kimi, Azərbaycan da daxil olmaqla, müxtəlif milli dövlətlərin konstitusiyalarında müvafiq maddələrə uyğun olaraq, beynəlxalq hüququn ümumi tanınmış prinsipləri, normaları və beynəlxalq müqavilələr milli hüquq sisteminin ayrılmaz hissəsi kimi təsbit edilir.

BMT Baş Assambleyasının 21 dekabr 1965-ci il tarixli 2106 (XX) saylı qərarı ilə təsdiq edilmiş "İrqi ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılmasına dair Beynəlxalq Konvensiya"nın 4-cü maddəsində qeyd olunur: "Üzv dövlətlər irqi üstünlüyü təbliğ edən və ya nifrətə əsaslanan fikirləri yaymaq, irqi ayrı-seçkiliyi təhrik etmək kimi istənilən fəaliyyətin yayılmasını qanunla cinayət hesab edir, eyni zamanda istənilən irqə və ya etnik müxtəlifliyə malik insanlar qrupuna qarşı təcavüz və irqçi fəaliyyətləri və onların maliyyələşdirilməsini cinayət adlandırır".

Bununla yanaşı, daha ümumi xarakterli bir çox beynəlxalq akt, məsələn, 16 dekabr 1966-cı il tarixli "Mülki və Siyasi Hüquqlara dair Beynəlxalq Pakt", 4 noyabr 1950-ci il tarixli "İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi üzrə Avropa Konvensiyası" media azadlığını elan edərək, bu hüququn həyata keçirilməsi üçün müvafiq məhdudiyyətlər müəyyən edir.

Mülki və Siyasi Hüquqlara dair Beynəlxalq Pakt

Maddə 19.2. Hər kəsin öz fikrini sərbəst ifadə etmək hüququ vardır; bu hüquqa dövlət sərhədlərindən asılı olmayaraq şifahi, yazılı və ya bədii ifadə yolu ilə və ya seçdikləri digər üsullarla hər cür məlumat və fikir axtarmaq, yaymaq və yaymaq azadlığı daxildir.

3. Bu maddənin 2-ci bəndində nəzərdə tutulmuş hüquqlardan istifadə xüsusi vəzifə və məsuliyyət daşıyır. Buna görə də, qanunla müəyyən edilmiş və zəruri olan müəyyən məhdudiyyətlərə məruz qala bilər: a) başqalarının hüquqlarına və nüfuzuna hörmət etmək üçün, b) dövlət təhlükəsizliyinin, ictimai qaydanın, sağlamlığın və ya əhalinin mənəviyyatının qorunması üçün.

Maddə 20.1. Müharibə ilə bağlı hər cür təbliğat qanunla qadağan edilməlidir. 2. Ayrı-seçkiliyə, düşmənçiliyə və ya

şiddətə təhrik edən milli, irqi və ya dini nifrət lehinə hər hansı bir çıxış qanunla qadağan edilməlidir.

Avropa İnsan Hüquqları və Əsas Azadlıqlarının Müdafiəsi üzrə Konvensiya

Maddə 10. İfadə azadlığı. 1. Hər kəsin fikirlərini sərbəst ifadə etmək hüququ vardır. Bu hüquqa fikir sərbəstliyi, dövlət orqanlarının və dövlət sərhədlərindən asılı olmayaraq heç bir müdaxilə etmədən məlumat və fikir almaq və yaymaq azadlığı daxildir. <...>.

2. Vəzifə və məsuliyyət daşıyan bu azadlıqların həyata keçirilməsi nizamsızlığın və cinayətlərin qarşısını almaq, sağlamlığı və əxlaqı qorumaq, başqalarının nüfuzunu və ya hüquqlarını qorumaq, gizliliklə alınan məlumatların açıqlanmasının qarşısını almaq və ya məhkəmə hakimiyyətinin səlahiyyət və qərəzsizliyini təmin etmək üçün qanunla müəyyən edilmiş və demokratik bir cəmiyyətdə milli təhlükəsizlik, ərazi bütövlüyü və ya ictimai asayiş baxımından zəruri olan bəzi rəsmiyyətlərə, şərtlərə, məhdudiyyətlərə və ya sanksiyalara məruz qala bilər.

Avropa Birliyi də öz növbəsində nifrət nitqi ilə bağlı addımlar atıb. 1997-ci ildə Avropa Şurası Nazirlər Komitəsi, irqçilik, ksenofobiya və antisemitizmin yenidən canlandığını qeyd edərək, eyni zamanda ifadə azadlığının vacibliyini qəbul edərək, üzv dövlətlərin hökumətlərinə nifrət nitqi ilə mübarizə tədbirləri görmələrini tövsiyə edib (Tövsiyə, 1997). Hüquq professoru A.Cesisin fikrincə, indiki mərhələdə ayrı-seçkilik xarakterli bəyanatların ictimaiyyət arasında yayılmasını qadağan edən cinayət qanunlarının tətbiqi dünya demokratiyalarında ümumi bir tendensiyadır.

1948-ci ildə Ümumdünya İnsan Haqları Bəyannaməsinin (UHHR) qəbul edilməsi ilə BMT-yə üzv dövlətlər bütün insanların irqinə, etnik mənşəyinə, rənginə, dini mənsubiyyətinə, şəxsiyyətinə, cinsi oriyentasiyasına və s. fərq qoymadan azad doğulduqlarını, ləyaqət və hüquqlarına görə bərabər olduqlarını qəbul ediblər.

1948-ci ildə BMT Baş Assambleyası tərəfindən yekdilliklə qəbul edilmiş "Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılmasına dair Konvensiya"nın 3-cü maddəsinə görə, soyqırım törətməyə birbaşa və kütləvi çağırış beynəlxalq qanunlara əsasən cinayət kimi cəzalandırılır. Dövlətlər bu cür cinayətlərin qarşısını almağı və cəzalandırmağı öz öhdələrinə götürürlər. Konvensiyada soyqırım dar mənada: milli, etnik, irqi və ya dini qrupu tamamilə və ya qismən məhv etmək niyyəti ilə törədilən əməl kimi təsvir olunur (Maddə II).

Genosid konvensiyası qismən Beynəlxalq Hərbi (Nyunberq) Tribunalı əsasında qurulmuşdu [24].

Yuqoslaviya Beynəlxalq Tribunalı da eyni zamanda 3-cü maddəni müzakirə etmiş, lakin "serb olmayan əhalinin qovulması və müharibəyə çağırış" ifadələri arasındakı səbəb və nəticə əlaqələrini qura bilməmişdi.

Elmi ədəbiyyat genosidi "sistematik və dövlətin əmrinə əsaslanan" hərəkət kimi fərqləndirsə də, ictimai qruplara qarşı ən çirkin təzahür də adlandırıla bilər. Genosid Konvensiyası ilə qorunan milli, etnik, irqi və dini qruplar bir çox cinayət məcəllələrində nifrət cinayətlərinə dair xüsusi statusa sahibdir.

1965-ci ildə qəbul edilmiş "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi üzrə Beynəlxalq Konvensiya"nın (ICERD) 4-cü və 6-cə maddələri bütün genişmiqyaslı ayrı-seçici nitq və fəaliyyətləri qadağan edir. Konvensiya həmçinin dövlətlərdən istənilən irqi, dini, etnik qrupa mənsubiyyəti ilə bağlı nifrət nitqinin dövlətlər tərəfindən cəzalandırılmasını tələb edir. Bundan əlavə, Konvensiya dövlətlərin irqi diskriminasiyaya qarşı cinayətlərin qarşısını almaq

üçün möhkəm institusional və leqal bazaların yaratmalı olduqlarını vurğulayır.

1966-cı ildə qəbul edilmiş "Mülki və siyasi hüquqlara dair Beynəlxalq Pakt" (ICCPR)" (1976-cı ildə qüvvəyə minib), xüsusilə onun 19-cu maddəsi ilə birgə təfsir edilmiş 20-ci maddəsini "nifrət nitqinə" dair ən münasib beynəlxalq təminat hesab etmək olar. Baxmayaraq ki, onun tərifi kifayət qədər dar şəkildə (milli, irqi və ya dini nifrət) müəyyən edilmişdir. Nifrətin qəsdən və kütləvi şəkildə təbliği müdafiə olunan "nifrət"in ayrı-seçkiliyə, düşmənçiliyə və ya zorakılığa, yəni qanunsuz maddi hərəkətlərə təhrik etməməsi nəzərdə tutulur. Paktın 6-cı və 7-ci maddələri 26-cı maddə ilə yanaşı yaşamaq hüququnu əsas götürərək qəddarlıq, işgəncə, insanlığa sığmayan hərəkətləri qadağan edir və hakimiyyətlərə zərərçəkmişin hansı qrupa mənsub olmasından asılı olmayaraq substantiv hüquqlarını təmin etmək məsələsini öhdəlik kimi qoyur.

"Əlil Hüquqları Konvensiyasının" (CRPD) (2006-cı ildə qəbul edilmişdir) 16-cı maddəsində üzv dövlətlərdən əlilləri gender faktorundan asılı olmayaraq hər cür istismar, şiddət və sui-istifadə hallarından qorumaq üçün bütün lazımi tədbirləri həyata keçirmək öhdəliyini tələb edir.

Yuxarıda göstərilən beynəlxalq müqavilələrdən başqa, BMT çərçivəsində nifrət nitqinə qarşı həyata keçirilən müxtəlif debatlar və proqramlar da qeyd edilməlidir. XXI əsrdə baş verən böyük fikir ayrılıqlarından biri dini kimliklə bağlı ifadə azadlığı, küfr və nifrət nitqinin fərqləndirilməsi ilə bağlı idi. BMT-nin 16/18 saylı qətnaməsi bu ziddiyyəti həll etmək məqsədini daşıyırdı və "Rabat Fəaliyyət Planı" onun həyata keçirilməsinə rəhbərlik edəcək bir vasitə kimi hazırlanmışdı.

Rabat Fəaliyyət Planı etiraz, təhqiramiz, lakin cəzalandırılmayan ifadələr və qanunsuz olan nifrət ifadələri arasındakı hüdudların müəyyənləşdirilməsinə imkan verən, altı hissədən ibarət bir "test" mexanizmi təyin edir.

Altı amil bunlardır: 1. kontekst, 2.danışanın kimliyi, 3.niyyət, 4.məzmun və forma, 5.nitqin çatma dərəcəsi, 6.miqyası və zərər vurma ehtimalı. Rabat Fəaliyyət Planının xüsusi əhəmiyyəti, onlayn danışığı nitqdən ayırmağı bacaran, daha yüksək sosial təsir göstərə bilən fərq amillərini qabartmasıdır.

2018-ci ildə BMT-nin baş katibi "BMT-nin nifrət nitqinə dair Strateji Fəaliyyət Planı"na start verdi. Təşəbbüs qlobal nifrət nitqinin yüksələn trendə çevrilməsinə və ölkələrdə mövcud olan demokratik dəyərləri təhdid etməyə başlamasına cavab idi. Strateji Fəaliyyət Planı heç bir qanuni nitq məhdudiyyətlərindən bəhs etmədən dözümsüzlüyə qarşı mübarizədə kompleks sosial və siyasi strategiyanı təmsil edən 13 əsas öhdəliyi müəyyənləşdirdi. Strateji plan tədqiqat və məlumat təhlili yolu ilə səbəbləri axtarmağa, məlumat yaymaq və strateji ünsiyyət, habelə təbliğat şəklində əks nitq tətbiq etməyə əsaslanır.

Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Demokratik Təsisatlar və İnsan Haqları Bürosu (DTİHB) nifrət cinayətlərinə xüsusi diqqət ayırır. ATƏT DTİHB nifrət cinayətləri ilə mübarizə üzrə milli dayaqları, sivil toplum təşkilatları və beynəlxalq təşkilatlarla birlikdə iştirakçı dövlətlərə nifrət cinayətlərinə təsirli şəkildə baxan qanun layihələri və ədalət sistemlərinin hazırlanmasında kömək edir. Dövlət məmurları, QHT və beynəlxalq təşkilatlar arasında nifrət cinayətləri barədə məlumatlılığı artırır və nifrət cinayətlərinin izlənilməsində və bildirilməsində vətəndaş cəmiyyətini dəstəkləyir.

Avropa İnsan Haqları Məhkəməsi (AİHM) və nifrət nitqi

İfadə azadlığı, xüsusilə siyasi ifadə azadlığı demokratiyanın təməl daşı-

dır. Lakin onun da məhdudiyyətləri var. Məhdudiyyətlər barədə qərar vermək hər bir halda risk altındakı hüquqların diqqətlə tarazlaşdırılmasına ehtiyac yaradır. AİHM-də nitq məhdudiyyətlərinin müxtəlif formaları ilə bağlı aydın və fərqli bir məhkəmə qaydaları mövcuddur, lakin nifrət nitqi üçün bunların rəhbər prinsiplərini aydınlaşdırmaq sahəsində hələ də boşluqlar var.

Avropa Şurası (AŞ) nifrət dili haqqında

Avropa qitəsi üçün ən vacib insan hüquqları sənədi olan 1950-ci ilin Avropa İnsan Hüquqları Konvensiyasından əlavə ətraflı araşdırmadan sonra AŞ ölkələri xüsusi qorunan əsaslarla bir sıra digər konvensiyalar qəbul etdilər. 1994-cü ildə "Milli azlıqların qorunması üzrə Çərçivə Konvensiyasının (FCNM)" 4-cü maddəsində ayrı-seçkilik qadağan edilir. Tərəflər milli azlıqlara mənsub şəxslərə qanun qarşısında bərabərlik və qanunun bərabər qorunması hüququnu təmin etməyi öhdəsinə götürürlər. 6-cı maddəyə uyğun olaraq, Tərəflər mədəniyyətlərarası dialoqu təşviq edir və etnik, mədəni, dil və ya dini kimliklərinə görə təhdid və ya ayrı-seçkilik, düşmənçilik və ya şiddətə məruz qalan şəxsləri qorumaq üçün müvafiq tədbirlər görürlər. 9-cu maddədə ayrıca ifadə və çıxış etmək azadlığı elan edilir. FCNM qərəzli motivasiya edilmiş davranışlara qarşı mübarizə yollarını axtaran deyil, mediada nifrət nitqinin qarşısının alınmasına da diqqət yetirən vasitələrdən biridir.

1989-cu ildə qəbul edilmiş "Avropa Sərhədsiz Televiziya Konvensiyası"nın 7 (1) b bəndində insan ləyaqətinə hörmət və nifrət təhrikinin qadağan edilməsinin zəruriliyindən bəhs olunur.

2003-cü ildə qəbul edilmiş "Kibercinayətlərə dair Konvensiyanın Əlavə Protokolu" irqçi və ksenofobik materialların yayılması, irqçi və ksenofobik motivasiya ilə təhdid, eyni şəkildə təhqir və inkar, kobud bir şəkildə irqçi və ksenofob təbiətdə törədilən cinayətlərin cinayət məsuliyyətini uyğunlaşdırmağı, soyqırımın və insanlığa qarşı cinayətlərin (Maddə 3, 4, 5, 6) minimuma endirilməsi, təsdiqi və ya əsaslandırılmasını hədəfləyir. Lakin 9 üzv dövlət protokolu şərtlərlə, 3-ü isə mətnin şərhini daraldan bəyannamələrlə imzalayıb [20].

Avropa Şurası (AŞ) nifrət nitqinin rəsmi tərifini qəbul edən ilk və yeganə beynəlxalq hökumətlərarası təşkilat olduğunu, beynəlxalq insan hüquqları sənədlərində rəsmi olaraq razılaşdırılmış bir tərif olmadığını iddia edir. AŞ Nazirlər Komitəsinə görə, nifrət nitqi, irqçiliyi, ksenofobiyanı, antisemitizmi və ya dözümsüzlüyə əsaslanan digər nifrəti yayan, təhrik edən, təşviq edən və ya əsaslandıran bütün ifadələri, o cümlədən təcavüzkar millətçilik və etnosentrizm, ayrı-seçkilik, azlıqlara, miqrantlara və immiqrant mənşəli insanlara qarşı düşmənçiliyi özündə ehtiva edir [16].

AŞ Nazirlər Komitəsi əvvəlcə nifrət nitqinə dair R (97) 20 nömrəli Tövsiyəsində, media və tolerantlıq mədəniyyətinin təbliği ilə əlaqədar R (97) 21 saylı Tövsiyəsində dəfələrlə nifrət nitqinə müraciət etmişdir. R (97) 20 saylı Tövsiyənin 1-ci Prinsipi "üzv dövlətlərin, dövlət orqanlarının, milli, regional və yerli səviyyələrdə dövlət qurumlarının, habelə vəzifəli şəxslərin, məqbul bir şəkildə nifrət nitqi kimi başa düşülə bilən mediaya bu cür ifadələr meydana çıxdıqda [...] açıq şəkildə inkar edilməlidir" dedi. Bu həm də nifrət nitqinə qarşı tətbiq edilməli olan hüquqi vasitələrin müxtəlifliyinə də aiddir (mülki, cinayət və inzibati hüquq müddəaları, Prinsip 2). 3-cü prinsipə əsasən ifadə azadlığının hər hansı bir məhdudlaşdırılması və ya müdaxiləsi müstəqil məhkəmə nəzarətinə tabe olmalıdır", hansı ki bu daha çox sosial medianın tənzimlənməsi ilə əlaqəlidir.

R (97) 21 saylı Tövsiyə media sənayesi aktorları üçün yaxşı təcrübələr təklif etmək, mediada nifrət nitqini aradan qaldırmaq və qarşısını almaq üçün təklif edilmişdi. İlk növbədə nifrət nitqinin qarşısının alınmasına yönəlmişdi və praktik olaraq əks-cavab nitqindən bəhs etməmişdi [30].

Beynəlxalq standartlar

Nifrət təhrikinin cinayət qanunları ilə qadağan edilməsinə ehtiyac olduğu barədə qlobal miqyasda yekdil fikir birliyi var. İrqi Ayrı-seçkiliyin Ləğvi Komitəsi (ECRI) qadağan edilməli olduğu məsləhət görülən nifrət nitqi hallarının geniş spektrinə malikdir. Baxmayaraq ki, onun əsas məqsədi diksriminativ fəaliyyətlərə qarşı yönəlib. ECRI nifrət nitqinin spesifik aspektləri və bununla necə mübarizə aparılması barədə bir sıra faydalı tövsiyələr verib. Təşkilatın digər beynəlxalq qurumlar tərəfindən həyata keçirilən son fəaliyyətləri və yumşaq hüquqi mexanizmləri siyasi məkanda nifrət nitqinin artması ilə bağlı narahatlığı ifadə edir [7].

“Bir çox parlamentlərdə nümayəndələr və eyni zamanda siyasətçilər tərəfindən qaba, senzuradankənar dilin işlədilməsinin getdikcə təhqiredici və dözümsüz bir ictimai müzakirələrə yol açdığı aşkar edilmişdir. Bəzi yüksək səviyyəli siyasətçilərin bəyanatlarında nifrət nitqindən istifadə edilməsinə mane olmadığı üçün bu cür danışıqlar daha da artmışdır” [7].

AİHM nifrət nitqinə dair mühakimələrində “sözçü-natiq” (spiker) amilinə və nitqin kontekstinə xüsusi diqqət yetirir. Bir futbolçu, müəllim və ya siyasətçinin - cəmiyyətdə nümunə olan şəxslərin irqi ayrı-seçkiliyi istifadə etməsinin və ya müdafiə etməkdən çəkinməsinin əsas vəzifə borcları olduğu dəfələrlə elan edilib.

Hüquq fəlsəfəsində nifrət nitqi işığında ifadə azadlığının sərhədləri barədə diskussiya aparılır. Alternativ bir fikir budur ki, nifrət nitqinin potensial effekti araşdırılmadan hüquqi addımların tətbiqi mümkün olmalıdır. Çünki hədəfə alınan şəxslərin ləyaqəti mücərrəd şəkildə zədələnir və cəmiyyətdəki sosial bərabərliyi və qarşılıqlı inamı pozulur [44].

Digər mövqelər bundan ibarətdir ki, uzunmüddətli sabitlik və demokratiya nifrət nitqinə qarşı real sosial hərəkatlarla mübarizə aparmalıdır. Çünki bununla bağlı kifayət qədər "hüquqi, institusional, təhsil və maddi mənbələr mövcuddur və eyni zamanda həssas insanları, şiddət və ya ayrı-seçkiliyə məruz qalan qrupları qorumaq üçün lazımi səviyyədə təchiz olunur.”

Bununla yanaşı, tədqiqatın nəticələri AB-yə üzv dövlətlərin hamısının bu ölkələr qrupuna aid olacağı ehtimalını dəstəkləmir. Belə ki, nifrət məzmunlu çıxışları səsləndirənlərin mühüm siyasi, iqtisadi və media gücünə sahib olduqları məlumdur. Siyasətçilər, ictimai xadimlər, digər nüfuzlu şəxslər, şou-biznes ulduzları və rol modelləri tərəfindən ifadə edilən nifrət nitqinin təsir etmək şansının, cəmiyyətin adi üzvləri ilə müqayisədə daha yüksək olduğu artıq qəbul edilmişdir. Liberal siyasi hərəkatlar, azadlıq, bərabərlik və qanunun aliliyi duyğusal, emosional narrativlər -hekayələr vasitəsilə də təbliğ oluna bilər. Nifrət əleyhinə formalaşdırılan narrativlər sosial birliyi möhkəmləndirmək üçün bir vasitə kimi dəyərləndirilməlidir. Saxta inancları, nifrət arxasındakı qorxu və narahatlıqları formalaşdıran “nifrət narrativlərini” aradan qaldırmaqda xoşməramlı, dözümlülüyü təşviq edən narrativlərin önəmli rolu var.

Polşa və Macarıstanda milli və dini çoxluqların açıq şəkildə qorunması vurğulanır, dövlət məmurlarına problemə həssaslıqla yanaşılması ilə bağlı tələblər irəli sürülmür. Almaniya, İtaliya və Maltada dövlət məmurları həddindən

artıq siyasi fəaliyyətdən və irqçilikdən çəkinmək üçün, ya "dövlət məmurları, ya statuslarını tənzimləyən qanunun bir hissəsi olaraq" (Almaniya), ya "ayrı bir cinayət olaraq" (Malta) və ya "nifrəti təhrik edən ağırlaşdırıcı hal kimi" (İtaliya) daha yüksək vəzifə həddinə sahibdirlər. Bundan əlavə, Malta məhkəmələri nitqin potensial təsirini artıran bir amil kimi “natiq” amilinin təsirini qəbul edir.

Polşada irqi, dini təhqir və prezidentin təhqir olunması cinayət sayılır. Almaniyada irqi motivlə təhqirə qarşı ümumi təhqir müddəasının tətbiq oluna biləcəyi istisna olmaqla, irqi təhqir cinayət hesab olunmur. Üzv dövlətlər nifrətə təhrik etmə cinayətini qurmaq üçün ya bir niyyət və ya təsir tələb edirlər. Bütün əyalətlərdəki məhkəmələr azad nitqin qorunmasını dərk edir və nifrət nitqi müddəalarını dar mənada şərh edirlər.

Almaniya (və Fransa) xaricində sosial media tənzimləməyə tabe deyil. Müxtəlif subyektlər və məhkəmələr mövcud tənzimləmə qaydalarına etibar edir. Sözügedən sahədə məlumatların az olması araşdırılan ölkələrdə ümumi problemdir. Müvafiq sahədə hesabatlılıqdan əlavə, müxtəlif maneələr cinayət prosesinin bütün mərhələlərində prosedurların uğurla başa çatmasına mane olur. Onlayn nifrət nitqi üçün qeyri-kafi rəqəmsal savadlılıq da öz təsirini göstərir. Məhkəmə hüququnun uyğunsuzluğu, yanlış şərhetmələr, irqi qərəz və ya hətta institusional ayrı-seçkilik daha çox problem olaraq xatırlanır.

İctimai sahədə mediada bəzi məqamlarda nifrət nitqinin yayılmasını araşdırarkən belə bir nəticəyə gəlmək olar ki, nifrət nitqi ümumilikdə mətbuatda olduğundan daha çox siyasi sferada yayılmışdır.

Cinayət məzmunlu nifrət nitqi sosial mediada və onlayn şərhlərdə, əsasən siyasətçilərin nitqlərində müşahidə edilir. Ayrı-seçkilik ifadə edən siyasi ritorika ən çox miqrantlara və cinsi azlıqlara, qismən də etnik azlıqlara münasibətdə tətbiq edilir.

Nifrət cinayəti prosedurlarının effektivlik dərəcəsini araşdırarkən, vətəndaş cəmiyyətinə də etibar edilməli olduğu qənaətinə gəlmək lazımdır.

Əks-arqumentin (counter-speech) QHT-lər sayəsində ilk növbədə üçüncü sektorda təbliği nəticə verə bilər. Almaniya və İtaliyada bu fəaliyyət hökumətin rəsmi siyasəti tərəfindən dəstəklənir. Bundan fərqli olaraq, Polşa və Macarıstanda QHT-lərə maneə törədilir və ya onlar hətta təzyiqə məruz qalırlar.

Almaniyada, İsveçdə vətəndaş cəmiyyətinin təşəbbüsü ilə yaradılan və inkişaf etdirilən müsbət təcrübələr var. Məsələn, əvvəlcə İsveçdə yaradılan "İchbinhier" - “Mən buradayam” layihəsi hal-hazırda Almaniyada sosial mediada irqçiliyə qarşı mübarizə aparmaq üçün sayı 30.000 olan könüllü vətəndaşı cəlb edib.

Vətəndaş fəallarının, məsələn, “whistle blowers” - “xəbərçilər” adlanan şəxslərin tez-tez mövqelərinə görə şifahi və ya hətta fiziki təzyiqlərə məruz qalması halları baş verir. Bu cür hücumlar ya hüquq-mühafizə orqanları tərəfindən, ya da onları görməzdən gələn, hətta təsdiqləyən / əsaslandıran siyasi ritorika ilə nəticəsiz qaldıqda, “sükut-qorxu spiralı” (Elizabet Noel-Noyman) vəziyyəti formalaşır. Bu vəziyyət isə ictimai iştirakçılığa mənfi təsir göstərir və zorakı/nifrət nitqləri getdikcə daha çox nəzərə çarpır.

ECRI-nin yuxarıda adı çəkilən araşdırmasında üzv dövlətlər üçün bir sıra Tövsiyələr də nəzərdə tutulub. Tövsiyələrdə qeyd olunur ki, Avropa Birliyi insan ləyaqətinə hörmət, azadlıq, demokratiya, bərabərlik, qanunun aliliyi və insan haqlarına hörmət, azlıqlara mənsub şəxslərin hüquqları da daxil olmaqla hörmət dəyərlərinə əsaslanan bir toplum olaraq (Maddə 2 TEU) nifrət sözü əleyhinə çıxmalı və nifrət cinayətlərinə

qarşı hərəkət etməlidir

Qərəzli motivli hərəkətlərə qarşı mübarizə müvafiq olaraq iki kateqoriyada qruplaşdırıla bilər: əks nitq (counter-speech) və əks-tədbir (counteraction). Hər ikisi də nifrət nitqi və nifrət cinayətinin ictimai fenomen olduğunu, qanuni tənzimləmə və qanunun tətbiq edilməsinin yalnız aysberqin bir tərəfi olduğunu nəzərə alır.

Uzunmüddətli və möhkəm inkişaf üçün əsas tənzimlənməli olan amillər:

❖ sosial etibarsızlıq, bərabərsizlik və yoxsulluq;

❖ risk üzərində qurulmuş cəmiyyətimizdəki müxtəlif qorxular;

❖ qeyri-bərabər təhsil;

❖ hüquq-mühafizə sisteminin zəifliyi;

❖ populist siyasi ritorika.

4. Qlobal pandemiya (COVID-19) dövründə ifrət nitqinin daha da yayılması

2020-ci ilin yazında COVID-19-un yayılması zamanı aparılan araşdırmalara əsasən dövlətlər konstitusiyalarında əksini tapan hüquq və azadlıqlardan uzaqlaşaraq vətəndaşlarının, sakinlərinin və əcnəbilərin hüquq və azadlıqlarını məhdudlaşdırdılar.

Qanunun aliliyi baxımından təhlükəli olan, demokratiyanın təbiətinə yad olan pandemiya mühitində karantin tədbirləri ilə insan hüquqlarının da pozulması labüd prosesə çevrildi.

Bəşər tarixində pandemiyalar mütəmadi olaraq dövlət və cəmiyyətlərdə insan haqlarının üzləşdiyi vəziyyətləri ortaya çıxarıb, mövcud problemlərin və sosial gərginliyin daha da artmasını aydın göstərib. Tarix boyu epidemiyalar zamanı “günah keçiləri” axtarılıb, cəmiyyətin gərginlik və qəzəbi onlara yönəldilib. Orta əsrlərdə və yeni dövrdə həkimlər və tibb bacıları vəba xəstəliyinin qarşısının alınmasında aciz qaldıqları üçün günahlandırılırdılar. 1500-cü illərdə Avropada və Asiya qitəsində ksenofobiya və irqi təəssübkeşlik dalğasının artması yoluxucu xəstəliklərin baş verməsi ilə əlaqələndirilirdi. Həmin dövrdə xəstəliyin bürüdüyü ölkələr baş verənlərin səbəbkarı kimi qonşu ölkələri və ya düşmənlərini günahlandırırdı.

COVID-19 pandemiyası da istisna olmadı. O yalnız milyonlarla insan həyatının itirilməsinə səbəb olmadı, həm də mövcud problemləri bütün dərinliyi ilə aşkara çıxardı, gücləndirdi, eləcə də həssas və imkansız təbəqələrə olduğu kimi, zəif ölkələrə də daha çox zərbə vurdu.

Reallıqda mənşəyi dəqiq izlənilməyən və elm adamlarının çarə tapa bilmədikləri kifayət qədər xəstəlik var. Bir-birinə zidd olan, qeyri-müəyyən elmi dəlillər postmodern dünyanın bir xüsusiyyətidir, lakin onlardan irəli gələn etibarsızlıq, dövlətlər tərəfindən təsnif edilən və ya gizlədilən məlumatlarla bir araya gələrək günahkarlığa əlverişli zəmin təklif edir. Xüsusilə də konspiroloji nəzəriyyələrin olduqca sürətlə yayılması son pandemiya dövründə görünməmiş miqyas aldı.

COVID-19 dünya miqyasında yayılan nifrəti artırdı, yəhudi, çinli və ya amerikan elitasının məsuliyyəti ilə bağlı fantastik konspiroliji (sui-qəsd) nəzəriyyələrinə səbəb oldu. Yaşlılar və ya xəstələr kimi yeni günahkar axtarışlarını formalaşdırdı. Ənənəvi olaraq qorunan qruplar arasında ilk növbədə yəhudi icmasının adı çəkilməlidir. Orta əsr taunu dövründə xəstəliyin yəhudilər tərəfindən qəsdən quyudan zəhərlənmə yolu ilə yayıldığı sui-qəsd nəzəriyyəsinə əsaslanaraq talanlar təşkil edildi. Orta əsrlərin absurd iddialarını əks etdirərək, 2020-ci ildə sui-qəsd nəzəriyyələri yəhudilərin maddi maraqlar üçün virusu necə icad etdikləri və ya yaydıqları barədə şayiələr sürətlə yayılmağa başladı. Əsas məqsədi guya hökumətin

pandemiyaya nəzarəti ələ keçirməsinə qarşı etiraz məqsədi daşıyan nümayişlər alman radikalları tərəfindən antisemitizm nümayiş etdirmək və ya neo-nasist ideologiyasını dəstəkləmək üçün sui-istifadə edildi. Virusun Çinin Uhan şəhərindən dünyaya yayılması səbəbindən onun Asiya mənşəli olduğu üçün asiyalılar pandemiyanın baş verməsində və virusun yayılmasında günahlandırıldı [23].

COVID-19 sayəsində yeni ksenofobiya təzahürləri - etnik nifrət halları da yüksəldi. Məsələn, Avstriyanın Styria Ayrı-seçkiliklə Mübarizə İdarəsinin təhlilində nifrət nitqi əleyhinə olan "Ban Hate" texnoloji tətbiqinə əsasən, virusun yayılmasında qaçqınları günahlandıran postlarda artım olduğu bildirildi.

Pandemiya dövründə qaraçılara (roman etnik azlıqlara) hücum edildiyi, üzərlərinə zibil atıldığı və s. məlumatlar ksenofobiyanın təsirini, irqçi təhqirlərin səslənməsini aydın göstərdi.

BMT-nin azlıq məsələləri üzrə xüsusi məruzəçisi Fernand de Varennes qaraçılara qarşı nifrət nitqinin artdığını və iddia edilən qoruma tədbirlərinə hörmət etmədikləri üçün günahlandırıldıqlarını bildirdi.

Yalnız sağlamlıq, təhlükəsizlik, humanitar, sosial, təhsil və iqtisadi tədbirlər, dezinformasiyaya qarşı səmərəli mübarizə ilə yanaşı nifrət nitqinə qarşı razı salma və bunun nəticəsində nifrət cinayətləri ilə əlaqədar cəza tədbirlərinin icrası da nifrət nitqi ilə mübarizə prosesinə lazımi dəyişiklikləri gətirə bilər. COVID-19 haqqında məlumat verən jurnalistlər də nifrət nitqi hallarını müşahidə etdiklərini bildiriblər. Onlar xəbərləri hazırlayarkən yalnız həbs və ya ittiham, məlumat əldə etmə məhdudiyyəti və senzuraya məruz qalmayıb, həm də pandemiya haqqında mediaya məlumat verərkən şifahi və fiziki hücumlara məruz qaldıqlarını açıqlayıblar.

COVID-19 dövründə ənənəvi olaraq adi hallarda qərəzli cinayətlərə daha az məruz qalan digər həssas əhali qrupları da sağlamlıq böhranı üzündən hədəfə gəlib. Məsələn, Latviya İnsan Haqları Mərkəzi xaricdən repatriasiya edən latviyalılara qarşı nifrət nitqinin artdığını bildirib.

Digər bir gərginlik Macarıstanın paytaxtı Budapeştdə və başqa bölgələrində əhali ilə bağlı müşahidə edilib. Paytaxt Budapeştdə yaşayanların intizamsız olduqlarını və həftə sonu evlərinə - əsasən Balaton gölündəki evlərinə getməsi nəticəsində başqalarını yoluxdurduğunu iddia edən əhalinin bir qismi "qaydalara əməl etməyən qonşularına" hücum və təzyiqlər ediblər: "Macarıstanda karantində olan şəxslər başqalarının (rəsmi şəxslər istisna olmaqla) evə daxil olmasını qadağan etmək məqsədilə qapılarından qırmızı lövhə asmalı idilər. Buna əməl etməyən şəxslər qonşularının hücum və təzyiqlərinə məruz qalırdı. Evin və ya məcburi karantin müddətinin təhlükəsizliyini təmin etmək üçün polis müdaxiləsi qaçınılmaz idi" [15].

Digər bir misal, Fransada başladılan və Avropanın hər tərəfinə yayıldığı bildirilən, "#JeNeSuisPasUnVirus (Mən virus deyiləm)" həştəg hərəkatı, qərəz, nifrət və qərəzli cinayətlərin çoxalmasının qurbanı olan azlıq vətəndaşlarının artan məyusluğunu özündə əks etdirdi. Hərəkat qanunun nifrət elementli bu hadisələrə qarşı durmalı olduğunu, humanist və rasional dövlət siyasəti əsasında qisasçılıq, dözümsüzlük, qəddarlıq və məlumatsızlıq-maarifsizlik nəticəsində təcavüzün qarşısını almağa qadir olmasını təbliğ edib. Həmçinin hərəkat, digər tərəfdən, pandemiya ilə mübarizə istiqamətində "məlumatlandırma sahəsində şəffaflığın təmin edilməsini, məmurların aydın, əlçatan, ardıcıl, düzgün və davamlı xəbərlərin verilməsini vacib hesab edib. Virusla bağlı saxta məlumatlrın (fake xəbərlərin) yayılması ilə mübarizə aparmaq, hüquqi mexanizm-

ləri və hökumətin fəaliyyətinin şəffaflığını təmin etmək vahid yanaşmanı təşkil etməlidir. Aşkarlıq və davamlı mütəxəssis tövsiyələrinə əsaslanan güclü fərdi sosial məsuliyyətin formalaşdırılması ilə hökumətin fəaliyyətində şəffaflıq son nəticədə ən müsbət nəticələrə gətirib çıxara bilər". İlkin şərt olaraq, dövlət dözümsüzlüyə imkan verməməlidir [21].

Hazırda nifrət dilini məhdudlaşdıran qanunvericiliyin tətbiqi demokratiyanın yeni tendensiyasına çevrilib. Qanun qəbul edən ölkələr Avstraliya, Avstriya, Belçika, Braziliya, Kanada, Kipr, Danimarka, İngiltərə, Fransa, Almaniya, Hindistan, İsrail, İtaliya, İsveç, İsveçrə və s.-dir. Bu dövlətlər tərəfindən qəbul edilmiş qanunlara görə, "içində zorakılığa çağırış olmayan nifrət nitqlərinin qadağan olunması ifadə azadlığına toxuna bilər."

5. Sosial mediada nifrət nitqi: qlobal müqayisələr

BMT-nin ifadə azadlığı üzrə xüsusi məruzəçisi Devid Key qeyd edir ki, "internetdə yer alan nifrət nitqi zərərsiz sayıla bilməz. Hökumətlər və özəl sektor internetdə nifrət nitqi ilə mübarizə aparmaq üçün təsirli tədbirlər görmürlər. Bu səbəbdən də nifrət nitqi tədricən müasir dövrün ən böyük problemi olan "saxta (feyk) xəbər"dən daha qorxulu bir fenomen halına gələ bilər. Onlayn nifrət nitqi sadəcə internetdə olduğu üçün zərərsiz hesab edilə bilməz. Əksinə, virtual məkanda nifrət nitqi böyük bir sürətlə yayılır və bu, reallıqda ciddi nəticələrə səbəb ola bilər. Demək olar ki, nifrət nitqindən həmişə istifadə etməkdə məqsəd başqalarını susdurmaqdır. Məsələ bu fenomenlə mübarizə aparıb-aparmamaqda deyil. Məsələ ondadır ki, insan haqlarını pozmadan bunu necə edə bilərik. Hüquq müdafiəçisi bu gün nifrət nitqi ilə bağlı hesabatını təqdim etdi. O, ölkələri ayrı-seçkiliyə, düşmənçiliyə və şiddətə təhrik edilməsinin qarşısını almaq üçün Rabat Fəaliyyət Planı da daxil olmaqla əsas beynəlxalq insan haqları sənədlərinə müraciət etməyə çağırıb [48].

Onu da əlavə edək ki, BMT-nin ifadə azadlığı üzrə xüsusi məruzəçisi müxtəlif ölkələrin dəvəti ilə səfərlər edir və nifrət nitqi ilə bağlı məruzələr hazırlayır. Səfərlər ancaq rəsmi dəvət əsasında reallaşır. Sonuncu dəfə Devid Key Tacikistana dəvət edilib və məruzə hazırlayıb.

Qeyd edildiyi kimi, onlayn internet məkanında, sosial şəbəkələrdə nifrət nitqi məzmunlu şiddət dünyada getdikcə artmaqdadır. Bu, qlobal trendə çevrilən proseslərlə qarşılaşan cəmiyyətlərin geniş istifadə olunan texnoloji platformalarda söz və senzuraya dair məsələlərlə ciddi məşğul olmasını gündəmə gətirib.

Miqrantlara və digər azlıqlara qarşı çoxsaylı hücumlar, ksenofob, islamofob və s. qrupların internetdə nifrət nitqi əsaslı kontenti və zorakı hərəkətlər arasındakı əlaqələr yeni narahatlıqlar yaradır. Analitiklər dünyadakı nifrət cinayətləri meyillərinin siyasi mühitdəki dəyişiklikləri əks etdirdiyini və sosial medianın nifaqı daha da artırdığını müşahidə edirlər. "Saxta xəbərlər" ("fake news") adlanan sosial şəbəkə fenomeni ən ifrat dərəcədə, virtual məkanda şayiələr, böhtan və s. məzmunlar informasiya müharibəsindən, ayrı-ayrı şəxsləri linç etməkdən tutmuş etnik təmizləməyə qədər təzahürlərə yol aça biləcək şiddət hallarına səbəb oldu.

Xüsusilə vurğulanmalıdır ki, internetdə senzuranın nə üçün və necə ediləcəyinə qərar vermək vəzifəsi, dünya əhalisinin mütləq əksəriyyətinin üzərində ünsiyyət qurduğu platformaları idarə edən bir neçə şirkətin əlinə keçməsi vəziyyəti mürəkkəbləşdirib. Bu şirkətlər öz daxili qanunları ilə məhdudlaşır. Liberal demokratiyalarda bu qanunlar ayrı-seçkiliyi aradan qaldırmağa və azlıqlara qarşı zorakılığın qarşısını almağa xidmət edə bilər. Eyni zamanda, bu cür qanun-

lar azlıqları və müxalif qrupları ört-basdır etmək üçün də istifadə edilə bilər.

Hazırda dünyada insanların əksəriyyəti sosial şəbəkələr üzərindən əlaqə qurur, planet əhalisinin təxminən üçdə biri yalnız Facebookda aktivdir. Mütəxəssislər getdikcə daha çox insanın internetdən istifadə etməsindən sonra irqçiliyə, fobiyalara və s. dözümsüzlük hallarına daha çox rast gəlindiyini qeyd edirlər. Sosial media platformaları da zorakı aktorlara hərəkətlərini tanıtmaq imkanını təqdim edir.

Zaxari Laub "Sosial mediada nifrət nitqi" adlı araşdırmasında qeyd edir: "Pyu" Araşdırmalar Mərkəzinin (Pew Research Center) 2019-cu ildə keçirdiyi sorğuya görə, "insanlar açıq şəkildə azlıq qruplarına qarşı təhqiramiz açıqlamalar verə bilərlər" fikrinə müsbət yanaşanların sayı hələ də çoxdur. Burada ifadə azadlığı və nifrət dilinin məhdudlaşdırılması arasında mövcud olan kövrək sərhəd özünü göstərir. Qeyd edilən fikirlə razı olanların ən yüksək faizini (67%) ABŞ əhalisi təşkil edir [34].

Həmçinin "Pyu" Araşdırmalar Mərkəzinin 2015-ci ildə apardığı digər araşdırmaya görə, "millenialların" 40%-i əksinə ifadələrin məhdudlaşdırılmalı olduğunu dəstəkləyir. Milleniallar (Millennials-Generation Y), yaxud Y nəsli 1985-2004-cü il təvəllüdlü insanlardır. Millenniallara görə, insanları birləşdirən əsas amil yaş deyil, dəyərlərdir [34].



Mənbə: *Zachary Laub. Hate Speech on Social Media: Global Comparisons// https://www.cfr.org/backgrounder/hate-speech-social-media-global-comparisons*

Sosial tədqiqatlarda onlayn şəbəkədəki kontent və digər danışıqların şiddət hərəkətlərinə necə təhrik edəcəyi araşdırılıb, aşağıdakı təzahürlər qeyd edilib:

Almaniyada ifrat sağçı "Almaniya üçün Alternativ" Partiyası tərəfindən qaçqınlara qarşı Facebook paylaşımları ilə qaçqınlara edilən hücumlar arasında bir əlaqə aşkar edilib. Törədilən yanğın və basqın kimi hücumlardakı qarmaqarışıqlıq nifrət məzmunlu sosial şəbəkə postlarında öz əksini tapıb.

Almaniya qanunverici orqanı onlayn nifrət nitqi və nifrət cinayətləri ilə mübarizə məqsədi daşıyan prosesi başa çatdırıb. 2020-ci ildə hazırlanan qanun layihəsi bir ay əvvəl Konstitusiya Məhkəməsi tərəfindən konstitusiyaya zidd elan edilmiş qanuna bənzər müddəaları ehtiva etdiyi üçün Federal Prezident tərəfindən imzalanmamışdı. 2021-ci ilin əvvəlində qanuna lazımi dəyişikliklər edildi, mart ayında yekunlaşdırıldı. Qanun 3 aprel

2021-ci ildə qüvvəyə mindi [14].

Almaniyada qəbul edilən yeni qanunvericilik aktı son illərdə siyasətçilərə qarşı baş verən nirfət əsaslı şifahi və fiziki hücumlardan qaynaqlanmışdı. 1 iyun 2019-cu il tarixində Kassel bölgəsinin rəhbəri Yoalter Lübcke evinin eyvanında vuruldu. Lübcke qaçqınlarla əlaqəli tolerant fikirləri ilə tanınırdı və sosial mediada şifahi hücumlara və təhdidlərə məruz qalmışdı. Onun ölümü müasir Almaniyada ilk siyasi motivli qətl kimi qəbul edildi. lakin Lübcke qaçqın siyasətinə görə şiddətə məruz qalan ilk alman siyasətçi deyildi. Bələdiyyə sədrləri Andreas Hollstein və Henriette Reker 2015-ci və 2017 illərdə bıçaqlı hücumlardan xilas ola bilmişdilər. Hər iki halda cinayətlərin siyasi motivli, cinayətkarların isə ksenofob sağ ekstremistlər olması sübuta yetirildi.

Amerika Birləşmiş Ştatlarında son zamanlarda ağ irqçilik (whitw suprematist) hücumlarını həyata keçirənlər irqçi icmalar arasında onlayn olaraq yayıldı. Onlar özlərini tanıtmaq üçün sosial mediaya axın ediblər. Prokurorlar 2015-ci ilin iyun ayında doqquz qaradərili din xadimini və ibadət edənləri öldürən Çarleston kilsə qətliamının, ağ irqçilik üzərində hədəfin şiddətli hərəkət tələb etdiyinə inandığına görə internetdə "özünütəbliğ"lə məşğul olduğunu söylədi.

2018-ci ildə baş verən Pitsburq sinaqoqunun qatili qeyri-ciddi qaydaları olan və bununla böyük platformalardan çıxarılmış ekstremistləri özünə cəlb edən "Gab" adlı sosial media şəbəkəsinin iştirakçısı idi. Qatil qaçqın yönümlü Şabbat xidmətində 11 ibadətçini qətlə yetirməmişdən əvvəl burada yəhudilərin miqrantları ABŞ-a gətirməsi, onun "ağ" əhalisinin sayını azaltmaq istəməsi kimi konspirasiya nəzəriyyələrini irəli sürmüşdü. Həmin "böyük əvəzetmə" metaforası bir il öncə Virciniya ştatının Şarlottesvill şəhərində keçirilən yürüşdə ilk dəfə eşidilmişdi, fransız ifrat sağçıların ideyalarına əsaslanaraq ağ olmayan əhali barədə demoqrafik narahatlıqları və doğum səviyyəsinin aşağı enməsi haqqında fikirləri təmsil edir.

"Böyük əvəzetmə" ideyası qırx doqquz müsəlmanı namaz qılarkən qətlə yetirən və hücumu YouTube-da yayımlamağa çalışan 2019-cu ildə Yeni Zelandiya məscidində cinayət törədən şəxs tərəfindən də dəstəklənmişdi.

Myanmarda hərbi liderlər və buddist millətçilər etnik təmizləmə kampaniyası öncəsi və bu müddət ərzində Rohingya müsəlman azlığını ləkələmək və demonizasiya (iblisləşdirmək) üçün sosial mediadan istifadə etdilər. Rohingya əhalinin, bəlkə, yüzdə 2-sini təşkil etsə də, etnik millətçilər Rohingyanın buddist əksəriyyəti tezliklə əvəz edəcəyini iddia edirdilər.

BMT-nin araşdırma missiyası qeyd etdi ki, "Əksər istifadəçilər üçün Facebook İnternet məkanında nifrət yaymaq istəyənlər üçün faydalı bir vasitəyə çevrilib" [26].

Hindistanda bir çox hallarda WhatsApp qruplarındakı şayiələrdən qaynaqlanan linç dəstələri və digər ictimai şiddət növləri, 2014-cü ildə Hindu-millətçi Bharatiya Janata Partiyası (BJP) hakimiyyətə gəldikdən sonra artmaqdadır.

Şri-Lanka da eyni şəkildə Tamil müsəlman azlığını hədəf alan, internetdə yayılan şayiələrdən ilhamlanan hərəkat fəaliyyət göstərir. 2018-ci ilin mart ayında baş verən şiddət hadisələri zamanı hökumət Facebook və WhatsApp-a, habelə Viberə girişi bir həftə müddətində qadağan etdi. Səbəb olaraq Facebookun fövqəladə vəziyyət zamanı yetərincə reaksiya göstərmədiyi bildirildi.

Sosial media nifrət cinayətlərini körükləyir. Sosial media demokratiya fəallarını motivasiya etməsinə imkan verən eyni texnologiya, təşkilat və işə cəlb etmək istəyən nifrət qrupları tərəfindən istifadə edilə bilər. Bu həm də konspirasiya nəzəriyələri də daxil olmaqla innovativ saytların əsas oxucu audi-

toriyasından daha geniş auditoriyaya çatmasına imkan verir. Məlumdur ki, onlayn platformaların iş modelləri oxu və baxış vaxtlarını maksimuma çatdırmaqdan asılıdır. Facebook və bənzər platformalar reklamverənlərə tamaşaçıları hədəf almağa imkan verərək pul qazandıqları üçün insanların ən çox vaxt sərf edəcəkləri icmaları tapmaqda maraqlıdır [25].

İstifadəçilərin onlayn təcrübələri çox vaxt istəmədən həddindən artıq məzmunu təşviq edən hədəflərini artırmaq üçün hazırlanmış alqoritmlər vasitəsilə həyata keçirilir. Bəzi veb nəzarətçi qrupları bir videonun sonunda oyunçunun əlaqəli bir video hazırladığı YouTube-un avtomatik oynatma funksiyasının xüsusilə zərərli ola biləcəyini söyləyirlər. Alqoritm insanları sui-qəsd nəzəriyyələrini təbliğ edən və ya başqa şəkildə "bölücü, yanıldıcı və ya yalan" videolara yönəldir. Sosioloq Zeynep Tufekçinin yazdığına görə, "YouTube sosial şəbəkəsi XXI əsrin ən güclü radikallaşdırıcı alətlərindən biri ola bilər" [34].

YouTube 2019-cu ilin iyun ayında yanvar ayında edilən tövsiyə alqoritmindəki dəyişikliklərin dezinformasiya yaymaq üçün “sərhədyanı məzmun” hesab edilən videolara baxışların iki dəfə azaldığını bildirdi. O zaman şirkət, neo-nasist və ağ irqçilik məzmunlu videoları saytından çıxaracağını da elan etmişdi. Yenə də platforma nifrət nitqini cilovlamaq səylərinin kifayət qədər uzağa getmədiyinə dair tənqidlərlə üzləşdi. Məsələn, tənqidçilər qeyd edirlər ki, bir jurnalistin homofobik təcavüzünə səbəb olan videoları silmək əvəzinə, YouTube qanun pozuntusu olan istifadəçinin reklam gəlirlərində paylaşımını dayandırıb.

Platformalarda qaydaların necə tətbiq edilməsi də ayrıca problemdir. Sosial media platformaları, süni intellekt, istifadəçi hesabatı və məzmun moderatorları kimi tanınan işçilər uyğun məzmuna dair qaydalarını tətbiq etmək üçün bir araya gəlir. Bununla yanaşı, moderatorlar məzmunun böyük həcmi və narahat postları silməklə bağlı həddən artıq iş yükü ilə yüklənirlər və sosial media şirkətləri xidmət etdikləri bir çox bazarda bərabər miqdarda vəsait sərf etmirlər.

“ProPublica” platformasının araşdırmasına görə, Facebook qaydalarının istifadəçilərə qeyri-şəffaf olduğunu və məzmunun idarə edilməsində uyğunsuz şəkildə tətbiq olunduğunu təsbit edib [27]. Fələstin əraziləri, Kəşmir və Krım kimi bir çox mübahisəli ərazilərdə aktivistlər və jurnalistlər senzuraya məruz qoyulub, çünki Facebook milli bazarlara çıxışı qorumağa və ya özünü təcrid etməyə çalışır. Şirkət qanuni məsuliyyət və nifrət nitqi qaydalarına, elitalara və hökumətlərə, yerli aktivistlərə və irqi azlıqlara üstünlük verir.

Dünyanın müxtəlif ölkələrində aparılan araşdırmalarda mediamaqnat və Facebookun rəhbəri Mark Zukkerberqdən əsas məzmun, seçki bütövlüyü, məxfilik və məlumat standartlarının qurulması üçün qlobal qaydaların müəyyən edilməsi tələb edilib.

Platformaların süni intellektinin yerli dillərə zəif uyğunlaşdırılması və şirkətlərin bu dildə səlis işləyən kadrlara az sərmayə yatırması nəticəsində də problemlər yaranır. Reuters-in verdiyi məlumata görə, 2015-ci ilin əvvəlindən etibarən Burma dilində danışan Myanmada vəziyyət çox ağır olub. Halbuki, 2012-ci ildə kütləvi antiislam dalğası başladıqdan sonra ekspertlər uzun illər davam edən avtoritar sistemdən sonra Facebookda yenicə qoşulmuş auditoriyaya nifrət nitqini yayan ultramillətçi buddist monarxların mühiti barədə xəbərdarlıq etmişdi.

Nəticədə, Facebook 700 yüz min rohingyalının Banqladeşə sürgün edilməsindən sonra passiv fəaliyyət göstərdiyini etiraf etdi. BMT-nin insan haqları paneli Myanmarın təhlükəsizlik qüvvələrinin soyqırımı məqsədilə araşdırılmalı olduğunu bildirən bir hesabatda şirkətin

adını xüsusi vurğuladı. Şirkət 2018-ci ilin avqust ayında hərbi məmurların platformadan çıxmasını qadağan etdi və yerli dildə səlis danışan moderator sayını artıracağına söz verdi.

Ölkələr onlayn nifrət nitqini necə tənzimləyir?

Sürətlə dəyişən kommunikasiya texnologiyaları təhrik və təhlükəli dezinformasiyaya nəzarət və cavablandırma ilə bağlı texniki problemlər yaratdığından, müasir demokratiyalar bir çox suallarla üzləşib. ABŞ-da sosial media platformalarının hər biri fəaliyyət, məzmun və tətbiqetmə metodları üçün öz standartlarını müəyyənləşdirir. Onların əsasları "Rabitə qaydaları haqqında" Qanundan irəli gəlir. 1996-cı il qanunu texnoloji platformaları istifadəçiləri tərəfindən tətbiq edilə bilən danışıqlara görə məsuliyyətdən azad edir. Məsələn, jurnallar və televiziya şəbəkələri yalan olduğunu bildikləri böhtan xarakterli məlumatları yaydıqlarına görə məhkəməyə verilə bilər, lakin sosial media platformaları səlahiyyətlərində olan məzmuna görə eyni dərəcədə məsuliyyət daşımır.

6. Müxtəlif ölkələrdə nifrət nitqi ilə bağlı hüquqi mexanizmlər - nifrət nitqi qanunvericiliyi (hate speech law)

Nifrət nitqi ilə mübarizə problemləri bir çox dövlətlərin qanunvericiliyində mühüm yer tutur. Qeyd edilməlidir ki, ayrıca "Nifrət dili haqqında qanun"lar adlanan hüquqi sənədlər olduqca azdır. Nifrət cinayətlərinin müxtəlif aspektləri ölkələrin cinayət məcəllələrində - həmçinin etnik və dini nifrət oyatmasının yolverilməzliyini, ayrı-ayrı şəxslərə və ya qruplara qarşı irqi, etnik, milliyyət, dəri rənginə və ya dininə görə ayrı-seçkiliyin qarşısının alınmasını, irqçi nitq, etnik həqarətin təbliği, nifrət və ya hörmətsizliyin qadağan olunmasını təmin edən qanunlar, hüquqi aktlar, mətbuat kodeksləri, profilaktik, əməliyyat-axtarış, siyasi, iqtisadi və digər normativ sənədlərdə əksini tapan müddəalarla əhatə olunur.

II Dünya müharibəsindən sonra bir çox dövlətlər irqi və dini nifrətin qızışdırılmasının qarşısını almaq üçün qanunlar qəbul etdilər. Bu qanunlar Holokosta səbəb olan antisemit təəssübkeşlik təzahürlərindən qorunmaq üçün yaradıldı. Ümumiyyətlə, nifrət nitqi insanlara irq, din, etnik mənşə və cinsi oriyentasiya əsasında hücum edən və təhqir edən nitqdir. İnternet məkanında saxta xəbərlərin (fake news) təhlükəli həddə çatması və onların təsirinin qorxunc nəticələri nifrət nitqi ilə bağlı qanunverici əsasları yenidən nəzərdən keçirməyin vacibliyini gündəmə gətirib.

Tədqiqatçıların qənaətinə görə, sosial şəbəkələr konkret olaraq "nifrət nitqinin istehlakçıları"na çevrilməkdədir. Nifrət nitqi fiziki təzyiqlərdən fərqli olaraq, daha "yumşaq" olmaqla yanaşı, eyni dərəcədə daha zərərli təsir göstərir, dözümlülüyü azaldır, ayrı-seçkiliyi təbliğ edir, universal dəyərlərə zərbə vurur.

Hazırda nifrət dilini məhdudlaşdıran hüquqi mexanizmlərin tətbiqi demokratiyanın yeni tendensiyasına çevrilib. Dünyanın 37 ölkəsində analoji qanunların qəbul edilməsi ilə bağlı məlumat mövcuddur. Qanun qəbul edən ölkələr sırasında Avstraliya, Belçika, Braziliya, Kanada, Çili, Xorvatiya, Danimarka, Estoniya, Finlandiya, Fransa, Almaniya, Yunanıstan, İslandiya, Hindistan, İndoneziya, İrlandiya, Yaponiya, İordaniya, Keniya, Malta, Niderland, Yeni Zelandiya, Norveç, Polşa, Rumıniya, Rusiya, Serbiya, Sinqapur, Cənubi Afrika, İspaniya, İsveç, İsveçrə, Ukrayna, Birləşmiş Ərəb Əmirlikləri, Birləşmiş Krallıq yer alır [42, s. 27].

Qeyd etdiyimiz kimi, ATƏT DTİHB-in 2008-ci ildə hazırladığı "Nifrət Cinayət Qanunları / Praktiki Rəhbər prinsiplər" adlı sənəddə əsas suallardan biri belə səslənir: "Nifrət cinayətləri yeni cinayət

növü, yoxsa mövcud cəzaların daha da sərtləşdirilməsidir?"

Azərbaycan da daxil olmaqla müxtəlif ölkələrin qanunvericiliyinin nəzərdən keçirilməsi belə bir qənaətə gəlməyə imkan verir ki, nifrət cinayətləri yeni cinayət növü olmaqdan daha çox mövcud cəzaların daha da sərtləşdirilməsi kimi özünü büruzə verir. Ayrıca nifrət haqqında qanunların qəbul edilməməsi də bununla izah edilə bilər.

Digər ən mühüm məsələ odur ki, nifrət cinayəti ilə bağlı işlərə baxarkən nifrətin motivinin aydın şəkildə müəyyənləşdirilməsi və məhz buna görə cəzalandırılması təmin edilməlidir. Bəzən nifrət cinayətlərinin mühakimə olunmasında cinayətkarın qurban seçmə motivasiyasından (məsələn, irq, milliyyət və ya etnik mənşəyə əsaslanaraq) ümumiyyətlə bəhs edilmir. Bu vəziyyətdə cinayətkarın cəzasının başqaları üçün çəkindirici təsir göstərməsini təmin etmək imkanı əldən verilir. Təhlükə ondadır ki, həm qurban, həm də cinayətkar dövlətin cinayətə səbəb olan nifrət motivini ciddi qəbul etməməsini başa düşür, bundan sui-istifadə edir, yaxud cəza qeyri-adekvat olur.

Bəzi ölkələrin (Kanada və s.) cinayət qanunvericiliyində törədilən cinayət əməlində nifaq yaratmaq niyyətinin *(nifrətin motivasiyasının* - L.Ə.), ya da sabitliyinin pozulma ehtimalı olması zəruri hesab edilirsə, digər ölkələrdə (Fransa, Almaniya, Danimarka, Niderland və s.), bu niyyət və onun sabitliyi pozan nəticələri nəzərə alınmadan, yalnız nifrət nitqinin məzmununa görə bunu törədən şəxs məhkum edilə bilər.

Fransada vəzifəsi irqçiliyə qarşı mübarizə olan QHT-lərin irqçilik faktlarına görə təkcə mülki deyil, cinayət işləri də açmaq hüququ var. Ümumilikdə,əksər iddialar hüquq orqanları tərəfindən deyil, anti-irqçi QHT-lər tərəfindən başlanılır. Dövlət ittihamçısı nümayəndəsi ilə birlikdə onların istəyi ilə başlayan işdə iştirak etmək hüququna malikdir və müvəffəq olarsa, məhkəmə işinə sərf etdikləri xərclərini öz xeyirlərinə (cəzalara əlavə) bərpa edə bilər. Yaxud Niderland Ali Məhkəməsi, bir qrup insanın irqi və ya dini əsaslı ifadələrlə təhqir edilməsini, bunu dərc edən şəxsin niyyəti ilə deyil, ifadənin özü ilə müəyyən etdiyini bildirib.

Kanadada əksinə bu cinayət ümumi bir qanun pozuntusudur və dini duyğuları təhqir etdiyinə görə məsuliyyətə cəlb olunmaq üçün ictimai barışı təhdid etdiyinə dair sübutlar təqdim edilməlidir. Bəzi ölkələrdə (Norveç, İsveç) media rəhbərləri, redaktorlar irqçi ifadələri öz mətbu orqanlarında yayımlamağa görə cavabdehlik daşıyırlar.

Almaniyada keçən əsrin 80-ci illərinin ortalarından Konstitusiyada ekstremist təşkilatların istənilən fəaliyyətini qadağan edən xüsusi düzəlişlər mövcuddur. Almaniya Federativ Respublikasının (AFR) əsas qanununda qeyd edilir ki, şəxsi inancından, dini və ya siyasi baxışlarından asılı olmayaraq heç kimə zərər yetirilə bilməz; şəxsi inanc, dünyagörüşü və dini görüşlər toxunulmazdır; dövlət dini ayinlərin maneəsiz yerinə yetirilməsinə zəmanət verir; məqsədləri və fəaliyyəti cinayət qanunlarına zidd olan və ya konstitusiya quruluşuna və ya xalqlar arasında qarşılıqlı anlaşma fikirlərinə qarşı yönəlmiş birliklər qadağandır; mülki və siyasi hüquqlardan istifadə, dövlət qulluğuna daxil olmaq, habelə dövlət qulluğunda əldə edilmiş hüquqlar dini görüşlərdən asılı deyildir (3,4,9,33-cü maddələr).

AFR-in Cinayət Məcəlləsində dini icma və vətəndaşların təhqir olunmasına, dini ayinlərin icrasına mane olmağa, habelə bu cür hərəkətlər ictimai qaydanın pozulmasına səbəb olarsa, dini ayinlərin, kultların həyata keçirilməsinə mane olmağa görə 3 ilə qədər azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulur (130,160-cı maddələr).

ABŞ

ABŞ-da "nifrət" cinayəti ilə bağlı qanunların, ABŞ Konstitusiyasına Birinci Düzəlişdə (First Ammendment) yer alan söz azadlığının təminatı ilə bağlı və s. hüquqi əsaslar olduğu üçün nifrət nitqi ilə bağlı ayrıca qanunlar yoxdur. Bu aspektdə, Amerikada ayrıca nifrət cinayətləri deyil, cəzaların sərtləşdirilməsi məqsədilə qanunlara edilən əlavələrdən danışmaq olar. Ziyanlı ifadələrin, pis, kobud, qeyri-vətənpərvər çıxışların, yaxud insanların qınaya biləcəyi başqa növ danışıqların hüquqi tərifi olmadığı kimi, ABŞ qanunlarına görə, nifrət nitqinin də qanuni tərifi yoxdur. Bununla yanaşı, tədqiqatlarda, ümumiyyətlə, nifrət nitqi, natiqlərin irq, din, cins kimliyi və ayrı-seçkiliyi, etnik mənsubiyyət, milli mənşə, əlilliyə görə bir qrupa və ya qruplara qarşı böhtan atmaq, alçaltmaq və ya nifrət oyatmaq istədikləri hər hansı bir ifadə forması olduğu fikri qəbul edilir. [33, s.71].

ABŞ-da nifrət nitqi Konstitusiyaya Birinci Düzəlişlə (First Ammendment) qorunur. Məhkəmələr bu müdafiəni Birinci Düzəlişdən, hökumətdən ictimai mübahisəli mövzularda başqalarının kədərlənməsinə, hirslənməsinə və ya qorxusuna səbəb olan xoşagəlməz, təhqiramiz və ya nifrət dolu bir danışıq halına gəlsə belə ciddi şəkildə qorumağı tələb edir. Mövcud Birinci Düzəliş hüquqşünaslığına əsasən, nifrət nitqi yalnız qaçılmaz cinayət fəaliyyətini təhrik etdikdə və ya bir şəxsə qarşı yönəlmiş xüsusi zorakılıq təhdidlərindən ibarət olduqda cinayət hesab edilə bilər.

ABŞ Federal Təhqiqat Bürosu statistik məlumatların toplanılması məqsədilə nifrət əməlini "cinayətin irqi, dini, əlilliyi, cinsi oriyentasiyası, dəri rəngi və milli mənşəyi daxil olmaqla etnik mənsubiyyəti və ya digər ölkələrə qarşı bütöv və ya qismən motivasiya olunan bir şəxsə və ya əmlaka qarşı cinayət əməli" olaraq təyin etmişdir. Nifrət cinayətləri şəxslərə və ya mülkiyyətə qarşı şiddət, mülki hüquqların pozulması və ya məhrum edilməsi, bəzi "həqiqi təhdidlər" və ya bu cinayətləri törətmək üçün hədə-qorxu və ya qəsd əməllərini əhatə edən açıq hərəkətlərdir. Ali Məhkəmə müttəhimin irqi, etnik mənsubiyyəti, şəxsiyyəti və ya inancına görə qurbanın hədəf alındığını sübuta yetirərsə, bu hərəkətləri cinayət hesab edən və ya daha sərt bir cəza tətbiq edən qanunları qüvvədə saxlayır. Nifrət cinayəti təhqiramiz nitq və ya davranışdan daha çox vandalizm və od vurma-yandırma kimi əmlak cinayətlərindən tutmuş, hədə-qorxu, hücum və qətl hadisələrinə qədər təsnif edilən xüsusi cinayət davranışıdır. Nifrət cinayətlərinin qurbanları arasında dini təşkilatlar və dövlət qurumları ilə yanaşı fərdlər də ola bilər.

"Time" qəzetinin keçmiş redaktoru, "Məlumat müharibələri"nin müəllifi və 2013-2016-cı illərdə Dövlət Departamentinin ictimai diplomatiya və ictimai işlər üzrə müşaviri olan Riçard Stengelin 2019-cu ildə "Vaşinqton Post"da dərc olunan "Niyə Amerikanın nifrət dili qanununa ehtiyacı var" adlı məqaləsində qeyd edilir: "Jurnalist olduğum zaman hakim Oliver Vendell Holmesin (amerikalı hüquqşünas) Konstitusiya və Birinci Düzəlişin yalnız "bizimlə razılaşanlar üçün azad düşüncəni, nifrət etdiyimiz düşüncə üçün azadlığı" qorumaq olduğunu iddia etməsini çox sevirdim. Lakin dünyadakı azad söz fəzilətlərini müdafiə edən bir dövlət məmuru olaraq Birinci Düzəliş standartımızın necə üstün olduğunu görməyə başladım. Birinci Düzəlişin kimməsə Quranı yandırmasına nə üçün icazə verdiyini başa düşmədiyim ən inkişaf etmiş ərəb diplomatları da məndən soruşdular ki, axı niyə bunu qorumaq istərdiniz? Bu, ədalətli bir sualdır. Bəli, Birinci Düzəliş "nifrət etdiyimiz düşüncəni" qoruyur, lakin bir qrupun digərinə qarşı şiddətə səbəb ola biləcəyi nifrət dolu nitqi qorumamalıdır... Unutmamalıyıq ki, Birinci Düzəliş (First Am-

mendment) yalnız yaxşıları qorumur; ən böyük azadlığımızı, cəmiyyətimizi zəiflətmək üçün arxasında gizlənən hər hansı bir pis aktoru qoruyur" [29].

ABŞ-ın Brukinqs İnstitutunun əməkdaşı Ceyms Kirçik Avropa və ABŞ-da nifrət nitqi ilə bağlı qanunverici əsasları müqayisəli təhlil edib. Onun fikrinə görə, bəzi müəlliflər İkinci Dünya müharibəsindən sonrakı dövrdə Avropanın nifrət nitq qanunlarını ABŞ-ın təqlid etməsi lazım olan müsbət nümunələr olaraq təqdim edir. Bununla yanaşı, çağdaş Avropanın bolluqla öyündüyü davranış qaydalarında siyasi şiddəti və ekstremizmi azaltmaq üçün fəaliyyətə dair bir dəlil yoxdur. Əksinə, nifrət nitqi qanunlarının müəyyən fikir və ifadələri cinayət baxımından tabu-qadağa edərək, yalnız mübarizə aparmaq üçün qurduqları fenomenləri təşviq edib. Ceyms Kirçik qeyd edir ki, "2016-cı ildə ABŞ-da keçirilən prezident seçkilərində Kremlin sponsorluğu ilə Hillari Klintona qarşı yayımlanan dezinformasiya kampaniyasını dayandırmaq üçün Amerikanın "Birinci Düzəliş"in intellektual dayaqlarının keçmişdə daha sadə bir dövr üçün hazırlandığı bildirildi. Nifrət nitqinin də istifadə edildiyi dezinformasiya ilə mübarizə aparmaq üçün Birinci Düzəlişi qəbul etməyimizə ehtiyac yoxdur. Reallıqda ondan daha çox və daha ağıllı istifadə etməliyik. Müzakirələrdən göründüyü kimi, dezinformasiya və nifrət dolu danışıqların ziyanlı təsirlərini azaltmaq üçün ən yaxşı strategiya daha məlumatlı, savadlı cəmiyyətin formalaşdırılmasıdır. Həmçinin, şübhəsiz ki, problemi aradan qaldırmağın digər daha təsirli yolu "saxta (feyk) xəbərləri" qadağan etmək deyil, media savadlılığına və vətəndaş maarifləndirilməsinə investisiya qoymaqdır" [10].

Yaponiyanın nifrət nitqi təcrübəsi

Yaponiyada qeyd edilən sahə ilə bağlı 2016-cı ildə "Nifrət Nitqi Aktı" (Hate Speech Act of 2016 (Japan)" qəbul edilib. Həmçinin, "Ölkə xaricindən gəlmiş şəxslərə qarşı ədalətsiz ayrı-seçkilik nitqinin və davranışının aradan qaldırılması üçün cəhdlərin təbliği haqqında" Qanun da mövcuddur. Yaponiyanın qanunverici orqanının ilk dəfə nifrət əleyhinə nitq qanununu qəbul etməsi irqi ayrı-seçkiliyin dayandırılması üçün əhəmiyyətli addım oldu. Aşağıda göstərildiyi kimi, beynəlxalq insan haqları qurumlarının tövsiyələri bu hərəkatı əhəmiyyətli dərəcədə təşviq etmişdir.

Hələ 2014-cü ildə BMT-nin İrqi Ayrı-Seçkiliyin Ləğvi Komitəsi (CERD) Yaponiya hökumətinə nifrət nitqinin qanunvericiliklə tənzimləməsini tövsiyə etmişdi. Komitə Koreya sakinlərini hədəf alan Shin Okubo, Tokio, Tsuruhaşi, Osaka şəhərlərindəki irqçi ayrı-seçkilik nümayişlərinin artmasından narahat idi.

Komitə əcnəbi nümayişlər və mitinqlər təşkil edən sağçı hərəkatlar və ya qruplar tərəfindən, xüsusən koreyalılara qarşı dövlətdə yaxın zamanda zorakılığa təşviq edilməsi daxil olmaqla, nifrət nitqinin yayılması barədə xəbərlərdən, həmçinin dövlət məmurları və siyasətçilər tərəfindən nifrət təhrikinə dair hesabatlardan, nifrət nitqinin təbliği, mitinqlər zamanı və internet daxil olmaqla mediada irqçi şiddətin təşviq edilməsindən, bundan əlavə, bu cür hərəkətlərin hər zaman iştirakçı dövlət tərəfindən lazımınca araşdırılmaması və mühakimə olunmamasından narahatlığını bilirib (Maddə 4).

Bununla yanaşı, Komitə iştirakçı dövlətə irqçi nifrət və nifrət cinayətlərindən qorunmağa ehtiyacı olan həssas qrupların hüquqlarının qorunmasının vacibliyini xatırladıb. Buna görə iştirakçı dövlətə aşağıdakılar üçün lazımi tədbirlərin görülməsini tövsiyə edib:

1. Nifrət və irqçiliyin təzahürlərini, eləcə də mitinqlər zamanı irqçi şiddət və nifrəti təhrik etməklə qətiyyətlə mübarizə aparmaq;
2. İnternet daxil olmaqla mediada

nifrət nitqi ilə mübarizə aparmaq üçün müvafiq addımlar atmaq;

3. Şəxsləri, habelə bu cür hərəkətlərdən məsul olan təşkilatları araşdırmaq və lazım olduqda məhkəməyə vermək;

4. Nifrət nitqi və nifrət təhriki yayan dövlət məmurlarına və siyasətçilərə qarşı müvafiq sanksiyalar tətbiq etmək;

5. Həm irqi ayrı-seçkiliyə səbəb olan qərəzli fikirlərə qarşı mübarizə, həm də millətlər arasında irqi və etnik qruplar.

Bundan əlavə, BMT-nin İnsan Hüquqları Komitəsi də oxşar tövsiyələr verib. Ölkənin insan haqları vəziyyəti ilə bağlı icmalında Yaponiya hökumətinə Koreya sakinlərinə qarşı "Nifrət çıxışı" adlı irqçi küçə kampaniyasının fəaliyyəti ilə əlaqədar narahatlığını bildirib və ayrı-seçkilik edən bütün reklam fəaliyyətlərinin qadağan edilməsini tövsiyə edib.

"Yekun müşahidələr"də Komitə nifrət nitqi və "yalnız yapon" nümayişi kimi xaricilərə qarşı ayrı-seçkilik hərəkətlərinin genişlənməsindən narahatlığını ifadə edib. Komitə "Yaponiyanın cinayət və mülki qanunvericiliyi onları lazımi dərəcədə qorumur" qənaətini bölüşüb.

Bu cür müşahidələrə əsaslanaraq Komitə ayrı-seçkilik və zorakılığa dəvət edən irqi üstünlüyü və ya nifrəti təbliğ edən bütün vasitələrin qadağan edilməsini tövsiyə edib. Yaponiya hökumətini cinayətkarları cəzalandırmaq üçün qaydalar hazırlamağa çağırıb.

Komitə koreyalılar, çinlilər və ya burakumin kimi azlıq qruplarının üzvlərinə qarşı nifrəti və ayrı-seçkiliyi təhrik edən geniş yayılmış irqçi nitqlərdən, Cinayət və Mülki məcəllələrdəki bu hərəkətlərə qarşı yetərincə qorunma olmadığından narahatlığını bildirib. Komitə ayrıca icazə verilən çox sayda ekstremist nümayişdən, azlıqlara, o cümlədən xarici tələbələrə qarşı edilən təzyiq və zorakılıqdan və "yalnız yaponca oxuyanlar" kimi əlamətlərin özəl müəssisələrdə açıq şəkildə göstərilməsindən narahatlığını ifadə edib (Maddə 2, 19, 20 və 27).

Tövsiyələrə görə, dövlət ayrı-seçkiliyi, düşmənçiliyi və ya şiddəti təhrik edən irqi üstünlüyü və ya nifrəti müdafiə edən bütün təbliğatı və bu təbliğatı yaymaq məqsədi daşıyan nümayişləri qadağan etməlidir. İştirakçı dövlət irqçiliyə qarşı maarifləndirmə kampaniyaları üçün kifayət qədər resurs ayırmalı və hakimlərin, prokurorların, polis məmurlarının nifrət və irqi motivli cinayətləri aşkar etmək üçün təlim alması üçün səylərini artırmalıdır. İştirakçı dövlət irqçi hücumların qarşısını almaq və iddia edilən cinayətkarların hərtərəfli araşdırılmasını, mühakimə olunmasını və təqsirləndirildiyi təqdirdə müvafiq sanksiyalarla cəzalandırılmasını təmin etmək üçün bütün lazımi addımları atmalıdır.

2012-ci ildə Malta Cinayət Məcəlləsinə dəyişikliklər edildi. 82A, 82C və 83B maddələrinə gender kimliyi və cinsi oriyentasiya cəhətlərini təfərrüatlı əhatə etmək üçün nifrət cinayəti və nifrət nitqi ilə bağlı müddəalar genişləndirildi. Digər tərəfdən, dəyişiklik qərəzli cinayətə görə cəzanın artırılmasını və cinayətin ağırlığını müəyyənləşdirdi. Həmçinin, nifrət nitqini tənzimləyən "Mətbuat haqqında" Qanunun 6-cı maddəsini də əhatə etdi. 2018-ci ildə bu cür hadisələrlə bağlı məlumatlandırmaq, nifrət cinayətinə görə saxlanmaq və hesabatlılığı asanlaşdırmaq üçün Milli Polis Sistemində dəyişiklik edildi [11].

Malta Cinayət Məcəlləsi 82A-82D maddələri ilə nifrət nitqini aşağıdakı kimi hərtərəfli qadağan edir:

82A. (1) Hər hansı bir təhdid, təhqir və ya təhqiramiz sözlərdən və ya davranışdan istifadə edən, yazılı və ya çap olunmuş material vasitəsi ilə zorakılıq və ya irqi və ya dini təhrik etmək məqsədi güdən, yaxud özünü bu şəkildə aparan, gender, cinsi oriyentasiya, irq, rəng, dil, etnik mənşə, din və ya inanc, siyasi və ya başqa fikirlərə görə digər bir şəxsə və ya qrupa qarşı nifrət və ya bu cür şiddəti ehtimal etməyi nəzərdə tutan bütün hallar altı aydan on səkkiz ayadək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

82B. Soyqırımı, insanlığa qarşı cinayətləri, bir qrup şəxsə və ya belə bir qrupun üzvünə qarşı yönəldilmiş müharibə cinayətlərini ictimai şəkildə rədd və inkar edən və ya kobud şəkildə şərh edən, davranışında irq, rəng, din, vətəndaşlıq, milli və ya etnik mənşəyə istinad edərək aşağıdakı hallara yol verən:

(a) hər hansı qrupa və ya qrup üzvünə qarşı zorakılıq və ya nifrət hissini təhrik etmə ehtimalı;

(b) ictimai asayişi hədə-qorxu gəlməklə, təhqiramiz davranışla təhdid etmək ehtimalı səkkiz aydan iki ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Bu maddələrin məzmunu - "soyqırım", "insanlığa qarşı cinayətlər" və "müharibə cinayətləri" 54A maddəsində (Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutunu Malta Qanununa çevirən müddəalar) onlara verilmiş eyni mənanı daşımalıdır.

(a) belə bir şəxsə və ya qrupa qarşı zorakılıq və ya nifrət hissini təhrik etmə ehtimalı; və ya

(b) ictimai qaydanı pozma ehtimalı olan və ya hədə-qorxu gələn, təhqiramiz və ya təhqir edən şəxs məhkum edildikdə səkkiz aydan iki ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

(2) Bu maddənin məqsədləri üçün barışa qarşı cinayət aşağıdakılardan ibarət davranış deməkdir:

(a) təcavüz müharibəsinin və ya beynəlxalq müqavilələrin, razılaşmaların və ya təminatların pozulması ilə müharibənin planlaşdırılması, hazırlanması, başlanması və ya aparılması;

(b) (a) bəndində göstərilən hərəkətlərdən hər hansı birinin yerinə yetirilməsinə dair ümumi bir planda iştirak etmək və ya sui-qəsd.

82D. Hər ikisi daxil olmaqla 82A-dan 82C-dək maddələrə əsasən hər hansı bir cinayətə kömək edən, dəstəkləyən və ya təhrik edən hər kəs günahkardır və cinayətə kömək və ya təhrik üçün verilən cəzaya məhkum edilməklə məsuliyyət daşıyır.

Rusiya təcrübəsi

Rusiya Federasiyasında (RF) "nifrət nitqi" problemi çoxmillətli və çoxkonfessiyalı bir dövlət üçün xüsusilə aktual hesab edilir. Bu problem Rusiyada baş verən son hadisələr, həmçinin Ukrayna ilə müharibə kontekstində kəskinləşib. RF Konstitusiyanın 29-cu maddəsinin 2-ci hissəsi sosial, irqi, milli və ya dini kin və düşmənçiliyi təhrik edən təbliğat və ya təşviqatı, sosial, irqi, milli, dini və ya dil üstünlüyünün təbliğ edilməsini qadağan edir.

Sosial mediada şiddət kontentinin artması fonunda, Rusiyada media fəaliyyətinin hüquqi tənzimlənməsinin iki kriteriyanı təmin etməsi vacib sayılır: bir tərəfdən ifadə azadlığını təmin etmək və digər tərəfdən nifrət nitqinin təzahürü üçün elə qanuni məhdudiyyətlər yaratmaq ki, media azadlığına xələl gətirilməsin.

Rusiyada mediada nifrət nitqinə qarşı qanuni mexanizmləri olan daxili aktlar arasında ilk növbədə “Rusiya federasiyasının kütləvi informasiya vasitələri haqqında” Qanun və “Ekstremist faliyyətə qarşı mübarizə haqqında” Federal Qanun, həmçinin Cinayət Məcəlləsi qeyd edilir. 2002-ci ilə qədər “Kütləvi informasiya vasitələri haqqında” Qanun medianın milli, sinfi, sosial, dini dözümsüzlüyü və ya nifrəti təhrik etmək və müharibəni təbliğ etmək üçün istifadə etməsini media azadlığından sui-istifadə forması kimi qəbul edib. Beləliklə, mediada nifrət nitqi ilə mübarizə üçün demək olar ki, bütün hüquqi potensiallar hazırkı “Ekstremist fəaliyyətlərə qarşı mübarizə” Qanununda cəmlənib. Bu qanunun 1-ci maddəsində nifrət nitqinin müxtəlif təzahürlərini tam əhatə edən ekstremist fəaliyyətin tərifi yer alır (məsələn, KİV-in vətəndaşların dinə, sosial, irqi, milli, dini və ya dil mənsubiyyətinə münasibətlərinə görə müstəsna-

lığını, üstünlüyünü və ya aşağılanmasını təbliğ etməyə yönəlmiş tədbirlərin planlaşdırılması, təşkili, hazırlanması və həyata keçirilməsindəki fəaliyyətləri ekstremist fəaliyyət kimi tanınır). Qanun medianın yalnız müstəqil şəkildə ekstremist fəaliyyətlə məşğul ola bilməyəcəyini, eyni zamanda ekstremist fəaliyyətə çağıran və ya bu cür fəaliyyətin zəruriliyini əsaslandıran, yaxud əsaslandırmağa çağıran "başqalarının" ekstremist materiallarını yaya biləcəyini də nəzərdə tutur. Qanunun 8-ci maddəsi media fəaliyyətinin dayandırılması üçün eyni anda bir neçə əsas nəzərdə tutur: Hər hansı media qurumunun fəaliyyətinə xitam verilməsi üçün məhkəməyə müraciət etmək səbəbi kimi qeydiyyata alan qurumu və ya səlahiyyətli icra hakimiyyəti orqanı, yaxud müvafiq prokuror tərəfindən verilən xəbərdarlıqdan məhkəməyə şikayət edilməməsi və ya məhkəmə tərəfindən mübahisəli xəbərdarlığın qanuna uyğun olaraq tanınması kimi vəziyyətlər misal göstərilə bilər: yol verilmiş pozuntuların aradan qaldırılması üçün tədbirlərin görülməməsi; xəbərdarlıq tarixindən etibarən on iki ay ərzində media təşkilatının fəaliyyətində ekstremizm əlamətlərinin olduğunu göstərən yeni faktların təkrarlanması.

Beləliklə, bu cür vəziyyətdə məhkəmə araşdırması üçün şərait yaranır. Belə bir sual da meydana çıxır: KİV-lərin fəaliyyətinə xitam verilməsi barədə məhkəməyə müraciət etmək səlahiyyəti olan qurumların lazımi fəaliyyət göstərmədiyi hallarda nə ediləcək? Görünür, bu hüququ bir sıra digər subyektlərə, məsələn, ictimai birliklərə, qeyri-kommersiya təşkilatlarına və s. vermək məsləhətdir.

Bir sıra hallarda nifrət nitqindən istifadə etməkdə günahlandırılan media qurumunun fəaliyyətinə Ekstremizm Qanunu əsasında deyil, 16-cı maddədə nəzərdə tutulmuş “Kütləvi İnformasiya Vasitələri haqqında” Qanunla - qeydiyyatdan keçən orqanın tələbi ilə məhkəmə tərəfindən, yaxud il ərzində 4-cü maddənin tələblərinin redaktəsi ilə təkrar pozuntular baş verdiyi halda səlahiyyətli icra orqanı tərəfindən xitam verilə bilər. Onu da qeyd etmək lazımdır ki, Cinayət Məcəlləsi yalnız medianın redaksiya heyətinin tətbiq olunmadığı şəxslər üçün məsuliyyət müəyyənləşdirir.

“Kütləvi informasiya vasitələri haqqında” Qanunun 59-cu maddəsinə görə, media azadlığından sui-istifadə mövcud qanunvericiliyə uyğun olaraq cinayət, inzibati və intizam məsuliyyətinə səbəb olur. Aydındır ki, yuxarıdakı bütün məsuliyyət növlərindən yalnız inzibati məsuliyyət media təşkilatına tətbiq edilə bilər.

Məlumdur ki, nifrət nitqinin aradan qaldırılmasında jurnalist ictimaiyyətinin qurumları, özünütənzimləmə sistemi əhəmiyyətli rol oynayır. Rusiyada jurnalistin peşə etikası qaydaları belə müəyyənləşdirilib: "Jurnalist fəaliyyətinin səbəb ola biləcəyi məhdudiyyətlərin, təqiblərin və zorakılığın təhlükəsini tam bilir. Jurnalist peşə vəzifələrini yerinə yetirərkən cins, irq, dil, din, siyasi və ya digər baxışlar, habelə sosial və milli mənşə əlamətləri daxil olmaqla ekstremizmə və vətəndaş hüquqlarının məhdudlaşdırılmasına qarşı mübarizə aparır. Jurnalist peşə diqqətinin obyektinə çevrilən insanların şərəf və ləyaqətinə hörmət edir. İrqi, milliyyəti, rəngi, dini, sosial mənşəyi və ya cinsi ilə əlaqəli və ya bir insanın əlilliyi və ya xəstəliyi ilə bağlı hər hansı bir aşağılayıcı xəbərdən və ya şərhlərdən çəkinir."

Rusiya Federasiyasının Prezidenti yanında Məlumat Mübahisələri üzrə Məhkəmə Palatasının nifrət nitqi təzahürlərinin qarşısını almaq üçün tövsiyələri aşağıdakı kimidir:

1. Silahlı qarşıdurmanın mahiyyətini millətlərarası düşmənçilik müstəvisinə çevirməmək, bütün etnik qruplarla əlaqəli sabit mənfi stereotipin formalaşmasına imkan verməmək;

2. Bir etnik qrupun digərlərindən üstünlüyünü məqsədyönlü şəkildə forma-

laşdırmamaq;

3. Seçki kampaniyası zamanı milli təəssübkeşlərə müraciət etməmək;

4. Bir maraqlı tərəfi müstəqil şərhçi kimi cəlb etməmək;

5. Cinayətlər haqqında nəşrlərdə cinayətkarların və ya onların qurbanlarının milliyyətinə diqqət yetirməmək;

6. Dövlət və ya ictimai xadimlərin siyahısını etnik müxtəliflik prinsipinə görə qruplaşdıraraq dərc etməmək;

7. Münaqişələri işıqlandırarkən məlumat bərabərliyini təmin etmək.

Səudiyyə Ərəbistanı

Qlobal pandemiya dövründə Səudiyyə Ərəbistanında bütün ölkə miqyasında tədris proqramında kurrikulum və dərsliklərlə bağlı dərin islahatlar aparılıb. "Məktəb dərsliklərinin modernləşdirilməsi" adlanan tədbirlər həyata keçirilib [38].

Kral Salmanın göstərişi ilə məktəb dərsliklərində yəhudilərin mənfi stereotiplərinin, başqalarına nifrət ifadə edən mətnlərin çıxarılmasına başlanılıb. Məktəb dərsliklərindəki mənfi İsrail stereotiplərinin aradan qaldırılması islahatının bir hissəsidir. Başqa sözlə, əvvəllki düşmənlər artıq "şeytanın övladı" adlandırılmır. Krallığın son dövrdə çap olunan dərslik kitablarında ilk dəfə olaraq dindar olmayanların ölüm cəzasına layiq olması, qiyamət müharibəsi proqnozları ilə bağlı olan bölmələr çıxarılıb.

Qeyd edilən "Məktəb dərsliklərinin modernləşdirilməsi" prosesi Vəliəhd Məhəmməd bin Salmanın "2030-Baxış" (Vision-2030) strateji planına uyğun olaraq baş verib. Rəsmi dərsliklərdəki dəyişikliklərin reallaşdırılması yeni nəsil müəllim və tələbə nəslinin yetişdirilməsi ilə paralel olaraq həyata keçirilməsi nəzərdə tutulub.

Xatırladaq ki, bundan əvvəl beynəlxalq qurumların hazırladığı 62 səhifəlik “Onlar bizim qardaşlarımız deyil: Səudiyyə rəsmilərinin nifrət nitqi" adlı sənəddə Səudiyyə Ərəbistanının hökuməti tərəfindən təyin olunmuş din alimlərinə və din xadimlərinə dini azlıqlara aşağılayıcı ifadələrlə müraciət edilməsinə və ya rəsmi sənədlərdə onları “iblisləşdirməsinə” (demonizasiya) icazə verən sənədlər və hökumətin qərar verməsinə təsir edən dini qərarlar təhlil və təqdim edilib. Son illərdə hökumət ruhaniləri və başqaları internetdən və sosial mediadan şiə müsəlmanlarına və onların fikirlərinə uyğun olmayan digərlərinə qarşı nifrət yönləndirmək üçün istifadə edib.

“Human Rights Watch” təşkilatı bu ölkədə nifrət nitqi ilə bağlı hesabatlar hazırlayıb. Hesabatların biri “Səudiyyə Ərəbistanı: rəsmi nifrət nitqi azlıqları hədəf alır. Təhrikçilik şiələrə və digər qruplara qarşı ayrı-seçkiliyə səbəb olur” adlanır. Burada qeyd edilir ki, sudiyyəli bəzi dövlət ruhaniləri və qurumları, ölkənin şiə müsəlman azlığı da daxil olmaqla dini azlıqlara qarşı nifrət və ayrı-seçkiliyi təbliğ edir. Təşklat ölkənin dini tədris proqramında yəhudilik, xristianlıq və təsəvvüf islamı da daxil olmaqla digər dini mənsubiyyətlərə aşağılayıcı istinadları sənədləşdirib.

Hamısı sünni çoxluq olan hökumət ruhaniləri digər dini məzhəbi damğalayır, ölkənin ən yüksək dini qurumu olan Yüksək Dini Alimlər Şurasının bir üzvü şiə müsəlmanları ilə əlaqəli suala "onlar bizim qardaşlarımız deyil..." deyərək cavab verib. Keçmiş baş müfti, 1999-cu ildə vəfat edən Əbdüləziz bin Bazın çoxsaylı dini hökmlərində şiələri qınayan fətva və yazıları İslami Tədqiqatlar və Fətvalar Verən Daimi Komitənin saytında ictimaiyyətə indi də açıq olaraq qalıb. Bəzi din xadimləri şiələrin dövlətə qarşı sui-qəsdin bir hissəsi, İran üçün yerli “beşinci kolon” və təbiətinə görə vəfasızlıq etdiyini söyləyən nifrət nitqindən istifadə edirlər. 2015-ci ildə Səudiyyə məhkəməsi bir şiə vətəndaşını atasının evində xüsusi şiə qrup namazlarına ev sahibliyi etdiyi üçün iki ay həbs və 60 şallaq cəzasına məhkum edib. 2014-cü

ildə Səudiyyə Ərəbistanı məhkəməsi bir sünnini "şiə ilə bir yerdə oturmaqda" günahlandırıb.

Birləşmiş Ştatların Beynəlxalq Dini Azadlıq Komissiyası (USCIRF) Səudiyyə Ərəbistanını dəfələrlə "xüsusi narahatlıq doğuran ölkə" kimi təsnif edib. Bu, dini azadlığı pozan ölkələr üçün ən sərt dəyərləndirmədir. Qeyd edilən "Məktəb dərsliklərinin modernləşdirilməsi" adlanan islahatlar da bu dəyərləndirmələrin nəticəsi hesab oluna bilər.

7. Azərbaycanda nifrət nitqi mövzusu ilə bağlı müzakirələr

Azərbaycanda ayrıca nifrət qanunvericiliyi, yaxud "nifrət cinayətləri" anlayışının konkret tərifi verilməsə də, qeyd edilən bir çox ölkələrdəki mənada nifrət cinayətlərinə aid əməllərə qarşı cəzaların daha da sərtləşdirildiyi təcrübə mövcuddur və tətbiq edilir. Ölkəmizdə milli-dini-irqi ayrı-seçkilik və nifaq salmağa görə ən ciddi qanunverici əsaslar mövcuddur. "Nifrət, düşmənçilik" məzmunlu ifadələr oxşar cinayət əməllərinin tərkib hissəsi kimi qanunvericiliklə tənzimlənir. Beynəlxalq hesabatlarda da dəfələrlə vurğulandığı kimi, Azərbaycanda milli təhlükəsizliyin təmin edilməsi məqsədinə ximət edən, nifaq və ya etnik düşmənçilik hallarının qızışdırılmasını qadağan edən Cinayət Məcəlləsi var. Azərbaycan Respublikası Cinayət Məcəlləsində bu mövzu ilə bağlı aşağıdakı müddəalar əksini tapıb: "Maddə 283. Milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınması; 283.1. Milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasına, habelə milli, irqi və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlər, aşkar surətdə, o cümlədən kütləvi informasiya vasitələrindən istifadə olunmaqla törədildikdə, səkkiz min manatdan on iki min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ildən dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır" [12].

Azərbaycan Avropa Şurasının üzvüdür və üzv qismində ölkədə ifadə azadlığının müdafiəsini gücləndirmək üçün müxtəlif öhdəliklər götürmüşdür. 2002-ci ildə İnsan Hüquqları üzrə Avropa Konvensiyasını (İHAK) ratifikasiya etmişdir. Azərbaycan Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) yurisdiksiyasındadır, İHAK-ın şərhi və tətbiqi məhz AİHM-in səlahiyyətinə aiddir.

Azərbaycan etnik-milli və dini tolerantlıqla bağlı qlobal reytinqlərdə ilk sıralarda yer tutur. "İrqçiliyə və Dözümsüzlüyə qarşı Avropa Komissiyası" (European Commission against Racism and Intolerance; ECRI) Azərbaycanla bağlı dövri hesabatlar təqdim edir. Hesabatlarda heç zaman irqi-milli, dini əsaslı cinayətlər əksini tapmayıb. Hətta otuz illik işğalçı müharibə dövründə ermənilərə qarşı münasibətlə bağlı İrqçiliyə və Dözümsüzlüyə qarşı Avropa Komissiyasının (ECRI) hesabatında yazılıb: "EGRI-nin ikinci hesabatından sonra müvafiq cinayət hüququ müddəalarının pozulması ilə bağlı hər hansı şikayət daxil olmayıb. İrqçilik motivi ilə törədilən əməllərdən çox az sayda şikayətin edilməsi faktı Azərbaycanda hökm sürən əhəmiyyətli tolerantlıq kimi qeyd oluna bilər. Səlahiyyətli qurumların bildirdiyinə görə, erməni əsilli insanlarla Ermənistan Respublikasının törətdiyi əməllər arasında fərqi ayırd etmək bütövlükdə Azərbaycan əhalisi üçün çətin deyil. Səlahiyyətli qurumlar eyni zamanda bildirirlər ki, Dağlıq Qarabağ münaqişəsi həll olunduqdan sonra erməni əsilli olan heç bir şəxs əhalinin digər üzvləri tərəfindən düşmənçilik təhlükəsinə məruz qalmayacaq".

ECRI hesabatında bildirir ki, münaqişə illərində Azərbaycan KİV-lərinin Ermənistan Respublikası ilə bağlı mənfi məzmunlu məlumatların ölkədə yaşa-

yan ermənilərə təsir göstərdiyinə dair fakt yoxdur. Çünki buradakı erməni əhali Ermənistan Respublikasına və onun rəhbərliyinə qarşı mənfi münasibətdədir və bu münasibət olduğu üçün onlar ölkəni tərk edib Ermənistana getməyiblər. Ölkəni tərk etməmələrinin digər səbəbi isə burada onlara qarşı göstərilən normal sivil münasibətdir [28].

ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu (DTİBH) üzv ökələrdə nifrət cinayətləri ilə bağlı mütəmadi hesabatlar təqdim edir. DTİHB dövlət rəsmilərinə nifrət cinayətləri ilə bağlı monitorinq mexanizmlərinin və məlumatların toplanılmasında və inkişaf etdirilməsində dəstək verir. “Nifrət cinayətləri ilə bağlı hesabatlılığa Ümumi Çağırışlar” adlı təhlillər aparır.

Təşkilatın müvafiq səhifəsində Azərbaycanla bağlı qeyd edilib: “Azərbaycan son dəfə "Nifrət Cinayətləri Hesabatı" üçün ATƏT DTİHB-ə 2011-ci ildə bu sahədə cinayətlərlə bağlı məlumat verib. Azərbaycanda nifrət cinayətləri ümumi qanunlarda və Cinayət Məcəlləsində əksini tapmış müddəalarda əksini tapıb. Nifrət cinayətləri barədə məlumatlar Daxili İşlər Nazirliyi tərəfindən hazırlanır”.

2018-ci ildə Demokratik Təşəbbüslər İnstitutu (IDI) nifrət nitqi ilə bağlı araşdırma sənədi hazırlayıb. Gənc hüquq müdafiəçiləri ifadə azadlığı kontekstində siyasətçilərin çıxışlarında nifrət nitqinin monitorinqini aparıb. Sənəd bir neçə bölmədən ibarətdir: "Nifrət nitqi” anlayışı; Avropa İnsan Hüquqları Məhkəməsi təcrübəsində nifrət nitqinin analoji izahı; Nifrət nitqinə görə qanunvericilikdə nəzərdə tutulan məsuliyyət; Azərbaycanda media mühitinin vəziyyəti; Aparılmış monitorinqin analizi; Nəticə və tövsiyələr.

Bəzi ekspertlərin fikrincə, Azərbaycan torpaqlarının uzun müddət Ermənistan tərəfindən işğalı, müharibənin başlaması ilə bağlı cəmiyyət daxilində deyil, faktiki işğalçılara qarşı milli zəmində nifrət nitqinin yayılması başlanğıcını götürüb. Belə ki, gerçək işğalçı düşmən obrazı ictimai rəydə emosional nifrət hisslərini yarada bilər. Ümumilikdə siyasi motivli nifrət nitqi, onun təzahürləri və nəticələri, mediada nifrət əsaslı çıxışlar və s. məsələlər vaxtaşırı dilə gətirilib.

Avropa Şurasının “Azərbaycanda Kiber bulling (zorakılıq), nifrət nitqi və nifrət cinayətləri üçün milli hesabat prosedurları” adlı sənədində müvafiq sahə dəyərləndirilib.

Aşağıdakı məlumatlar Avropa Şurasının "Nifrət Nitqinə Yox" hərəkatına qatılan ölkələrdə milli hesabat mexanizmlərinin xəritələşdirmə tədqiqatından götürülüb. Məqsəd aşağıdakıları təmin etməkdir:

1. Kiberzorakılıq, nifrət nitqi və nifrət cinayətləri mövcud olduğu təqdirdə milli hesabat mexanizmlərinin əlaqə məlumatları;

2. Mövcud olduqları təqdirdə kiberzorakılıq, nifrət nitqi və nifrət cinayətləri ilə davranmağın qanuni əsasları barədə məlumat və hesabat mexanizmləri, nifrət cinayətləri barədə məlumatlar polis və qaynar xətt telefonu vasitəsilə təqdim edilə bilər. Hazırda nifrət nitqi və kiberzorakılıq barədə məlumat vermək, hesabatlılıq üçün hər hansı mexanizm yoxdur.

Azərbaycanda nifrət qanunvericiliyi haqqında: “2. Ümumi məlumat. Nifrət cinayətləri ilə bağlı konkret təriflər olmasa da, Cinayət Məcəlləsində nifrət cinayətləri ilə bağlı müəyyən edilmiş maddələr mövcuddur:

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə (Maddə 61) görə, milli, irqi, dini nifrət və ya fanatizm səbəbilə cinayət törətmək, digər şəxslərin qanuni hərəkətlərindən qisas almaq məqsədilə və ya daha aşağı dərəcədə intiqam almaq təhrikçilik, cəzanı ağırlaşdıran hallar arasındadır.

Nifrət cinayətlərinin cəzalandırılmasını qanuni şəkildə tənzimləyən başqa bir maddə 111-ci maddədir: İrqi

ayrı-seçkilik (aparteid). 111.0. Bir irqi qrupun digər irqi qrupu məhv etmək üçün üstünlüyünün təşkili və qorunması məqsədilə həyata keçirilən hərəkətlər:

111.0.1. irqi qrupun və ya qrupların üzvlərinə həyat və azadlıq hüququnu inkar etmək, yəni irqi qrup və ya qrup üzvlərinin öldürülməsi, sağlamlığına ağır və ya əqli qabiliyyətlərinə ciddi ziyan vurulması, onlara işgəncə verilməsi və ya ağır, amansızca istinad edilməsi və ya alçaldıcı üstünlük və cəzalar, habelə hər hansı bir həbs və ya qanunsuz həbs;

111.0.2. irqi qrup və ya qruplar üçün tam və ya qismən fiziki məhv olmaq üçün hazırlanmış yaşayış şəraitinin yaradılması.

Qəsdən adam öldürməyə görə cinayətin cəzalandırılması barədə 120-ci maddəyə görə, milli, irqi, dini nifrət və ya düşmənçilik səbəbi ilə qəsdən adam öldürmə cəzanı daha da ağırlaşdırır.

Həmçinin, "Reklam haqqında" Qanunun 12-ci maddəsində nifrət nitqindən bəhs olunur: Maddə 12.1. Yetkinlik yaşına çatmayanların əqli və fiziki baxımdan zərərli təsirlərin qarşısını almaq üçün reklamda aşağıdakılar qadağandır:

12.1.2. Başqa bir insana qarşı kobudluq, nifrət, təcavüz, pis vərdişlər aşılamaq.

Eləcə də, "Kütləvi İnformasiya Vasitələri haqqında" Qanunun 10-cu maddəsində qeyd olunur: "Kütləvi məlumat azadlığından sui-istifadənin yolverilməzliyi… nifrət cinayətləri ilə bağlı cəzanı ağırlaşdırmağı nəzərdə tutur".

Avropa Şurasının qeyd edilən fəaliyyəti çərçivəsində Azərbaycanda Facebook sosial şəbəkəsində "Nifrət Nitqinə Yox" hərəkatı adl səhifə yaradılıb. Kampaniya 2012-2014-cü illər üzrə həyata keçirilən "Gənclərin nifrət nitqinə qarşı onlayn mübarizəsi" layihəsinin bir hissəsi olub [22]. Layihə bərabərliyi, ləyaqəti, insan hüquqlarını və müxtəlifliyi müdafiə edir və dəstəkləyir. Bu, nifrət nitqi, irqçilik və ayrı-seçkilik hallarının onlayn ifadəsinə qarşı yönəlib. Kampaniyanın Azərbaycan üzrə milli əlaqələndiricisi Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasıdır. Kampaniyanın fəaliyyəti çərçivəsində Bakı şəhərində yerləşən bir sıra Gənclər evlərində insan hüquqlarının Azərbaycan gəncləri üçün mühüm aspektləri haqqında təlim sessiyaları həyata keçirilib. Təlim modulu "KOMPASS" - İnsan Hüquqları Tədrisi Kitabçasına uyğun olaraq hazırlanıb. Təlimçi qismində 27 iyun-3 iyul 2017-ci il tarixlərində Gənclər və İdman Nazirliyi və Avropa Şurası tərəfindən təşkil olunan "KOMPASS"-İnsan hüquqları üzrə uzunmüddətli tədris proqramının iştirakçıları cəlb olunub.

Hərəkat onlayn nifrət nitqinin bütün formalarına, o cümlədən gənclərə ən çox təsir edən təhdidin və təhqirin təzahürlərinə qarşı yönələn kampaniya kimi təsvir edilir. Onun məqsədi onlayn nifrət nitqi, onun demokratiya və fərdi gənclər üçün riskləri haqqında məlumatlılığı artırmaq, media və internet savadlılığını təşviq etmək; onlayn və oflayn rejimdə insan haqlarının müdafiəsi üçün çalışan gəncləri dəstəkləmək; onlayn nifrət nitqinə qarşı dözümlülük səviyyəsini azaltmaq; onlayn gənc fəalları insan haqlarının müdafiəsi üçün səfərbər etmək, hazırlamaq və şəbəkə qurmaq; onlayn nifrət nitqinin yayılma xəritəsini tərtib etmək və konstruktiv reaksiya alətlərini təşviq etmək; onlayn nifrət nitqinin hədəfə aldığı insanlara və qruplara dəstək və həmrəylik nümayiş etdirmək; nifrət nitqi ilə mübarizədə Avropanın siyasət alətləri üzrə inkişaf və konsensus üçün təşviqat aparmaq; gənclərin iştirak formalarını və onlayn vətəndaşlığı inkişaf etdirməkdir.

Səhifədə qeyd edilir ki, "nifrət nitqi Avropa Şurası tərəfindən müəyyən olunduğu kimi, dözümsüzlük, o cümlədən aqressiv milliyyətçilik və etnosentrizmlə, azlıqlara, emiqrantlara və immiqrant mənşəli insanlara qarşı ayrı-seçkilik və düşmən münasibətlə ifadə olunan dözümsüzlüyə əsaslanan irqi

nifrəti, ksenofobiyanı, anti-semitizmi və nifrətin digər formalarını yayan, təhrik edən, təbliğ edən və ya əsaslandıran bütün ifadə formalarını əhatə edir".

10 dekabr 2017-ci il tarixində "Nifrət Nitqinə Yox" hərəkatı kampaniyasının son rəsmi fəaliyyət günü olub. Həmin vaxtdan səhifə aktiv deyil.

Nifrət qanunvericiliyi ilə bağlı müzakirələrlə yanaşı, Azərbaycanda diffamasiya haqqında qanun da son illər diqqət mərkəzində olub. Səbəb odur ki, nifrət nitqi və ifadə azadlığının hüdudlarının müəyyənləşdirilməsi bu sahədə görüləcək mühüm məsələlərdən biridir. Azərbaycan beynəlxalq təşkilatlar qarşısında diffamasiyanın dekriminallaşdırılması ilə bağlı öhdəlik götürsə də, bununla bağlı qanun layihəsi indiyə qədər parlamentdə müzakirəyə çıxarılmayıb.

Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Z.Oruc bildirib ki, mətbuat azadlığının gücləndirilməsi, beynəlxalq indekslərdəki problemlərin aradan qaldırılması üçün diffamasiya ilə bağlı məsələlər komitənin gündəliyində əsas yer tutur.

"ARTİCLE 17" təşkilatı tərəfindən ATƏT-in Media Azadlığı üzrə Nümayəndəsinin sifarişi ilə "Diffamasiya haqqında Azərbaycan Respublikası Qanununa dair Memorandum" (2006-cı il) tərtib edilib. Memorandumda qeyd edilir ki, təşkilat "Diffamasiya haqqında" Azərbaycan Respublikası Qanununun (Qanun layihəsinin) hazırlanmasını alqışlayır, həmin Qanun layihəsi ölkədə diffamasiyanı dekriminallaşdırmaq (cinayət əməli saymamaq) və mülki diffamasiyaya dair aydın və mütərəqqi normalar müəyyən etmək məqsədini daşıyır. Qanun layihəsində ifadə azadlığına hörmət edilməsini, eyni zamanda nüfuzun qorunmasını təmin etmək məqsədi daşıyan bir çox müddəalar yer almışdır. Diffamasiyaya dair cinayət normalarını ləğv etməklə yanaşı, Qanun layihəsi dövlət qurumları tərəfindən diffamasiya işlərinin qaldırılmasını qadağan edir, diffamasiyanın hüdudlarını xeyli dərəcədə məhdudlaşdıraraq buraya yalnız faktlara dair yalan ifadələri aid edir, diffamasiyaya dair iddiaya qarşı güclü müdafiəni təmin edir və diffamasiya xarakterli ifadələrə qarşı müdafiə vasitələrinin mütərəqqi rejimini müəyyən edir. Eyni zamanda, bəzi müddəaların beynəlxalq normalara daha çox uyğun olması üçün onlara düzəlişlər edilə bilər. Əlavə müdafiə vasitələri nəzərdə tutulmalı, qanunun tətbiq dairəsi daha da daraldılmalı və qərəzli iddiaçılar problemini həll etmək üçün normalar nəzərdə tutulmalıdır" [6].

Məlum olduğu kimi, nifrət nitqi və ifadə azadlığının hüdudlarının müəyyənləşdirilməsi ən vacib məsələlərdən biridir. Bu baxımdan, Memorandumun "2.2. İfadə azadlığına qoyulan məhdudiyyətlər" bölməsi diqqəti cəlb edir. İHAK-ın 10-cu maddəsinin 2-ci bəndində ifadə azadlığının məhdudlaşdırılmasına yol verilən azsaylı hallar qeyd edilir: Bu azadlıqların həyata keçirilməsi milli təhlükəsizlik, ərazi bütövlüyü və ya ictimai asayiş maraqları naminə, iğtişaşın və ya cinayətin qarşısını almaq üçün, sağlamlığın, yaxud mənəviyyatın qorunması üçün, digər şəxslərin nüfuzu və hüquqlarının müdafiəsi üçün, gizli əldə edilmiş məlumatların açıqlanmasının qarşısını almaq üçün və ya ədalət mühakiməsinin nüfuz və qərəzsizliyini təmin etmək üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan müəyyən rəsmiyyətə, şərtlərə, məhdudiyyətlərə və ya sanksiyalara məruz qala bilər.

Bu bənddə üç hissədən ibarət meyar nəzərdə tutulur, bu meyara görə ifadə azadlığına qoyulan məhdudiyyətlərin qanuni olması üçün həmin məhdudiyyətlər: a) qanunla nəzərdə tutulmalı; b) qanuni məqsəd daşımalı; və c) "demokratik cəmiyyətdə zəruri" olmalıdır."

Həmçinin, AİHM qeyd etmişdir ki, "norma vətəndaşın öz davranışını tənzimləyə bilməsi üçün kifayət qədər dəqiq ifadə edilməmişdirsə, o, "qa-

nun" sayıla bilməz: vətəndaş müvafiq hərəkətin törədə biləcəyi nəticələri şəraitə görə ağlabatan dərəcədə qabaqcadan görmək imkanına malik olmalıdır (ehtiyac olduqda müvafiq məsləhət almaqla)". Deyilənlər baxımından Memorandumda belə nəticəyə gəlinir ki, diffamasiya haqqında qanun layihəsində: "Hakimiyyət orqanlarına ifadə azadlığını məhdudlaşdırmaqda həddən artıq geniş səlahiyyətlər verən qanunlar da məhdudiyyətlərin "qanunla nəzərdə tutulmuş" olması tələbinə cavab vermir". Həmçinin, Qanun layihəsinin tətbiq dairəsinin təkcə kütləvi informasiya vasitələri ilə məhdudlaşmamasını nəzərə almaqla, layihənin 1-ci maddəsindən "kütləvi informasiya vasitələri" sözlərinin çıxarılması tövsiyə edilib.

2014-cü ildə "Deutsche Welle" Akademiyasının dəstəyi ilə "Cənubi Qafqaz mediasında "nifrət nitqi". Azərbaycan, Ermənistan və Gürcüstan mediasının monitorinqi əsasında Hesabat" adlı araşdırma aparılıb. Araşdırmanın nəticələrinə əsasən, regionda nifrət nitqinin nisbətən ən az mühahidə edildiyi Azərbaycan mediası olub [49].

Digər sənəd kimi, Avropa Şurası tərəfindən "İfadə azadlığı haqqında Azərbaycan qanunvericiliyinin təhlili" adlı araşdırmanı göstərmək olar (Analysis Of Azerbaijani Legislation On Freedom Of Expression. Council of Europe, 2017) [20].

Araşdırmanın əsas məqsədi ifadə azadlığına dair Azərbaycan Respublikasının qanunvericilik və tənzimləyici bazasının müasir icmalını vermək və Konvensiyanın 10-cu maddəsinin (ifadə azadlığı) tələblərinə uyğunluğunu qiymətləndirməkdir. Sənəd şiddətə təhrikçilik, böhtan, nifrət nitqi, gizli və məxfi məlumatlar, dini ifadə və digərləri daxil olmaqla ifadə azadlığı və tənzimləmə ilə əlaqəli ümumi qaydaların izahı ilə başlayır. Həmçinin mediaya aid qanun və qaydaların, daha sonra, xüsusən medianın və internetin icmalı verilib. Hər fəsildən sonra mövcud qanunvericilik bazasının Konvensiyanın tələblərinə uyğun şəkildə islah olunmasına dair tövsiyələr verilir. Hesabatda aşağıdakı tövsiyələr təklif edilmişdir:

- Nifrət nitqinə və zorakı hərəkətlərə təhriklərin, qanunla qadağan edilmiş çağırışların məzmununun daha spesifik tərifləri ilə yanaşı, qadağan olunmuş ifadələr və bunların vurduğu zərər ehtimalı ilə əlaqədar təlimatlardan faydalanmaq məqsədəuyğundur;
- Cinayət hüququ kontekstində diffamasiya ilə bağlı müddəalar "faktlar" və "fikirlər" arasında fərq qoymalı, həqiqətin müdafiəsi təmin edilməlidir;
- İnternetdə böhtanla bağlı müddəalarda zərər çəkmiş şəxsin şikayətini tələb etməklə qorunması vurğulanmalıdır.

Bakı Mətbuat Klubunun rəhbəri, jurnalist Arif Əliyevin sözlərinə görə, "Diffamasiya haqqında" Qanun 4 variantda müxtəlif təşkilatlar tərəfindən parlamentə təqdim olunub. Prezident tərəfindən təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"nda bu qanun layihəsinin qəbul olunması bir tapşırıq kimi ortaya qoyulsa da, Azərbaycan postsovet məkanında diffamasiyanı qəbul etməyən bir-iki ölkə sırasında qalıb. Gürcüstan və Ermənistan bu qanunu çoxdan qəbul edib. Hazırda "feyk-saxta xəbərlərin" (fake news) artması, texnoloji cəhətdən onunla mübarizə aparılmasının mürəkkəbləşməsi bir çox ölkələri bu məsələlərə qayıtmağa məcbur edib. Bu qanunvericiliyin çoxdan vaxtı çatmış məsələ olması bəllidir. Belə ki, diffamasiyaya aid olan bir sıra anlayışların dəqiq izahı hələ də müəyyən edilməyib. Bu səbəbdən məhkəmələrdə bəzən çox absurd qərarlar çıxarılır. Azərbaycanda illər əvvəl qəbul olunmuş dövlət sənədində diffamasiya məsələsi əksini tapmışdır. Orada qeyd edilmişdi ki, il ərzində qanun qəbul olunsun. Lakin o tapşırıq hələ də yerinə yetirilməyib. Halbuki bu, media azadlığına aid olan məsələdir."

İrqçilik və Ayrı-seçkiliyə qarşı Avropa Komissiyasının (ECRI) 2016-cı il hesabatında qeyd edilib ki, ECRI-ın mandatına daxil olan səbəblərə görə edilən təhqir Azərbaycan qanunvericiliyi ilə açıq şəkildə qadağan edilməyib (7 saylı ÜST-ün 15-ci bəndi)". Təşkilatın digər tövsiyələri aşağıdakılardır:

- ECRI Azərbaycan dövlət orqanlarının ayrı-seçkilikdən zərər görən şəxslərin qorunması haqqında mülki və inzibati hüquq müddəalarını həyatın başlıca sahələrində irqçiliklə və ayrı-seçkiliklə mübarizə aparmaq üçün müfəssəl qanunu qəbul edərək möhkəmləndirmələrini bir daha tövsiyə edir. Bununla əlaqədar olaraq o, 7 saylı Ümumi Siyasət Tövsiyəsinin 4-dən 17-ci bəndlərinə istinad edir.
- ECRI dövlət orqanlarının 2 saylı Ümumi Siyasət Tövsiyəsinə uyğun şəkildə həm özəl, həm də ictimai sektorda irqçilik və ayrı-seçkiliklə mübarizə aparmaq üçün xüsusi qurum yaratmalarını təkidlə tövsiyə edir. Bu qurum xüsusən ayrı-seçkilikdən zərər çəkənlərə məhkəmə işlərində təmsil edilmə də daxil olmaqla ümumi məsləhət və hüquqi dəstək vermək səlahiyyətinə malik olmalıdır.
- ECRI Azərbaycan dövlət orqanlarının və ictimai qurumların bütün səviyyələrdə ermənilərə qarşı nifrət nitqindən uzaq durmasını təmin etmələrilə bağlı tövsiyəsini bir daha təkrar edir.
- ECRI dövlət orqanlarının həssas qruplarla mütəmadi dialoq aparmasını və onların statistik məlumatlarında bütün irqçi, fobiya cinayətləri ilə bağlı hallarının göstərilməsini təmin etmələrini tövsiyə edir.
- ECRI dövlət orqanlarının, məsələn, prokurorların və cinayət işləri üzrə hakimlərin intensiv təlimi vasitəsilə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin milli, irqi və ya dini düşmənçiliyin salınması barədə 283-cü maddəsini tətbiq edərkən söz, din və birləşmək azadlıqlarına lazımi diqqət ayrılmasını təmin etmələrini təkidlə tövsiyə edir.

NƏTİCƏ

Hazırda ölkə daxilində olmasa da, ölkə xaricindən Azərbaycanda konkret bir şəxsə və ya şəxslər qrupuna qarşı nifrət dilini, böhtan və qarayaxmanı tirajlayan sosial şəbəkə profilləri mövcuddur. Bu baxımdan, cəmiyyət olaraq mediada, ünsiyyət və ritorikada, sosial şəbəkələrdə nifrət nitqi ilə bağlı təzahürlər müzakirə mövzusudur. Həmin sosial şəbəkə kontentləri necə, hansı qanunvericilik əsasında təhlil edilməlidir, necə cəzalandırılmalıdır, cəzanın adekvatlığı və ədalətli qərar necə verilməlidir kimi suallara cavabların daha da konkretləşdirilməsinə ehtiyac vardır. Yalnız bu sualların cavablandırılması, sosial şəbəkələrdə ölkəmizə, ayrı-ayrı şəxslərə qarşı nifrət nitqinin tənzimlənməsi ilə bağlı növbəti addımların atılması mümkün ola bilər.

Hüquqşünasların fikrinə görə, içində zorakılığa çağırış olmayan nifrət nitqlərinin qadağan olunması ifadə azadlığına toxuna bilər. Bu baxımdan ölkədə birbaşa konstitusion quruluşun devrilməsinə, ictimai qaydanı qoruyan polisə qarşı nifrət və şiddətə, açıq zorakılığa çağırışlar edən sosial şəbəkə istifadəçiləri qanuna riayətə dəvət edilməlidir. Yaxud AİHM-in bir çox qərarlarında olduğu kimi, nifrət nitqinə görə onlara cərimə kimi qeyri-həbs metodları tətbiq edilməlidir.

Vətən müharibəsindən başlayaraq, indinin özündə də Ermənistan və qondarma Qarabağ ombudsmanları Azərbaycanda sosial şəbəkələri izləməklə, ermənilərə qarşı etnik-milli, dini əsaslı nifrət misallarını tirajlayaraq, çoxsaylı hesabatlar hazırlayıb və Avropanın müvafiq qurumlarına göndərib. Bu saxta hesabatlar hazırkı dövrdə işğaldan azad edilmiş ərazilərə "Böyük Qayıdış" strategiyasının reallaşdırılması və birgəyaşayış aspektində, ermənilərin

azərbaycanlılarla birgə yaşayışının qeyri-mümkünlüyü, qondarma "artsaxın müstəqilliyini" əsaslandırmaq üçün uydurulan "ekzistensial təhdid" miflərinə inandırmağa xidmət edir.

Bu baxımdan ermənilərə tarixən xas olan nifrət şüurunun sübutları, erməni rəhbərliyinin törətdiyi insanlıq əleyhinə cinayətlər də daxil olmaqla bunları əks etdirən hesabatların hazırlanması gündəmdə durur. Əsas kimi EGRI təşkilatının son onilliklərdə bütün hesabatlarında ölkəmizdə nifrət cinayətlərinin təzahürlərinin olmaması ilə bağlı sənədlər mövcuddur. Təşkilatın son tövsiyələrindən birində qeyd edilir: "Ermənistan Respublikası ilə bağlı daimi mənfi rəsmi və media açıqlamaları ayrı-seçkiliyə məruz qalan erməni əsilli insanlara qarşı mənfi əhval-ruhiyyənin mövcudluğuna rəvac verir. ECRI dövlət orqanlarını Azərbaycanın yurisdiksiyasına daxil olan ermənilərlə bağlı rəyin yaxşılaşdırılması üçün aktiv fəaliyyət göstərməyə qətiyyətlə çağırır. ECRI Azərbaycanın səlahiyyətli orqanlarını Azərbaycan yurisdiksiyası çərçivəsində yaşayan ermənilərlə bağlı rəy mühitini yaxşılaşdırmaq istiqamətində fəal işləməyə çağırır. Eyni zamanda bütün siyasi partiyaların irqçilik, ayrı-seçkilik və ksenefobiyanın bütün formalarına qarşı sərt mövqe tutması, müxtəliflik və plüralizm lehinə açıq siyasi mesajlar verməsinin zəruriliyi vurğulanır; həmçinin onlara ermənilərlə bağlı məsələlərə mənfi tərəfdən yanaşmaqdan çəkinməyi tövsiyə edir".

BMT çərçivəsində nifrət nitqi, dini kimlik, ifadə azadlığı, küfr və nifrət nitqinin fərqləndirilməsi ilə bağlı qəbul edilən "Rabat Fəaliyyət Planı" bu sahədə ən nüfuzlu sənəd hesab edilir. Sənəddə təhqiramiz, lakin cəzalandırılmayan ifadələr və qanunsuz sayılan nifrət ifadələri arasındakı hüdudları müəyyənləşdirməyə imkan verən, altı hissədən ibarət xüsusi "test" mexanizmi Azərbaycanda bu sahədə qanunvericiliyin təkmilləşdirilməsində istifadə edilə bilər. Həmin 6 amil bunlardır: 1. kontekst, 2.danışanın kimliyi, 3.niyyət, 4.məzmun və forma, 5.nitqin çatma dərəcəsi, 6.miqyası və zərər vurma ehtimalı. Rabat Fəaliyyət Planının xüsusi əhəmiyyəti onlayn danışığı nitqdən ayırmağı bacaran, daha yüksək sosial təsir göstərə bilən fərq amillərini qabartmasıdır.

Həmçinin, nifrət cinayətlərinin qeydə alnmadığı Azərbaycanda BMT-nin ifadə azadlığı və nifrət cinayətləri sahəsində ekspertlərindən sayılan Devid Key ölkəmizə dəvət edilə və məruzə hazırlaya bilər (yuxarıda qeyd edildiyi kimi, o, bir çox ölkələrin onu dəvət etməməsi ilə bağlı gileylərini bildirib).

Qeyd edilən bu və digər məsələlərə əsaslanaraq, nifrət cinayətlərinin tarixən de-fakto heç zaman müşahidə edilmədiyi Azərbaycanda onun de-yure olaraq təsbit edilməsinin müzakirə edilməsini gündəmə salmağın faydalı olacağını deyə bilərik.

Bir şəxsə yönəlik nifrət nitq modeli:



İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. “Hate Speech” in Encyclopedia of the American Constitution, ed. Leonard W. Levy and Kenneth L. Karst, vol. 3. (2nd ed.), Detroit: Macmillan Reference US, pp. 1277–79.

2. Allport, G. W. (1962) Prejudice: Is it societal or personal? Journal of Social Issues, 18, 120–134.

3. Anne-Marie Slaughter. Charlie Hebdo’s Rights and Wrongs// https://www.project-syndicate.org/commentary/charlie-hebdo-rights-wrongs-by-anne-marie-slaughter-2015-01?utm_source=facebook&utm_medium=organic-social&utm_ campaign= reactive& utm_post-type=link&utm_format=16%3A9&utm_creative=link-image&utm_post-date=2020-09-01&fbclid=IwAR3xcQROtLerDfPRWYzo6W6M3Yl5jJN186w0Uw GBlYRLaq_Q9qbSrY2AGds& barrier=accesspaylogAPRIL 24, 2021

4. Attacks on Asian Americans during pandemic renew criticism that U.S. undercounts hate crimes//https://www. washingtonpost.com/national-security/asian-american-hate-crimes/2021/02/21/c28a8e04-72d9-11eb-b8a9-b9467510f0fe_story.html

5. Boromisza-Habashi D. Speaking Hatefully: Culture, Communication, and Political Action in Hungary. Pennsylvania, 2013.160 p.

6. "Diffamasiya haqqında" Azərbaycan Respublikası Qanununa dair Memorandum // https://www.osce.org/files/f/documents/b/4/23942.pdf

7. ECRI General Policy Recommendation No. 15 on Combating Hate Speech (2015). ECRI Declaration on the use of racist, antisemitic and xenophobic elements in political discourse (2005), the Rabat Plan of Action on the prohibition of advocacy of national, racial or religious hatred that constitutes incitement to discrimination, hostility or violence and case law of the ECtHR (Feret v. Belgium, Seurot v. France

8. ECtHR, Perinçek v. Switzerland, Application no. 27510/08, 17 December 2013

9. Germany: New law against right-wing extremism and hate crime – Judit Bayer

10. Haiman F.S. «Speech acts» and the First Amendment. Carbondale, 1993. Lakoff R.T. The Language War. Berkeley [etc.], 2000. Mazid B.-E.M. HateSpeak in Contemporary Arabic Discourse. Newcastle upon Tyne, 2012 ; ВасиленкоЕ.Н. «Язык вражды»: к определению термина// Романовские чтения –13. Могилев, 2019.

11. Hate Crime and Hate Speech// https://humanrights.gov.mt/en/ Pages/LGBTIQ % 20 Equality/ Legal% 20Provisions / Hate-Crime-and-Hate-Speech.aspx

12. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. - http://e-qanun.az/framework/46947

13. https://dictionary.cambridge.org/us/dictionary/english/hate-speech

14. Germany: New law against right-wing extremism and hate crime – Judit Bayer. / April 24, 2021/ - https://inforrm.org/2021/04/24/germany-new-law-against-right-wing-extremism-and-hate-crime-judit-bayer/

15. https://infostart.hu/belfold/2020/03/25/szekszardon-elszabadultak-az-indulatok-egy-hazi-karanten-miatt

16. Of the Committee of Ministers to Member States on "Hate Speech" / Recommendation No. R (97) 20/. https://rm.coe.int/1680505d5b

17. https://www.article19.org/

18. Разъясняя «язык вражды»: Практическое пособие. - https://www.article19.org/wp-content/uploads/2015/12/A19_Hate-Speech-Report-2018_Russian.pdf

19. Zuckerberg's Calls for Regulation Are Seen Missing the Mark. / April 1, 2019/-

This research did not receive any specific grant from funding agencies in the public, commercial, or not-for-profit sectors.

Compliance with Ethical Standards

Informed consent was obtained from each participant

Conflict of Interest: The authors declare that they have no conflict of interest.

The study did not apply for a consent from a research ethics committee, since there is no local research ethics committee in Azerbaijan. The author was not a part of any university as well.

REFERENCES

1. Akers, R. L., Sellers, C. S., & Jennings, W. G. (2017). Criminological theories: introduction, evaluation, and application (7th ed.). New York: Oxford University Press.

2. Aldridge, J., & Medina, J. (2007). Youth Gangs in an English City: Social Exclusion, Drugs and Violence. Swindon: ESRC.

3. Allen, J. P., Porter, M. R., McFarland, F. C., Marsh, P., & McElhaney, K. B. (2005). The two faces of adolescents' success with peers: adolescent popularity, social adaptation, and deviant behavior. Child development, 76(3), 747–760. doi: 10.1111/j.1467-8624.2005.00875.x

4. Arria, A., Borges, G., & Anthony, J. (1997). Fears and other suspected risk factors for carrying lethal weapons among urban youth of middle-school age. Archives of Pediatrics and Adolescent Medicine, 151, 555–560.

5. Bandura, A. (1986). Social Foundations of Thought and Action: A Social Cognitive Theory. Englewood Cliffs, NJ, Prentice Hall

6. Bandura, A. (1973). Aggression: A social learning analysis. New Jersey: Prentice Hall.

7. Barber, B.K., Stolz, H.E., & Olsen, J.A. (2005). Parental support, psychological control, and behavioral control: Assessing relevance across time, culture, and method. Monographs of the Society for Research in Child Development, 70, 1-137. https://doi.org/10.1111/j.1540-5834.2005.00369.x

8. Bennett, T., & Holloway, K. (2004). Possession and use of illegal guns among offenders in England and Wales. Howard Journal of Criminal Justice, 43(3), 237–252. https://doi.org/10.1111/j.1468-2311.2004.00325.x

9. Bondy J., Ogilvie, A., & Astbury, B. (2005). Living on edge: understanding the social context of knife carriage among young people. Melbourne: RMIT University Press

10. Braun, V., & Clarke, V. (2006). Using themaitc analysis in psychology. Qua-

litative research in psychology, 3 (2), 77-101
11. Brown, J., & Sutton, J. (2007). Protection or attack? Young people carrying knives and dangerous implements. Australian Journal of Guidance and Counselling 17: 49–59. 10.1375/ajgc.17.1.49
12. Budd, T., Sharp, C., Weir, G., Wilson, D., & Owen, N. (2005). Young People and Crime: Findings from the 2004 Offending, Crime and Justice Survey, London: Home Office
13. Cobb-Clark, D.A., & Tekin, E. (2014). Fathers and youths' delinquent behavior. Review of Economics of the Household, 12(2), 327-358. doi:10.1007/s11150-013-9194-9
14. DuRant, R., Kahn, J., Beckford, P., & Woods, E. (1997). The association between weapon carrying and fighting on school property and other health risk and problem behaviors among high school students. Archives of Pediatric Adolescent Medicine, 151(4), 360-366. 1001/archpedi.1997.02170410034004
15. Eades, C., Grimshaw, R., Silvestri, A., & Solomon, E. (2007), Knife Crime: A review of evidence and policy. London: Centre for Crime and Justice Studies.
16. Fagan, J., & Wilkinson, D. L. (1998). Guns, youth violence, and social identity
in inner cities. In M. T. a. M. Moore (Ed.), Crime and justice: A review of
research (105-187). Chicago: University of Chicago Press.
17. Glonti, G., & Lobjanidze, G. (2004). Vory-v-zakone: Professionalnaya prestupnost v Gruzii [Professional criminality in Georgia]. Tbisili, Transnational Crime and Corruption Centre.
18. Goffman, E. (1959). The Presentation of Self in Everyday Life. Doubleday Anchor Books, Doubleday, Garden City.
19. Goodman, L.A. (1961). Snowball Sampling. The Annals of Mathematical Statistics. 32(1), 148-170. doi: 10.1214/aoms/1177705148.
20. Gottfredson, M.R., & Hirschi, T. (1990). A general theory of crime. Stanford, CA, Stanford University Press
21. Hirschi, T. (1969). Causes of delinquency. Berkeley: University of California Press.
22. Kaplan, H. B. (1980). Deviant behaviour in defence of self. New York: Academic Press.
23. Kershaw, C., Nicholas, S., & Walker, A. (2008). Crime in England and Wales 2007/08: Findings from the British Crime Survey. London, Home Office.
24. Klein, M. W., Kerner, H. J., Maxson, C. L. & Weitekamp, E. G. M. (2001). The Eurogang Paradox: Street Gangs and Youth Groups in the U.S. and Europe, London: Kluwer Academic Publishers.
25. Koehler, J. (1999). The School of the Street: Organising Diversity and Training Polytaxis in a (Post-)Soviet Periphery. The Anthropology of East Europe Review 17(2), 41–55.
26. Lingren, H.G. (1996). Gangs: The New Family - Family Factors, Cooperative Extension, Institute of Agriculture and Natural Resources. University of Nebraska-Lincoln, NE.
27. Marfleet, N. (2008). Why Carry a Weapon? A Study of Knife Crime Amongst 15-17-year Old Males in London. Howard League for Penal Reform, London.
28. Maslow, A. H. (1970). Motivation and personality (2nd ed.). New York: Harper and Rowe.
29. May, T. (2011). Social Research: Issues, Methods and Process. Maidenhe-

ad, Open University Press.
30. Messerschmidt, J. (2000). Becoming "Real Men": Adolescent masculinity challenges and sexual violence. Men and Masculinities, 2(3), 286–307. doi.org/10.1177%2F1097184X00002003003
31. MORI (2004). MORI Youth Survey 2004. London: Youth Justice Board of England and Wales.
32. Palasinski, M., & Riggs, W.D. (2012). Young white British men and knife-carrying in public: Discourses of masculinity, protection and vulnerability. Critical Criminology, 20, 463–476. http://hdl.handle.net/10545/292650
33. Patterson, G. R., Dishion, T. J., & Yoerger, K. (2000). Adolescent growth in new forms of problem behavior: macro- and micro-peer dynamics. Prevention Science, 1(1), 3-13.
34. Silverman, D. (2005). Doing qualitative research. SAGE, London.
35. Slade, G. (2013). Reorganizing crime. Oxford, Oxford University Press
36. Slade, G. (2012). No country for made men: the decline of the mafia in post-Soviet Georgia. Law & Society Review, 46(3), 623-649
37. Sputnik News Agency (2015). Deputat bıçaq gəzdirməyə görə cəzanın sərtləşdirilməsini təklif edir. [A member of the parliament suggests tougher measures for knife-carrying] Retrieved from: https://sputnik.az/news/20150612/400517031.html
38. Steinman, K., & Zimmerman, M. (2003). Episodic and persistent gun-carrying among urban African-American adolescents. Journal of Adolescent Health, 32, 356-364.
39. Stoudt, B. G. (2006). 'You're either in or you're out': school violence, peer discipline, and the (re)production of hegemonic masculinity. Men and Masculinities, 8(3), 273–287.
40. Youth Justice Board (2007). Groups, gangs and weapons. Youth Justice Board.
41. Varese, F. (2010). Organized Crime. Critical Concepts in Criminology. New York: Routledge
42. Wallace, L. N. (2017). Cultural Links to Adolescent Weapon Carrying and Weapon Use: A Cross-National Study. International Criminal Justice Review, 28(2), 118–135. https://doi.org/10.1177%2F1057567717723431
43. Wilson, M. and Daly, M. (2006). Are juvenile offenders extreme future discounters? Psychological Science, 17(11), 989–994. https://psycnet.apa.org/doi/10.1111/j.1467-9280.2006.01817.x
44. Захарова Е.Ю. Тбилисская улица как среда мужской социализации // Laboratorium, СПб, 2010, № 2, с. 182-204

İnqilab Şahbazov

Keyfiyyət əsaslı tədqiqat: gənclərin soyuq silah gəzdirməsinin motivləri ekspertlərin nəzərində: 27 nəfər mütəxəssislə dərinləşdirilmiş müsahibə

Xülasə

Gənclərin soyuq silah gəzdirməsi bir sıra ölkələrdə sosial problemə çevrilib. Lakin bu davranışın motivləri barədə araşdırmaların sayı məhduddur. Cari tədqiqatda Azərbaycanda psixoloq, kriminoloq və sosioloqlarla (n=27) aparılan dərinləşdirilmiş müsahibələr vasitəsilə gənclərin soyuq silah gəzdirməsinin səbəblərinin öyrənilməsinə çalışılır. Müsahibələrə əsasən, Azərbaycanda oğlanların soyuq silaha meyil etməsinin səbəbləri bir-biri ilə əlaqəli olan amillərdir. Mənfi ata rol modeli oğlanların kiçik yaşlarında normal sosiallaşmasına mənfi təsir göstərir, bəzi hallarda isə cinayətkar keçmişə malik atalar övladlarını bıçaq gəzdirməyə həvəsləndirir. Belə mühitdə böyüyən övladın sosiallaşması evdən kənarda – bir çox hallarda deviant davranışların normaya çevrildiyi həmyaşıd mühitlərində reallaşır. Əlavə olaraq, həmin oğlanlar arasında Azərbaycanda bəzi dairələrdə populyar olan qanuni oğruları idollaşdırmaq həvəsi də gənclərə güc hissi verən soyuq silaha meyillilik yaradır.

Açar sözlər: soyuq silah, gənclərin deviant davranışı, zorakılıq, Azərbaycan

Ингилаб Шахбазов

Мотивы ношения ножа среди молодежи глазами экспертов в Азербайджане: качественное исследование среди 27 экспертов

Резюме

Ношение ножа молодыми людьми представляет собой серьезную угрозу для жизни и безопасности других людей. Однако мотивам ношения этого острого инструмента исследователи уделяют относительно ограниченное внимание. Основываясь на интервью с психологами, криминологами и социологами (n = 27) в Азербайджане, автор исследование пытается изучить мнения экспертов о мотивах ношения ножа среди молодежи. В ходе интервью был обнаружен набор смешанных и взаимосвязанных факторов в качестве ключевых мотивов ношения ножа среди молодежи мужского пола. Основываясь на опыте непосредственной работы или консультаций с носителями ножей, эксперты полагают, что в результате негативного отцовского влияния молодые люди, как правило, страдают от плохой социализации и не успевают в учебе, что вынуждает их искать товарищества, статуса и идентичности в другом месте.

Ключевые слова: ношение ножа, девиация молодежи, насилие, Азербайджан

Appendix

Table 1: Demographic and occupational characteristics of the sample

Respondent (pseudonyms)	Age	Profession	Years of experience
T.S.	28	child and teen psychologist	2
A.M.	29	general psychologist	2
I.D.	26	legal psychologist	1
A.M	32	Sociologist	7
E.R.	30	clinical psychologist	7
A.S.	26	general psychologist	2
M.A.	26	child and teen psychologist	2
S.M.	25	criminologist	2
M.I.	30	criminologist	4
N.S.	30	criminologist	4
E.M.	36	sociologist	7
V.E.	28	clinical psychologist	3
O.O.	29	cognitive psychologist	4
I.I.	32	psychoanalysis expert	5
A.Q.	27	child and teen psychologist	3
O.F.	33	psychiatrist working with adolescents	7
A.M.	40	child and teen psychologist	12
C.S.	33	sociologist	7
N.A.	30	general psychologist	6
D.R	33	psychiatrist	6
A.N.	50	criminologist	24
F.A.	40	sociologist	17
M.K.	38	psychologist	14
A.G.	26	general psychologist	2
G.M.	27	psychologist	2
N.H.	23	psychologist	1
V.B.	30	psychologist	6

AZƏRBAYCANDA MİQRASİYA, DEMOQRAFİYA VƏ AİLƏ SİYASƏTİ

MIGRATION, DEMOGRAPHY AND FAMILY POLICY IN AZERBAIJAN

AZƏRBAYCANDA URBANİZASİYA VƏ DAXİLİ MİQRASİYA PROSESİNİN KƏSİŞMƏSİNİN SOSİAL VƏ DEMOQRAFİK MƏNZƏRƏSİ

Elnarə QƏRİBOVA
Sosial Tədqiqatlar Mərkəzinin baş məsləhətçisi
Bakı, Azərbaycan

E-mail: elnara.garibova@gmail.com

Xülasə. Miqrasiya bəşər tarixində baş verən, olduqca vacib sosial nəticə və dəyişiklikləri şərtləndirən proseslərdəndir. İnsanlar müxtəlif səbəblərdən yaşadıqları yerlərdən köç etmək məcburiyyətində qalırlar. Xüsusilədə son iki əsrdə elmi-texniki inqilab və qloballaşma proseslərinin sürətli inkişafı miqrasiyanın tempinə və səviyyəsinə birbaşa və ya dolayı yolla böyük təsir göstərmişdir. Miqrasiya mürəkkəb mahiyyətli bir hadisədir. Böyük şəhərlərin formalaşması, urbanizasiya nəticəsində meqapolislərin yaranması bu prosesi daha da mürəkkəbləşdirir. Miqrasiya çoxşaxəli sosial-iqtisadi, ekoloji, geosiyasi və etnosiyasi aspektlərdə yeni problemlərin ortaya çıxmasını şərtləndirir. Bir çox hallarda şəhərlərə istiqamətlənən, kütləvi axın şəklini alan köç/miqrasiya prosesləri şəhərin ətraf mühitini, təbii landşaftını kökündən dəyişdirir, ənənəvi ahəngi pozur. Müasir qloballaşan dünyada Azərbaycanda miqrasiyanın yaranma meyillərinin tədqiqinə, respublikada iqtisadi və qeyri-bərabər miqrasiyanın qarşılıqlı əlaqələrinin müəyyən edilməsinə, onun ölkənin sosial-iqtisadi inkişafına və demoqrafik vəziyyətinə təsirinin qiymətləndirilməsinə çox ciddi tələbat yaranmışdır.

Məqalədə qeyd olunan bütün bu məsələlər ətraflı şəkildə araşdırılır.

Açar sözlər: Azərbaycan, miqrasiya, sosial, urbanizasiya, aqlomerasiya, demoqrafik

GİRİŞ

1980-ci illərin sonlarında və 90-cı illərin əvvəllərində baş verən geosiyasi münaqişələr nəticəsində yaranan, humanitar fəlakət həddinə çatan qlobal miqrasiya axınları həm regionda, həm də Azərbaycanda sosial-iqtisadi, siyasi, mədəni və s. kimi istiqamətlərdə köklü dəyişikliklərə təkan verdi.

Həmin dövrdə Azərbaycanda Ermənistanın işğalçılıq və etnik təmizləmə siyasəti nəticəsində tarixi torpaqlarımızdan qovulan bir milyon əhalinin qaçqın və məcburi köçkün düşməsi ölkədaxili zorakı miqrasiya proseslərinin başlanğıcı oldu. Yenidən müstəqilliyinə qovuşan Azərbaycanda o vaxta qədər heç bir struktura və təsisatlara malik olmayan miqrasiya xidmətinin yoxluğu vəziyyətində miqrasiya siyasətinin həyata keçirilməsi nəticəsində qaçqın və köçkün axınlarının müvəqqəti yerləşdirilməsinə nail olundu.

Miqrasiya prosesi əhalinin yalnız bir rayondan başqa rayona, şəhərə və ya ölkəyə hərəkəti kimi qiymətləndirilə bilməz. Sözügedən proses təsərrüfatın, ictimai həyatın, coğrafi şəraitin və bununla əlaqədar yaşayış məntəqələrinin funksional inkişafı, eləcə də əhalinin məskunlaşması kimi çoxşaxəli problemlərlə bağlıdır. Ölkə daxilində əhalinin doğulduğu yer ilə son yaşayış yerləri arasındakı fərq bu əhalinin regional daxili miqrasiyasını göstərir. Daxili miqrasiyada əhali kəndlərdən daha iri yaşayış məntəqələrinə doğru köç edir.

Ümumi olaraq, sosial sistemlərdə təbii uyğunlaşma prosesi kimi könüllü miqrasiyanın müsbət cəhətləri qeyd edilməlidir. Bu hallarda istehsalın məhsuldarlığı daha da artır və əmək qabiliyyətinin məkanlar üzrə paylanması yenidən təşkil edilir. Bununla da sosial struktur və qurumlar arasında nisbi balans təmin edilir. Ancaq bu proses bütün ölkələr və şəhərlər üçün mütləq olaraq eyni müsbət nəticəni vermir. Keyfiyyətli bir şəhər həyatının mövcud olması üçün urbanizasiya prosesi təbii/könüllü, obyektiv əsaslı olmalıdır, bu çərçivədə şəhərləşmə və şəhər inteqrasiyası nəzərə alınmalıdır.

İqtisadi inkişafla miqrasiya arasında sıx bağlılıq var. Dünyada sənayeləşmə geniş vüsət aldıqca daxili miqrasiya və şəhərləşmə (urbanizasiya) prosesini də sürətləndirmişdir. UNESCO-nun 2019-cu ildə hazırladığı “Miqrasiya, yerdəyişmə və təhsil” adlı tədqiqatında 61 ölkənin müqayisəli göstəricilərinə əsasən, dünya əhalisinin 20%-nin 5 il yaşadığı əvvəlki yeri dəyişdiyi qeyd edilmişdir. Hesabata görə, kəndlərdən şəhərə doğru daxili miqrasiyanın ən yüksək tempi aşağı və ortagəlirli ölkələrdə baş verir. 53 ölkənin göstəricilərinin təhlilinə görə, insanlar arasında yaşadıqları yeri tərk edib başqa yerə köçərkən ən çox müşahidə edilən orta yaş həddi 23-dür [11].

1. Azərbaycanda daxili miqrasiya prosesinin xarakteri və motivləri

Azərbaycanda miqrasiya prosesinin sosial aspektlərini, miqrasiyaya təkan verən amilləri aşağıdakı bir neçə istiqamətdə qruplaşdırmaq olar:

• *Rayon və kənd yerlərində sosial-siyasi amillər: Buraya məşğulluq və sahibkarlıq imkanlarının differensial olmaması, cəmiyyətin təzyiqi və təsiri, davamlı təhsil və ixtisaslaşma imkanlarının zəif olması, siyasi müzakirələrin zəif inkişafı, əkin sahələrinin çatışmazlığı və ya məhsuldarlığın aşağı olması, hərbi əməliyyatlar, təbii fəlakətlər və s. amillər daxildir.*

• *Şəhərin cəlbedici amilləri: Buraya əvvəl köçmüş qohumlara qovuşma və ya zəncirvari miqrasiya, kənd və şəhərin gəlirləri, təhsil və səhiyyə xidmətləri arasındakı fərq, böyük şəhərin/meqapolisin cəlbediciliyi, nəqliyyat və kommunikasiya vasitələrinin rahatlığı, məşğulluq imkanları, evlilik, daha yük-*

sək həyat səviyyəsi, şəhərlərdəki sosial və mədəni imkanlar və s. məsələlər daxildir.

Hazırda əhalinin daxili miqrasiyası ölkənin inkişafında əhəmiyyətli rol oynamaqla, bütövlükdə demoqrafik proseslərə ciddi təsir göstərir. İnsan resurslarının dövlətin sosial-iqtisadi inkişafında əsas həlledici mənbə olması miqrasiya proseslərinin öyrənilməsi zəruriliyini artırır.

Qeyd etmək lazımdır ki, miqrasiya prosesinin, xüsusilə daxili miqrasiyanın tədqiq edilməsinə dair ümumi qəbul edilmiş vahid metodoloji üsul yoxdur. Burada müxtəlif metodlardan - beynəlxalq təcrübədə metodologiyanın hazırlanmasında insanların hərəkətliliyi, ev təsərrüfatları, kommunal xidmətlərə dair göstəricilər (işıq, qaz, su abonentləri və s.), nəqliyyat vasitələrində istifadə olunan talonlar və s.-dən istifadə olunur. Böyük Britaniyanın Milli Statistika İdarəsi daxili miqrasiyanın təhlilində Ali Təhsilə dair Statistika Agentliyinin (Higher Education Statistics Agency) və Milli Səhiyyə Xidmətinin Mərkəzi Qeydiyyatının (National Health Service Central Register) göstəricilərindən istifadə edir. İnsanlar tibbi sığortaya görə hər il yaşadıqları yerdə qeydiyyatdan keçdiklərinə görə bu mərkəzlərdə davamlı olaraq böyük məlumat bazası toplanır [22].

Ümumiyyətlə, miqrasiya prosesləri mürəkkəb olmaqla, növlərinə görə bir-birindən fərqlənir. Bu fərqlərə uyğun statistik bazanı toplamaq və təhlil etmək üçün vahid metodlardan istifadə etmək çətindir. Bu baxımdan hər bir ölkə və ya təşkilat - istər lokal olsun, istərsə də regional - miqrasiya motivlərini müəyyənləşdirdikdən sonra ona uyğun metodologiyanı hazırlayır. Azərbaycanda daxili miqrasiyanın dərin təhlili yönündə əhatəli tədqiqatlar olmadığı üçün istifadə edilə biləcək mənbələr, yaxud məlumat bazası ilə bağlı çətinliklər mövcuddur. Mövzunun tədqiqi zamanı qarşıya çıxan əsas problemlər - insanların doğum yeri, yaşadığı yer, mülkiyyətçi kimi daşınmaz əmlakı, faktiki yaşadığı ünvanlar, köç etdiyi müddət barədə məlumatların tam və səhih olmaması və s. məsələlər təhlilin aparılmasında müəyyən çətinliklər yaradır.

Daxili miqrasiya prosesi dedikdə, insanların eyni ölkənin hüdudları daxilində bir ərazidən digər əraziyə köçməsi başa düşülür. Bu miqrasiyanın kənd (kənd-şəhər), şəhər (şəhər-kənd), şəhərlərarası (şəhər-şəhər) və kəndlərarası (kənd-kənd) istiqamətlərini fərqləndirirlər. Miqrasiya prosesi sosial-iqtisadi həyatın əsas xüsusiyyətlərini özündə əks etdirir. Dünyada elmi-texniki tərəqqi, təsərrüfat sisteminin inkişafı miqrasiya prosesinin xarakterinin dəyişilməsinə təsir edən amillərin artmasına gətirib çıxarır. Məhz bu baxımdan müasir qloballaşan dünyada sosial-iqtisadi proseslərin əsas dinamikasını müəyyən edən amillər kimi əhalinin "miqrasiyası və mobilliyi" hər zaman aktual məsələ olmuşdur. K.Marks işçilərin hərəkətliliyini, yerdəyişmə kimi prosesləri əhali mobilliyi kimi qeyd edir. Ümumiyyətlə, əhalinin mobilliyi çox geniş və əhatəli xüsusiyyətlərə malik olub, əhalinin hərəkətliliyi, köçürülməsi və yerləşdirilməsi kimi prosesləri əhatə edir [15, s.10-17; 16, s.524].

Ötən əsrin 70-ci illərində "əhali mobilliyi" termini "yerdəyişmə" sözünün sinonimi kimi qəbul olunurdu. Əhalinin miqrasiyası kadrların yerdəyişməsinin obyektiv prosesidir. O, istehsal qüvvələrinin və münasibətlərinin inkişafı ilə ayrılmaz surətdə bağlıdır. Əhalinin miqrasiyası ölkə ərazisində əmək ehtiyatlarının optimal şəkildə yerbəyer edilməsinə, regionların iqtisadi inkişaf səviyyələrinin bərabərləşməsinə, şəhər və kənd arasındakı sosial-iqtisadi və mədəni-məişət fərqlərinin aradan qaldırılmasına və s. gətirib çıxarır. Onu da qeyd etmək lazımdır ki, yüksək ixtisaslı, uğurlu karyera qurmaq istəyən miqrantlar mədəni mərkəzlərin yaxınlığına, öz

maddi rifahını artırmağı arzulayanlar isə işçi qüvvəsini daha çox qiymətləndirən və pul qazanmaq imkanı olan regionlara gedirlər [13, s. 24-35].

Daxili miqrasiyanı dövrilik parametrlərinə görə təsnifləşdirdikdə aşağıdakı kimi qruplaşdırmaq olar:

• *Daimi miqrasiya (geri dönməyi nəzərdə tutulmayan);*

• *Müvəqqəti miqrasiya (qayıdışı nəzərdə tutan, mövsümi, köçərilik və ziyarət məqsədli);*

• *Uzunmüddətli miqrasiya (6 aydan çox müddətdə davam edən);*

• *Mütərəddid (daimi gediş-qayıdış olan) miqrasiya; Buna "rəqqasvari" miqrasiya da deyilir.*

Daxili miqrasiya səbəblərinə görə də fərqlidir. Beynəlxalq tendensiyada miqrasiyanın səbəbləri sosial-iqtisadi, siyasi və hərbi olmaqla qruplaşdırılır. Sosial-iqtisadi səbəblərə iş, təhsil, səhiyyə, məişət məsələləri aid edilir. Siyasi səbəblərdən baş verən miqrasiya prosesində ideoloji rejimdən qaçma və uzaqlaşma, irqi, dini və digər səbəblər aiddir. Hərbi səbəblərdən baş verən miqrasiya proseslərinə evakuasiya, deportasiya və s. aid edilir. Bundan əlavə, daxili miqrasiyada özünü göstərən digər bir səbəb təbii şərait, coğrafiya və təbii landşaft amilidir. Yəni aran yerlərində kommunikasiyaya əlçatanlıq dağlıq ərazilərlə müqayisədə daha çevik və rahatdır. Ona görə də sərt iqlim və çətin coğrafi relyefdə yaşayan insanlar infrastrukturu əlçatan olan ərazilərə köç edirlər [17, s.72-101].

2. Miqrasiya əsaslı urbanizasiya, aqlomerasiya və Azərbaycan

Miqrasiya axınlarının tipoloji təsnifatında "urbanizasiya" anlayışı da iştirak edir. Urbanizasiya fransiz dilində "urbanisation", latın dilində isə "urbs" - şəhər sözlərindən olub, cəmiyyət həyatında şəhərlərin rolunun artmasını, əhalinin həyat tərzi, mədəniyyəti və demoqrafik tərkib hissəsinə çox böyük təsir göstərməsini bildirən prosesdir. Başqa sözlə, urbanizasiya cəmiyyətin inkişafında şəhərlərin rolunun artması, məskunlaşma şəbəkəsində funksiyaların mürəkkəbləşməsi, fəaliyyət növlərinin inteqrasiyası, əhalinin şəhərlərdə cəmləşməsi və məhsuldar qüvvələrin sənaye əsasında təmərküzləşməsi prosesidir [6, s. 294-295; 21].

Urbanizasiya prosesi kənd yerlərinin silinməsi mənasına gəlməməlidir. Əksinə, proqramlı şəkildə həyata keçirilərsə, kənd təsərrüfatı sektorunun modernləşməsi və məhsuldarlığın artırılması sürətlənər, bu, rəqabət qabiliyyətinin yüksəlməsinə gətirib çıxara bilər. Kənd təsərrüfatı sahəsində qənaət edilən əmək resursları isə urbanizasiya prosesi çərçivəsində şəhərə transfer edir. Bu gün dünyada sürətlə genişlənən "rəqəmsal nəsil" Azərbaycanda da formalaşır və əmək bazarında keyfiyyət və kəmiyyət etibarilə yeni tendensiya yaranır.

Urbanizasiyalaşmış region mühüm yaşayış arealı olub, sosial məkan bütövlüyü yaradaraq, nüvə şəhər kimi aqlomerasiya əhalisinin sosial və mədəni xidmətlərə olan ehtiyacın böyük hissəsini ödəyir. Bir çox insanlar üçün şəhərlər yeni imkanlar dünyasını təmsil edir, iş yerləri, texnologiyalar şəhərlərdə cəmləşib, fəal iqtisadi inkişaf orada müşahidə olunur. Ona dörə də urbanizasiya səviyyəsi sürətlə artır.

Dünya Bankının məlumatına görə, 1900-cü ildə şəhər əhalisi dünya əhalisinin 5%-ni təşkil edirdisə, 2018-ci ildə bu rəqəm 55%-ə çatmışdır. Bu gün bəşəriyyətin yarısı - 4,2 milyard insan şəhərlərdə yaşayır. BMT-nin Əhali Fondunun proqnozuna görə, 2030-cu ilə qədər şəhərlərdə yaşayan dünya əhalisinin sayı təxminən 60%-ə çatacaq [26]. Qarşıdakı onilliklərdə qlobal urbanizasiyanın 95%-i inkişaf etməkdə olan ölkələrin payına düşəcək. Şəhər sakinlərinin sayının sürətlə artması ilə əlaqə-

dar, xüsusən sənayeləşmə sahəsində yeni imkanlar yaranır, lakin bununla bərabər, şəhərlərdə əhalinin həddən artıq sıxlaşması, qeyri-bərabərliyin artması və ətraf mühitin deqradasiyaya məruz qalması labüd olur [20].

Şəhərlərin ümumi sahəsi Yer kürəsinin quru ərazisinin yalnız 3%-ni təşkil etsə də, enerji istehlakının 60-80%-i və karbon emissiyasının 75%-i onların payına düşür. Sürətli urbanizasiya şirin su ehtiyatlarını, kanalizasiya sistemini, nəqliyyat infrastrukturunu, yaşayış mühitini, sosal həyatı, mənzillərə əlçatanlığı, kriminogen vəziyyəti və ictimai səhiyyəni təzyiq altında saxlayır. Başqa sözlə desək, miqrasiyanın sürətlə kəndlərdən, kiçik yaşayış məntəqələrindən iri şəhərələrə doğru axını şəhərləri böhran mərkəzinə çevirir. Ona görə də BMT Baş Assambleyasının sədri Mariya Fernanda Espinosa 2019-cu ildə qurumun Nyu-Yorkdakı qərargahında keçirilmiş iclasında müxtəlif qitələrdə yerləşən bir sıra şəhərlərin merlərinə müraciət edərək bildirib ki, sürətli urbanizasiya şəhərlərin idarə olunmasına yeni yanaşma tələb edir [25; 26].

BMT Baş Assambleyasının 2016-cı ilin oktyabr ayında Kito şəhərində qəbul edilmiş "Şəhərlərin İnkişafı Proqramı" da məhz yaranan böhranın aradan qaldırılmasına hesablanmış bir sənəddir. Sənəddə şəhərlərin ekoloji tarazlığı və inkişafı strategiyası öz əksini tapıb [25; 26].

Azərbaycanda urbanizasiya prosesi 1860-cı illərdə "neft bumu" dövrünə təsadüf edir. Məhz o dövrdən başlayaraq "şəhərləşmə" prosesi böyük vüsət almış, şəhərlərin sayı və əhalisi artmışdır. Bu prosesin nəticəsi olaraq Azərbaycanda yeni tipli şəhər məskənləri - qəsəbələr əmələ gəlməyə başlamışdır. Bu qəbildən olan yaşayış məntəqələri öz tarixi inkişaf mərhələlərində müxtəlif sənaye müəsissələri yaxınlığında, kurort və turizm mərkəzlərinin, dəmir yolu stansiyalarının ətrafında yaranmışdır. Nəhayət, inkişaf dövrlərini keçən bu yaşayış məntəqələri növbəti mərhələyə qədəm qoymuşdur. Belə ki, əhalisi sürətlə artan, təsərrüfat sahələrinin böyük potensialı olan qəsəbələr şəhər statusu alır, öz daşıdıqları funksiyaları genişləndirən yaşayış məntəqələri qəsəbəyə çevrilir, perspektivi olmayan yaşayış məntəqələri isə tənəzzülə məruz qalaraq ləğv olunurlar.

Ölkənin ərazi quruluşu inzibati ərazi dairəsinə görə rayon və şəhərə, inzibati ərazi vahidinə görə isə kənd, şəhər və qəsəbəyə bölünür [9]. Qanuna görə, o ərazi dairəsi şəhər sayılır ki, əhalisi 15 min nəfərdən çox olsun. Eyni zamanda ayrı-ayrı hallarda əhalisinin sayı 15 min nəfərdən az, lakin 12 min nəfərdən yuxarı olan, inkişaf etmiş istehsalat və sosial infrastruktura malik olan, ərazisində ümumdövlət əhəmiyyətli müəssisələr və ya xüsusi əhəmiyyətli tarixi və mədəni abidələr yerləşən, habelə gələcək inkişaf və əhalisinin sayının artması perspektivinə malik olan böyük inzibati, iqtisadi və mədəni mərkəzlər də şəhər kateqoriyasına aid edilə bilər [9].

Ölkəmizdə hazırda mövcud olan inzibati ərazi quruluşları Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin və Xalq Komissarları Sovetinin 30 avqust 1930-cu il tarixli qərarı əsasında yaranmışdır. İlk bölgüdən sonra ərazilərində müəyyən dəyişikliklər edilib, Mingəçevir və Sumqayıt kimi iri sənaye şəhərləri salınmışdır. Bununla şəhər əhalisinin sayı kənd əhalisinə nisbətən dəyişməyə başlamışdır. Çar Rusiyasi və 1918-1920-ci illərdə Azərbayan Xalq Cümhuriyyəti dövründə Azərbaycan əhalisnin böyük hissəsi kənd yerlərində yaşayırdı. O zaman şəhər statusunda olan Bakı, Şamaxı və Yelizavetpol (Gəncə) quberniyaları var idi və şəhər əhalisi müvafiq olaraq 16-20 % arasında olmuşdur [23].

Şəhər əhalisinin sayına görə Bakı, Gəncə və Sumqayıt şəhərləri öndə gəlir. Qeyd edək ki, XIX əsrin 50-ci illərinə qədər Bakı əhalisinin sayına görə Şa-

maxı, Şəki, Gəncə və Şuşadan sonra 5-ci yerdə olub. XIX əsrin 50-ci illərində "neft bumu" başlayandan sonra qısa zamanda - 1859-cu ildə Bakı artıq əhalisinin sayına görə ikinci pilləyə yüksəlir. Bu artımın əsas özəyini miqrasiya təşkil edirdi. Belə ki, Bakıya kütləvi köçün kökündə bir tərəfdən Şamaxıda baş verən zəlzələ dururdusa, digər tərəfdən İrandan azərbaycanlıların (o illərdə "həmşəri" adlanırdı), Çar Rusiyasından qeyri-müsəlman xalqların neft buruqlarında işləmək üçün gəlmələri dururdu. Həmin dövrdə Bakının etnik tərkibi miqrantlar hesabına sürətlə dəyişmişdir [10].

1833-1843-cü illər ərzində intensiv olaraq Rusiyanın mərkəzi quberniyalarından və Ukraynadan "duxobor", "molokan" və s. adlanan rusların konfessional qrupları Azərbaycana köçürülmüşdür [10].

Bu dövrdə Azərbaycanda 20-yə yaxın rus kəndi salındı. "Neft bumu" nəticəsində qeyri-müsəlman xalqların Azərbaycana köçürülmə prosesi bir qədər də sürətləndi. 1908-1910-cu illər ərzində Rusiyadan Azərbaycana 3 min kəndli ailəsi köçürülmüşdü. Bunların nəticəsində Azərbaycanın miqrasiya saldosu 1,6 dəfədən çox artaraq 1886-1897-ci illərdəki 133,4 min nəfərdən 1897-1913-cü illərdə 219,8 min nəfərə çatmışdır. Köçənlərin əksər hissəsi Bakıya gəlirdi [10].

Qeyd etmək lazımdır ki, Bakıya miqrasiya edənlərin böyük əksəriyyətini kişilər təşkil edirdi. Belə ki, ailəsi ilə birlikdə iş axtarmaq çətin olduğundan miqrantların çoxu öz ailələrini evdə qoyub gəlirdilər. Tarixi mənbələrə əsasən, Bakının neft sənayesi müəssisələrində işləyən rus mütəxəssisləri, fəhlə və qulluqçuları əksər hallarda öz ailələri ilə birlikdə, ermənilərin çoxu subay və təklikdə, müsəlmanların isə hamısı öz ailələrini evdə qoyub gəlir və təklikdə yaşayırdılar. 1897-ci il əhalinin siyahıya alınmasına dair məlumatlarına görə, Bakı neftçıxarma müəssisələrində çalışan fəhlələrin 82,5%-i subay və yaxud öz ailələrindən kənarda yaşayanlardan ibarət idi. Miqrantların 75%-nin kişilər təşkil etməsi bütövlükdə əhalinin doğum əmsalının təbii artım templərinin xeyli aşağı düşməsinə, ölüm əmsalının yüksəlməsinə təsir göstərmişdir. Orta illik artım 1,53% təşkil etmişdir ki, bu da həmin dövrdə Rusiya imperiyası üzrə analoji göstəricidən azca aşağı idi. Ancaq Rusiyada bu artım demək olar ki, yalnız təbii artım hesabına olurdusa, Azərbaycanda əhali artımının 45%-ə

Qrafik 1. Kənd və şəhər yerlərində yaşayan əhalinin 1897-2019-cu illər üzrə dinamikası



Mənbə: Dövlət Statistika Komitəsi

yaxını miqrasiyanın payına düşürdü [10]. Burada əhalinin miqrasiya hesabına belə yüksək templə artımı o dövrdə Çar Rusiyasının yeritdiyi köçürmə siyasəti və Azərbaycanın neft mədənlərinin intensiv surətdə istismar edilməsi ilə bağlı idi [23].

Bakının sürətlə böyüyüb Çar Rusiyasında və SSRİ-nin ilk illərində 5 ən böyük şəhərlər sırasına düşməsi şəhərin inkişafı ilə bərabər sosial problemləri də ortaya gətirdi. Şəhərin içməli su təminatı, kanalizasiya təchizatı və səhiyyə sistemində çətinliklər yaranır, tez-tez epidemiyalar yayılırdı. Yeni sosial infrastrukturun qurulması böyük sərmayələr tələb edirdi.

1918-1922-ci illərdə Azərbaycan ərazisində baş verən münaqişələr, kütləvi qırğınlar Şamaxı və Şuşanın əhalisinin sayını minimuma saldı. Bu dövrdə Azərbaycan əhalisinin sayı 20,8%-dən çox azaldı. Başqa sözlə, Azərbaycan bu 4 illik dövr ərzində əhalinin beşdə biri qədər itkiyə məruz qaldı. Əsas itkilərin məhz şəhər statusunda olan inzibati ərazilərdə baş verməsi şəhər əhalisinin sayının dinamikasına təsir göstərdi. Əvəzində şəhərin azalan yerli əhalisinin yerini sonrakı illərdə yəhudi, erməni və slavyan əsilli millətlər tutdu [12].

Azərbaycanda şəhər əhalisinin sayının miqrantlar deyil, təbii artım hesabına yüksəlməsi yalnız 50-ci illərdən etibarən başlamışdır. Bu dövrdə Azərbaycanda köklü sosial-iqtisadi dəyişikliklər baş verir, əhali kütləvi şəkildə təhsilə və səhiyyə sisteminə cəlb edilir, neft sənayesi və onunla bağlı sahələr sıçrayışla inkişaf etdirilirdi. Sumqayıt və Mingəçevir kimi yeni sənaye şəhərlərinin yaradılması, ali və orta ixtisas məktəblərinin açılması kəndlərdə yaşayan gənc nəslin şəhərlərə doğru axınına təkan verirdi [12].

1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra Azərbaycana postsovet ölkələrindən, xüsusilə Ermənistan, Gürcüstan, Rusiya və Ukraynadan xeyli sayda miqrant gəldi, ölkənin demoqrafik tablosu dəyişdi. Müstəqillik ərəfəsində Azərbaycan yeni miqrasiya dönəminə qədəm qoydu. Xüsusilə, son illər əhalinin şəhər mərkəzlərinə yaxın ərazilərə axın etməsi Azərbaycan hökumətini kiçik və orta şəhərlərə periferiya cəlb etməklə coğrafi genişlənmə həyata keçirilməsi haqqında qanun layihələri hazırlamağa vadar etdi. Qanun layihələrinə görə, Qəbələ, Gəncə, Daşkəsən, Goranboy, Göygöl, Samux, Massallı, Abşeron və digər şəhər və rayonların sərhədlərində qismən genişlənmə aparıldı. Bir sıra kəndlər genişlənərək qəsəbə statusu aldı. [2.]

Onu da qeyd edək ki, urbanizasiya ilə iqtisadi böyümə arasında sıx əlaqə var. Dünya miqyasında şəhər və qəsəbələr ümumi daxili məhsulun 80 %-dən çoxunu təşkil edir. Dünyada şəhər yoxsulluğu artsa da, bu, bir çox insanın, o cümlədən kasıbların şəhər ərazilərinə köçmələri ilə əlaqədardır.

Cəmiyyətin dayanıqlılığını təmin edən orta təbəqənin formalaşmasında da şəhərlərin rolu mühümdür. Məsələn, Azərbaycanda orta təbəqənin əsas hissəsi şəhərlərdə yaşayır. Aparılan tədqiqatın nəticələri sübüt edir ki, şəhərlər əhalinin təhsil səviyyəsinin artmasına daha çox təsir göstərir. Belə ki, ali təhsilli orta təbəqənin böyük bir qismi yerli şəhərlərdə formalaşır. Urbanizasiya Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətinin artırılması və əhalinin sosial rifahının yaxşılaşdırılması, habelə onun dünyagörüşünün və həyat tərzinin qlobal çağırışlarla uzlaşdırılması məqsədlərinə xidmət etməlidir. Təəssüf ki, Azərbaycanda iqtisadi inkişafin yükünü öz üzərinə götürən daha çox paytaxt Bakıdır.

Dünya Bankının dünya ölkələrinin urbanizasiyasına dair hesabatından məlum olur ki, Azərbaycanda şəhərləşmə SSRİ-nin 40-50-ci illərdəki siyasətini əhatə edən dövrdən sonra çox da sürətlə inkişaf etməyib. Bunun da baş-

lıca səbəbi müstəqllik dövründə Bakıdan başqa digər şəhərlərdə iqtisadi böyümənin zəif getməsi olub [24].

Qrafikdən görünüyü kimi, 1960-cı illərdə Azərbaycanda şəhər əhalisinin sayı 52.7% olmaqla, Rusiya ilə eyni səviyyədə - ən yüksək pillədə olub. 2018-ci ildə bu göstərici 55,7% olmaqla, postsovet ölkələri arasında ən aşağı artım tempinə malik olub. Azərbaycanda urbanizasiyanın belə zəif tempdə getməsinin əsas səbəblərindən biri sovet dövründə Bakıya güclü axının qarşısını almaq üçün inzibati qaydaların tətbiqi idi [24].

Qrafik 2. MDB ölkələrində urbanizasiya (%)



	1960	1970	1980	1990	1995	2000	2005	2010	2015	2018
Azərbaycan	52.7	50.0	52.8	53.7	52.2	51.4	52.4	53.4	54.7	55.7
Belarus	32.4	44.0	56.5	66.0	67.9	70.0	72.4	74.4	77.2	78.6
Gürcüstan	43.1	48.0	52.5	55.0	53.8	52.6	53.6	55.5	57.4	58.6
Qazaxıstan	44.2	50.2	54.1	56.3	55.9	56.1	56.5	56.8	57.2	57.4
Qırğızıstan	34.2	37.5	38.6	37.8	36.3	35.3	35.3	35.3	35.8	36.4
Moldova	23.4	32.1	40.4	46.8	46.3	44.6	42.8	42.6	42.5	42.6
Rusiya	53.7	62.5	69.8	73.4	73.4	73.4	73.5	73.7	74.1	74.4
Türkmənistan	46.4	47.8	47.1	45.1	44.8	45.9	47.1	48.5	50.3	51.6
Özbəkistan	34.0	36.7	40.8	41.4	43.7	46.1	48.5	51.0	50.8	50.5

Mənbə: Dünya Bankı

NƏTİCƏ

Qeyd etmək lazımdır ki, Azərbaycanda daxili miqrasiyanın tənzimlənməsi strateji əhəmiyətli sosial məsələdir. Azərbaycanda ölkədaxili miqrasiyanın müxtəlif - siyasi, sosial-iqtisadi, demoqrafik, hüquqi, mədəni-mənəvi, geosiyasi aspektlərinin araşdırılması yönündə elmi tədqiqatlar nəinki nisbətən azdır, hətta bütövlükdə yox dərəcəsindədir.

Azərbaycanda ölkədaxili miqrasiya mobilliyinin izlənilməsi və bölgələrdən paytaxta axınların qeydiyyatının aparılmasının dövlət tənzimlənməsinə yönəlmiş sistemli fəaliyyət təşkil edilməyib, yaxud onun olub-olmaması məlum deyil. Region əhalisinin daxili miqrasiya etməsinin sosial aspektləri çoxşaxəli olduğu üçün onun qarşısının alınması da kompleks tədbirlərin görülməsini tələb edir.

Daxili miqrasiya və urbanizasiya paytaxt şəhərlərdə sosial, ictimai sabitliyin təminatına birbaşa təsir edən amillərdəndir. Azərbaycanda köç edən vətəndaşların böyük bir qisminin faktiki yaşadığı ərazi üzrə qeydiyyatda olmaması cinayət faktlarının açılmasında problemlər yaşadır. Xüsusilə, Bakıya

yönələn miqrasiya paytaxtın kriminogen vəziyyətini gərginləşdirir. Məsələn, 2019-cu ilin 11 ayı ərzində paytaxtda törədilən cinayətlərin 37%-i respublikanın digər şəhər və rayonlarının sakinləri tərəfindən edilib. Həmçinin həddən artıq əhali sıxlığı nəinki ənənəvi "şəhər-kənd" münasibətlərindən yaranan sosial diskomfort hadisəsinə səbəb olur, həmçinin müəyyən qüvvələrin həddən artıq əhali sıxlığından yaranan obyektiv sosial problemlərin siyasiləşdirilməsi üçün əlverişli şərait yaradır. Belə ki, bölgələrdə mövcud olan bəzi obyektiv sosial problemlərin kənar qüvvələr tərəfindən siyasiləşdirilərək sabitliyin pozulması üçün sui-istifadə edilməsi faktları məlumdur və nəzərə alınmalıdır. Bu baxımdan daxili miqrasiyanın tənzimlənməsi sahəsində müəyyən qurumun təsis edilməsi, yaxud mövcud strukturlar daxilində bu funksiyanın hər hansı bir quruma həvalə edilməsi məqsədəuyğun olardı.

Kəndlərdən şəhərə axının olması aqrar ölkəsi olan Azərbaycanda kənd təsərrüfatı sektorunda kadr ehtiyatları baxımından yaxın gələcəkdə mühüm sosial-iqtisadi təhdidlər yarada bilər. Hər il dövlət büdcəsindən kənd təsərrüfatı məhsullarının istehsalı üçün subsidiyalar ayrılır, güzəştlər tətbiq edilir. Uzun illər əmək vərdişləri kənd təsərrüfatında formalaşmış insanların, ixtisaslı mütəxəssislərin, xüsusilə gənclərin şəhərə axını regionlarda ixtisaslı kadr çatışmazlığı problemini yaradır. Sovet dövründə əhalinin respublikanın əraziləri üzrə bərabər paylanılması üçün regionlarda ali təhsil məktəbləri tikilsə də, müstəqillikdən sonra bu siyasət bir qədər arxa planda qaldı. Müstəqillikdən sonra açılan bütün dövlət və özəl ali təhsil müəssisələrinin əksəriyyəti Bakıda yerləşdi. Gənc kadrların ölkədə bərabər paylanmasının təşkili üçün Bakıdan başqa digər iri şəhərlərdə də özəl və dövlət universitetlərinin açılması təşviq olunmur. Halbuki, regional ali təhsil müəssisələrinin inkişafı miqrasiya axınlarının tənzimlənməsində əhəmiyyətli rola malikdir.

Bölgələrdə sahibkarlığın inkişafı və təşviqi zəif təşkil olunub, maliyyə əlçatanlığı aşağı səviyyədədir. Sahibkarların kredit əldə etmək imkanları məhduddur, kənd təsərrüfatına yönələn kreditlərin faiz dərəcələri yüksəkdir. İstehsal müəssisələri xammal və kadr çatışmazlığı tam gücü ilə işləyə bilmir. Bu səbəbdən bölgələrdən paytaxta əhali axınlarının rasional tənzimlənməsi məqsədilə burada prioritet sahələrin inkişafı üçün sahibkarlara dövlət tərəfindən əlverişli maddi yardım, vergi güzəştləri, eləcə də mənəvi dəstək verilməli, bürokratik əngəllər aradan qaldırılmalıdır.

XXI əsrdə qlobal problemə çevrilən daxili miqrasiyanın artıq geosiyasi aspektləri dərindən təhlil edilir. Vaxtilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində bir milyondan çox qaçqın və məcburi köçkünün paytaxt və regionlarda yerləşdirilməsi daxili miqrasiya proseslərinin tənzimlənməsinə ən böyük əngəllərdən biridir.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

Azərbaycan dilində:

1. Azərbaycanın demoqrafik göstəriciləri. Dövlət Statistika Komitəsi, Bakı, 2019.
2. Azərbaycan Respublikası Prezidentinin "Bakı şəhərinin qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair tədbirlər Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncamı. Bakı, 27 fevral 2006-cı il, №1338.
3. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Proqramı (2006-2008-ci illər) // Vətəndaşlıq və miqrasiya haqqında normativ-hüquqi sənədlər toplusu. Bakı: Qanun, 2007.
4. Azərbaycanın demoqrafik göstəriciləri 2016 (Statistik məcmuə). Bakı, 2016, 480 s.
5. Azərbaycanın statistik göstəriciləri 2016, Bakı: Səda, 2016, 824 s.
6. Atakişiyev B. İnzibati hüquq və terminlər. Bakı, 2008, 295 s.
7. Bakı aqlomerasiyasına aid şəhər və qəsəbələrin təsnifatı. Mənbə: Azərbaycan demoqrafik göstəriciləri, 1991.
8. Bakı şəhərinin qəsəbələrinin sosial-iqtisadi inkişafı. Bakı: ARDSK, 2006.
9. "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. - http://e-qanun.gov.az/alpidata/ framework/ data/0/c_f_524.htm
10. Muradov Ş., Baxış Ç. Azərbaycan Respublikasında etno-demoqrafik proseslər: tarixi dəyişikliklər və reallıqlar. Bakı, 2013, 248 s.

İngilis dilində:

11. UNESCO "Migration, displacement and education: Building Bridges, Not Wall", 2019.

Rus dilində:

12. «Азербайджанская ССР», Институт Географии Академии Наук Азербайджанская ССР, Москва, 1957.
13. Гончаренко А.Б., Староверов О.В. Мобильность населения и качество жизни // Экономика и мат. методы, 2002, т.38, № 1, с.19-33.
14. Демографический энциклопедический словарь. М.: Советская энциклопедия, 1985.
15. Дохунаева Т.Н. Миграция населения // Трудовое право. М., 2006, № 7, с. 14-27.
16. Кибанов, А.Я. Мотивация и стимулирование трудовой деятельности: Учебник Текст. / А.Я. Кибанов, И.А. Баткаева, Т.А. Митрофанова, М.В. Ловчева. Под ред. А.Я. Кибанова. М.: инфра-м, 2011, 424 с.
17. Раков А.А., Емельянова А.А. Вынужденная миграция в рамках постсоветского пространства // Народонаселение, М., 2005, №1, с.71-98.

İnternet resursları:

18. Административно-территориальном делении, 2018, http://files.preslib.az/projects/azer baijan /gl2.pdf
19. "Azərbaycan Respublikasında Dövlət şəhərsalma kadastrı və şəhərsalma fəaliyyəti obyektlərinin monitorinqinin vahid sistemlə aparılması və kadastr xidmətinin təşkili Qaydası barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin

Qərarı. Bakı şəhəri, 4 sentyabr 2000-ci il, № 159. - http://e-qanun.gov.az/alpidata/framework/data/0/c_ f_ 480.htm

20. Marian Jakub, European countries by percentage of population living in the capital metropolitan area, 2016. - https://jakubmarian.com/european-countries-by-percentage-of-population-living-near-the-capital/

21. Migration Data Portal. - https://migrationdataportal.org/data?t+=2019&cm49=31

22. Office for Notional Statistics. - file:///C:/Users/ASUS/Downloads/internalmigrationmethodo logy2016.pdf

23. Первая всеобщая перепись населения Российской империи. Наставление городским счетчикам: [5 июня 1895 года], http://elib.shpl.ru/ru/nodes/23817-pervaya-vseobschaya-perepis-naseleniya-rossiyskoy-imperii-nastavlenie-gorodskim-schetchikam-5-iyunya-1895-goda-spb-1896

24. World Bank. Urban population (% of total population) – Azerbaijan 1960-2019, United Nations Population Division. World Urbanization Prospects: 2018 Revision. https://data.worldbank.org/ indicator/SP. URB.TOTL.IN.ZS?locations=AZ

25. UN, New Urban Agenda 2017. - http://habitat3.org/wp-content/uploads/NUA-English.pdf

26. UN, Transforming our world: the 2030 Agenda for Sustainable Development. - https:// sustainabledevelopment.un.org/post2015/transformingourworld

Elnara Garibova

Socio-demographic picture of the intersection of urbanization and internal migration in Azerbaijan

Abstract

Migration is one of the most essential social outcomes and alterations in human history. People are forced to emigrate for various reasons. Mostly in the last two centuries, the scientific and technological revolution and rapid development of globalization have had a direct or indirect impact on the pace and level of migration. Migration is a complex phenomenon. The formation of large cities, the emergence of megacities as a result of urbanization further complicates this process. Migration causes some new problems in multifaceted socio-economic, environmental, geopolitical, and ethno-political aspects. In many cases, migration processes, which take the form of mass flows to cities, change the city's environment, natural landscape, disrupt traditional harmony. In the modern world, there is a very serious need to study the trends of migration in Azerbaijan, to determine the relationship between economic and unequal migration, to assess its effects on socio-economic development and demographic situation in the country.

Key words: Azerbaijan, migration, social, urbanization, agglomeration, demography

Эльнара Гарибова

Социально-демографическая картина пересечения урбанизации и внутренней миграции в Азербайджане

Резюме

Миграция - один из важнейших социальных результатов и изменений в истории человечества. Люди вынуждены эмигрировать по разным причинам. В основном за последние два столетия научно-техническая революция и быстрое развитие глобализации прямо или косвенно повлияли на темпы и уровень миграции. Миграция - сложное явление.

Формирование крупных городов, появление мегаполисов в результате урбанизации еще больше усложняет этот процесс. Миграция порождает новые проблемы в многогранных социально-экономических, экологических, геополитических и этнополитических аспектах. Во многих случаях миграционные процессы, которые принимают форму массовых потоков в города, изменяют городскую среду, природный ландшафт, нарушают традиционную гармонию. В современном мире существует очень серьезная необходимость изучить тенденции миграции в Азербайджане, определить взаимосвязь между экономической и неравноправной миграцией, оценить ее влияние на социально-экономическое развитие и демографическую ситуацию в стране.

Ключевые слова: Азербайджан, миграция, социальная, урбанизация, агломерация, демография

AZƏRBAYCANDA AİLƏ QAYĞISI REJİMİNİN TƏDQİQİNİN NƏZƏRİ ƏSASLARI

Humay AXUNDZADƏ
Sosial Tədqiqatlar Mərkəzinin baş məsləhətçi
Bakı, Azərbaycan

E-mail: humay_akhundzade@stm.az

Xülasə. Məqalədə Azərbaycanda ailə qayğısı rejimi müasir qayğı konsepsiyalarını tətbiq etməklə makro- və mikrosəviyyələrdə ilk dəfə olaraq təhlil edilir. C.Lyuisin sosial qayğı konsepsiyası qayğı rejimlərinin ümumi bölgüsünə istinad kimi verilir. A.Hohşildin qayğı idealı və modelləri, J.Çernovanın qayğı rejimlərinin elementləri sözügedən anlayışın formalaşmasında dəyərlər sisteminin rolunu göstərir. B.Pfau-Effingerin "rifah mədəniyyəti" konsepsiyası, S.Leytnerin familizm konsepsiyası və Q.Espinq-Andersenin rifah dövlətlərinin təsnifatı, M. Kremerin yanaşması qayğı rejiminin formalaşmasında mədəni və institusional amilləri aydınlaşdırmaq üçün araşdırılır. Qayğı rejiminin mikrosəviyyədə tədqiqi üçün əhəmiyyətli olan daha iki konsepsiyaya - E.Svidlerin mədəniyyət, eləcə də L.Berqson və U. Robertsin ailə həmrəyliyi konsepsiyalarına aydınlıq gətirilir. Bunun nəticəsində müəllif belə qənaətə gəlir ki, Azərbaycan kontekstinə uyğun konseptual bazanın işlənilməsi yerli cəhətlərin – sosial siyasət tarixi, mövcud qanunvericilik bazası və mədəni xüsusiyyətlərin nəzərə alınmasını tələb edir.

Açar sözlər: qayğı, qayğı rejimi, qayğı idealı, qayğı modelləri, rifah dövləti, rifah mədəniyyəti, fəaliyyət strategiyası, nəsillərarası həmrəylik

GİRİŞ

Qayğı rejiminin tədqiqi müasir sosial elmlərdə ciddi ənənələrə malikdir. Azərbaycanda sosial siyasət sahəsində aparılan islahatlar bu istiqamətdə tədqiqatların həyata keçirilməsi zərurətini yaradır. Qayğı rejimi cəmiyyətdə qayğıya ehtiyacı olan bütün kateqoriyaların (uşaqlar, yaşlılar, əlillər) həyatına təsir edir. Çıxış nöqtəsini qayğı rejimlərinin ailəmərkəzli və ailədənkənar növlərinə ayıran C.Lyuisin yanaşmasından götürəriksə [19], aydındır ki, Azərbaycan cəmiyyətinin ailə ənənələri və sosial siyasət strategiyası bizim kontekstdə birinci növün aktuallığını labüd edir. Bu səbəbdən Azərbaycanda qayğı rejiminin tədqiqini ailə qayğısı rejiminin (və ya familist qayğı rejimi) tədqiqindən başlamağı məqsədəuyğun hesab edirik.

Məqalədə Azərbaycan cəmiyyətinin kontekstində ilk dəfə olaraq familist qayğı rejimi makro və mikrosəviyyələrdə nəzərdən keçirilir. Bu bölgü C.Lyuisin sosial qayğı konsepsiyasına əsaslanır. Makrosəviyyə mikrosəviyyədəki ailə qayğısının reallaşdığı konteksti təşkil edir. Qayğı rejiminin makrosəviyyəsinin təhlili A.Hohşildin qayğı idealı və modelləri kateqoriyasına, J.Çernovanın qayğı rejimlərinin elementlərinə, B.Pfau-Effingerin "rifah mədəniyyəti" konsepsiyasına, S.Leytnerin familizm konsepsiyasına və Q.Espinq-Andersenin rifah dövlətlərinin təsnifatına əsaslanır. Mikrosəviyyədə isə rejim E.Svidlerin təcrübə və strategiyalar repertuarı adlanan mədəniyyət konsepsiyası vasitəsilə nəzərdən keçirilir. Həmçinin L.Berqson və U. Roberts tərəfindən təklif olunan ailə həmrəyliyi anlayışından istifadə olunur. Məqalədə həmçinin Azərbaycan kontekstində qayğı rejiminə institusional və mədəni yanaşmalar arasındakı diskussiyalara münasibətdə mövqeyimizi müəyyənləşdirmək üçün M.Kremerdən də istinadlar vardır. Qayğı sosiologiyası sahəsində olan nəzəriyyə və konsepsiyaların ümumi cəhəti onların əksəriyyətinin Qərb cəmiyyətlərinin nümunələrinə əsaslanaraq formalaşdırılmasıdır. Bu, onların birbaşa olaraq digər kontekstlərə tətbiqini çətinləşdirir, lakin müəyyən əlavə və tənqidi təhlillərlə bərabər onlardan yararlanmanı mümkün hesab edirik.

1. "Qayğı" konsepsiyası və onun makro- və mikrosəviyyələri

Qayğı sosial siyasətə dair müasir tədqiqatlarda, gündəlik praktikalara həsr olunan mikrososioloji işlərdə ən çox istifadə olunan anlayışlardandır [1, s.84). Gender tədqiqatlarında qayğı üç istiqamətdə nəzərdən keçirilir. Birincisi, özünəməxsus qadın təcrübəsi kimi [12; 22]; ikincisi, peşə aləmi və haqqı ödənilən əmək sahəsindəki qayğı təhlil olunur [9; 10; 12; 13]; üçüncüsü, qayğı kateqoriyası sosial siyasətin ayrılmaz hissəsi kimi nəzərdən keçirilir [8; 16; 17; 19].

Təyini və yanaşmaların rəngarəngliyinə baxmayaraq müəlliflərin razılaşdığı ümumi fikir ondan ibarətdir ki, qayğı ona cəlb olunan insanların qarşılıqlı asılılıq manasibətlərini nəzərdə tutan emosional tərkibə malikdir [21, s.283]. Bettio və Plantenqa qayğını öz qayğısına qalmağa qadir olmayan insanlara qulluq üzrə fəaliyyət kimi müəyyən edirlər [6; 21 s.283]. Göstərildiyi kimi, sosial qayğı bu tədqiqatda makro və mikrosəviyyələrdə nəzərdən keçirilir. Mikrosəviyyədə bu insana gündəlik sosial, psixoloji, emosional və fiziki diqqətin təmin olunması praktikalarıdır [17, s.28]. Makrosəviyyədə isə ümumilikdə cəmiyyət miqyasında sosial qayğının təşkilidir, hansı ki, gündəlik praktikaların kontekstidir.

Makrosəviyyədə qayğının tədqiqinin iki əsas istiqaməti vardır: institusional və mədəni. İnstitusional yanaşmanın Q.Espinq-Andersen və C.Lyuis və b. kimi tərəfdarları bu və ya digər rejimin

mövcudluğunun səbəbi kimi dövlət siyasətini nəzərdən keçirirlər [8]. Onların fikrincə, dövlət siyasəti institutlar səviyyəsində qayğı praktikalarını həyata keçirən aktorlara təsir göstərən institusional şərtləri müəyyənləşdirir. Mədəni yanaşmanın tərəfdarları isə, əksinə, mədəni konteksti nəzərə almağın vacibliyini vurğulayırlar. Mikrosəviyyə isə ailə daxilində və ya icmada qayğı praktikalarının iştirakçılarını, qayğının onlar arasında bölüşdürülməsini ehtiva edir [17].

Qayğı rejiminin təhlili üçün əhəmiyyətli konsepsiyaların təhlilindən belə qənaətə gəlmək olar ki, hansısa bir konsepsiyanın digərlərindən üstün qəbul edilməsi optimal mövqe deyil. Çünki qeyd etdiyimiz kimi, bu konsepsiyaların heç biri nəinki Azərbaycan, ümumiyyətlə, postsovet cəmiyyətlərinin nümunələri üzərində formalaşdırılmayıb. Konkret lokal kontekstdə qayğı rejiminin təhlilinə həsr olunmuş tədqiqatların massivi mövcud deyildir. Bu səbəbdən onların ümumiləşmiş təhlili və uyğun olmayan tərəflərinin üzə çıxarılması ilə adekvat yanaşmanı təmin etmək olar. Bu baxımdan qayğının makrosəviyyəsinə iki yanaşmanın Azərbaycan kontekstinə ayrı-ayrılıqda deyil, "mədəni yanaşmaya meyilli qarışıq yanaşma" kimi müəyyən etməyi münasib hesab edirik.

2. Cəmiyyətdə qayğı rejimini formalaşdıran mühüm sosial amillər

Qayğı rejimi qayğının müxtəlif aktorlar və institutlar arasında bölüşdürülməsinin sabit təkrarlanan patternləri kimi müəyyən olunur [2, s.563]. Hər bir konkret halda qayğı rejimi qulluq praktikalarının həyata keçirilməsinin müxtəlif qaydalarının toplusu ola, qayğının obyektindən (uşaqlar, yaşlılar) asılı olaraq qurula və qeyri-ardıcıl ola bilər [4, s.299]. Rusiya sosioloqu J.Çernova qayğı rejimini tədqiq edərkən onun üç elementini ayırır: (1) qayğı idealı, yəni yaxşı qulluğun və tərbiyənin nədən ibarət olması, kimin "səriştəli" qayğı subyekti olması haqqında diskursiv təsəvvürlər; (2) asılı vətəndaşlara qulluq və qayğı ilə bağlı praktikaların lokallaşması (dövlət institutları, bazar xidmətləri, ailə, üçüncü sektor); (3) konkret cəmiyyətdə sosial qayğının statusu [4, s.312]. Zənnimizcə, tədqim olunan elementlər qayğının obyektindən asılı olmayaraq, həm uşaqlara qayğı, həm yaşlı, həm də əlillərə qayğı münasibətləri üçün münasibdir. Göstərilən elementlər arasında qayğı idealı anlayışı xüsusi əhəmiyyət daşıyır. Belə ki, o nə üçün müəyyən kontekstdə bu və ya digər qayğı rejiminin üstünlük təşkil etdiyini anlamağa yardım edir.

Qayğı idealı anlayışı insanların öz ailə üzvlərinə gündəlik qayğını necə təşkil etmələrini öyrənmək baxımından mühüm əhəmiyyət kəsb edir. O, A.Hohşild tərəfindən 1990-cı illərdə işlənilmişdir. Qayğı idealı - kimin qayğı praktikalarını yerinə yetirməli olması, bunun nədən ibarət olması və qəbul olunmuş normalara əsasən hansı qayğı tipinin nə qədərinin "yetərli" olması haqqında cəmiyyətdə sabit kök salmış təsəvvürlərdir [14; 15]. Qayğının müasir tədqiqatçısı, Amsterdam Universitetinin professoru Monik Kremer də qayğı rejiminin müəyyən edilməsində qayğı ideallarının əhəmiyyətini göstərir. Onun fikrincə, idealın tədqiqi qayğının harada və kim tərəfindən təmin olunmasını aydınlaşdırmağa imkan verir [17, s.60]. Uyğun olaraq qayğı idealları spesifik normativ legitimliyi və konkret kontekstdə qayğı praktikalarının uyğunluğunun məntiqini nəzərdə tutur [20]. Məhz legitimləşdirmə əsasında fərdlər hər hansı bir təşkil formasını münasib olan kimi seçir, digərlərini isə onların sosial cəhətdən arzuolunmazlığı – qeyri-legitimliyi baxımından heç nəzərdən keçirməyə bilərlər. Məsələn, Azərbaycan cəmiyyətində yaşlı ailə üzvünə qayğının məhz

ailədə, yetkin övladlar tərəfindən həyata keçirilməsi arzuolunan və legitimdir. Lakin onlara institusional qayğı – qocalar evində yaşamaq alternativi qeyri-legitim və arzuolunmazdır. Aydındır ki, bu halda əksər insanlar valideynlərini qocalar evinə təhvil verməyi heç ağıllarına belə gətirmirlər. Mövcud qayğı idealları rigid əxlaqi imperativlər deyil. Onlar kontekstualdır, ailə daxilindəki danışıqların, həmçinin ailə siyasətinin digər aktorları ilə danışıqların nəticəsidir, bu və ya digər dövlətdə "qayğı rejimi"ni təşkil edirlər [4, s.301].

Qayğı idealı həm də qayğının artan çatışmazlığı şəraitində cəmiyyətdə hansı modelin üstünlük təşkil etməsində əks olunur. Müxtəlif ideallara istinad edərək A.Hohşild dörd qayğı modelini ayırır: ənənəvi (traditional), postmüasir (postmodern), müasir "soyuq" qayğı modeli (cold-modern) və müasir "isti" qayğı modeli (warm-modern). Hər bir model göstərilən kontekstdə kimin qayğının subyekti olmasını, qayğının hansı tipinin və həcminin "yetərincə yaxşı" olmasını nəzərdə tutur [14, s.333]. Təd qiqatçı qayğının artan defisitini qeyd edir və buna təsir edən iki sosial prosesi ayırır - bu, müasir və postmüasir cəmiyyətlərdə ailə münasibətlərinin strukturundakı və məşğulluğun strukturundakı dəyişiklikdir [14, s.334]. Bu hissəni bir qədər açıqlamağı lazım bilirik. Məlumdur ki, son bir əsr ərzində ailə strukturu ciddi dəyişikliyə məruz qalıb, genişlənmiş ailə təsərrüfatı öz yerini əsasən nuklear ailələrə verib. Ailənin funksiyasında da ciddi dəyişikliklər baş verib. Ailənin iqtisadi funksiyası əvvəllər sahib olduğu müstəsna rolunu bir qədər itirərək, yerini emosional-psixoloji tələbatların ödənilməsi funksiyasına verməkdədir. Məşğulluğun strukturundakı dəyişiklik isə əsasən qadınların haqqı ödənilən əmək sahələrinə kütləvi şəkildə cəlb olunması ilə bağlıdır. Bu iki amil ona gətirib çıxarıb ki, müasir ailədə asılı və qayğıya ehtiyacı olanlara birbaşa qayğını həyata keçirən potensial ailə üzvlərinin sayı azalmağa doğru gedir. A.Hohşildin irəli sürərək, konseptuallaşdırdığı hər bir model müasir cəmiyyətdə yaranmaqda olan qayğı defisitinə bir növ cavabdır. Onlar (dörd qayğı modeli) həm özəl, həm də ictimai diskurslarda üstünlük qazanmaq üçün bir-birilə rəqabət aparırlar [14, s.338].

Ənənəvi qayğı modelində qayğı qadın məsuliyyəti hesab olunur, ənənəvi qadın rollarına qayıdış qayğı böhranından ən yaxşı çıxış yolu hesab olunur. Müasir qayğının "soyuq" modeli peşəkarlar tərəfindən ictimai müəssisələrdə həyata keçirilən institusional qayğının inkişaf etdirilməsini nəzərdə tutur, bu modeldə şəxsiləşdirilmiş qayğının dəyəri aşağı düşür. A.Hohşildin fikrincə, ən münasib olan müasir "isti" qayğı modelidir. Belə qayğı modeli qadın və kişilərin bərabər iştirakı, haqqı ödənilən və ev qayğılarının balanslaşdırılması, qayğının cəmiyyətdə dəyərinin tanınması sayəsində ola bilər. Bu konsepsiyanı aşağıdakı səbəblərdən nəzərdən keçiririk: Azərbaycan cəmiyyəti həm sovet, həm də postsovet dövründə əhəmiyyətli dəyişikliklərə məruz qalmışdır. Cəmiyyət modernləşir, lakin modernləşmə prosesi qeyri-bərabər və natamam baş verirdi. Ailə institutunda, məşğulluqda, cəmiyyətin gender sistemində struktur dəyişiklikləri baş verirdi. Bütün bunlar qayğı modelinin də müxtəlif dövrlərdə fərqli təsirlərə məruz qalmasını şərtləndirmişdi. Məsələn, sovet quruculuğu dövrü qayğı funksiyalarının ailə və dövlət müəssisələri arasında bölüşdürülməsini təşviq etsə də, müstəqillik dövrünün ilk onilliklərində qadınların ailə mühitinə "qayıdışı", mürəkkəbləşən əmək bazarı şəraitində əsasən ailə rollarına meyil etməsini şərtləndirmişdi. Bütün bu amillər hazırkı dövrdə Azərbaycanda qayğı rejiminin mürəkkəb mənzərəsinin fomalaşmasına gətirib çıxarmışdır.

3. Qayğı rejiminin formalaşmasında ailə-dövlət münasibətləri

Cəmiyyətdə üstün olan qayğı rejimi nəinki qayğının ideal modeli, həm də rifah dövlətinin tipi ilə əlaqəlidir. Rifah dövlətlərinin klassik tipologiyasında Q.Espinq-Andersen İƏİT ölkələrini nəzərdən keçirmiş və üç modeli göstərmişdir: liberal, konservativ və sosial-demokratik. Liberal model ailələrə dövlət tərəfindən ən az yardımı nəzərdə tutur, dövlət "ailə işlərinə" məhdud dərəcədə müdaxilə edir, onlar vətəndaşların özəl problemləri hesab olunur. Belə olan halda qayğının böyük bir hissəsi bazar xidmətləri sayəsində həyata keçirilir. Yəniqayğının kommodifikasiyası (əmtəəyə çevrilməsi) baş verir. Konservativ model ailənin sosial dövlət tərəfindən yetərincə dəstəklənməsini nəzərdə tutur (onu liberal modellə müqayisədə daha çox ailəyə yönümlü hesab etmək olar). Lakin bu halda sosial siyasət tədbirləri ailənin gender nizamına uyğun işlənilir, yəni kişilərin evin "çörəkgətirəni" (ingiliscə "breadwinner"), qadınların evdar olması haqqında təsəvvürlərə əsaslanır. Sosial-demokratik model ailə qayğısının əhəmiyyətli dərəcədə dövlət tərəfindən dəstəklənməsinə yönəlmişdir, lakin konservativ modeldən fərqli olaraq qadınların və kişilərin ailə və peşə rollarının balansı üçün böyük imkanlar yaradır. Göstərilən tipologiyanın sonrakı tənqidinə baxmayaraq o, konkret cəmiyyət kontekstində dövlətin iştirakı, vətəndaşlara qayğı praktikalarında ailəyə dəstək kimi cəhətlərə diqqət yetirməyə imkan verir.

İtisadi cəhətdən inkişaf etmiş cəmiyyətlərdə bütün vətəndaşlara qayğı ailə, rifah dövləti, bazar strukturları və vətəndaş cəmiyyəti arasında əməkdaşlıq (sosial tərəfdaşlıq) kimi təşkil olunmuşdur [7, s.538]. Ailənin əsas qayğı aktoru olduğu rejimlər familist rejim hesab olunur və yuxarıda qeyd olunduğu kimi, Azərbaycan da familist qayğı rejiminin aparıcı olduğu cəmiyyətlərə aiddir. Yəni nəzərdən keçirdiyimiz Azərbaycan cəmiyyətinin kontekstual xüsusiyyətləri onu asılı vətəndaşlara (uşaqlar, yaşlılar, məhdud fiziki imkanlı şəxslər) qayğının əsas aktoru kimi ailənin çıxış etdiyi familist qayğı rejiminin olmasını göstərir. Vətəndaşlara münasibətdə sosial qayğı rejimi daha geniş olan rifah rejimi anlayışının sistem elementidir. Beləliklə, cəmiyyətdə qayğı praktikaları dövlət və sosial institutların mürəkkəb, çoxsəviyyəli qarşılıqlı təsir prosesləri kontekstində gerçəkləşir.

Rifah rejimi ilə familizmin əlaqəsi ilk olaraq Q. Espinq-Andersen tərəfindən öz konsepsiyasını yenidən nəzərdən keçirməsi zamanı qeyd olunmuşdur. Onun kapitalist rifah cəmiyyətlərinin üç növü haqqında təsnifatı bir sıra cəhətlərinə, o cümlədən gender həssaslığının olmamasına görə tənqidə məruz qalmışdır. Ailə institutunun sosial-siyasi funksiyasını təhlil edərkən tədqiqatçı familist və de-familist rifah rejimlərini ayırır. Familist sistemlərdə ictimai siyasət və ideologiya ailə təsərrüfatına öz üzvlərinin rifahına görə əsas məsuliyyəti həvalə edir. Defamilizasiyaya məruz qalan rejimlər ev təsərrüfatlarının yükünün və fərdlərin rifahının ailə əlaqələrindən asılılığının azaldılması ilə səciyyələnir [18, s.51]. Defamilizasiya mexanizmləri kimi dövlət tərəfindən dəstəklənən sosial xidmətlər və ya bazar vasitəsilə qayğının təmin olunması çıxış edə bilər. Son illər Azərbaycanda artmaqda olan qayğı xidmətlərinə baxmayaraq, yenə də vətəndaşlara qayğı rejiminin struktur xüsusiyyətlərini təsvir etmək üçün familizm anlayışı daha relevant görünür. Bununla yanaşı, hər bir konkret familist rejim mədəni spesifikliyə malikdir.

Qayğı rejiminin mədəni özünəməxsusluğu məsələsi Gettingen Universitetinin sosial siyasət üzrə tədqiqatçısı C.Leytner tərəfindən fundamental şəkildə işlənilmişdir. Avropada sosial qay-

ğı rejimlərini müqayisə edərək, gender təhlili prinsiplərini rəhbər tutaraq Leyt ner ailəyə yönümlü qayğı rejimlərinin dörd ideal tipini ayırır: *açıq* (explicit) familizm, *qapalı* (implicit) familizm, *seçici* (optional) familizm və defamilizasiya [18, s.354]. *Eksplisit familizm* rejimində dövlət siyasəti ailəni asılı ailə üzvlərinin qayğısı məsələlərində birbaşa dəstəkləyir, lakin ailə qayğısına institusional alternativlərlə o qədər də təmin etmir. *Seçici familizm*də dövlət qayğının ailə formatını dəstəkləyir, lakin bundan əlavə öhdəlikləri qismən ötürmək üçün institusional imkanlar təklif edir [18, s.359]. *İmplisit familizm* şəraitində ailə əsas qayğı institutu hesab olunur, lakin dövlət onu əhəmiyyətli dəstəklə təmin etmir, alternativ qayğı formaları inkişaf etmir, ideoloji dəstək görmür. Nəhayət, *defamilizasiya rejimi* ailənin funksiyasının zəifləməsi, qayğının dövlət və bazar institutlarına ötürülməsi ilə xarakterizə olunur [18, s.359]. Beləliklə, ailə qismən qayğıdan azad olur, lakin tam azadlıq ümumiyyətlə nəzərdən keçirilmir.

Kontekstin (ilkin və ikincili mənbələrin) təhlili bizi belə bir qənaətə (daha çox fərziyyəyə) gəlməyə imkan verir ki, Azərbaycanda qayğı rejiminə qayğının obyektindən çıxış edərək təsnifat nöqteyi-nəzərindən baxmaq lazımdır. Azərbaycanda vətəndaşlara gündəlik qayğının əsas lokallığı və resursu ailədir. Bu model həm sosial siyasət, həm də cəmiyyətdə geniş yayılmış mədəni ideallarla dəstəklənir. Bununla yanaşı, dövlət ailənin maddi dəstəklənməsi sahəsində (təqaüdlər, müavinətlər və s.) ardıcıl, sistematik tədbirlər həyata keçirir.

4. Qayğı rejimi və rifah mədəniyyəti

Qayğı rejimini şərtləndirən rifah rejimi və mədəniyyətin qarşılıqlı əlaqəsinin təhlilinə baş vuran M.Kremer yazır: “Rifah dövləti mədəni olaraq müəyyənləşmiş əxlaqi ismarıclar verir. Dövlət yalnız vətəndaşlar arasında, vətəndaş və dövlət arasında müqavilə bağlayan hüquqşünas deyil, tələb və təklifi əlaqələndirən iqtisadçı deyil, həm də insanlara dünyanın şərhini və özünəməxsus kontekstdə daha arzuolunan davranışları ötürməyə çalışan din xadimidir” [17, s.242]. Mədəniyyət və dövlətin münasibətləri dəyişikliklərə məruz qalır. Bu baxımdan ailə qayğısı rejiminin hərtərəfli öyrənilməsi üçün “rifah mədəniyyəti” anlayışı əhəmiyyət kəsb edir. “Rifah mədəniyyəti” müvafiq sosial aktorlar, institutlar və konkret siyasi tədbirlərin istinad etdiyi bilik, dəyər və idealların cəmini əhatə edir. Rifah mədəniyyətində dominantlıq edən mədəni dəyər və ideallar mümkün siyasi tədbirlər spektrini məhdudlaşdırır [23, s.4]. Başqa sözlə, mövcud ailə institutu və gender nizamı dominantlıq edən mədəni patternləri ilə birgə sosial siyasətin konkret tədbirlərinin reallaşdığı konteksti əmələ gətirirlər. Aydındır ki, rifah mədəniyyəti anlayışı mədəni idealların sosial siyasətə, qəbul olunan qanunvericilik tədbirlərinə təsirini göstərir. Bu anlayışın işlənilməsinə B.Pfau-Effinger əhəmiyyətli dərəcədə töhfəsini vermişdir. O, rifah mədəniyyətinin əsas səviyyələrini ayırır. Birinci səviyyə qanunvericiliyin tənzimlənməsi, onun çərçivəsində mədəni dəyərlər və modellər öz legitimliyini tapır. İkinci səviyyə ictimai təsəvvürlərdə dominantlıq edən mədəni dəyər və modellərdir. Üçüncü səviyyə mədəni dəyər və idealları reprezentasiya edən ictimai diskurslardır. İctimai diskurslar bir-birilə münaqişədə ola bilən ictimai təsəvvürlərlə dövlət müəssisələri arasında mediator kimi çıxış edir [23, s.10]. Rifah dövlətinin siyasəti sosial aktorların ideya və maraqlar ətrafında münaqişələri, danışıqları və kompromisləri nəticəsində formalaşır [23, s.11]. Pfau-Effinger hesab edir ki, rifah mədəniyyətinin öyrənilməsi cəmiyyətin normaları və dövlətin sosial siyasəti arasındakı mürəkkəb çoxsəviyyəli münasibətləri daha dərindən anlamağa imkan verir [23, s.16].

İctimai diskurslar, təsəvvürlər və siyasi qərarlar arasında potensial ziddiyyətlər haqqında tezis məqalənin təhlil obyekti üçün əhəmiyyət daşıyır, çünki Azərbaycan cəmiyyətini son onilliklərdə sürətli dəyişikliklər, dövlət quruluşunun və iqtisadi sistemin dəyişilməsi, müxtəlif mədəni və siyasi təsirlər meydanı olması ilə xarakterizə etmək olar. B.Pfau-Effinger tərəfindən ayrılan "rifah mədəniyyətinin" səviyyələri isə ailə qayğısı makrokontekstinin təhlilində müstəsna əhəmiyyətə malikdir.

Ancaq rifah rejiminin öyrənilməsinə həsr olunmuş tədqiqatların çoxunun Qərbi Avropa cəmiyyətlərinin öyrənilməsinə əsaslanması mövcud tipologiyaların Azərbaycan kontekstinə birbaşa tətbiqini qeyri-mümkün edir. "Digər" ölkələrdə (yəni qeyri-Qərbi Avropa dövlətlərində) rifah dövlətlərini təhlil edən müəlliflər, məsələn, İ.Qou və Q.Terborn Qlobal Cənub ölkələrini öyrənərkən rifah rejimlərinin əvvəlki paradiqmalarının radikal olaraq yenidən konseptuallaşdırılmasının zəruriliyini vurğulayırlar [11, s.742]. Onlar müasir rifah dövlətlərini beş struktur hərəkətverici qüvvələrinin (driver) təsirinin nəticəsi kimi nəzərdən keçirirlər: sənayeləşmə, maraqlar, institutlar, ideologiyalar, beynəlxalq təsirlər [11, s.742]. Şübhəsiz ki, hər bir cəmiyyətdə bu struktur şərtlərin müxtəlif cəhətləri və onların bir-birilə birləşməsi təzahür edir, birlikdə isə onlar gündəlik qayğının gerçəkləşdiyi makrokonteksti təşkil edir. Sənayeləşmənin tarixi çərçivələri, sosial institutların modernləşməsi, beynəlxalq təsirlər birlikdə unikal birgəlik yaradır, bu isə rifah dövlətlərinin klassik təhlil konsepsiyalarının birbaşa tətbiqini çətinləşdirir.

Azərbaycan kontekstinin xüsusiyyətlərinə gəldikdə isə qeyd edək ki, inkişaf etməkdə olan bir sıra müasir cəmiyyətlərə xas müəyyən cəhətlər ölkəmiz üçün də xarakterikdir. A.Minges qeyd edir ki, bu ölkələrin çoxu Qərb ölkələrindən fərqli olaraq, iqtisadi qloballaşma sayəsində daha sürətli dəyişikliklərə məruz qalmışlar, eyni zamanda onlar norma, institut və cəmiyyətin strukturuna işləmiş ənənəvi mədəniyyətin dəyişməsinə müqavimət göstərirlər [21, s.276]. Fikrimizcə, Mingesin mövqeyi Azərbaycan kontekstini də olduqca yaxşı əks etdirir. Doğrudan da, Azərbaycanı sütərli inkişaf və modernləşmənin baş verdiyi ölkələr sırasında nəzərdən keçirmək daha düzgün olardı. Lakin bu transformasiyalar, həmçinin müxtəlif kənar təsirlərə müqavimət öz milli xüsusiyyətlərini qorumaq məqsədilə yanaşı baş verir. Nəzərə almaq lazımdır ki, Azərbaycan cəmiyyətindəki sosial proseslər özündə sovet modernləşməsinin, milli dövlət quruculuğunun və müasir dövrün qlobal proseslərinin "izini" daşıyır.

5. Qayğı rejiminin mikrosəviyyəsi - "davranış strategiyası"

Mədəni amillərin qayğı rejiminin konkret mikrosəviyyələrdə təzahürünə təsirini araşdırmazdan əvvəl nəzərə almalıyıq ki, mədəniyyət anlayışının təyini öz-özlüyündə olduqca geniş və çoxaspektlidir. Qayğı rejiminin reallaşmasına təsiri baxımından ən münasib hesab etdiyimiz E.Svidlerin yanaşmasıdır. Onun fikrincə, mədəniyyəti praktikaların yönəldiyi mücərrəd dəyərlər toplusu kimi deyil, adət və vərdişlərin repertuar və ya "alətlər toplusu" ("tool kit") kimi dərk etmək lazımdır. Bu alətlər toplusu vasitəsilə fərdlər "fəaliyyət strategiyasını" formalaşdırır ("strategies of action") [24, s.273]. Müəllifin mədəniyyətə dair alternativ konsepsiyası üç əsas cəhəti özündə ehtiva edir. Birincisi, o, mədəniyyətə simvol, tarixçə, ritual və dünyagörüş mühakimələrindən ibarət "alətlər toplusu" kimi baxmağı təklif edir, onlar müxtəlif tip problemləri həll etmək üçün fərdlər tərəfindən fərqli birləşmələrlə istifadə olunur. İkincisi, mədəniyyətin səbəbiyyət effektlərini təhlil edərkən o,

diqqəti “fəaliyyətin strategiyasına”, yəni fəaliyyətin zaman baxımından sabit olan nizamlanmasına yönəldir. Üçüncüsü, mədəniyyəti praktikaların determinantı kimi deyil, hərəkət strategiyasında istifadə olunan, tarixən formalaşmış praktika komponentlərinin toplusu kimi nəzərdən keçirir [24, s.273]. Başqa sözlə, mədəniyyət dəqiq məqsəd və son nəticələri təklif etmir, birmənalı davranış nümunəsi deyil, o, əsasında fərdlərin davranış strategiyalarını və gündəlik praktikalarını qura biləcəkləri mümkün vasitələr mənbəyidir. E.Svidler göstərir ki, mədəniyyət cəmiyyətin mövcudluğunun müxtəlif dövrlərində fərqli şəkildə anlaşılır. Cəmiyyətin sakit (settled) dövrlərində cəmiyyət üzvləri necə davranacaqlarını bilirlər [24, s.280]. Yəni müxtəlif həyat problemlərinin həlli strategiyaları və qəbul olunan gündəlik praktikalar problemləşdirilmir. Əksinə, narahat və sürətli dəyişikliklərin baş verdiyi dövrlərdə (unsettled) mədəni mənalar müzakirə obyekti olur və eksplisitləşir, çünki onlar davranış patternlərini formalaşdırır. Bu patternlər “təbii olaraq” yaranmır [24, s.284].

Şübhəsiz ki, qayğı rejiminin konkret praktikalar qismində reallaşması da E.Svidlerin haqqında yazdığı praktikalar repertuarı, “alətlər toplusu” sayəsində mümkündür. Yəni ailədə asılı şəxsə qulluq və qayğını təşkil etmək üçün insanlar fərd və ailə olaraq hansı strategiyanı seçə bilər, hansı resurslara güvənə və müəyyən gözləntilər formalaşdıra bilər - bütün bunlar mədəniyyətlə şərtlənən “fəaliyyət strategiyası"nın tərkib hissələridir. Qeyd etmək lazımdır ki, B.Pfau-Effinger və E.Svidlerin “mədəniyyət” anlayışları tərəfimizdən eyniləşdirilmir. Birincisi, daha geniş makrokontekstin, ikincisi isə praktikaların mikrosəviyyəsinin öyrənilməsi üçün əhəmiyyətlidir.

6. Ailə qayğısı rejimi və nəsillərarası həmrəylik

Ailə qayğısı rejimi kontekstində qayğının həyata keçirilməsi nəsillərarası həmrəyliyin bu və ya digər səviyyəsini nəzərdə tutur. Odur ki, asılı və yaşlı ailə üzvlərinə qayğını konseptuallaşdırarkən nəsillərarası ailə həmrəyliyi anlayışını nəzərə almaq zəruridir. L.Berqson və U.Roberts ailə həmrəyliyinin altı səviyyəsini fərqləndirirlər. Birinci səviyyə həmrəyi və birliyi təşkil edən ailə sisteminin üzvləri arasında əlaqə və kontaktlardır. Ailədaxili, nəsillərarası münasibətlərin ikinci səviyyəsi isə müxtəlif nəsillərə aid olan ailə üzvləri arasında emosional bağlılığı nəzərdə tutur. Həmrəyliyin üçüncü səviyyəsi ailə sisteminin mövcudluğunun vacib məsələləri üzrə konsensusun ifadəsini və razılaşmaya nail olmanı nəzərdə tutur. Dördüncü səviyyə ailə üzvlərinin bir-birinə maddi dəstəyi ilə bağlıdır. Həmrəyliyin beşinci səviyyəsi ailə normalarının, yəni qohumluq vəzifələrinin bölüşdürülməsinə dair təsəvvürlərin təsirini nəzərdə tutur. Altıncı səviyyə ailədə qarşılıqlı münasibətlərin “imkanlar strukturunu” ifadə edir. Ailə üzvlərinin qarşılıqlı münasibətlər üçün əlçatan olması müxtəlif amillərin təsiri altında formalaşır, onlara məşğulluğun strukturu, məskunlaşma sistemi, ailə üzvlərinin yaşayış yeri, sağlamlıq vəziyyəti və s. aiddir [5, s.856]. Müəlliflər göstərir ki, onların işləyib irəli sürdükləri həmrəylik modeli bir sıra nəzəri ənənələri özündə ehtiva edir, bura klassik sosial həmrəylik nəzəriyyələri, sosial-psixoloji anlayış olan qrup dinamikası, ailə sosiologiyası perspektivi daxildir. Nəsillərarası ailə həmrəyliyi anlayışı müxtəlif etnik və milli kontekstlərdə vətəndaşlara qayğı praktikalarının təhlili, həmçinin müqayisəli tədqiqatların aparılması üçün analitik alət ola bilər 5, s.858].

Nəsillərarası həmrəyliyin qayğı rejiminin istənilən sosioloji tədqiqində

nəzərə alınması o səbəbdən önəmlidir ki, ailəyə yonümlü, vətəndaşlara qayğının gücləndirilməsinə istiqamətlənən istənilən dövlət siyasəti, eyni zamanda mədəni amillər ailədaxili münasibətlərin keyfiyyəti və xarakteri ilə əlaqələnərək reallaşır. Bu baxımdan, L.Berqson və U.Robertsin təklif etdikləri – ailə üzvləri arasında əlaqələrdən tutmuş, qohumluq vəzifələrinin bölüşdürülməsinə dair təsəvvürlərədək ailə həmrəyliyinin bütün səviyyələri ailə qayğısı rejiminin tədqiqində istifadə oluna bilər.

NƏTİCƏ

Məqalədə Azərbaycanda ailə qayğısı rejiminin tədqiqinin nəzəri əsaslarının təhlili bir sıra vacib məsələlərə aydınlıq gətirməyə imkan verdi. Cəmiyyətin strukturundakı sürətli transformasiyalar, dövlətin sosial siyasətinin müasir çağırışlara uyğun təkmilləşdirilməsi mütləq şəkildə cəmiyyət üzvlərinin hər birinin həyatına ciddi təsir göstərən qayğı rejiminin elmi-nəzəri əsaslı təhlilini zəruri edir. Bu elmi tədqiqat istiqaməti ötən əsrin son onilliklərindən etibarən əsasən Qərb ölkələrində inkişaf etdiyindən nəzəri konsepsiyalar da həmin ölkələrin nümunəsində formalaşmışdır. Belə vəziyyət Azərbaycan kontekstinə uyğun konseptual bazanın işlənilməsini – sosial siyasət tarixi, mövcud qanunvericilik bazası və mədəni xüsusiyyətlərin nəzərə alınmasını tələb edir.

Qayğı rejiminin makro- və mikrosəviyyələrinin təhlili - A.Hohşildin qayğı idealı və modelləri, J.Çernovanın qayğı rejimlərinin elementləri, B.Pfau-Effingerin “rifah mədəniyyəti”, S.Leytnerin familizm konsepsiyası və Q.Espinq-Andersenin rifah dövlətlərinin təsnifatı, M.Kremerin yanaşması, E.Svidlerin mədəniyyət konsepsiyası, habelə L. Berqson və U. Robertsin ailə həmrəyliyi konsepsiyalarının nəzərdən keçirilməsi nəticəsində belə qənaətə gəlmək olar ki, Azərbaycan kontekstində qayğı rejiminin tədqiqində digər ölkələr əsasında işlənilmiş konsepsiyaların kompleks tətbiqi daha effektlidir. Onların əsasında gələcəkdə tətbiqi tədqiqatların həyata keçirilməsi, daha sonra isə ümumiləşdirmələr sayəsində yeni konseptual bazanın işlənilməsi mümkündür.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

Rus dilində:

1. Бороздина Е. А. Забота и социальное гражданство. // Социологические исследования, 2015, 10(10), с. 84-93.
2. Здравомыслова Е. А., Тёмкина, А. А. 12 лекций по гендерной социологии. Учебное пособие. СПб.: Издательство Европейского университета в Санкт-Петербурге, 2015, 767 с.
3. Ткач О. Уборщица или помощница? Вариации гендерного контракта в условиях коммерциализации быта. /Новый быт в современной России: гендерные исследования повседневности, 2009, с. 137-188.
4. Чернова Ж. В. Кто, о ком и на каких условиях должен заботиться? Гендерный анализ режимов заботы и семейной политики. // Журнал исследований социальной политики, 2011, 9(3), с.295-318.

İngilis dilində:

5. Bengtson V. L., & Roberts R. E.. Intergenerational solidarity in aging families: An example of formal theory construction. // Journal of Marriage and the Family, 1991, pp. 856-870.
6. Bettio, F., & Plantenga, J. Care regimes and the European employment rate. In Institutions for Social Well-Being. Palgrave Macmillan, London. 2008, pp. 152-175.
7. Daatland S. O., & Herlofson K. 'Lost solidarity'or 'changed solidarity': a comparative European view of normative family solidarity. Ageing and Society, 2003, 23(05), pp. 537-560.
8. Daly M., & Lewis J. The concept of social care and the analysis of contemporary welfare states. // The British journal of sociology, 2000, 51(2), pp. 281-298.
9. England P. Emerging Theories of Care as Work. // Annual Review of Sociology, 2005, 31, pp. 381-399.
10. England P., Budig M., Folbre N. Wages of Virtue: The Relative Pay of Care Work. Social Problems, 2002, 49(4), pp. 455-473.
11. Gough I., & Therborn G. The global future of welfare states, Oxford University Press. 2010, Vol.1, pp. 703-876.
12. Graham H. Social Division in Caring. Women's Studies Int. Forum. 1993. 16(5). pp.461-470
13. Herd P., Harrington Meyer M. Care Work: Invisible Civic Engagement. // Gender and Society, 2002, 16. pp: 665-688.
14. Hochschild A. R. The culture of politics: Traditional, postmodern, cold-modern, and warm-modern ideals of care. // Social Politics: International Studies in Gender, State & Society, 1995, 2(3), 331-346.
15. Hochschild A. R. The commercialization of intimate life: Notes from home and work. – University of California Press, 2003.
16. Knijn T., Kremer M. Gender and the Caring Dimension of Welfare States: Towards Inclusive Citizenship. // Social Politics. 1993, (3), pp: 328-361.
17. Kremer M. How welfare states care: Culture, gender and parenting in Europe (p. 300). Amsterdam University Press. 2007.
18. Leitner S. Varieties of familialism: The caring function of the family in comparative perspective. // European societies, 2003, 5(4), pp:353-375.
19. Lewis J. Gender and Welfare Regimes: Further Thoughts. Social Politics.

1997, 4(2): 160-177
20. March, J. G., & Olsen, J. P. The organizational basis of politics. Free. 1989
21. Mínguez A. M. Gender, family and care provision in developing countries: Towards gender equality. // Progress in Development Studies, 2012, 12(4), 275-300.
22. Oakley A. The Ann Oakley Reader: Gender, Women and Social Science. Bristol: The Policy Press, 2005, pp: 63-116.
23. Pfau-Effinger B. Culture and welfare state policies: reflections on a complex interrelation. Journal of Social Policy, 2005, 34(01), pp: 3-20.
24. Swidler A. Culture in action: Symbols and strategies.// American sociological review, 1986, pp: 273-286
25. Thomas C. De-constructing Concepts of Care. // Sociology, 1993. 27(4), pp: 649-669.

Humay Akhundzade

Theoretical basis of studying family care regime in Azerbaijan

Abstract

The paper is dedicated to macro and micro levels of family care regime in Azerbaijan by applying contemporary concepts of care. The concept of J. Louis is applied for the initial definition of the analyzed the context of care. Ideals and models of care (A.Hohchild), elements of care regime (J.Chernova) show the role of value system of society in formation of care regime. The concept of “welfare culture” (B.Pfau-Effinger), famialism (S.Leitner), classification of welfare regimes (G.Esping-Andersen), cultural approach of M.Kremer are being analyzed for revealing institutional and cultural factors which determine care regime. In addition, A. Swidler’s approach to culture and concept of family solidarity of L.Bergson and U. Roberts are being analyzed for their relevance in research of micro level of care regime. By considering abovementioned, theoretical concepts the author comes to conclusion that conceptual approach to care regime in Azerbaijan should take into account the history of social politics, current legal system and cultural features of society.

Key words: care, care regime, ideals of care, care models, welfare state, welfare culture, strategy of action, intergenerational solidarity

Умай Ахундзаде

Теоретические основы исследования режима семейной заботы в Азербайджане

Резюме

В статье анализируются макро- и микроуровни режима семейной заботы в Азербайджане с точки зрения рассмотрения современных концепций заботы. Концепция Дж.Льюиса является исходной при общем классифицировании режимов заботы. Идеалы и модели заботы А. Хохшильд, элементы режима заботы Ж.Черновой указывают на роль системы ценностей в формировании режима заботы. Концепция «культуры благосостояния» Б.Пфау-Эффингер, фамилизм С.Лейтнер, классификация государств благосостояния Г.Эспинг-Андерсена, культурный подход М.Кремер анализируются для выявления институциональных и культурных факторов, влияющих на режим заботы. Также рассматриваются подход к концептуализации культуры Э.Свидлер, и концепция семейной солидарности Л.Бергсона и У.Робертса с точки зрения их релевантности в изучении микроуровня семейной заботы. В результате рассмотрения всех вышеуказанных теоретических концепций автор приходит к выводу о том, что разработка концептуальной базы исследований режима заботы в Азербайджане должна учитывать историю социальной политики, существующее законодательство и культурные особенности общества.

Ключевые слова: забота, режим заботы, идеал заботы, модель заботы, модели заботы, государство благосостояния, культура благосостояния, стратегия действий, межпоколенческая солидарность

POSTMODERN SOSİAL NƏZƏRİYYƏLƏR

POSTMODERN SOCIAL THEORIES

POSTMODERNİZMDƏ PUBLİK SFERAYA DAİR NƏZƏRİ BİR DƏYƏRLƏNDİRMƏ

Elnur ÇIRAQOV
Sosial Tədqiqatlar Mərkəzinin aparıcı məsləhətçisi
Bakı, Azərbaycan

E-mail: e.chiragov@gmail.com

Xülasə. Modern konsept və onun əsas hipotezləri siyasətin sosial bazasının genişləndiyi və müxtəlifliklərin öz səslərini eşitdirdikləri postmodern şərtlərdə siyasi, texniki, epistemoloji və digər prizmalardan şübhə altına alınır. Modern ağılın müştərək reallıq müstəvisində fərd cəmiyyətin atomik parçası olaraq öz mahiyyətində homogenliyi, mücərrədliyi və qeyri-şəxsiliyi daşıyarkən, postmodernlik müştərək reallıq müstəvisində bir araya gələ bilməyən fərqli subyekt mövqelərindən (subject-position) ibarət bir vəziyyəti nəzərdə tutur. Müxtəlifliklərin özünü büruzə verdiyi postmodern şərtlərdə siyasət təkcə institusional müstəvidə deyil, həm də bunun xaricində institusional siyasətə alternativ olaraq vətəndaş cəmiyyəti müstəvisində aparılır. Başqa sözlə, postmodern dövrdə siyasətin sərhədləri institusional mənada daralarkən, sivil mənada genişlənir.

Məqalədə modern çağa aid bir anlayış olan publik sferanın bu şərtlər daxilində, yəni müxtəliflik/identiklik tələbləri perspektivində yenidən qurulma imkanları günümüz üçün əhəmiyyətli iki əsas nəzəri istiqamət üzrə dəyərləndirilir. Bu nəzəri yanaşmaların postmodern dövrün özünəməxsusluğu, ictimai-siyasi şərtləri və tələbləri baxımından mümkün olub-olmaması müzakirə edilir. Məqalədə müxtəliflik və ya etnik, siyasi, dini, kultural identiklik tələbləri bəzi regionlarda nəzərəçarpan separatizm siyasətlərindən köklü şəkildə fərqlənir və inkişaf etmiş liberal demokratiyalarda ortaya çıxan yeni ictimai-siyasi hərəkatları nəzərdə tutur.

Açar sözlər: publik sfera, yeni siyasət, müxtəliflik/identiklik, müzakirəçi demokratiya, radikal demokratiya, modernizm, postmodernizm

GİRİŞ

Publik sferaya dair Hanna Arendtdən Jürgen Habermasa, Con Rolzdan Riçard Sennettə və Çantal Muffa qədər uzanan, hətta günümüzdə bir çox mütəfəkkiri və yeni nəzəriyyələri əhatə edən geniş elmi ədəbiyyat mövcuddur. Bu mütəfəkkirlərin nəzəri yanaşmalarından yola çıxaraq publik sfera ilə bağlı müxtəlif izahlara, bu çərçivədə konfiqurasiya olunan fərqli dövlət-cəmiyyət münasibətlərinə və siyasi formasiyalara rast gəlmək mümkündür. Sözügedən nəzəriyyələr müəyyən ortaq xüsusiyyətlər daşımaqla yanaşı, publik sferanın fərqli tarixi transformasiyalarını təqdim edərək onu müxtəlif dövrlərin ictimai-siyasi şərtləri çərçivəsində formullaşdırır. Nümunə kimi Arendt öz araşdırmalarında Qədim Yunanıstanı publik sferanın və demokratiyanın beşiyi kimi təqdim edərkən, Habermas XVII-XVIII əsrlərin burjua həyat tərzini Qərbi Avropa tarixinə aid ideal bir tarixi moment kimi ucaldır. Bu mənada publik sferaya, onun şərtlərinə dair mütləq bir tərif irəli sürərək fərqli tarixi dövrləri, ictimai-siyasi şəraitləri bu kontekstdə dəyərləndirmək reallıqdan uzaq olur. Eyni zamanda, publik sferanı müəyyən bir tarixi-siyasi momentlə çərçivələndirərək fərqli dövrlərdəki mümkünlüyünü eyni şərtlər daxilində dəyərləndirmək, xüsusən də yaşadığımız dövr baxımından publik sferanın məhz tənəzzülündən danışmaq onun mümkünlük ehtimallarını da nəzərdən qaçırır.

Qeyd olunanları diqqətə alaraq, bu tədqiqat publik sferanı bir məqalə sərhədləri daxilində bu gün üçün əhəmiyyətli olan iki əsas nəzəri istiqamət çərçivəsində dəyərləndirməyi hədəfləyir. Bu yanaşmaların postmodern dövrün özünəməxsusluğu, ictimai-siyasi şərtləri və tələbləri daxilində mümkün olub-olmamasını müzakirə edir. Tədqiqatın ilk hissəsində modern siyasətin və bu kontekstdə modern publik sferanın postmodern şərtlər baxımından məhdudiyyətləri ortaya qoyulur və günümüzdə özünü açıq şəkildə büruzə verən siyasi, dini, etnik, kultural müxtəliflik (yaxud fərqlilik) və identiklik tələbləri çərçivəsində publik sferanın dizayn olunma imkanları dəyərləndirilir. Növbəti hissələrdə sözügedən müxtəliflik, identiklik tələbləri baxımından əhatəedici olduğunu iddia edən nəzəri yanaşmalar əsasında publik sferanın postmodern şərtlərdə müzakirə/konsensus, yoxsa mübahisə/çəkişmə məkanı olaraq qurula biləcəyi müzakirə olunur.

1. Modern və postmodern kontekstdə publik sfera problemi

Qərbi Avropada maarifçilik çağına keçid onu əvvəlki mərhələlərdən ayırd edən həqiqət rejimi və yaşanan ictimai-siyasi transformasiyalar baxımından modern dövrün başlanğıcı kimi qəbul olunur. Modern dövrü qısa olaraq üç anlayış – modern ağıl, fərd və ümumbəşərilik əsasında təhlil edə bilərik. Belə ki, modern dövr səlahiyyətləri hüquqi prinsiplərlə məhdudlaşan dövlət, cəmiyyətin atomik parçası kimi hüquq və azadlıqları dövlət tərəfindən qorunan fərd və sərhədləri ümumbəşəriliyi vurğulayan modern ağılın normaları ilə çəkilmiş ictimai-siyasi formasiyaya malikdir.

Pozitivist məzmunlu, obyektiv ağıl anlayışı modern dövrdə ictimai-siyasi həyatın bütün sferalarına öz damğasını vurub. Başqa sözlə, dövrün "modern siyasət fəlsəfəsi, ağılın siyasətin əsas meyarı kimi qəbul edilməsi kimi bir sıra xüsusiyyətlərə malikdir" [5, s.17-31]. Modern ağılın qurduğu müştərək reallıq müstəvisində həyatını yaşayan fərd cəmiyyətin atomik bir parçası olaraq öz mahiyyətində homogenliyi, mücərrədliyi və qeyri-şəxsiliyi daşıyır. Fərdin iqtisadi sferada öz maraqları uğrunda rasional davrandığı, siyasi sferada vətəndaş kimi bərabər hüquq və azadlıqlara malik olduğu qəbul olunur. Başqa sözlə, fərd-

lər siyasi sferada homogen vətəndaşlar, iqtisadi sferada maraq toqquşmasına girən müxtəlifliklər kimi görünür. Cəmiyyət isə bu məzmunda sərhədləri müəyyən norma iqtidarı tərəfindən çəkilən obyekt olaraq, bu norma baxımından təhlükəli hesab olunan aidiyyət və kimliklərin transformasiya edilərək cəmiyyətə qaytarılmasını təmin edən homogenləşdirici institusional strukturları ehtiva edir. İctimai həyatın müxtəlif sahələrinin rasionallaşmasına əsaslanan modern dövr və onun cəmiyyət vizionu, fərqli aidiyyət və kimliklərin privat sahədə tutulmasını məqbul hesab edərək, publik sferanı kultural mahiyyətindən məhrum homogen vətəndaşlıq sferası kimi dizayn edir.

Ümumbəşəri modern (liberal) demokratiya anlayışının maarifçilik fəlsəfəsinin "ağıl çağı"nda miras alınmış bu cəmiyyət vizionu üzərində "bərabərləşdirici ideologiya" funksiyası apardığını həm fəlsəfi, həm də tarixi müstəvilərdə görmək mümkündür [4, s.57-72]. Liberal demokratiyada siyasət, razılaşdırılmış siyasi zəmində institusional formada reallaşır. Siyasətdə iştirak üçün vətəndaşlıq şərti əsas götürülür, vətəndaşlar institusional siyasət səviyyəsində partiya və təzyiq qrupları vasitəsilə təmsil olunur, siyasət əsas etibarilə dövlət mərkəzli fəaliyyət göstərir. İnstitusional sferadan kənarda, yəni siyasi cəmiyyət qarşısında dayanan vətəndaş cəmiyyətinin isə fərdi maraqlar uğrunda mübarizələrin aparıldığı sərbəstlik sferası olduğu qəbul olunur. Bu sferada toqquşan maraqlar dövlət tərəfindən tənzimlənir və koordinasiya edilir.

Liberal demokratiya yanaşması xüsusən də XX əsrin sonlarından etibarən dünyada sürətlə yayılmasına baxmayaraq, bu gün fərqli tələblərə cavab verə bilməməsi baxımından ciddi ictimai tənqidlərə məruz qalır, müxtəlif reaksiyalara və siyasi hərəkatlara yol açır. Başqa sözlə, artıq "siyasi nəzəriyyədə liberalizmi mücərrəd universallığı və fərdiyyətçiliyinə görə tənqid etmək adi hala çevrilib" [15, s.171-186]. Edilən tənqidlər və reaksiyalar əsas etibarilə siyasətin institusional quruluşlu olması, günümüzdə özünü büruzə verən siyasi, kultural, etnik, dini müxtəlifliklərə, tələblərə məhəl qoymaması ilə əlaqədardır. Yaranan hazırkı situasiya "rəqabətyönümlü və fərd əsaslı siyasət modelinin, təmsilçilik sisteminin, milli dövlətin və qloballaşmanın, vətəndaş, siyasi partiyalar, ictimai təşkilatlar və publik sferanın, medianın böhranıdır" [3, s.25]. Müxtəlifliklərin ucaldılması və kultural kriteriyalara (geyim, musiqi, dil, regional ənənələr və s.) meyilli yeni kimliklərin yaradılması istiqamətində müşahidə olunan tendensiyalar [6, s.202] da bu mənada liberal demokratiyanın ödəyə bilmədiyi tələblərdən irəli gələn cavablar və yaşanan böhranın açıq nəticəsidir.

Bu böhranların başında "liberal demokratiyanın söykəndiyi təmsilçiliklə bağlı böhran gəlir. (...) Təmsilçi demokratiya legitimliyi birbaşa demokratiyada olduğu kimi vətəndaşların ictimai qərarların məzmununu deyil, bu qərarları təyin edəcək təmsilçiləri seçərək təmin etməyə çalışması baxımından özü etibarilə problemlidir" [3, s.25]. Belə ki, "liberal ideal dövlət cəmiyyət dixotomiyasına və cəmiyyətin privat sahə ilə identifikasiyasına əsaslanırdı. (...) Privat sahəyə məhkum edilən sinfi, dini, cinsi və kultural diskriminasiyaların cəmiyyət daxilində fərdi səviyyədə yaşadılması və dövlətin, publik hüququn bu müxtəlifliklərə gözardı edərək, ayrı-seçkiliyə yol vermədən birlik (bütövlük) prinsipləri ilə işləyəcəyi güman edilirdi" [4, s.57-72]. Başqa sözlə, bu kimi müxtəlifliklər modern yanaşmanın universallıq prinsipi baxımından təhlükəli göründüyü üçün publik sferaya daşınması nəzərdə tutulmurdu və onların varlığı privat sahə ilə məhdudlaşırdı. Publik sferada bərabər vətəndaş statusuna malik fərdlərlə bağlı yaranan problem isə iradələrinin "seçilmişlərin iradəsi ilə məhdudlaşmasıdır

(və) böhranın başlıca səbəbi siyasətin mütəmadi keçirilən adi seçkilər səviyyəsinə endirilməsidir" [3, s.26]. Bu baxımdan modern konsept və onun əsas hipotezləri siyasətin sosial bazasının genişləndiyi və müxtəlifliklərin öz səslərini eşitdirdikləri postmodern şərtlərdə siyasi, texniki, epistemoloji və digər prizmalardan şübhə altına alınır. "Milli dövlətin üzləşdiyi legitimlik böhranı (...) milli dövlətə xas olan, mövcudluğunu fərqli həyat təcrübələrində tanıdan kultural mənsubiyyətlərə qapalı və "homogen" vətəndaşlıq anlayışına bağlı publik sferanı artıq müxtəlifliklərə həssas və hörmətlə yanaşan istiqamətdə bir açılışa məcbur edir" [7, s.11-14]. Postmodern dövrün yol açdığı bu nəticə, "nə yalnız şəxsi maraqları arxasınca qaçan fərd düşüncəsi ilə liberalizmin, nə də fərqli subyektiv mövqeləri sinif səviyyəsinə endirərək izah etməyə çalışan marksizmin təsəvvür edə biləcəyi tamamilə yeni bir siyasi perspektivdir" [10, s.297-317]. Bu baxımdan postmodern müdaxilələr həm liberal demokratiyanın, həm də marksizmin sərhədlərini sorğulamağa və aradan qaldırmağa, modernizmin (və marksizmin) bütövləşdirici anlayışını aşmağa istiqamətlənir.

Maarifçiliyin ümumbəşəriliyi və rasionallığına qarşı (...) "postmodern" adı altında edilən bu kimi tənqidlər Habermas və bir sıra digər mütəfəkkirlər tərəfindən modern demokratiya anlayışına təhdid kimi qəbul olunur. Sözügedən mütəfəkkirlərə görə, maarifçiliyin demokratiya idealı ilə onun rasionalist və ümumbəşəri perspektivi arasında elə bir əlaqə var ki, bu perspektivi görməzdən gəlmək demokratiya idealını təhlükəyə atmaq deməkdir [18, s.245-256]. Habermasa görə, kimlik məsələsinə olan vurğunun dozası artdıqca özümüzü (...) postmodern ideallar içərisində tapırıq və beləliklə, ya özümüzə həddindən artıq əxlaqi və etik məzmun yükləyirik, ya da "subyektin ölümü"nü qəbul edirik. Hər iki hal bizi demokratikləşmə ilə bağlı institusional mexanizmlərin və proseslərin əhəmiyyətini gözardı etməyə aparır [4, s.57-72]. Halbuki müxtəlifliklərin özünü açıq şəkildə büruzə verdiyi və kollektiv kimliklərin artıq yetərli hesab olunmadığı postmodern şərtlər daxilində əsl təhlükə kollektiv kimliyə edilən vurğularla müxtəlifliklərin publik sferadan təcrid olunması və bu sferanın monotonlaşdırılmasıdır. Postmodern dövrün etirazları bu təzyiqin büründüyü müxtəlif kamuflyajların aradan qaldırılması ilə bağlıdır. Bu çərçivədə liberal demokratiyanın vurğuladığı hər cür fikir və ifadə azadlığı da bugünkü tələblər baxımından yetərli hesab olunmur. Belə ki, müxtəliflik problemini araşdıran En Fillipsə görə, bu gün yalnız fikir və ifadə azadlığı, yəni sadəcə bir "isonomia" kifayət etmir; burada nəzərdə tutulan privat sahəyə məhkum siyasi, kultural, dini, etnik müxtəlifliklərin publik sferada görünməsi və mövcudluğudur. "Fikir siyasəti mövcudluq siyasətindən ayrıca götürüldükdə irqi, etnik, dini və ya gender mənsubiyyətinə görə özlərini demokratik prosesdən kənarlaşdırılmış hiss edən müxtəlif qrupları kifayət qədər təmsil etmir. Siyasi təcrid daha çox siyasi mövcudluğun təminatı çərçivəsində dəyərləndirilir" [19, s.139-151]. Laclau və Muffa görə isə sözügedən müxtəlifliklər üçün "tam mövcudluğun şərti hər bir fərqli subyektin mövqelərinin özünəməxsus və əvəzedilməz bir moment kimi sabitləşdirildiyi qapalı bir məkanın olmasıdır" [6, s.160].

Modernliyin müştərək reallıq müstəvisində cəmləşdirdiyi homogen vətəndaş kimliyinə qarşı postmodernlik müştərək reallıq müstəvisində bir araya gələ bilməyən fərqli subyekt mövqelərindən (subject-position) ibarətdir. Başqa sözlə, modernlik özünü vahidin çoxluğu kimi büruzə verərkən, postmodernlikdə özünü büruzə verən ortaq spesifikalarda cəmləşə bilməyən çoxlu müxtəlifliklərdir. Bu baxımdan modern yanaşmanın ağıl, fərd və universallıq vurğuları ilə postmodern dövrü tədqiq etmək və bu çərçivə-

də bir publik sfera təsəvvür etmək mümkün görünmür. Postmodernlikdə "fərqli subyekt mövqeləri öz müxtəlifliklərinin fərqində olaraq biri-biri ilə qarşılaşır. Bu, heç bir bənzərliklərinin olmadığı mənasına gəlmir; müxtəliflik büsbütün başqalıq demək deyil. Burada nəzərdə tutulan budur: Hər sub yekt mövqeyi fərqli mövqedə dayanan başqalarının baxış bucağına malik deyil, (...) baxış bucaqları biri-birindən kənar olmaqla eyni bir müstəviyə endirilə bilməzlər" [20, s.120-136]. Buna görə də bu tip "plüralizm mövcud çoxpartiyalı liberal-demokratik rejimlərdə publik məkanın kultural müxtəlifliklərin ifadəsinə qapalı olma xüsusiyyətlərinin tənqidi üçün əsas istinad nöqtəsi statusunda çıxış edir" [7, s.11-14].

Müxtəlifliklərin özünü açıq şəkildə büruzə verdiyi postmodern dövrdə ictimai-siyasi müzakirələr təkcə institusional siyasi sferada deyil, həm də bunun xaricində institusional siyasətə alternativ olaraq vətəndaş cəmiyyəti müstəvisində aparılır. İdentiklik siyasətinin qurulduğu müstəvi kimi vətəndaş cəmiyyəti liberal demokratiyada iqtisadi münasibətlərlə təzahür edən məzmununa qarşı postmodern dövrdə məhz siyasi məzmun daşıyır. Başqa sözlə, postmodern dövrdə siyasətin sərhədləri institusional mənada daralarkən, sivil mənada genişlənir. Publik sfera bu perspektivdə fərqli kimliklərin üst kimlik altında əridildiyi dar bir proses sahəsi olmaq yerinə, müxtəlifliklər və fərqli tələblər üzərindən genişlənən mübarizə meydanına çevrilir. Hazırkı dövrdə publik sfera üçün həyati əhəmiyyətli vurğu onun fərqli siyasi mövqelərin üz-üzə gəldiyi bir sfera kimi formullaşdırılmasıdır. Yəni "publik sfera" anlayışı müəyyən bir siyasi aktorun və ya kimliyin digərləri üzərində dominant olmaması halında mümkündür. Lakin bu çərçivədə ortaya çıxan mühüm bir problem öz içərisində çoxluluğu, müxtəlifliyi daşıyan publik sferanın nəzəri əsasını formalaşdıracaq yanaşma axtarışlarıdır. Bu axtarışa keçməmişdən əvvəl qeyd olunmalı digər mühüm bir məqam üzərində durmalıyıq.

Müxtəlifliklər və ya etnik, siyasi, dini, kultural identikliklər hazırkı dövrdə xüsusilə bəzi coğrafiyalarda haqlı olaraq neqativ mənalarda qəbul olunur. Lakin qeyd etmək lazımdır ki, bu tədqiqatda nəzərdə tutulan və "liberal kapitalist demokratiyalarda yeni ictimai-siyasi hərəkat təcrübələrindən doğan identiklik/müxtəliflik siyasəti ilə postsovet ölkələrində, Şimali Afrikada və Orta Şərqdə formalaşan irqi, etnik, dil və dini mənşəli separatizm siyasətləri biri-birindən köklü şəkildə fərqlənir. Birinci növ identiklik/müxtəliflik siyasəti liberal demokratiyaların publik sferalarında sözügedən müxtəlifliklərin müzakirəyə açılmasını və təmsilçiliyini nəzərdə tutarkən, digər növ separatizm siyasətləri siyasi sistemin bütün elementlərinin destrukturizasiyasını hədəfləyir və siyasi baxımdan yeni suveren formasiyalar yaratmağı hədəfləyir" [13, s.3-18]. Başqa sözlə, ikinci növ yanaşmanın neqativ nəticələrinə qarşı birinci növ identiklik/müxtəliflik məsələsi əslində "mövcud sosial struktur daxilində zənginliklərin özünü büruzə verməsi, identikliklərin digərləri ilə sağlam münasibətlər qurması, yeni keyfiyyətlərin və bacarıqların aşkar olunması baxımından ictimai-sosial fürsət kimi dəyərləndirilməlidir" [12, s.73-93].

Hazırkı dövrdə sinfi, dini, gender, kultural və digər aidiyyət formalarını əhatə edən və tələblərini ödəyən publik məkan formulunun nəzəri əsasları kimi Jürgen Habermas, Con Rolz, Çantal Muff kimi fikir adamlarının liberal demokratiyanın tənqidi üzərindən irəli sürdükləri yanaşmalarını müzakirə etmək mümkündür. Bu mütəfəkkirlərin publik sferaya dair yanaşmaları liberal demokratiyaya qarşı identiklik, müxtəliflik tələblərini müdafiə edən cəbhədə birləşsə də, öz aralarında müəyyən fərqlərə sahibdir. En Fillipsin qeyd etdiyi kimi, "müxtəlifliklər publik sferaya daşıyıb ictimai müzakirə yolu

ilə gözdən keçirərkən razılaşma, konsensus çərçivəsində onların "həlli"nə çalışanlarla, sözügedən müxtəlifliklər vəziyyətə görə dəyərləndirən və əsla bunların "həllinə" çalışmayanlar arasındakı fundamental fikir ayrılıqları gün üzünə çıxır" [19, s.139-151]. Bu kontekstdə Habermas və Rolzun mövqeyi aralarındakı müəyyən fərqlərə baxmayaraq ictimai müzakirə və konsensus yanaşması kimi, Muffun mövqeyi isə "həm modern, həm də postmodern kimi hesab oluna bilər" [10, s.297-317] dediyi, müxtəlifliklərin 'həlli'ni nəzərdə tutmayan publik sfera yanaşması isə mübahisə və çəkişmə yanaşması kimi qəbul olunur.

Müzakirə və ya konsensus yanaşmasında Habermas və Rolz publik sferanı ictimai müzakirə və danışıqlara baxmayaraq, nəticə etibarilə məntiqi razılaşma prosesi kimi görür. Bu yanaşmalar iqtidar münasibətləri yerinə ağıl və ya ədalət anlayışlarını irəli sürərək, publik sferanı bu çərçivədə konsensusa aparan müstəvi kimi qəbul edirlər. Buna qarşı Muff öz mübahisə/çəkişmə modelini "iqtidar münasibətlərindən sıyrılmış bir publik sferanın mümkün ola bilməyəcəyi təsbitinə əsaslandırır" [3, s.77].

2. Publik sfera: müzakirə/konsensus məkanı kimi

Müzakirə/konsensus modeli daha əvvəl də qeyd etdiyimiz kimi, iki əsas nəzəri yanaşmanı ehtiva edir. Aralarında müəyyən fərqlərə baxmayaraq, hər iki yanaşma publik sferanı ortaq bir anlayış (ədalət və ağıl) çərçivəsində dizayn edir və konsensusu hədəfləyir. Bunların arasından "Habermas öz yanaşmasını məntiqi fikir və iradə formalaşması prosesindəki roluna görə (...) tamamilə prosedural xarakter daşıyan Rolzun yanaşmasından daha üstün hesab edir" [8, s.96]. Eyni zamanda bu yanaşma "demokratiya və vətəndaş iştirakçılığına dair öz köklərini antik yunan demokratiyasında tapır" [3, s.43]. Müzakirəçi yanaşma publik sferanı müzakirə və danışıq üzərində qurduğuna görə nəzəri çərçivəsi Hanna Arendt tərəfindən çəkilən Qədim Yunanıstana məxsus respublikaçı publik sfera ilə müəyyən ortaq xüsusiyyətlər daşıyır. Muffa görə, "aralarındakı aydın fərqlərə baxmayaraq, Arendt də Habermas kimi publik sferanı konsensus məkanı kimi" [9, s.30] təsəvvür edir. Digər tərəfdən Rolz "diqqəti cəmiyyətin 'ümumi rifah'-la bağlı ictimai razılığa imkan verməyən parçalanmış xarakterinə çəkərək etnik, dini, sinfi, mədəni, siyasi mənalarda aradan qaldırıla bilməyəcək substansional fərqlərə sahib fərdlərin və qrupların bir arada yaşamasına imkan verən, onları həm özləri kimi dəyişməz saxlayan, həm də bir arada yaşadan" [2, s.237-284] tolerantlığın və ictimai ağılın ölçülərini müəyyənləşdirməyə çalışır, bu konsensusun yaradılmasını siyasi fəlsəfənin əsas vəzifələrindən biri hesab edir.

Müzakirəçi (diskursiv) demokratiya nəzəriyyələrinin liberal demokratiyaya qarşı əsas tənqidləri təmsilçi siyasət modelinin vətəndaşları demokratik prosedurlardan kənarlaşdıraraq bir növ böhran vəziyyətinə yol açması ilə bağlıdır [3, s.23]. Bu kontekstdə müzakirəçi yanaşmanın tərəfdarlarına görə, "modernizmin homogenləşdirici hegemonik paradiqmasına əsaslanan təmsilçi liberal model tərəfindən boğulan publik məkan dialoqla yenidən canlanacaq, hər siyasi-mədəni kimliyin öz sərhədlərini tanıyaraq digər kimliklərlə çəkişmə kontekstində əlaqəyə girməsinə və nəticə etibarilə bu müxtəlifliklərin birlikdə yaşamasına imkan yaranacaqdır" [12, s.73-93]. Lakin müzakirəçi publik sfera ilə bağlı bir sıra tədqiqatlar bu nəzəri yanaşmanın həm daşıdığı müəyyən metodik problemləri, həm də təcridedici xarakteri etibarilə postmodern şərtlər üçün qeyri-kafi olduğunu göstərir. Belə ki, "postmodern siyasət fəlsəfəsinə görə, müzakirəçi demokratiya modeli hər nə

qədər rasional siyasi müzakirələrə iştirak imkanı yaratmaqla fərdi azadlıqları və kultural müxtəlifliklər təminat altına alsa da, sözügedən təminat istər rasional davranmayan fərdlər, istərsə də rasional konsensusda iştirak etməyən qruplar üçün keçərli olmayacağına görə, fərqli həyat tərzlərinin diskriminasiyası ilə nəticələnəcəkdir" [5, s.17-32].

Məlum olduğu kimi, Habermasın yanaşmasında publik sfera "yaşam dünyası"nı (world life) dövlət və iqtisadi blokdan formalaşan "sistem"in (system) təzyiqlərinə qarşı qoruyur, dövlət və cəmiyyət arasında bufer zona kimi xarakterizə olunur. Bu sfera vətəndaşların konstitusional təminat altında, ictimai status və imtiyazların, şəxsi maraqların bir kənara qoyularaq, müzakirə və danışıqlarda sərbəst və bərabər şərtlər zəminində iştirakını nəzərdə tutur. Müzakirə və danışıqlar nəticəsində gəlinən qənaətlər ortaq ağılın nəticəsi kimi, emosional ifadələrdən çox rasionallığın inandırıcı gücünə əsaslanır. Bu yanaşma ictimai müzakirə və danışıq prosesləri nəticəsində ağılın inandırıcı gücü və ümumi prinsiplər çərçivəsində fərqli, əks tələbləri aşmağı hədəfləyir. "İctimaiyyətə açıq müzakirələrin formalaşmasını özünəməxsus tarixi hadisə" [16, s.136-143] kimi təqdim edən Habermas bu sferanın dəyişkən iqtisadi-siyasi münasibətlər çərçivəsində məruz qaldığı struktural transformasiyanın tarixi mənzərəsini ortaya qoyur.

Habermasa görə, "fərd yalnız (...) başqaları ilə fikir mübadiləsi aparmaqla ümumi və fərqli cəhətlərini kəşf edə, özünün kim olduğunu və nə olmaq istədiyini aydın şəkildə dərk edə bilər" [17, s.21-30]. Habermasın burada nəzərdə tutduğu fərd "modern öz" (modern self) mənasında olmaqla yanaşı əsas problemi postmodern şərtlərdə "öz legitimliyini özünə uyğun gəlməyən kimlikləri "kənarlaşdırmaqda" tapmasıdır" [4, s.57-72]. Bu mənada qarşıya çıxan əsas məsələlərdən biri Habermasın yanaşmasının postmodern dövrün fərqli mədəniyyətlərə və ənənələrə bağlı, eyni müstəvidə bir araya gələ bilməyən və ümumiləşdirilməsi qeyri-mümkün olan dəyişkən subyekt mövqeləri baxımından necə dizayn olunacağıdır. Bu çərçivədə digər bir sual belədir: "Modern kimliyə indekslənmiş publik sfera nə qədər fərqli demokratik dildə danışa bilər? Fərqli aidiyyətlərin tanınmasını hədəfləyən kimlik siyasətinin siyasi diskursu istiqamətləndirici nöqtəyə yüksəldiyi postmodern şərtlər daxilində kommunikativ rasionallığı vurğulayan "modern öz" əsaslı publik sfera fərqli aidiyyətlərin birlikdə yaşamasını tənzimləyəcək dövlət-cəmiyyət münasibətlərinə nə qədər töhfə verə bilər?" [4, s.57-72].

Digər tərəfdən, Rolz bir çox fərqli dünyagörüşlərinə sahib azad və bərabər şəxslər arasında ədalətli bir konsensusa gəlinəcək orta nöqtənin əldə olunmasındakı çətinliklərə baxmayaraq, ictimai həmrəyliyə imkan yaradacaq məqbul meyarları müəyyənləşdirməyi, daha yuxarı səviyyələrdə birlik və intellektual tarazlığı (üst-üstə düşən mövqelər) formalaşdırmağı hədəfləyir. Başqa sözlə, onun təklif etdiyi "realist utopiya "nə olduğuna" məhəl qoymadan yeni normativ ideallar vasitəsilə "nə olmalıdır"a çatmağın yollarını axtarır" [1, s.56-74]. Rolza görə, "cəmiyyətdə fərqli doktrinalar mövcud ola bilər, lakin həqiqət təkdirsə, biri istisna olmaqla digərlərinin öyrənilmiş yanlışlar olduğu qənaətinə gəlmək olar" [1, s.56-74]. Rolz cəmiyyətdə mövcud olan məqbul doktrinaların "öz içlərindən" bu siyasi ədalət anlayışını dəstəkləyən elementləri tapdıqda effektiv ictimai nizamın mümkün olacağına inanır" [1, s.56-74].

Seyla Benhabibə görə, müzakirə/konsensus modelinin bünövrəsində "ictimai rifah səviyyəsinə təsir edəcək qərarların əxlaqi və siyasi cəhətdən bərabər şəxslər arasında sərbəst və rasional danışıqların nəticəsi kimi alına biləcəyi prinsipi" [14, s.67-93] dayanır. Halbuki

müzakirə/konsensus modelini müxtəliflik/identiklik tələbləri çərçivəsində dəyərləndirən Yong onu zəif olduğu bir sıra məqamlar üzərindən tənqid edir. Yonga görə, bu yanaşma "demokratik müzakirə anlayışlarını dar çərçivəli müxtəlif tənqidi arqumentlərlə məhdudlaşdıraraq, bəzi xalqları və ya qrupları susdurmağa və ya dəyərsiz görməyə yönələn, kultural baxımdan mühakiməedici bir müzakirəni nəzərdə tutur" [20, s.120-136]. Bu yanaşma, yuxarıda qeyd olunduğu kimi, vətəndaşların ictimai müzakirələrə şəxsi status və imtiyazlarını, fərdi maraqlarını kənara qoyaraq qoşulmasını nəzərdə tutur. Halbuki bu hipotez bir sıra məqamları nəzərdən qaçırır: "İnsanları bərabər müzakirə tərəfləri olmaqdan məhrum edən güc sadəcə iqtisadi asılılıqdan və ya siyasi təzyiqlərdən deyil, eyni zamanda insanın danışmağa haqqı olub-olmaması kimi daxilən keçirdiyi duyğulardan və bəzi insanların müzakirə üslubunun dəyərsiz görülüb, bəzilərinin müzakirə mədəniyyətinin yüksək hesab olunmasından irəli gəlir. Müzakiraçi ideal, iqtisadi və siyasi gücün təsirini aradan qaldırdıqda, insanların danışmaq və anlamaq tərzlərinin eyni olacağını ehtimal edir, lakin bu, insanların kultural müxtəlifliklərinin və fərqli ictimai mövqelərinin də aradan qaldırılması halında mümkün olacaqdır" [20, s.120-136]. Beləliklə, müzakirə/konsensus yanaşmasının kultural müxtəliflik və fərqli ictimai mövqelər baxımından bərabərlik və azadlığı təmin etməsi mümkün görünmür. Digər tərəfdən, publik sferada "əsasən daha yaxşı təhsil almış, yuxarı sinfə mənsub insanlar özlərini müzakirə etmək üçün daha haqlı və hazırlıqlı hesab etməkdə, digər qrup mənsubları arqument irəli sürmək baxımından geri çəkilməkdədir" [20, s.120-136]. Əsasən də "qadınlar bu kimi situasiyalarda çıxış etdikdə, arqument irəli sürmək və müzakirəni başlatmaq yerinə daha çox məlumat verən və ya sual soruşan tərəf olmağa meyilli olurlar" [20, s.120-136]. Bu baxımdan müzakiraçi publik sfera ictimai status və avantajları aşmaqdan çox, bir sıra bərabərsizlikərə yol açır.

Müzakirə/konsensus modeli müzakirə və diskussiyanın "ideal müzakirə şəraitində", emosiyalardan uzaq, müəyyən norma və rasional prinsiplər çərçivəsində reallaşdırıldığını hesab edir. Bu yanaşma ağıl və emosiyalar arasında ziddiyyət olduğunu hesab etdiyi üçün ağılın determinantlığını əsas tutur, ortaya atılan "ən yaxşı arqumentin" müzakirənin nəticəsini müəyyən edən əsas faktor olduğunu irəli sürür. Yonga görə, ağılın gücünə olan vurğu səbəbindən "tərəflər əsasən konsensusa varmaq yerinə, müzakirəni qazanan tərəf olmağa can atır. "Daha yaxşı arqumentin" gücü səbəbindən razılaşmaq əks arqumenti irəli sürməmək, yəni məğlubiyyəti qəbul etmək deməkdir" [20, s.120-136]. Bu halda "hər növ müxalif fikir avtomatik olaraq irrasionallıq və mədəni-əxlaqi gerilik kimi, nəhayət, qeyri-məqbul" [11, s.99] hesab edilir. Buna görə də müzakirə/konsensus modeli təkcə müxtəlifliklər təcrid etdiyinə görə deyil, eyni zamanda müdafiə etdiyi konsensus metodlarına görə də problemlidir.

Muffa görə, "əgər real seçim şansı yoxdursa və müzakirənin iştirakçıları seçimlərini biri-birindən tamamilə fərqli variantlar arasında edə bilmirlərsə, bu yanaşmanın siyasi sferada nə mənası var?" [11, s.44]. Benhabib qeyd olunan sualı bu cür cavablandırır: "Kənarlaşdırılan şəxs, ya da qrup təqdim olunan normalardan mənfi təsirləndiyini əsaslandırılmış şəkildə göstərə bildiyi müddətcə, burada müzakirənin gündəmini və iştirakçıların kimliyini məhdudlaşdıran qaydalardan söhbət gedə bilməz" [14, s.67-93]. Halbuki kənarlaşdırılanların irəli sürəcəkləri əsaslandırmalar tələb olunan normalara uyğunluğu və rasionallığı baxımından onu dilə gətirənlərin peşəkarlıq dərəcəsinə və məlumatlılıq səviyyəsinə, ictimai statusuna, kultural mənsubiyyətinə görə dəyişir. Bu

mənada müzakirə/konsensus yanaşması kultural fərqlərdən, baxış bucaqlarında müxtəlifliklərdən yola çıxsa da, onları ortaq müstəvidə və ya ümumi fayda çərçivəsində aşmağı hədəfləyir. Kerol Guldun qeyd etdiyi kimi, bu yanaşmada publik sferanın özü olmaqdan çox, "müxtəlifliklər aşılması zəruri olan bir maneədir. Onlarla qarşılıqlı tanışlığın məqsədi müxtəlifliyi artırmaq və onları əlaqələndirmək deyil, razılığa gəlməkdir. Müxtəliflik çoxtərəfli bir müzakirə üçün əsas şərt ola bilər, lakin diskursun normativ prinsipi monoloqdur" [15, s.171-186].

Muffa görə, istər Habermasçı, istərsə də Rolzçu mənada olsun, müzakirə/konsensus yanaşmaları çoxluluq fenomenindən yola çıxsa da, sonra "bu çoxluluqların öhdəsindən gəlmək üçün metodlar – əsas məqsədi bu müxtəlifliklər əhəmiyyətsiz hala gətirmək və privat sahəyə məhkum etmək olan üsullar – tapmağa çalışır" [18, s.245-256]. Bunu Habermasın müxtəlifliklərlə bağlı mövqeyindən də görmək mümkündür: "Hər hansı dini, ya da kultural və sosio-etik plüralizm şərtləri daxilində siyasi hədəflər çox vaxt geniş mənada toplumun şəxsiyyəti və subyektlər arasında paylaşılan ortaq həyat tərzi üçün heç bir mənada konstruktiv olmayan maraqlara və dəyərlərə yönəlmələri ilə seçilir. Bir-biri ilə ziddiyyət təşkil edən və gələcəkdə konsensus ümidi verməyən siyasi maraqlar və dəyərlər üçün (...) tarazlığa ehtiyac var" [17, s.21-30]. Bitərəf olduğunu irəli sürən və ümumbəşəri iddialarla çıxış edən bu model üçün uzlaşmayan kultural çeşidlilik aşılmalı olan bir maneə kimi görüldüyü və bunların bir kvotada əridilməsi hədəfləndiyi üçün müzakirə/konsensus yanaşması postmodern şərtlərdə publik sferanın nəzəri çərçivəsi rolunda çıxış etmək üçün kifayət etmir.

Müzakirə/konsensus yanaşmasını çoxluluğu, müxtəlifliyi təmsil etmədiyinə görə tənqid edən Muffa görə, bu yanaşmanı irəli sürənlər "plüralist olduqlarını iddia etsələr də, plüralizmlərinin legitimliyi yalnız privat sahədə tanınır və bu plüralizmin publik sferada heç bir konstruktiv rolu yoxdur" [9, s.74]. Demokratiya nəzəriyyəçilərinin və siyasətçilərinin vəzifəsi "bitərəf" metodlara müraciət edərək bütün fayda və dəyər münaqişələrini uzlaşdıracağı düşünülən qurumlar formalaşdırmaq yerinə, publik sferanı fərqli hegemonik siyasi qüvvələrlə üzləşməyə imkan verəcək canlı "aqonistik" mübarizəyə açmaq olmalıdır. Bu, demokratiyanın səmərəli fəaliyyəti üçün əvəzolunmaz şərtdir [11, s.9].

3. Publik sfera: mübahisə/çəkişmə məkanı kimi

Postmodern dövrə keçidlə birlikdə "normativ epistemologiyalar çağı kimi universal diskurslar çağı da sona çatdı" [6, s.10]. Modern dövrün liberal yanaşmasının universallıq və bitərəflik prinsipləri, bu prinsiplər çərçivəsində qurulan dövlət-cəmiyyət, publik-privat sfera məhdudiyyətləri postmodern dövrdə tənqid olunur. Əvvəl də qeyd olunduğu kimi, liberal demokratiya yanaşması cəmiyyət üzvlərinin fərqli aidiyyətlərini ümumbəşərilik, bərabərlik, azadlıq prinsipləri baxımından təhlükəli hesab edərək privat sahəyə məhkum edir; publik sferanın məzmununu boşaldaraq onu homogen vətəndaşlıq çərçivəsində formullaşdırır. Bu məkanı sinfi, dini, gender, kultural və digər müxtəlifliklərdən təmizləyərək "siyasətsiz siyasət" vəziyyətinə yol açır. Buradan irəli gələrək, liberal demokratiya və onun təməlləri üzərində qurulmuş müzakirə/konsensus yanaşmasına qarşı Muff "Kantdan ilhamlanan modelin qarşısına nəinki konsensusu və şəffaflığı hədəfləyən, eləcə də çoxsəsli demokratik müzakirə təşəbbüsünə şübhə ilə yanaşan bir demokratiya anlayışı qoymalıyıq" [8, s.44] deyir. Məlum olduğu kimi, Habermas öz yanaşmasını ortaya qoyarkən

Kantın "ağılın publik istifadəsi" *(public use of reason)* anlayışını əsas istinad nöqtəsi kimi götürür. Bu kontekstdə müzakirəçi yanaşmanın Kantçı modellə bir mənada eyni müstəviyə oturduğunu irəli sürən Muff hər iki modelə qarşı demokratiyanı dərinləşdirmə təşəbbüsü kimi radikal demokratiya və bunun zəmini olaraq aqonistik, yaxud mübahisə/çəkişmə yanaşmasını müdafiə edir. Radikal demokratiya perspektivində "liberal demokratiyanın böhranı qarşısında vətəndaş aktivliyini artırmağın və qəraralma proseslərini demokratikləşdirmənin başlıca yolu kimi "çoxsəslilik" anlayışı ətrafında formalaşdırdığı yeni bir publik sfera anlayışını müdafiə edir" [3, s.38].

Müzakirə/konsensus yanaşması publik sferada müxtəlifliklər, fərqli tələbləri təmsil etmədiyi və onları ortaq maraqlar çərçivəsində uzlaşdıraraq neytrallaşdırmağa çalışdığı üçün hazırkı dövrdə tələbləri ödənməyən müxtəlifliklərin təhlükəli bir mövqeyə gəlməsinə yol açır. Muffa görə, "radikal və plüralist demokratiya, məcburi konsensusa aparmayacaq rasional müzakirə ehtimalını rədd edir" [8, s.43]. Bu kontekstdə o, publik sferaya dair öz yanaşmasını demokratiyanın əsas dinamikası kimi gördüyü plüralizm və fərqli tələblərin qarşılanması əsasında formullaşdırır. Belə ki, Muffa görə, radikal və plüralist demokratiyanın təmin olunacağı təqdirdə "privat sahəyə məhkum olunmuş kimliklərin publik sferada özünəməxsus müxtəlifliklər ilə görünmələri üçün bazis qurula biləcək" [12, s.73-93]. Burada nəzərdə tutulan müxtəlifliklərin özlərini publik sferada məhz göstərməsi deyil, fərqli tələblərə fürsət bərabərliyinin yaradılmasıdır.

Muffa görə, dəstəklədiyi aqonistik modeldə məqsəd müzakirəçi demokratiya yanaşmasında olduğu kimi "fərqli ambisiyaları aradan qaldırmaq yaxud publik sferada rasional bir konsensus yaratmaq üçün onları privat sahəyə təhkim etmək deyil, bu maraqları demokratik strukturlara doğru hərəkətə keçirmək" [9, s.29], publik sferaya müxtəlif kommunikasiya vasitələri əsasında imkan qazandırmaqdır. Muff öz aqonistik yanaşmasının əsasını təşkil edən problemi bu cür dilə gətirir: "Mənə görə əsas problem heç kəsi kənarlaşdırmadan konsensusa necə gələcəyimiz olmamalı - bu, "onları" olmayan bir "biz" qurmaq demək olacaqdır. (…) Əsas problem bu olmalıdır: Siyasətin qurucu elementi olan biz/onlar dixotomiyasını eyni zamanda plüralizmin də tanınmasına imkan verəcək şəkildə necə qura bilərik?" [9, s.27]. Başqa sözlə, Muff öz yanaşmasında biz/onlar dixotomiyasını müəyyən bir ictimai müzakirə və konsensus müstəvisində aşmağı deyil, öz kimliyimizin ancaq başqasının varlığı halında var olacağı həqiqətini nəzərə alaraq, bu ziddiyyət üzərindən publik sferanı dizayn etməyi hədəfləyir.

Muffun aqonistik publik sfera yanaşmasını anlamaq üçün əvvəlcə onun siyasətə və "siyasi olan"a - antaqonizmaya və aqonizmaya baxış bucağını nəzərdən keçirmək lazımdır. Muff biz/onlar dixotomiyası əsasında öz yanaşmasını ortaya qoyarkən Karl Smittin fərqli siyasi kimliklərə dair dost/düşmən dixotomiyasına əsaslanır. "Bu, kollektiv kimliklərdə bir "biz"in yaradılmasının ancaq "onlar"ın yaradılması ilə mümkün olduğu deməkdir" [9, s.65]. Kollektiv kimlik formaları arasında biz/onlar, yaxud dost/düşmən əlaqəsi çərçivəsində çəkilən sərhədlər siyasi olanın ontoloji ölçüsünü formalaşdıran antaqonizmləri yaradır. Yəni "siyasi olan" (political) öz daxilində müəyyən antaqonizmlər daşıyır, bunlar fərqli tarixi-ictimai müstəvilərdə siyasi sistemlər kimi institusionallaşır. Burada "siyasi olan fərqli ictimai münasibətlərdə fərqli formalarda qarşımıza çıxa bilən antaqonizm ölçüsü ikən, "siyasət" "siyasi" ölçünün təsiri altında olduğuna görə həmişə ziddiyyətli ola biləcək şərtlərdə müəyyən bir nizam qurmağı və insanların birlikdə yaşamasını təşkilatlandırmağı hədəfləyən praktika, diskurs

və institutlar bütünü mənasına gəlir" [9, s.23]. Muff biz/onlar ziddiyyətini Smittin dost/düşmən münasibətləri çərçivəsində formallaşdırsa da, "demokratik bir siyasi cəmiyyət içərisində plüralizmə yer olmadığı barədə olduqca radikal bir mövqe sərgiləyən Smittdən uzaqlaşmalı olduğumuzu" [11, s.22] bildirir. Plüralizmə əsaslanan radikal demokratiya və publik sfera yanaşmasını isə 'antaqonizm' (düşmənlər arasında mübarizə) zəminində deyil, "aqonizm" (rəqiblər arasında mübarizə) müstəvisində qurur. Burada rəqiblər, yaxud müxaliflər kimi rol oynayan identikliklər "ümumi simvolik meydanı bölüşdükləri üçün dost, eyni zamanda bu ümumi meydanı fərqli formalarda dizayn etmək istədikləri üçün düşmən şəxslər kimi ziddiyyətli bir formada izah olunur" [8, s.25]. Yəni müxtəlifliklərin birlikdə yaşamasına imkan yaradan düşünmə şəkli aqonizm, bu müstəvi üzərində qurulmuş publik sfera isə aqonistik adlandırılır.

Mübahisə modeli özünəməxsus publik sfera düşüncəsindən və müxtəlifliklərə əsaslanan plüralizmdən irəli gələrək, fərqli kimlikləri eyniləşdirən və tək tipləşdirən təmsilçi liberal demokratiyanın ortaya qoyduğu plüralizm anlayışını rədd edir və hər növ mədəni, sinfi və ideoloji tələblərin publik sferada homogenləşdirilmədən təmsilini nəzərdə tutur [12, s.73-93]. Belə ki Muffa görə, "müzakirəçi demokratiyanın çatışmazlıqlarından biri bu demokratik siyasət modelinin iqtidar münasibətlərinin kənarlaşdırıldığı və rasional konsensusun reallaşdırıldığı bir publik sferanın mövcudluğunu hesab edərək, dəyərlər müxtəlifliyinin zəruri etdiyi antaqonizm tərəfini və onun aradan qaldırılmaz xarakterini qəbul etməməsidir" [8, s.103]. Halbuki "demokratik cəmiyyət ictimai münasibətlərdə qüsursuz bir harmoniya arzusunu real(laşdırmaq yerinə) (...) məhdud ictimai aktorlara özündə bütün cəmiyyəti təmsil etmək haqqını verməməklə" [18, s.245-256] reallaşa bilər və bu halda iqtidar münasibətləri kənarlaşdırılmaq yerinə, demokratik dəyərlərlə uzlaşmış bir forma qazanar. Müzakirəçi yanaşmanın tərəfdarları 'siyasi olan'a xas olan antaqonistik ölçünü müəyyən bir razılaşma, yaxud konsensusa aparmayacağı ehtimalı baxımından demokratiyaya təhlükə kimi görsələr də, "fərqinə varmadıqları şey aqonistik cəbhələşmənin nəinki demokratiyanı təhlükəyə saldığı, əksinə, demokratiyanın varlığı üçün əsas şərt olmasıdır" [11, s.39]. Başqa sözlə, müzakirə/konsensus yanaşmasını müdafiə edənlər fərdləri modern kontekstdə öz maraqları uğrunda mübarizə aparan şəxslər kimi qəbul edərək və maraqlar toqquşmasını müzakirə/konsensus yolu ilə tarazlaşdırmağa çalışaraq əslində "siyasi olan"ın əsas mahiyyətini nəzərdən qaçırırlar. Bu mənada aqonistik modelin üstünlüyü diskursiv modelin hazırkı dövrdə fərqli tələbləri ödəməməsi ilə yanaşı, siyasi olana xas antaqonizmi də görməzdən gəlməsidir. Diskursiv modelin tərəfdarları "bir müzakirəni sonlandırmağın daim digər fürsətləri kənarlaşdıran və ümumi qayda və ya prinsiplərin diktəsinə istinad edərək məsuliyyət götürməyin əsla inkar edilə bilməyəcək bir qərarın nəticəsi olduğunu anlamırlar" [8, s.109].

Muffa görə, aqonistik publik sfera modelini digərlərindən ayırd edən əsas məqam "publik məkanla bağlı fərqli konsepsiyalarının təməlində dayanan ümumi düşüncəyə qarşı çıxmasıdır. (...) Aqonistik modeldə publik sfera əks fikirlərin, zidd mövqelərin həllinə nail olmadan toqquşduğu sahədir. Bu cür bir anlayışın Jürgen Habermasın rasional konsensusu hədəfləyən bir müzakirənin aparıldığı "publik sferasından" nə dərəcə fərqli olduğu aşkardır. Habermas ictimai həyatın məhdudiyyətlərini nəzərə alaraq bu cür bir konsensusa praktikada varılması ehtimalının olduqca zəif olduğunu artıq qəbul edir və "ideal müzakirə vəziyyətini" "tənzimləyici bir ideal" olaraq yenidən gözdən keçirir" [9, s.112].

Aqonistik modeldə publik sfera "tərəflərin qəbul etdiyi müəyyən demokratik üsullar çərçivəsində gedən real münaqişə" [9, s.29] məkanı kimi görülür. Bu məkanı mümkün edən demokratik üsullar tam aydın olmasa da, Muffun mövqeyindən irəli gələrək tərəflərin dilə gətirdiyi tələblərin məqbulluğu və kimliklərin ekvivalentliyi prinsiplərini daşıdığı güman edilir. Muff bu barədə aşağıdakıları qeyd edir: "Demokratik bir cəmiyyət öz fundamental institutlarını sorğu-sual edənləri məqbul müxaliflər kimi qəbul etməz. Aqonistik model də bütün müxtəlifliklər əhatə etdiyini və istisnaları kənarlaşdırdığını iddia etmir. Lakin burada kənarlaşdırmalar əxlaqi deyil, siyasi əsasda nəzərdə tutulur. Bəzi tələblər "şər/zərər" olduqlarına görə deyil, demokratik siyasi birliyin qurucu elementləri olan institutlara meydan oxuduqları üçün kənarlaşdırılırlar" [11, s.139]. Digər tərəfdən, publik sferadakı müxtəlifliklər arasında bir ekvivalentliyin yaradılması, kimliklərin eyni hörmət və münasibətlə qarşılanması vacibdir. Laclau və Muffa görə, müxtəliflik siyasi sferanın genişlənməsinə və mürəkkəbləşməsinə hədəflənərkən, "ekvivalentlik məntiqi bu sferanın bəsitləşdirilməsinin məntiqidir" [6, s.164].

Son olaraq, Muffun tərəfdarı olduğu aqonistik publik sfera yanaşması "həm şəxsi həyatın demokratikləşdirilməsində, həm də fərdin dünya ilə münasibətinə aid bir prosesin, siyasətdən kənar sferanın da siyasiləşdirilməsində təsirli olacaq sərbəstlik və könüllülüyə bağlı icmaların fəaliyyətdə olduğu bir publik sferanı" [3, s.39] mümkün edir. Bu yanaşma çərçivəsində müxtəliflik və "plüralizm sadəcə bir fenomen, məcbur qaldığımız bir reallıq deyil, bir dəyər prinsipidir" [18, s.245-256]. Hazırkı siyasətin vəzifəsi isə dəyər daşıyan müxtəlifliklər qorumaqdır.

NƏTİCƏ

Modern çağdan müxtəlif sferalarda ayrılmaqla, postmodern özünəməxsus bir vəziyyət kimi qəbul olunur. Modern dövrə dair siyasi-ictimai münasibətlər postmodern çərçivədə yetərsiz qalır, sorğulanır və yenidən qurulur. Modern dövrə məxsus anlayışların postmodern şərtlər daxilində tənəzzülündən bəhs etməyin adi bir hala çevrilməsinə baxmayaraq, burada modern publik sferanın postmodern şərtlər daxilində yenidən qurulma imkanlarının, nəzəri əsaslarının bir dəyərləndirilməsi aparıldı. Başqa sözlə, modern publik sferanın postmodern şərtlər daxilindəki qeyri-mümkünlüyü müzakirə olunmaqla, yeni quruluş imkanları nəzərdən keçirildi.

Göründüyü kimi, publik sferanı modern kontekstdə bir razılaşma, konsensus meydanı kimi görən yanaşmalar postmodern dövrün tələblərini ödəmək baxımından zəifdir. Modern siyasətin və publik sferanın məhdudiyyətlərini aşmağa çalışan bu yanaşmalar yenə də modern prinsiplər çərçivəsində hərəkət edirlər. Publik sferanı identiklik, müxtəliflik tələbləri çərçivəsində mübarizə məkanı kimi qəbul edən yanaşmalar isə publik sferanın sərhədlərini genişləndirən yeni ictimai hərəkatlar kontekstində öz keçərliliyini göstərir. Lakin bunlar da razılaşma və konsensusu hədəfləyən yanaşmalara əks-arqumentlər çərçivəsində qurulduğu üçün bütöv bir baxışa malik olmaqdan məhrumdurlar. Publik sferanı münaqişə-mübarizə məkanı kimi formullaşdıran yanaşmalar əsas problemli tərəflər kimi müxtəliflik və identiklik tələblərinin sonsuzluğu ilə demokratiya arasında necə bir balans qurulacağını tam aydınlaşdıra bilmirlər.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

Türk dilində:

1. Borovalı M. Çeşitlilik koşullarında birliktelik: siyasal liberalizm ve kamusal akıl. // Köker L., Aydınlanma ve hukuk, İstanbul: Obaam, 2008, s. 56-74.
2. Çelebi A. Kamusal alan ve sivil toplum: siyasal bir değerlendirme. // Özbek M., Kamusal alan, İstanbul: Hill, 2004, s. 237-284.
3. Doğanay Ü. Demokratik Usuller Üzerine Yeniden Düşünmek. Ankara: İmge Kitabevi, 2003.
4. Keyman F. Kamusal alan ve cumhuriyetçi liberalizm: Türkiye'de demokrasi sorunu. // Doğu Batı dergisi, №5, 1998, s. 57-72.
5. Küçükalp D. Postmodern siyaset felsefesi. // Kaygı dergisi, №28, Bursa, 2017, s. 17-32.
6. Laclau E., Mouffe C. Hegemonya ve Sosyalist Strateji (Terc: Kardam A., Şahiner D.) İstanbul: Birikim, 1992.
7. Levent K. Charles Taylor: Kimlik/farklılık sorununa sahici demokratik çözüm arayışı. // Gutmann A. Çokkültürcülük, İstanbul: Yapı Kredi, 1996, s. 11-14.
8. Mouffe C. Demokratik paradoks. (Terc: Aşkın A.C.) Ankara: Epos, 2000.
9. Mouffe C. Dünyayı politik düşünmek. (Terc: Bozluolcay M.) İstanbul: İletişim, 2015.
10. Mouffe C. Radikal demokrasi: modern mi, postmodern mi? // Küçük M., Modernite versus postmodernite, Ankara: Vadi, 2003, s. 297-317.
11. Mouffe C. Siyasal üzerine. (Terc: Ratip M.) İstanbul: İletişim, 2015.
12. Özdemir G. Farklılıkların kesiştiği coğrafyalar için bir öneri: radikal demokrasi. // Yönetim ve Ekonomi dergisi, №1 (20), 2013, s. 73-93.

İngilis dilində:

13. Benhabib S. The democratic moment and the problem of difference. // Benhabib S., Democracy and difference, Princeton University Press, 1996, s. 3-18.
14. Benhabib S. Toward a deliberative model of democratic legitimacy. // Benhabib S., Democracy and difference, Princeton University Press, 1996, s. 67-93.
15. Gould Carol C. Diversity and democracy: representing differences. // Benhabib S., Democracy and difference, Princeton University Press, 1996, s. 171-186.
16. Habermas J. The public sphere: an encyclopedia article. // Bronner S. E., Kellner D. M., Critical Theory and Society: A Reader, UK: Routledge, 1989, s. 136-143.
17. Habermas J. Three normative models of democracy. // Benhabib S., Democracy and difference, Princeton University Press, 1996, s. 21-30.
18. Mouffe C. Democracy, power, and the "political". // Benhabib S., Democracy and difference, Princeton University Press, 1996, s. 245-256.
19. Phillips A. Dealing with difference: a politics of ideas, or a politics of presence? // Benhabib S., Democracy and difference, Princeton University Press, 1996, s. 139-151.
20. Young M.I. Communication and the other: beyond deliberative democracy. // Benhabib S., Democracy and difference, Princeton University Press, 1996, s. 120-136.

Elnur Chiragov

Theoretical assessment of the public sphere in postmodernism

Abstract

The modern concept and its main hypotheses are deliberated from political, technical, epistemological and other perspectives in postmodern conditions in which the social base of politics is expanding and its diversity is making its voices heard. Individual conveys homogeneity, abstraction and impersonality, as an atomic part of society in the common reality of the modern mind. However, postmodernism implies a situation consisting of different subject positions that cannot come together on the plane of common reality. In postmodern conditions where diversities reveal themselves, politics is conducted not only at the institutional level, but also at the civil society level as an alternative to institutional level. In other words, while the boundaries of politics become narrow in the institutional sense in postmodern period, they expand in the civilized sense. The opportunities of reconstruction of the public sphere, which belongs to the modern age, within these conditions, i.e. in the perspective of diversity / identity requirements are evaluated in the article in two main theoretical directions that are important for today. It is discussed whether these theoretical approaches are possible in terms of the specificity, socio-political conditions and requirements of postmodern age. The requirements of diversity or ethnic, political, religious, cultural identity in the article is distinguished radically from the tendency of separatism, which are seen in some regions, and intend the new socio-political movements emerging in developed liberal democracies.

Keywords: public sphere, politics, diversity/identity, deliberative democracy, radical democracy, modernism, postmodernism

Эльнур Чирагов

Теоретическая оценка публичной сферы в постмодернизме

Резюме

Современная концепция и ее основные гипотезы обсуждаются с политической, технической, эпистемологической и других точек зрения в условиях постмодерна, в которых социальная база политики расширяется, а ее разнообразие делает ее голоса услышанными. Индивид представляет собой однородность, абстракцию и безличность как атомарную часть общества в общей реальности современного разума. Однако постмодернизм подразумевает ситуацию, состоящую из различных субъектных позиций, которые не могут сойтись в плоскости общей реальности. В условиях постмодерна, когда проявляется разнообразие, политика проводится не только на институциональном уровне, но и на уровне гражданского общества как альтернатива институциональному уровню. Другими словами, в то время как границы политики сужаются в институциональном смысле в период постмодерна, они расширяются в цивилизованном смысле. Возможности реконструкции публичной сферы, относящейся к современности, в этих условиях, т.е. с точки зрения требований разнообразия / идентичности, оцениваются в статье в двух основных теоретических направлениях, актуальных на сегодняшний день. Обсуждается, возможны ли эти теоретические подходы с точки зрения специфики, социально-политических условий и требований эпохи постмодерна. Требования разнообразия или этнической, политической, религиозной, культурной идентичности в статье радикально отличаются от тенденций сепаратизма, которые наблюдаются в некоторых регионах и предназначены для новых социально-политических движений, возникающих в развитых либеральных демократиях.

Ключевые слова: публичная сфера, политика, разнообразие/идентичность, совещательная демократия, радикальная демократия, модернизм, постмодернизм

TEXNOKRATİYA VƏ ONUN SOSİAL XARAKTERİSTİKALARI

Sübhan PADAROV
Sosial Tədqiqatlar Mərkəzinin aparıcı məsləhətçisi
Bakı, Azərbaycan

E-mail: subhanpadarov@gmail.com

Xülasə. Bu gün yaşadığımız dünya heç bir zaman olmadığı qədər texnoloji tərəqqinin hökmranlığı altındadır. Planetimiz üzərində həyatı yenidən bir formaya salan texnoloji ovsunun təzahürlərini hər bir sahədə görmək mümkündür. Biotexnologiya, nanotexnologiya, robotlaşma və informasiya cəmiyyətinin inkişafı insanın daxil dünyasında dərin transmutasiyaya səbəb olub. Texno-elm epoxal keçidi reallaşdırır. Biz informasiya əsri, datalaşma və biologiyanın səbəb olduğu ikinci böyük mutasiyanı yaşayırıq. Belə bir inqilab maşın və insan arasında qarşılıqlı interaksiya ilə birlikdə canlı varlıqların süni transformasiyasını və maşınların insanlaşdırılmasını zəruri edir. Bu gün texnologiya və texnoloji tətbiqata tabe edilən elm ölümcül bir təhdid, spiritual eroziya alətinə çevrilib. Sağlam cəmiyyətdə texno-elmin doğurduğu məntiqi nəticələr sadəcə elm adamlarının deyil, spiritual və siyasi hakimiyyətin nəzarətinə tabe edilməlidir. Antitexnokratik aristokratiya bu böhranın həllində yeganə vasitədir.

Açar sözlər: texnoloji muxtariyyət, obyektlər sistemi, telematika, süni maşın məntiqi, konvergensiya, texnopoliya, pedaqojiləşmə

GİRİŞ

Hələ keçən əsrin birinci yarısında Ernst Yünger qeyd edirdi ki, texnologiya total inqilabın ən güclü və ən az müzakirə olunan alətidir [9, s.131]. Həqiqətən də, bəşər tarixinin son iki yüz ilinə diqqət etsək hüdudsuz və nəzarətsiz texno-tərqqinin insan həyatını necə radikal bir şəkildə dəyişərək total inqilabın əsas hərəkətvericisinə çevirdiyini müşahidə edə bilərik. Əgər determinizm "soyuq" və "riyazi" səslənirsə, "texnoloji determinizm" daha təhdidkar səslənir. Modernist cəmiyyətlərdə insanların əksəriyyəti sürətlə tərəqqi edən texnologiyanın öz həyatlarını proqressiv şəkildə dəyişdirdiyinə inanırlar. Modernizm mədəniyyətində dəyişikliyin həlledici aktoru kimi texno-iqtidar anlayışı xüsusi mövqeyə sahibdir. Kompüterlər başda olmaqla, modern texnologiyaların meydana çıxması insanın gündəlik həyatının teksturasını fundamental şəkildə dəyişdirir.

Texnoloji inkişaf öz məntiqi ilə öz yolunu izləyən bir fenomen olaraq görülməlidir. Bu inkişafın sosial nəticələri kumulyativ, qarşılıqlı olaraq bir-birini gücləndiricidir və geri çevrilməsi qeyri-mümkündür. Kompüterləşmə və kompüterdən istifadə ilə institutlar daha çox öz əməliyyatlarını onun yaratdığı imkanlar və qadağalarla uzlaşdırmalı oldu. Bu prosesdə bir bütöv olaraq cəmiyyət getdikcə bir-birilə əlaqəli texnoloji sistemlərdən asılı hala gəlir. Texnokratik sistemin funksionallığı bütöv sosial düzənin reproduksiyası üçün ön şərtdir.

D.Burstin "Texnologiya Respublikası" adlı kitabında yazır ki, texnologiya öz impetyusunu yaradan çevrilə bilməyən bir prosesdir. Biz artıq qeyri-könüllü təəhhüdlər dünyasında yaşayırıq. Bu o deməkdir ki, bəşər övladı texnoloji alətlər arasında seçim etmək gücündə deyil və getdikcə Lok və Hobbsun "təbii hal"da təxəyyül etdikləri yaradılışa çevrilir: azad, amma onu müstəqil və suveren hiss etməsinə icazə verməyən texnologiyaların subyekti [2, s.5].

Texnoloji tərəqqi sistemin funksionallığı üçün insanın zəruri tələbatlarının fövqündə ehtiyaclar doğurur. Texnoloji böyümə hər yeni texnologiyanı bir ehtiyacına cavab olaraq görən insanın *a priori* razılığına əsaslanır. Bu kontekstdə modern insanın texnologiyanı tənqid və mühakimə etmək üçün heç bir əxlaqi, intellektual və spiritual istinad nöqtəsinə sahib olmadığını müşahidə edirik.

Həm texnologiyanın uğurlarını mədh etməkdə, həm də onun doğurduğu və insanın essensiyasını dəyişdirən problemlər haqqında narahatlıqla düşünməliyik. Bizim texnosivilizasiyamız lap əvvəldən azadlıq fenomeninin yalnış dərki üzərində qurulub və buna görə də modern insan öz azadlıq fantaziyasının boyunduruğuna tabe olub.

1. Determinativ və muxtar reallıq olaraq texnologiya

Texnoloji tərəqqi bizi dəyişdirməklə yanaşı, insan mədəniyyətinin dərin bazisinə hücum edərək əsrlərdən süzülüb gələn həyat tərzlərini transformasiyaya uğradır. Yaşadığımız əsrdə qarşılaşdığımız yeni reallıq ondan ibarətdir ki, artıq dünyanı sabit şeylər və obyektlərdən formalaşmış bir şəkildə təsvir edə bilmərik. Bütün dünya şəbəkələr formasında yenidən təşkilatlanır. Bu şəbəkələr məkan deyil, daha çox dil məntiqinə əsaslanır. Sürətlə modernləşən kompüterlərin sayəsində artıq hər şey informasiya şəbəkəsində ehtiva olunur. Hər bir insani fəaliyyət bir şəbəkə daxilinə və ya bir qlobal şəbəkəyə çevrilən şəbəkələrin qovşağına yerləşdirilir. Gözümüzün qarşısında daimi olaraq dəyişən qüvvə dünyanı yenidən strukturlaşdırır.

Texnologiya öz dünyasında heç bir məhdudiyyətin mövcudluğuna icazə vermir. Onun üçün qadağan edilə biləcək və ya qeyri-mümkün olacaq heç nə

yoxdur. Bu, onun təsadüfi bir cəhəti deyil, tam şəkildə təmel essensiyasıdır. J. Simondon texnologiyanın muxtariyyətini "konkretləşmə" adlandırdığı fenomen ilə xarakterizə edir. "Konkretləşmə-adaptasiya" müəyyən bir mühit tərəfindən şərtləndirilmək əvəzinə öz mühitinin doğuşunu şərtləndirən bir prosesdir. Texnologiyanın muxtariyyəti o deməkdir ki, texnologiya yalnız özündən asılı olmaqla öz yolunun xəritəsini hazırlayan ikinci deyil, birinci dərəcəli faktor olmaqla öz müqəddəratını özü təyin etməyə meyillənir [19, s.33]. Texnologiya özündən kənarda heç bir muxtariyyəti və ya mühakiməni qəbul etmir. Texnoloji muxtariyyət qarşısında heç bir insani muxtariyyət ola bilməz. Texnologiyanın muxtariyyəti modern insana müqəddəratını seçməyi qadağan edir. O özünü essensial bir zərurət olaraq təqdim edir. İnsan və təbiət arasında texnoloji münasibətdən başqa heç bir münasibət mümkün deyil. Bu kontekstdə insan və təbiət arasında bütün poetik, mifik, magikal və simvolik bağlar tamamilə aradan qalxır. Özünü təlqin edən və totallaşan yalnız texnoloji mediasiyadır. Bu həm fərdlər, həm də fərdlər və qruplar arasındakı münasibətlər üçün də keçərlidir. Texnolojiləşmə prosesində insani münasibətlər şansa və ya təsadüfiliyə tərk edilə bilməz. Heç bir təcrübə, ənənə, kultural kodekslər və ya simvolizm obyekti yoxdur. Hər şey aşkarlaşdırılmalı (qrup dinamizmi, psixoanaliz, dərinlik psixologiyası), şəffaflaşdırılmalı və tətbiq edilə bilən texnoloji sxemataya transformasiya edilməlidir (pedaqogika, HR və s.). Bu, hər kəsin ondan gözlənilən rolu dəqiq icra edəcəyi şəkildə reallaşdırılmalıdır.

Üzərində düşünülməli olan digər məsələ texnologiyanın neytrallığı ilə bağlıdır. Tam şəkildə muxtariyyət qazanmış texnoiqtidar əsla neytral ola bilməz. Tamamilə əksinə, o öz qanununa və özlüyündə bir "dəyər"ə sahib olmaqla insanların istədikləri və ya xoşladıqları şəkildə istifadə etdikləri bir alət deyildir. Keçən əsrdə bəzi marksistlər iddia edirdilər ki, texnologiya məsumdur, sadəcə yanlış əllərdədir. Onlar insanın siyasi mübarizədən uzaqlaşdırılmasına və insani olan hər şeyin texnoloji olaraq dəyərləndirilməsinə çağırırdılar.

Texnoloji sistem hər şeydən öncə bütün hissələri bir-birilə əlaqəli olan müstəqil və öz nizamına tabe olan bir bütövlükdür. Bu bağlılıq o deməkdir ki, onlar yalnız bir-birinin şərtləri daxilində mövcuddur. Texnologiya bir təşkilatlanmış institut deyil, onun üzvləri, yaxud bəyan edilən siyasətləri də yoxdur. A.Furia bildirir ki, texnologiyalar sənaye inqilabından bəri bir-birinə bağlı şəkildə təkamül edir. Texnologiyalar bir-biri üzərində fəaliyyət göstərməklə qarşılıqlı təsirə malikdir. Onlar bir-birini əlaqələndirir və şərtləndirir [8, s.51]. Texnologiyaların paralel inkişafı yoxdur və onlar özlərini yad bir mühitdə və ya "dağınıq bir düzən"də nizamlamırlar. Hər bir texnoloji uğurun mümkünlüyü reallaşmasında uğur qazanılmış digər texnologiyaların iştirakını tələb edir. Əksər hallarda texnoloqların nəticənin nə olacağını bilmək üçün əlaqəsiz texnologiyaları – mexaniki, elektro-maqnetik, bioloji və psixoloji – bir-birilə əlaqələndirməyə çalışmaları normal hesab edilir. Belə əlaqələndirmələr nəticəsində bütövlükdə cəmiyyət sferaları texnolojiləşir.

Müxtəlif texnoloji tətbiqatlar arasında münasibət sistemi və onların arasındakı qarşılıqlı implikasiyalar sosioloqların üzərində düşünməli olduğu ən mühüm məsələdir. Çünki saysız dərəcədə çox müxtəlif texnologiyalar arasındakı sintez sosial institutlar və insan həyatı üzərində dərin transformativ təsirə malikdir. Buna görə də, insani və sosial həyatın bütün aspektləri fundamental dəyişikliklərə məruz qalmaqdadır. Texnologiya artıq keçmişdəki kimi bir sivilizasiyanın inkişafına təkan verən sosial faktorlardan biri deyil. O, nəinki müəyyənedici

bir faktor, öz içərisində cəmiyyətimizin inkişafını "təcəssüm etdirən bir elementdir." Hətta ən qeyri-texnoloji və müstəqil fəaliyyətlər də artıq texnoloji şərtlərdə müəyyən edilir. Orta əsrlərdə dini ehkamlar çərçivəsində dərk edilən və reallaşdırılan insani fəaliyyətlər bu gün tam şəkildə texnologiyanın aktiv iştirakı ilə modifikasiya edilir.

Texnologiya sıçrayışlar və ya variasiyalar ilə təkamül etmir. Öz-özünü əbədiləşdirməyə meyillənən texnoloji kurs qəbul edildiyi zaman o, geniş kapital, insani enerji, planlaşdırma, təşkilatlandırma qabiliyyəti tələb edir. Maddi olaraq bu kursu dayandırmaq, başqa bir istiqamət seçmək və ya geriyə dönmək qeyri-mümkündür. Onun effektləri kumulyativ, istiqamətləri isə imperativdir. Texnoloji vəhdətin və texnologiyaların bir-birini şərtləndirməsinin nəticələri belə müəyyən oluna bilər: müsbət və neqativ texnologiyalar arasında fərqliləşdirmənin qeyri-mümkünlüyü, texnoloji sistemin siyasi və sosial rejimlərdən müstəqilliyi, bir texnologiyanın məhdud istifadəyə uyğunlaşdırılmasının mümkünsüzlüyü.

"Texnomədəniyyət"in digər səciyyəvi cəhəti universallıqdır. Texnologiya hər yerdədir və bütün sahələrə nüfuz edir. Texnoloji universallıq iki perspektivdən nəzərə alınmalıdır: birincisi, insani fəaliyyət və insani mühit ilə bağlı universallıq, ikincisi isə coğrafi universallıq (bütün dünya ölkələrinə texnoloji sistemin təcavüzü). Texnoloji universallıq o deməkdir ki, dünya bütövlükdə geniş bir meqapolisə çevrilir. Bu qarşısıalınmaz təzyiqə hələ də müqavimət göstərən təbiilik residual bir fenomen olaraq dərk edilir. A.Molenin qeyd etdiyi kimi, avtomatlaşdırılmış maşınlar tərəfindən yaradılmış bu süni mühit məntiqi dəyişdirilə bilməz bir gerçəklik olaraq qəbul edilir [12]. Biz bu reallığı sadəcə maddi faydalılıq ilə deyil, maşınların estetik istehlakı vasitəsilə qəbul edirik. J.Bodriyarın bəhs etdiyi bu "obyektlər sistemi"ndən ibarət texno-aləm ixtiyari və şüuridir. Təbii dünyaya fiziki əməklə hökm etmə texnolojiləşmiş mental hökmranlıq ilə əvəz olunub. Bütün insani fəaliyyətlər texnologiyaların obyektinə çevrilir. Hər bir fəaliyyət texnoloji oriyentasiyanın refleksiyasına transformasiya edilir. İnsani fəaliyyətlər texnologiyadan qaynaqlanan "icra etmə" tərzləri və vasitələri ilə təchiz edilir. Praktiki olaraq texnologiyadan kənarda heç bir fəaliyyət qalmamaqdadır. İnsanın həyat fəaliyyətinin bütün sahələri texnologiyaların obyektinə çevrilməkdədir.

Texnoloji sistemdə insanın daxili simvolizasiya gücü aradan qaldırılır. Digər tərəfdən də texnosistemin ağuşunda bütün istehlak "simvolikdir". Texnoloji sistem özünü simvolik sistem olaraq təşkil edən real bir dünyadır. Təbiət ilə münasibətdə simvolik dünya təxəyyüli bir dünya, suprainsani qüvvənin refleksiyası idi. O, insanın özünü reallıqdan uzaqlaşdırmağa və simvolik mediasiya vasitəsilə fiziki reallığa üstün gəlməyə qadir edir. Lakin texnoloji sistemdə bu anlamda simvolizasiya qeyri-mümkündür. Çünki reallıq heç bir misteriya hiss etməyən insan tərəfindən "yaradılır". Simvolizasiya bir distansiasiya (uzaqlaşdırma) prosesi olduğu halda, texnoloji proses insanı özünə inteqrasiya edən bir mexanizmdir. Son nəticədə, artıq təbiəti simvolizə edən insan yoxdur, bunun əvəzində öz-özünü simvolizə edən texnologiya var [3, s.201]. Migel A.Fernandez də qeyd edir ki, insanlar rasionallıq (animale rationale), yaxud intellekt (animale sapiens) tərəfindən müəyyən edilən heyvanlar deyil. Onlar simvollar yaratmaq bacarığı ilə müəyyən edilən və dəyərlər tərəfindən birləşdirilən varlıqlardır. Dolayısilə insanlar *animale simbolicum*-dur [6]. Simvolizasiya insanlara ən xaotik dinamikalar arasında stabilliyi dərk etməyə icazə verir. İnsanlar və təbiət arasındakı duyğu bağlılığı simvollar tərəfindən müəyyən edilir. Məhz bu baxımdan J.Elül

bildirir ki, təbiətdən məhrum etdiyimiz müqəddəslik obyektlərə transfer edilib [5, s.58].

2. Texnoelm universal bilik konsepti kimi

Texnomədəniyyət məhdud bir dünyada, bir əyalət çərçivəsində qapalı formada qala bilməz. Şəbəkələrin mədəniyyəti sadəcə qlobal bir miqyasda mümkündür. Hər yerdə və hər kəs üçün əlçatan olan biliyin universallığına və münasibətlərin sürətinə əsaslandığı üçün bu mədəniyyət universal olmalıdır. Təbii olaraq, bu şəbəkə mədəniyyətinin öncülləri intellektual və qeyri-praktik mədəniyyətə, "zamanı keçmiş biliyin tozlu universitet kolleksiyasına", kultural və intellektual elitaya nifrət bəsləyir.

Fransız sosioloqu Jaki Beyero "Pedaqoji cəmiyyət" adlı kitabında qeyd edir ki, reflektiv və tənqidi intellekt əvəzinə praktik intellekt mədəniyyəti təlqin edən pedaqogika (necə öyrənməyi öyrənmək) təhsilin texnolojiləşməsinin əsas cəhətidir [1, s.130]. Burada əsas mövzu qədim fəaliyyətləri professionallaşdıran və rasionallaşdıran sosial dəyişikliklərdir. İş görmək qabiliyyətini öyrədən təhsilin yalnız praktiki məqsədi var. Texnoloji biliyin funksiyası istehsalda əsas element olmaqdan ibarətdir. Biliyin bütün sahələri produktiv olmalıdır. Ən yaxşı və ən uyğun pedaqogika sadəcə gəncləri produktiv qüvvələrin dövriyyəsinə daxil olmağa hazırlaşdıran bir texnologiyadır. Modernist cəmiyyətdə müşahidə edilən biliyin sürətlə dəyərsizləşməsidir. Nəql edilən bilik yalnız əldə olunanın bir fraksiyasıdır. Beyero bildirir ki, biliyin istehlakında onun mübadilə aləti kimi fəaliyyət göstərməsi məqsədilə biliyə bir istifadə dəyəri vermək uğrunda mübarizə gedir. Müəllimlər texnoloqlar kimi fəaliyyət göstərməli və sürətli bir formada istifadəyə verilə bilən praktik biliyi nəql etməlidirlər. Bununla bərabər, elm populyarlaşdırılmalı və nəyin bahasına olursa-olsun, texnoloji çərçivəyə daxil edilməlidir. Populyarlaşmanın nəql etdiyi isə yalnız diskursdur və texnoloji diskurs elmi praktika deyildir. Texnoloji transformasiyaya məruz qalan və özünün spiritual şərtlərini unudan elmi bilik hər hansı bir mədəniyyətin ortaya çıxmasına və ya tərəqqisinə səbəb ola bilməz. Ona görə də populyarlaşma elmin sosiallaşması, dolayısı ilə biliyin iyerarxiyasızlaşması deməkdir [1, s.132].

İfrat pedaqojiləşmənin əks effektlərini Beyero belə izah edir: bu tendensiyanın məqsədi uşaqlar üçün həyatı daha da asanlaşdırmaq, onların psixoloji, əxlaqi, intellektual inkişafını artırmaq, daha az çətinliklə informasiya transmissiyasına nail olmaqdan ibarətdir. Pedaqogika nə qədər elmi və texnolojidirsə, bir o qədər effektivdir və şagirdlər üzərində total nəzarətə sahibdir. Pedaqogikanın biliyin əldə edilməsi ilə heç bir bağlılığı yoxdur. O, yalnız psixoloji və siyasi olaraq tənzimləyici bir aktdır. Pedaqogikanın texnolojiləşməsi onu sosial nəzarətin daha mükəmməl vasitəsinə çevirir. Beyero göstərir ki, qəbul edilən informasiya nə qədər çox olarsa, modern insan o qədər çox bildiyini düşünür, lakin reallıqda verilən informasiya ilə bilik arasındakı çaşqınlıq onu "spiral illüziya"ya sürükləyir. İfrat dərəcədə çox informasiya unutqanlıq mədəniyyətinin meydana çıxması ilə nəticələnir. İnformasiya kütləsi heç bir kökü və ya davamlılığı olmayan essensiyasız bir həyat formalaşdırır. Universallaşmış pedaqogika demokratiyaya deyil, texno-iqtisadiyyata xidmət edir. Datanın daha ekstensiv nəqli hər kəsin eyni norma və dəyərlərə "bağlılığını" gücləndirir. Bir sözlə, pedaqogika texnolojiləşdikcə və institusional xarakter aldıqca hökumətlərin siyasi alətinə çevrilir. Nəinki informasiya, texnologiyalar və yaxud elm, eləcə də onların transmissiyası neytral deyildir, mükəmməlləşdirilmiş pedaqogika əsla neytral deyil. O, informasiya tərəfindən

sosial nəzarəti daha da gücləndirən vasitədir. Azad etməli olan pedaqogika kor və qəbul edilmiş köləliyin alətinə transformasiya olub.

Texnokratiya insan elmlərinin bilik sahəsində nəhəng böhranına səbəb olub. Ədəbi bilik texnoloji biliklə əvəz olunub. Bilik üzərində informasiyanın, düşüncə üzərində praktik biliyin hökmranlığı həqiqi biliyi dezinteqrasiya edib. Modern elm sahələri kəskin mütəxəssisləşmə ilə bu parçalanmanın əsas səbəbkarıdır. Elm yalnız operasional (əməliyyat) biliyin aqreqatını yarada bilər. Nisbiləşdirici xarakteri ilə o, bəşər elmlərinin təməlini sarsıdır, obyektivliyi inkişaf etdirməklə subyektiv və obyektiv arasında sabit bir duallıq yaradır. Polyak filosofu və tarixçisi Kristof Pomian da qeyd edir ki, texnoloji tərəqqinin muxtariyyəti qarşısında heç bir neytral elm və ya saf elm deyə bir şey mövcud ola bilməz. Texnokratiyada bütün elmi nailiyyətlər texnoloji nəticələr kontekstində dəyərləndirilir və dəyərləndirilməlidir. Buna görə də müəyyənedici faktor hər bir elmi araşdırmanın texnologiyada zəruri implikasiyasıdır. Bu isə texnoloji aspektin epistemik aspekt üzərində dominantlığı anlamına gəlir [15]. Texnologiya həm elmin önündə, həm də arxasındadır. Modern elm özünü texnologiyaya proyeksiya etməklə onun tərəfindən absorbsiya edilir. Bütün elm sahələri eksperimentallaşmaqla fenomenlərin yalnız texnoloji olaraq reproduksiyasına icazə verən texnologiyadan asılı hala gəlir. Təbiəti nəzəri modellərə uyğunlaşdırmağa çalışmaq onu texnoelmi abstraktlaşmaya tabe etmək deməkdir. Bir modern fizikin söyləydiyi kimi: “Təbiət mənim öz laboratoriyamda yaratdığımdır”.

Texnologiya və elm arasındakı modern ittifaq elmin deyil, texnoloji təşəbbüslər tərəfindən formalaşdırılır. Elm sistematik texnologiyanın meydana çıxması ilə transformasiyaya məruz qalır. Bu ittifaqa bir xarakter verən məhz texnologiyadır. Bu, texnologiyanın elm ilə deyil, elmin texnologiya ilə birləşməsidir. Qısacası, texnologiya elmi özünə assimilyasiya etməkdə böyük nailiyyət qazanıb. Bu gün texnokratiya elmin həqiqət uğrunda batil irrasionallığa qarşı Promotey mübarizəsinin müqəddəs aurasını təşkil etməklə yanaşı, özünü insani rasionallığın modern refleksiyası olaraq müəyyən edə bilib. Elm texnologiyanı sənətkarın atelyesindən çıxarmaqla onu hər kəsin əmrinə verib. Bununla da, texnoelm bütövlükdə cəmiyyətin faydası ilə bağlı olan neytral sosial təmsilçiyə çevrilib.

Texnoloji bilik və iqtisadi fəaliyyətlər arasında sarsılmaz əlaqə və oxşarlıq mövcuddur. Böyüməsinə və sürətlə genişlənməsinə görə iqtisadi rasionalizm texnoloji rasionalizmə borcludur. Texno-elmin ehtiyacları hər zaman ən yüksək iqtisadi düzən tələb edir. Texno-elmdən asılı olan iqtisadi fəaliyyətlər getdikcə rasionallaşır, punktuallaşır və saatın ritmlərinə tabe olaraq mexanikləşir. Punktuallaşmış biznes fəaliyyətlərinin tədrici mükəmməlləşməsi də texnoloji proseslərdən asılıdır.

Praktik bilik operasional bacarıq istisna olmaqla başqa heç bir intellektual qabiliyyət olmadan fərdləri konkretliliyə tabe edir. İnternet və sosial şəbəkələr vasitəsilə nəql olunan və antimədəniyyətin boşluğuna yuvarlanan kütləvi informasiyanın nə yeri, nə də dəyəri var. Filipp Rokeplo qeyd edir ki, texnologiyanın ambisiyası dünyanı cəbriləşdirməkdir. Lakin bu cəbr bütün dünya dillərinin tərcümə edildiyi və başqa hər hansı bir kommunikasiyanın olmadığı universal dilə çevrilib [18]. İnsanlar arasındakı ünsiyyətin aradan qalxması bir spesifik mədəniyyətin də aradan qalxması deməkdir. Çünki özünəməxsus bir mədəniyyət bir dilin spesifikliyinə əsaslanır. Texnoloji sistem özünü bütün mədəniyyətlər və sivilizasiyalara bağlamaqla universal istifadə ilə yanaşı, universal dil təlqin edir. Lakin mədəniyyət universal ola bilməz, çünki insani

varlıqlar universal deyillər. Bizim hamımızın özünəməxsus yeri, zamanı, irqi, keçmişi, formalaşma prosesi var. Bu kontekstdə hər bir mədəniyyət və ya submədəniyyət arxaikləşdirilir. Texnoloji universallaşmanın dominantlığında heç bir mədəniyyət öz spesifik dəyər və mahiyyətini qorumaq gücündə deyil. Biz qədim poemaları, eposları, əfsanələri və ya mifləri öyrənə bilərik, amma bu, sadəcə sevimli bir diletantizmdir.

Texnoloji əməliyyatlar saniyənin milyardda birində baş verir. Heç bir məsafə, refleksiya və ya tənqid mümkün deyil. Məsafəni aradan qaldıran texnologiya bizi bir-birimizə qarşı korlaşdırmaqla yanaşı, Jak Pivtonun qeyd etdiyi kimi, şüurun reflektiv fəaliyyətini passivləşdirir və nitqi qadağan edərək onu residual akta çevirir. Nəzarətsiz texnoloji inkişaf insan şəxsiyyətinin bütövlüyünü tam şəkildə aradan qaldırmaqla onu infantilizasiyaya uğradır [14, s.94].

Buna görə də Edqar Moren qeyd edir ki, ideoloqlar sadəcə cəmiyyəti deyil, eləcə də texnologiyanı doğru dərk etmirlər. Elm adamları sadəcə insanlıq haqqında deyil, elmin özü üzərində düşünə bilmirlər. Bu böyük problemləri neytrallaşdırmaq özlüyündə elmi ney trallaşdırmaq deməkdir. Texnologiya öz sürəti və şəbəkələrdə təşkilatlanması ilə ciddi problemlərin əhəmiyyətini nisbiləşdirir və nəzərdən uzaqlaşdırır. Modern dünyanın yaşadığı kultural və intellektual tragediya ondan ibarətdir ki, biz heç bir refleksiyaya icazə verməyən texnoloji mühitdəyik. Lakin insan intellektual və mental biliyi müzakirə etməli, onu bir eksperimentasiya məsələsinə çevirməli, onun üzərində dərindən düşünməli (refleksiya) və həyat təcrübəsinə inkorporasiya etməlidir. Bu həqiqət texnologiyanın "texnomədəniyyət"i yaymaq üçün istifadə etdiyi vasitələr, informasiyanın sürəti, reallıq və onun surəti arasındakı çaşqınlıq, refleksiya mümkünlüyünü istisna edən kütlə mədəniyyəti tərəfindən aradan qaldırılır.

3. Texnomədəniyyət qarşısında gerçək mədəniyyətin tənəzzülü

Bütün mədəniyyətlər reallıq və bilik arasında sarsılmaz bir harmoniyanın varlığını ön şərt olaraq qəbul edir. Lakin bu gün reallıqlar bir neçə texnoloji imperativlər və data bazalarda toplanmış bilik tərəfindən müəyyən olunur. Edqar Moren bildirir ki, biliyin bu qədər sürətlə toplanmasına rəğmən modernizm əsrində biliksizliyin (nescience) yeni növü ilə üz-üzəyik [13]. Bütün mədəniyyətlər bir qrup, bir cəmiyyət mədəniyyətidir. O, qrup dimensiyasını, qrup üzvləri arasında qarşılıqlı münasibəti təlqin edir. Lakin texnologiya bir tərəfdən sosial şəbəkələr, virtual texnologiyalar, virtual tanışlıqlar və münasibətləri stimullaşdırmaqla yalnızlığı daha da kəskinləşdirir, sosial atomizm yaradır. Cəmiyyət heç bir real interaksiyanın olmadığı fərdlər – monadlar yığınından ibarət bir məkan halına gəlir. Digər bir reallıq ondan ibarətdir ki, yeni texnologiyaların özlərini formalaşdırdığı şəbəkə istifadəçilərin rolunu bütöv şəkildə istisna edir. Şəbəkələr mücərrəd, görünməz və fərqedilməzdir. Onlar özlərini real həyata təlqin edir və onu şərtləndirir.

Şəbəkə texnologiyanın yeni dünyasının ən əhəmiyyətli səciyyəsidir. Fərdi şəbəkə bütün şəbəkələri bir-birilə əlaqələndirən daha mücərrəd və daha böyük şəbəkənin tərkib hissəsidir. Şəbəkədən kənarda heç bir mədəniyyət ola bilməz. Ancaq əgər biz şəbəkələrin meydana çıxardığı simulakrumlar, mübadilələr və informasiyanın həqiqi mədəniyyət ilə bağlı olduğunu düşünürüksə, mədəniyyət üzərində çox səthi və sadəlövh bir baxışa sahibik. Axıcı və hər şeyi özündə əhatələyici şəbəkə ideyası insaniliyin dominant mövqeyini sarsıdır. Şəbəkə özü daxilində olan insani varlıqların gerçək subyektivliyini və müstəqilliyini məhdudlaşdırır. Mişel Mirabel qeyd edir ki, telematika *(kompüterləşmiş informasiyanın uzun məsafəyə*

nəqlini özündə ehtiva edən informasiya texnologiyasının bir qolu – **S.P.**) biliyin yenidən təşkilini sistemləşdirməklə ideyalar və iş metodlarını alt-üst edir. Telematikaya əsaslanan düşüncəmiz yeni sosiokultural obyektlərin təbiəti və mahiyyətinə qarşı bizi korlaşdırır [11]. Mədəniyyət bir dokumentasiyaya çevrilir. Hər şey kompüterlərin yaddaşlarında toplanılır. Telematika dili inqilabiləşdirməklə düşüncəni də nizamsızlaşdırır və xaotikləşdirir. İnsan texnoloji əməliyyat prosesinə gömüldüyü zaman onunla maşın arasındakı fərq aradan qalxır. Çünki bu əməliyyat prosesinin hər iki tərəfində maşın yer alır (maşın/maşınlaşmış insan) Ən pis halda isə istehsalçının maşının bir parçasına çevrildiyini söyləyə bilərik. Maşının formalaşdırdığı bir virtual reallığa transformasiya olan insan onun operativ əkizi kimi işləməkdədir.

"Maşınlar tarix yaradır?" adlı essesində amerikalı iqtisadiyyat tarixçisi Robert Haylbroner tarixi inkişaf daxilində insanları texnoloji tərəqqiyə sürükləyən məntiqi işıqlandırır. Cəmiyyətlər texnologiyaları müxtəlif sürətlərdə qəbul etsə də, texnoloji tərəqqidə spesifik "yumşaq determinizm" mövcuddur [17]. Amerikalı sosioloq Daniel Burstin də 1978-ci ildə işıq üzü görən "Texnologiya Respublikası" adlı əsərində bildirir ki, texnoloji inkişaf termodinamika və cazibə qanunu kimi öz "qanun"unu izləyir [2]. Texnologiyaya bir mahiyyət və ya məqsəd qazandırmaq istəyən filosoflar qeyri-şüuri şəkildə texnoloji fenomeni "antropolojiləşdirir" və "mifləşdirir".

Texnokratiyanın təşviq etdiyi süni maşın məntiqi əvvəlcə sənaye sahəsinə özünü təlqin etdi. İnsan əzələlərini ağır işlərdən xilas edərək, çalışan fərdi xronometrikləşmiş mühitə, mexanik və ekspertləşmiş normalara kölə etdi. Maşın insanın ehtiyaclarına görə kələləşdirildiyi kimi, insanlar da onun mexaniki ehtiyaclarına kölə oldular. Maşın insanların fəaliyyətinin bir intişarı (ekstensiya) olduğu kimi, işləyənləri də öz intişarı halına gətirdi. Süni maşının məntiqi sənaye sektorundan kənara da yayıldı: xüsusən də, bürokratik təşkilatlar içində olacağı əvvəlcədən bariz şəkildə görünən idarəetmə dünyasında. Sosial fəaliyyətin bir çox sahələrinə maşınlar və makinalar sızmaqla yanaşı, faydalılıq, təxmin edilə bilmə, hesablana bilmə, qatı professionallaşma, tələskənlik, xronometrikləşmə - gündəlik həyatımızı istila edib. Səyahətləri, istehlakı, asudə zamanları, təhsili, sosial xidmətləri nizamlayır. Urbanizasiya, atomlaşma, anonimləşmə süni maşın məntiqinin insanlar və onların münasibətləri üzərində ümumiləşmiş tətbiqatı ilə birlikdə irəliləyir. Beləcə, inkişaf anlayışı özünü zorla təlqin etdiyi kimi, süni maşın məntiqinə boyun əyir və onu bütöv planetimizə yayır. Bu o deməkdir ki, texnologiyanın ələ keçirilməsi, texnologiya tərəfindən ələ keçirilmə deməkdir. Cəmiyyəti insan üçün rasionallaşdırdığımızı zənn edirik, amma cəmiyyətin rasionallaşmasına adaptasiya olması üçün insanı rasionallaşdırırıq.

Süni maşın məntiqinin insan həyatının hər sahəsində inkişafı özü ilə birlikdə texnokratik və ekonokratik hala gələn parçalanmış mexanist düşüncəni "istehsal etdi" (E.Morin bunu "mexaniki və bölünmüş düşüncənin səltənəti" adlandırır). Belə bir düşüncə artıq hər şeyin tamamilə kompleks bir səbəbə itaət etməyə başladığı bir məqamda sadəcə mexaniki kauzasiyanın fərqinə varır. Reallığı sadəcə sayıla bilən şeylərə tabe edir. Sayıla bilməyə tabelik və hiperprofessionallaşma var olmanın, bütövlüyün, özünəməxsus və essensial olanın da üzərində bir miopiya yaradır. Texnolojiləşmiş bütün problemlər vətəndaşlardan mütəxəssislərin maraqlarına doğru sürüşür. Məhz bu baxımdan qeyd edə bilərik ki, texnoelmi tərəqqi inqilabi bir fenomen olmaqla yanaşı, cəmiyyətlərin dərinliyinə nüfuz edərək nizamlayıcı maşınları – süni maşın məntiqinin

dominantlığını gündəlik həyatımıza qədər yerləşdirdi.

Amerikalı kultural tənqidçi və media nəzəriyyəçisi Neil Postman da "Texnopoliya" adlı əsərində mədəniyyətin texnologiyaya təslim olmasını vurğulayır. Postmana görə, mədəniyyət və sosial orqanizasiyanın sənaye öncəsi formalarını texno-alətlərdən heç də daha az istifadə etmirdilər. Lakin onların işlətdikləri alətlər daxil olduqları mədəniyyətin ruhuna və bütövlüyünə heç bir zərər vermirdi. Bu alətlər ənənələrə bağlılıq, Tanrıya inanc, təhsil metodları və sosial orqanizasiyanın legitimliyi prinsiplərində heç bir dəyişikliyə səbəb olmurdu. Lakin texnokratiya tərəfindən qəbul edilən alətlər konstant şəkildə insanın yaşam tərzini transformasiyaya uğradır. Hər şey bu və ya digər şəkildə texnogizmoların sürətlə təkmilləşməsi və yenilənməsinə yönəlməlidir. Daxil olduqları mədəniyyətin bütövlüyünə zərər verən bu alətlər özlüyündə bir "mədəniyyət"ə çevrilir. Buna görə də sosial normalar, miflər, praktikalar və rituallar yaşam – sağqalma mübarizəsinə başlamalı olur. Postman bildirir ki, biz texnokratiyadan texnopoliya əsrinə daxil olmuşuq. Bu əsrdə kultural olaraq tamamilə səthiləşən dünya texnologiyanın suverenliyi qarşısında bütün kultural formaların təslim olduğu tərəqqi ideologiyasına bağlıdır [16]. Texnopoliyada sağ qalan residual kultural praktikalar da sosial yaddaş və inancları zəiflədib yox edən antimədəniyyət qarşısında əhəmiyyətsizləşir. İnsan texnopoliyanın aktivliyinin subyektinə çevrilməklə onun transformativ gücü qarşısında degenerasiya yaşayır. Digər amerikalı kultural nəzəriyyəçi V.Berri də texnologiyanın sahib olduğu məntiqin kommunal həyatın praktikaları və dəyərlərinin eliminasiyasına köklendiyini bildirir.

Daha dərin əndişə isə texnoloji tərəqqinin qaçılmazlığı və heç bir təhlükə xəbərdarlığının bu tərəqqinin qarşısını ala bilməyəcəyi inancından qaynaqlanır. Texopoliyanın yaratdığı dünyabaxışı üzərində Hegel və Darvin narrativinin yeni forması diktə edir. Amerikalı bioloq Li Silverin qeyd etdiyi kimi, öz dağıdıcığımızı – ekzistensial səbəbdən qorxmalı olduğumuz təməl olaraq fərqli bir mədəniyyəti meydana çıxarırıq.

Triumfalist tərzdə texnoloji qaçılmazlığın aşkar ekspressiyası F.Fukuyamanın "Tarixin sonu" adlı kitabında müşahidə edilə bilər. Kitab hərbi texnologiyada konstant tərəqqiyə ehtiyac tərəfindən tələb edilən elmi məntiqin dərin materialist interpretasiyasından ibarətdir. Fukuyamaya görə, yalnız liberal dövlət hərbi təchizat və taktikalarda misligörünməmiş inkişafa yol açan açıq elmi tədqiqat mühiti yarada bilər. Lakin F.Fukuyama 10 il sonra biotexnologiya və postinsani gələcəyimiz haqqında yazdığı kitabında bildirir ki, bizi yenidən dəyişdirmək gücündə olan bir texnologiyanın liberal demokratiya və siyasətin özünün təbiəti üçün acı nəticələri olacaq [7].

Bir tərif və ya lənət olaraq deyilməsindən asılı olmayaraq bu qaçılmazlıq narrativi texnologiyanın özünə böyük muxtariyyət qazandırmaqla onu insan düşüncəsi və məqsədindən müstəqil bir şəkildə inkişaf edən fenomenə çevirir. Öz daxili məntiqi ilə qarşısıalınmaz şəkildə irəliləyən texnologiya (texnoloji ruhun qeyri-şüuri ekspansiyası) – Hegelin ifadəsini modifikasiya etsək – tarixin tamamilə texnoloji konvergensiya və kuliminasiyasına səbəb olur. İqtisadi və siyasi gücün konsentrasiyası getdikcə artan fərdi azadlıq üçün zəruri hesab edilir. Lakin texnologiyalar bizi təbiət və aid olduğumuz sosiumun öhdəliklərindən azad etsə də, özümüzü qeyri-azad, gücsüz və yalnız hiss etməyimizə səbəb olur. Çünki texnoloji dünyanın trayektoriyası və obyektlərinə insanın nəzarət edə bilməməsi inancı getdikcə kəskinləşir.

Bizim nəzarət etmədiyimiz dinamikadan qaynaqlanan texnologiya haqqında

sadəcə kiçicik təsəvvürümüz olan bir planetar sistemə transformasiya olub. Ən böyük ironiya isə ondan ibarətdir ki, texnopoliya insanın öz-özünü idarəetmə qabiliyyətinin mövcudluğunu mümkünsüzləşdirir.

Fransız sosioloqu Edqar Morinə görə, mədəniyyət dialektik olaraq həm ekzistensial təcrübəni, həm də biliyin formasiyasını nəql etməyə bizi qadir edən sistem olaraq düşünülməlidir. Mədəniyyət nə superstrukturdur, nə də infrastruktur. O, hər ikisini birləşdirən metabolik dövrədir. Onun fikrincə, mədəniyyət həm də insan kompleksliliyini təmin edən və qoruyan informasional, eləcə də orqanizasional sferadır. Cəmiyyət əldə olunmuş bu info-orqanizasional kapitaldan məhrum olduqda spontan komplekslilik meydana çıxır [13].

Mədəniyyət insanidir, əks halda o mövcud ola bilməz. İnsan onun mərkəzi mövzusu və yeganə obsessiyasıdır. O, insani varlıqların ifadəsidir. Həyatın dəyəri və mahiyyəti, suprainsani qüvvə ilə vəhdət, sadəcə insaniliyə üstün gəlmək və digər məsələlər dərindən sorğu-sual edilməli və üzərində düşünülməlidir. Lakin texnokratiya bu məsələlərlə məşğul ola bilməz.

Hər bir texnoloji tərəqqi hər şeydən əvvəl yeni texnologiyalar yaratmağa xidmət edir. O, öz-özünün diqqət mərkəzidir və mexaniki sferadan kənarda heç bir sorğu-suala icazə vermir. O, öz-özünə bəraət qazandırır və öz-özünü tətmin edir. O, insanı öz funksionallığına tabe etməkdən başqa heç bir halda insanla məşğul olmur. Mədəniyyət yalnız dəyərlər, məfkurələr və mahiyyət məsələsini qaldırdığı zaman mövcud ola bilər. Texnologiya həyatın ali dəyərinə yad olmaqla yanaşı, dəyərlərlə bağlı bütün münasibətləri rədd edir. O, özünün fəaliyyətləri haqqında pis, ya da yaxşı heç bir dəyər mühakiməsini qəbul etmir. Texnologiya və həqiqi mədəniyyət radikal şəkildə fərqli anlayışlardır və onların arasında hər hansı bir körpünün olması qeyri-mümkündür. Onları əlaqələndirməyə çalışmaq hər iki anlayışı gerçək mahiyyətindən qoparmaq deməkdir.

NƏTİCƏ

Bu gün modern insanın bütövləşdiyi texnoloji mühit zəruri ideoloji baxışlar və davranışlar perspektivindən onu formalaşdırır. O, texnoloji sistem və "texnologiyanın qanunları"nın fərqinə varmaqdan, modernizm öncəsi insan kimi spiritual, fiziki və bioloji qanunların dərkindən uzaqdır. Texnoloji universum daxilinə yerləşdirilmə və sistemi ümumiyyətlə qavraya bilməmə inteqrasiya olunma üçün ən ideal şərtdir. Bu gün texnologiya tərəfindən şərtləndirilmə ondan total asılılıq həddinə çatıb. Bu nəhəng passivlik və tabelilik texnokratik rejimin fanatikləri tərəfindən bəşəriyyətin ali "azadlığı" olaraq mədh edilir. Nədən azadlıq? Bu, faktiki olaraq insanın insani və təbii mühit ilə aktiv, qarşılıqlı olaraq tətminedici münasibətini formalaşdıran, proqramlaşdırılmamış, gözlənilməzliklər, meydanoxumalar, çətinliklər və seçimlərlə dolu şərtlərdən azad olmasıdır.

Xüsusən keçən əsrin əvvəllərindən etibarən insanın texnologiya qarşısında hansı mövqeyə sahib olması üzərində müxtəlif fikirlər yürüdülməyə başlandı. Bu refleksiyaların bəzilərinə görə, essensial olan insan və maşın arasındakı münasibətdir. Bu qrup iki yerə bölünür: (1) insan və maşının birləşəcəyini və (2) insanın maşın tərəfindən absorbsiya ediləcəyini qeyd edənlər. İnsan-maşın kombinasiyası daha ağılabatan konsepsiyadır (insan və maşının bir-birinə adaptasiyası və bir-birinin şərtləri daxilində funksionallığı). Digərləri isə bir beyinə transformasiya olacaq insan mutasiyasından bəhs edirlər.

Bununla da optimist fikir ondan ibarətdir ki, bütün ağır fiziki əmək şərtlərindən azad olan insan özünü yalnız "spiritual" həzz və aspirasiyalara həsr edəcək. Pessimist baxışa görə isə bütün

insani fəaliyyətlərdən qoparılan insan səthiləşəcək və sonda nano-bio-texnologiyanın üsyanı ilə maşının intişarına çevriləcək.

Digər dominant baxış isə daha inkluziv xarakterə sahib bir texnoloji cəmiyyət ideyası ilə çıxış edir. Onlara görə, əsas məsələ artıq maşınlar, yaxud mexanikləşmə deyil, texnokratik sistemdir. Belə ki, insan və maşın arasındakı problem ənənəvi tərzdə düşünülə bilməz. Bu kontekstdə özümüzə sual verməliyik: insanın texnologiyaya nəzarət edəcəyi, yönləndirəcəyi və onu seçə biləcəyi ümidini qoruya bilərikmi?

Bu gün insanın seçmək, qərar vermək, yönləndirmək, dəyişdirmək iqtidarında olmadığını söyləyə bilmərik. O seçim edəcək, amma onun seçimləri hər zaman ikinci dərəcəli əhəmiyyət kəsb edəcək. O, seçim edə bilər, amma texnoloji prosesin yaratdığı opsiyalar sistemi daxilində. Onun mühakimələri də hər zaman texnoloji kriteriya tərəfindən müəyyən olunacaq. Onun yaratdığı intellektual sistemlər yalnız texnologiyanın ekspressiyalarıdır.

Beləcə, düşünən və fəaliyyət göstərən insani varlıq texnoloji obyekt ilə münasibətdə müstəqil subyekt deyil. O, texnokratik sistem daxilindədir və texnoloji faktorlar tərəfindən modifikasiya edilir. Bu gün texnologiyanı istifadə edən insani varlıq ona xidmət edən insani varlıqdır və ya əksinə, yalnız texnologiyaya xidmət edən insani varlıq onu həqiqətən istifadə etməyə qadirdir.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Beillerot Jacky. La Société pédagogique. Paris: PUF, 1982
2. Boorstin Daniel J. The Republic of Technology: Reflections on Our Future Community, New-York, Harper and Row, 1978
3. Bressand A. and Distler C. Le Prochain Monde. Paris: Seuil, 1986
4. Ellul Jacques. The technological bluff. Pasadena, Pentecost, 1989
5. Ellul Jacques. New Demons, Seabury Press Inc., New-York, 1975
6. Fernandez, Miguel Angel, Operative Traditions : A book where Ernst Junger and J.Evola meet at last (Volume I), Manticore Press, April, 2017
7. Fukuyama Francis. Our post-human culture: Consequences of Our Biotechnological Revolution. New-York: Picador, 2003
8. Furia Daniel and Pierre Charles Serre, Techniques et sociétés, liaisons et évaluations. Vichy: Colin 1970.
9. Jünger Ernst. The Worker: Dominion and Form, translated by Bogdan Costea & Laurence Paul Hemming. Northwestern University Press, 2017
10. Langdon Winner. Autonomous Technology: Technics-out-of-Control as a Theme in Political Thought. MİT Press, 1978
11. Mirabail Michel. Les Cinquante mots clés de la télématique. Privat, 1981
12. Moles Abraham. L'Image communication fonctionelle. Casterman, 1981
13. Morin E., Pour sortir du XXe siècle (Nathan, 1981); cf. idem, Sociologie. Paris: Fayard, 1984
14. Piveteau Jacques. L'Extase de la télévision. INSEP 1984
15. Pomian Krzysztof. La querelle du déterminisme : philosophie de la science d'aujourd'hui, 1990
16. Postman Neil. Technopoly: The Surrender of Culture to Technology. New York: Vintage, 1993.
17. Robert Heilbroner L. Technological determinism revisited (in Does Techno-

logy drive History, Merritt Roe Smith and Leo Marx, MİT Press, 1994)
Roqueplo Philippe. Le Partage du savoir. sciences, culture et vulgarisation Paris: Seuil,1974
18. Simondon Gilbert. Du mode d'existence des objets techniques, Paris: Aubier-Montaigne,1956.

Subhan Padarov

Technocracy and its social characteristics

Abstract

The modern world, we live under the dominance of technological progress as never been before. On our planet, it is possible to see the appearances of technological enchantment, which are reshaping our life in each domain. Biotechnology, nanotechnology, robotisation and information society caused fundamental transmutation in the internal world of man. Techno-science is implementing an epochal transition. We are living in a great mutation age caused by information society, datafication and biology. Such a kind of revolution necessitates the artificial transformation of living beings and humanisation of machines alongside with the mutual interaction between man and machine. Nowadays, technology and science, which subordinated to technological application, became the instrument of fatal threat and spiritual erosion. In a sane society, techno-science and its implications must be subject to not only scientists, but also spiritual and political authority. Anti-technocratic aristocracy is the only way out of this crisis.

Keywords: technological autonomy, system of objects, telematics, logic of artificial machine, convergence, technopoly, pedagogization

Субхан Падаров

Технократия и ее социальные характеристики

Резюме

В современном мире, в котором мы живем, как никогда раньше господствует технологический прогресс. На нашей планете можно увидеть проявления технологического очарования, которые меняют нашу жизнь в каждой сфере. Биотехнологии, нанотехнологии, роботизация и информационное общество вызвали фундаментальные преобразования во внутреннем мире человека. Технонаука осуществляет эпохальный переход. Мы живем в эпоху великой мутации, вызванной информационным обществом, датафикацией и биологией. Такая революция требует искусственного преобразования живых существ и гуманизации машин, а также взаимодействия человека и машины. Сегодня технологии и наука, подчиненные технологическому применению, превратились в инструмент смертельной угрозы и духовной эрозии. В здравомыслящим обществе техно-наука и ее последствия должны подчиняться не только ученым, но также духовному и политическому авторитету. Антитехнократическая аристократия - единственный выход из этого кризиса.

Ключевые слова: технологическая автономия, система объектов, телематика, логика искусственной машины, конвергенция, технополия, педагогизация

MEQAPOLİS DÜNYA SİYASƏTİNİN AKTORU KİMİ

MEGAPOLIS AS AN ACTOR OF WORLD POLITICS

BAKI ÇOXTƏRƏFLİ DİPLOMATİYANIN VƏ MULTİLATERALİZMİN MƏRKƏZİ KİMİ

İlyas HÜSEYNOV
Sosial Tədqiqatlar Mərkəzinin baş məsləhətçisi
Bakı, Azərbaycan
E-mail: ilyasdiplomat@gmail.com

https://orcid.org/0000-0002-1061-7990

Xülasə. Məqalədə Azərbaycanın həyata keçirdiyi çoxtərəfli diplomatiyaya nəzər salınır. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan balanslaşdırılmış və çoxvektorlu siyasət bu gün Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Çoxvektorlu xarici siyasət kursunu uğurla reallaşdıran Azərbaycan özünü çoxsaylı təhdidlərdən xeyli dərəcədə qorumağa, ölkədə sabitliyi saxlamağa və dünyanın bir sıra dövlətləri ilə bərabərhüquqlu tərəfdaşlıq münasibətləri qurmağa müvəffəq olub. Beynəlxalq münasibətlər sistemində Azərbaycan özünü etibarlı tərəfdaş və sərbəst oyunçu kimi tanıdıb. Bu gün dünya siyasətində həm regional, həm də qlobal əhəmiyyətli bütün məsələlərin həllində Azərbaycanın fikri ilə hesablaşırlar. Ötən illər ərzində Azərbaycanın xarici siyasətinin uğurları onun regionda və bütün dünyada mövqelərini möhkəmlətmişdir. Azərbaycan regional, qlobal təhlükəsizliyin, həmçinin enerji təhlükəsizliyinin təmin olunmasında etibarlı və sabit tərəfdaş kimi tanınmışdır. Bunun nəticəsində Rusiya, ABŞ, Böyük Britaniya, Fransa, Çin kimi aparıcı tərəfdaşlar Azərbaycanı dövrün çağırışlarına ciddi reaksiya verən, Avropa ilə Asiya arasında kommunikasiya funksiyasını yerinə yetirən, Cənubi Qafqaz kimi mühüm arealda etibarlılıq zolağı yaradan fəaliyyətqabiliyyətli subyekt kimi qəbul edir.

Xüsusilə, qeyd etmək lazımdır ki, koronavirus (COVID-19) pandemiyası şəraitində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə mühüm videokonfranslar keçirilmişdir. Koronavirus pandemiyası ilə mübarizə mövzusuna həsr olunan Türk Şurasının fövqəladə Zirvə görüşü və Qoşulmama Hərəkatının Təmas Qrupu formatında Zirvə görüşü çoxtərəfli diplomatiyanın mərkəzi rolunda çıxış edən rəsmi Bakının mövqeyini əhəmiyyətli şəkildə möhkəmləndirmişdir. Prezident İlham Əliyevin təşəbbüsü ilə BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyasının keçirilməsi isə Azərbaycanı dünya miqyasında çoxtərəfli diplomatiyanı təşviq edən əsas aktor kimi nümayiş etdirdi. BMT-nin İnsan Hüquqları Şurasının 46-cı sessiyası çərçivəsində Qoşulmama Hərəkatının sədri qismində Azərbaycanın təşəbbüsü ilə “COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamənin qəbul olunması rəsmi Bakının bütün dünyada təhlükəsizliyin və sağlamlığın qorunması istiqamətində əhəmiyyətli töhfələr vermək niyyətini göstərir.

Açar sözlər: çoxtərəfli diplomatiya, multilateralizm, xarici siyasət, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Qoşulmama Hərəkatı, BMT-nin Baş Assambleyası, COVID-19, vaksinasiya

GİRİŞ

Praktikada çoxvektorlu xarici siyasətin həyata keçirilməsi halları tez-tez müşahidə olunan bir fenomen olsa da, xüsusən postsovet məkanında, demək olar ki, bütün ölkələr belə bir strategiyaya riayət edirlər. Əsasən bir sıra dövlətlərə qarşı xarici təhdid olduqda, itkilərin qarşısını almaq üçün tarazlaşdırma strategiyası seçilir, əgər beynəlxalq və regional şərait daha müsbətdirsə, qazanc əldə etmək və digər səbəblərdən güclü düşərgəyə qoşulmaq haqqında qərar qəbul edilir. Çoxvektorlu siyasət nəzəriyyəsi kifayət qədər tədqiq edilməmişdir. Bu məqalədə Azərbaycanın yerləşdiyi geosiyasi vəziyyətə uyğun olaraq yürütdütü çoxtərəfli diplomatiyanın və multilateralizmin əsas üstünlüklərinə nəzər salmağa çalışacağıq.

1. Çoxvektorlu diplomatiya fenomeni və qarşıda duran əsas vəzifələr

Çoxtərəfli diplomatiya qədimdə yaranıb, lakin XX əsrin ikinci yarısı və XXI əsrin əvvəllərində beynəlxalq münasibətlərin ümumdünya, qlobal xarakter almağa başladığı dövrdə xüsusilə geniş inkişaf etmişdir.

Beynəlxalq münasibətlər, siyasət, iqtisadiyyat, rabitə, nəqliyyat və məlumatların qloballaşması yeni əsrin ilk onilliyində, beynəlxalq münasibətlərin bipolyar sisteminin mövcudluğunun dayandırıldığı və dövlətlərin qlobal inkişafının idarə edilməsi üçün yeni bir sistem axtarmağa başladığı dövrdə aydın oldu. Bu axtarışlar indi də gərgin siyasi və iqtisadi mübarizə şəraitində aparılır. Bu günə qədər dövlətlər arasındakı münasibətlərdə dünya mədəniyyətinin ən yüksək nailiyyəti və beynəlxalq münasibətlərin idarə edilməsinin ən yaxşı mexanizmi olan Birləşmiş Millətlər Təşkilatı (BMT) əvvəlki sistemdən (Yalta-Potsdam) miras qalmışdır. Müasir çoxtərəfli diplomatiyanın əsas və universal mexanizmini məhz BMT təmsil edir. Bununla yanaşı, bir qayda olaraq, BMT ilə intensiv əlaqədə olan digər beynəlxalq təşkilatlar fəaliyyət göstərir, çoxtərəfli görüşlər, beynəlxalq regional konfranslar və digər kollektiv diplomatik tədbirlər keçirilir.

Beynəlxalq münasibətlərin neorealist nəzəriyyəsinə görə, güclü dövlətlər arasında olan ikinci dərəcəli ölkələr öz təhlükəsizliyini təmin etmək üçün ya güclü tərəflərlə birləşirlər (bandvagoning), ya da tarazlaşdırma strategiyasına üstünlük verirlər. Əslində, bu iki seçim arasında qaldıqda, müəyyən addım atmaq üçün motivasiya daha böyük nüanslara və fərqliliklərə səbəb ola bilər – "özünü qoruyub saxlamaq və mövcud dəyərləri qorumaq" üçün balanslaşdırma siyasəti yürütmək və ya istənilən dəyərləri əldə etmək üçün güclü bir düşərgəyə qoşulmaqla "özünü yüksəltmək" [15].

Digər tərəfdən, böyük güclər kiçik bir dövlət üçün həm imkan və fürsət, həm də təhlükə yaradır. Birincisi, onları cəlb etmək yardım, himayə, prestij/nüfuz və ya digər üstünlüklər üçün mənbə rolunu oynaya bilər. İkincisi, kiçik dövlətlərin aşkar surətdə disproporsiyası onları həddən artıq asılılığa qarşı həssas hala gətirdiyi üçün zəif tərəfə qarşı təhdid formasında çıxış edir [14].

Çoxtərəfli diplomatiya bir çox xüsusiyyətlərinə görə mühüm əhəmiyyət kəsb edir. Çoxtərəfli diplomatiya beynəlxalq əməkdaşlığın müxtəlif iştirakçıları arasındakı ziddiyyətlərin azaldılması ehtimalı ilə yanaşı, bütün dünyada sülhməramlı istiqamətdə konstruktivizmin başlanğıcı kimi hər bir tərəfdaş üçün gələcəkdə onun birtərəfli maraqlarının reallaşdırılacağı təqdirdə daha geniş manevr meydanının təmin olunması ilə müşayiət olunur. Sülhməramlılığın təmin edilməsində çoxtərəfli diplomatiyanın ən perspektivli sahələri daxili münaqişələrə xarici müdaxilə ilə bağlı qərarların koordinasiya edilməsi,

münaqişədən sonrakı yenidən qurulma formatlarının müəyyənləşdirilməsi, müasir münaqişələrin həllində preventiv diplomatiyanın rolunun gücləndirilməsi proseslərdir.

Bu baxımdan təəccüblü deyil ki, çoxtərəfli diplomatiya problemləri xarici siyasət və beynəlxalq münasibətlər sahəsində müxtəlif dairələrdə getdikcə daha çox diqqət mərkəzində olur və müzakirə obyektinə çevrilir. Burada isə siyasətçilərdən və diplomatlardan tutmuş, elmi ictimaiyyətin nümayəndələrinədək (tarixçilər, politoloqlar, siyasi analitiklər) iştirakçı qismində çıxış edirlər [1]. Belə bir şəraitdə beynəlxalq münasibətlər tarixinin müxtəlif mərhələlərində çoxtərəfli diplomatiyanın mahiyyətini, əhatə dairəsini və təkamülünü başa düşmək əhəmiyyət qazanır.

2. Müasir qlobal tendensiyalar və çoxtərəfli diplomatiya

XX və XXI əsrin qovuşuğunda qloballaşmanın açıq prosesləri fonunda transmilli korporasiyaların və qeyri-hökumət təşkilatlarının beynəlxalq danışıqlar prosesində artan rolu üzə çıxdı. Bu bağlılıqda bir müddət görünürdü ki, hər ikisi suveren dövlətlərlə yanaşı, onların səlahiyyətli subyektlərinə çevrilmiş çoxtərəfli diplomatiya proseslərinə müdaxilə etməyə hazırdırlar. Lakin yeni əsrin birinci onilliyində diplomatiya təcrübəsi göstərdi ki, maliyyə-sənaye dairələrinin və qeyri-hökumət təşkilatlarının dövlətlərin xarici siyasətinə güclü təsir göstərməsinə baxmayaraq, çoxtərəfli diplomatiyanın səlahiyyətli subyektləri hələ də yalnız suveren dövlətlər və dövlətlərarası beynəlxalq təşkilatlar olaraq qalır. Transmilli korporasiyalara gəldikdə isə, onların beynəlxalq danışıqlar prosesində fəal iştirakı, bir qayda olaraq, bu korporasiyaların nümayəndələrinin hökumət nümayəndə heyətlərinə daxil edilməsi, həmçinin korporasiyaların maraqlarının hökumət nümayəndə heyətləri üçün direktivlərdə nəzərə alınması, lobbiçilik və s. vasitəsilə həyata keçirilir [12, s. 87].

Qeyd edək ki, XX əsrin sonu – XXI əsrin əvvəllərində səylərini müxtəlif çoxtərəfli formatlar çərçivəsində birləşdirən dövlətlərin qruplaşmaları yaranmağa və ya möhkəmlənməyə başladı. Bu həm "Böyük iyirmilik" (G20), həm MDB, həm Avrasiya İqtisadi Birliyi, ASEAN (Cənub-Şərqi Asiya Ölkələri Assosiasiyası), APEC (Asiya-Sakit Okean İqtisadi Əməkdaşlığı), ŞƏT (Şanxay Əməkdaşlıq Təşkilatı), ATƏT, BRHÇC (Braziliya, Rusiya, Hindistan, Çin və Cənubi Afrika Respublikası), həm də digər regional və sahəvi ittifaqlardır. Tədricən, blokların qarşıdurmasından çoxvektorlu və çoxtərəfli diplomatiyaya keçid baş verdi. Təcrübə göstərir ki, dünyanın əksər dövlətləri bu tendensiyalara müsbət yanaşır və böyük ehtiyac duyur. Bu da artıq diplomatiyanın da "şəbəkələşdiyinin" göstərici hesab oluna bilər. "Konsensus diplomatiyası" və "yeni qlobal özünüidarəetmə" prinsiplərinə əsaslanan beynəlxalq münasibətlərin yeni ideologiyası formalaşmaqdadır. Çoxtərəfli diplomatiya bu gün beynəlxalq qərarların axtarışı və razılaşdırılması üçün əsas vasitəyə çevrilib.

Çoxtərəfli diplomatiya institutları sülhməramlılığın təkmilləşdirilməsinin fövqəladə əhəmiyyətli mexanizmidir, lakin müasir dövrdə onlar getdikcə daha ciddi çağırışlarla üzləşirlər. Bu kontekst də dünya siyasətinin bütün aktorları qarşısında müasir sülhyaratma sahəsində böhran meyillərinə qarşı daha sıx əməkdaşlıq qurmaq vəzifəsi durur. Eyni zamanda, postbipolyar sülhyaratma prosesinin inkişafında çoxtərəfli diplomatiyanın rolu getdikcə artmaqdadır. Çoxtərəfli diplomatiya ikitərəfli diplomatiyanı əvəz etmir, lakin o, dövlətlərarası ikitərəfli qarşılıqlı fəaliyyət şəraitində olduğundan daha mürəkkəb münasibətlər sahəsində əməkdaşlığı peşəkar səviyyədə təmin etmək məqsədini əvəz

edir. Bununla da diplomatik nöqteyi-nəzərdən, yəni kompromisin tapılmasına peşəkar istəyin nümayiş olunması təhlükəsizlik sahəsində çağırışları idarə etmək üçün daha geniş amillərə təsir göstərir [11, s. 69].

Hazırda beynəlxalq münasibətlərin səmərəli idarə edilməsi yalnız çoxvektorlu əlaqələr sayəsində mümkündür. ABŞ-ın beynəlxalq münasibətlərin monopolyar güc strukturu yaratmaq cəhdləri əksər ölkələrin çoxqütblü, yaxud polisentrik dünya sisteminin formalaşması istəkləri ilə qarşı-qarşıya qalıb. Təbii ki, burada BMT-nin üzərinə böyük məs uliyyət düşür. XX əsrin 90-cı illərində NATO-nun keçmiş Yuqoslaviyada ilk dəfə güc nümayişi, daha sonra Qərb dövlətləri arasında parçalanma, ABŞ-ın Əfqanıstan və İraqda baş verən siyasi uğursuzluqları inhisarçılıq perspektivini kəskin şəkildə pisləşdirdi. Bununla yanaşı, XXI əsrin etibarlı bir polisentrik sistemini formalaşdırmaq və beynəlxalq əlaqələrin qlobal miqyasda və lazım gəldikdə regional səviyyədə idarə olunmasında əsas mexanizm kimi BMT-nin mərkəzi rolunu təmin etmək üçün hələ çox səy göstərmək lazımdır [13, s. 69-70].

Müasir şəraitdə heç bir dövlət, nə qədər güclü və nüfuzlu olsa da, hətta bir bölgə çərçivəsində vəziyyəti təkbaşına idarə etmək iqtidarında deyil. Eyni fikirləri beynəlxalq proseslərə təsir etmək istəyən dövlətlər haqqında da qeyd edə bilərik. Bunun üçün hər hansı bir ölkənin və ya ölkələr qrupunun resursu kifayət qədər deyil. Sabitliyi qorumaq və münaqişələri həll etmək üçün beynəlxalq ictimaiyyətin kollektiv səyləri lazımdır [10, s. 65].

3. Çoxtərəfli diplomatiyanın Azərbaycan modeli

Ümummilli lider Heydər Əliyevin irsi əsasında cənab Prezident İlham Əliyev tərəfindən bu gün Azərbaycanın milli maraqlarına əsaslanan çoxistiqamətli və dinamik xarici siyasət uğurla davam etdirilir, ölkəmizin inkişafının yeni mərhələsinə, dövrün çağırış və tələblərinə uyğun olaraq yeni strateji hədəflər müəyyən edilir və həyata keçirilir.

Milli maraqlara söykənən bu xarici siyasət əsasında Azərbaycan regionda və onun hüdudlarından kənarda mehriban qonşuluq, qarşılıqlı faydalı əməkdaşlıq və tərəfdaşlıq mühiti formalaşdırmağa nail olub. Hərbi-siyasi blokların üzvü olmayan Azərbaycan bu xoşməramlı siyasət vasitəsilə “yumşaq” təhlükəsizlik mühiti yaradıb, kənar qüvvələrin hesabına təhlükəsizliyin “istehlakçısı” kimi deyil, öz gücü hesabına regionda təhlükəsizliyin “istehsalçısı” və təminatçısı rolunda çıxış edir. Azərbaycan layiqli və etibarlı tərəfdaş kimi qəbul olunur. Ölkəmizin Latın Amerikası, Afrika və Cənub-Şərqi Asiya ölkələri ilə genişlənən əməkdaşlığı və həyata keçirilən qarşılıqlı səfərlər Azərbaycan ilə tərəfdaşlıq etmək istəyən ölkələrin sayının artmasının aydın göstəricisidir.

Tanınmış amerikalı analitik, Harvard Universitetinin professoru Cozef Nayın təbirincə desək, Azərbaycanın yürütdüyü bu siyasəti “smart power” ("yumşaq güc") adlandırmaq olar. Amma bu cür çətin regionda və siyasi, iqtisadi, hərbi böhranların tüğyan etdiyi nizamsız dünya düzənində Azərbaycanın milli maraqlara əsaslanan müstəqil xarici siyasət həyata keçirməsini və təhlükəsizliyini təmin etmə qabiliyyətinin mahiyyəti və leksik baxımdan “İntelligent Power” adlandırılması, fikrimizcə, daha düzgün olardı.

4. Qlobal pandemiya şəraiti və Azərbaycanın çoxvektorlu diplomatiyası (Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının nümunəsində)

Azərbaycan Cənubi Qafqazın siyasi və iqtisadi mərkəzi kimi koronavirus pandemiyası şəraitində beynəlxalq həmrəyliyin gücləndirilməsi, dövlətlərin

və beynəlxalq təşkilatların səylərinin səfərbər edilməsi istiqamətində müxtəlif təşəbbüslər göstərir.

2020-ci il 10 aprel tarixində "COVID-19 pandemiyası ilə mübarizədə həmrəylik və əməkdaşlıq" mövzusunda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) Dövlət Başçıları Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü və sədrliyi ilə keçirilmiş Zirvə görüşündə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Qazaxıstan Respublikasının Prezidenti Qasım-Comərd Tokayev, Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekov, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, Türkmənistanın Prezidenti Qurbanqulu Berdiməhəmmədov, Macarıstanın Baş naziri Viktor Orban, TDƏŞ-in baş katibi Bağdad Amreyev və Ümümdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adanom Qebreisus iştirak etmişdir. Tərəflər Dövlət Başçıları Şurası tərəfindən pandemiya ilə mübarizədə elmi, yenilikçi, texnoloji və tibbi potensialları tam səfərbər etməklə təlimatlandırılmışdır [9]. Zirvə görüşündə "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fövqəladə Zirvə görüşünün Bakı Bəyannaməsi" qəbul olunmuşdur.

TDƏŞ-ə sədrliyi dövründə Azərbaycan dünyada təşkilatın nüfuzunun daha da artırılması, üzv ölkələr arasında əməkdaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsi istiqamətində səylərini genişləndirmişdir. Xüsusilə qeyd etmək lazımdır ki, Türk Şurası dünya miqyasında ilk beynəlxalq təşkilatdır ki, dövlət başçıları səviyyəsində COVID-19 pandemiyasına həsr olunmuş Zirvə görüşünü keçirməyə nail olmuşdur. Böyük əminliklə demək olar ki, nümunəvi səviyyədə olan bu həmrəyliyin əsasında ortaq soykök, tarix, mədəniyyət və milli dəyərlər dayanır. Pandemiyanın bütün dünyanı bürüdüyü bir dövrdə dünyanın həmrəyliyə, əməkdaşlığa və qarşılıqlı səmərəli fəaliyyətə ehtiyacı vardır.

Zirvə görüşünün keçirilməsinin əsas məqsədi milli səviyyədə atılan addımlara dair təcrübə mübadiləsinin aparılması, lazım olan anda bir-birinə dəstək göstərək xalqlar arasında həmrəyliyin möhkəmləndirilməsi olmuşdur. Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü zamanı Prezident İlham Əliyev bildirmişdir ki, mövcud qlobal pandemiya şəraitində Türk Şurasının üzv dövlətləri özlərinə qapanmayıblar. "Təşkilat olaraq Türk Şurası digər beynəlxalq təşkilatlarla əməkdaşlığa hazırdır. Azərbaycan ayrı-ayrı ölkələrə də öz dəstəyini göstərməkdədir" [7].

Qeyd etmək lazımdır ki, Türk Şurasına üzv ölkələrin iqtisadiyyatı, ticarət münasibətləri və idxal-ixrac əməliyyatları üçün nəqliyyat daşımaları mühüm əhəmiyyətə malikdir.

5. Qoşulmama Hərəkatı və rəsmi Bakının "COVID-19-a qarşı birlikdəyik" tezisi

Azərbaycan qlobal pandemiya şəraitində dünyanın müxtəlif ərazilərində yerləşən dövlətlər və xalqlar arasında kommunikasiya qurur, körpü yaradır. 2020-ci ilin mayın 4-də Qoşulmama Hərəkatının sədri kimi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşü keçirilmişdir. Azərbaycan Prezidentinin Zirvə görüşünün keçirilməsi ilə bağlı təşəbbüsü üzv dövlətlər tərəfindən yekdilliklə dəstəklənmişdir. Təmas Qrupunda coğrafi təmsilçilik və könüllü iştirak əsasında bütün regional qruplardan olan ölkələr təmsil olunmuşlar [6].

Qeyd etmək lazımdır ki, BMT-nin Baş Assambleyasından sonra ikinci ən böyük beynəlxalq təsisat olan və 120

dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına üzvlükdən qısa müddət sonra ölkəmizin sədrlik etməsi üzv dövlətlərin Azərbaycana olan etimadının və ölkəmizin beynəlxalq nüfuzunun artmasının, eləcə də Azərbaycanın qlobal səylərinin beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənməsinin parlaq nümunəsidir.

Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş Zirvə görüşündə Avropa Birliyinin rəsmisinin iştirakı və çıxışı Qoşulmama Hərəkatının tarixində ilk dəfə baş vermiş hadisədir. Qeyd olunmalıdır ki, məhz Azərbaycan daim bir-biri ilə əks qütblərdə olan Qoşulmama Hərəkatı ilə Avropa Birliyini koronavirus təhlükəsi zamanı bir araya gətirməyə müvəffəq olmuşdur.

Rəsmi Bakının təşəbbüsü nəticəsində Qoşulmama Hərəkatının fikir mübadiləsi, qlobal həmrəylik və əməkdaşlıq üçün səmərəli platformaya çevrildiyinin şahidi olduq. Azərbaycan qlobal həmrəyliyin nümunəsi kimi BMT Nizamnaməsində nəzərdə tutulan Baş Assambleyanın COVID-19 pandemiyasına həsr olunmuş dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təklifini irəli sürmüşdür.

Digər tərəfdən, qlobal əməkdaşlığa güclü ehtiyac duyulduğu bir şəraitdə dövlətlər, eləcə də bir sıra beynəlxalq və regional təşkilatlar adekvat reaksiya göstərə, beynəlxalq həmrəyliyin gücləndirilməsi ilə bağlı zəruri addımlar ata bilməmişlər. Müasir dövrdə qlobal liderliyə ehtiyac duyulan bir şəraitdə və vaxtda Prezident İlham Əliyev təşəbbüs irəli sürərək "özünəqapanma sindromu"nun heç kəsə xeyir gətirməyəcəyini nümayiş etdirmiş və dünyanın ayrı-ayrı qitələrindən müxtəlif siyasi və ideoloji quruluşlara malik ölkələri bir araya gətirməyə nail olmuşdur. Prezident İlham Əliyev nümunəvi addım ataraq pandemiyaya yalnız qlobal əməkdaşlıq və həmrəylik sayəsində qalib gəlməyin mümkünlüyünü dünyaya nümayiş etdirmişdir.

Azərbaycan öz təşəbbüsləri və praktiki addımları ilə dünyada həmrəyliyin möhkəmlənməsinə, indiki mürəkkəb şəraitdə dövlətlər və xalqlar arasında təmasların yüksəlməsinə, qlobal pandemiya ilə mübarizədə bütün səylərin səfərbər olunmasına ciddi töhfələr verir. Zirvə görüşü Azərbaycana və onun liderinə dünyada olan inamın, etibarın və etimadın göstəricisidir. 40-a yaxın ölkənin dövlət və hökumət başçısının, xarici işlər nazirlərinin, BMT Baş Assambleyası sədrinin, Ümumdünya Səhiyyə Təşkilatının baş direktorunun, Afrika İttifaqı Komissiyasının sədrinin bu tədbirə qatılması, BMT-nin Baş katibi cənab Antonio Quterreşin və Avropa Birliyinin ali nümayəndəsi və Avropa Komissiyasının vitse-prezidenti cənab Cozef Borelin videomüraciət ünvanlaması, habelə Zirvə görüşünü təşkil etdiyi və pandemiya ilə mübarizəyə ciddi əməli töhfələr verdiyinə görə Azərbaycan Prezidentinin fəaliyyətinin təqdir olunması, dövlət başçımıza çoxsaylı təşəkkürlər bildirilməsi ölkəmizin və onun liderinin beynəlxalq arenada yüksək nüfuzunun əyani göstəriciləridir.

Xatırladaq ki, 2019-cu il oktyabrın 25-26-da Qoşulmama Hərəkatının XVIII Zirvə görüşü Prezident İlham Əliyevin sədrliyi ilə Azərbaycanda keçirilib. Üzv dövlətlərin yekdil dəstəyi və razılığı ilə 2019-2022-ci illər üzrə Qoşulmama Hərəkatının sədrliyini Azərbaycan Respublikası öz üzərinə götürüb. Çoxtərəfli diplomatiyanın təşviq edilməsi, Qoşulmama Hərəkatının üzv dövlətləri arasında əməkdaşlığın və həmrəyliyin gücləndirilməsi Prezident İlham Əliyev tərəfindən Azərbaycanın Qoşulmama Hərəkatında sədrliyinin prioritetlərindən biri kimi müəyyən edilib.

Qoşulmama Hərəkatının sədri olan Azərbaycanın fəal surətdə çoxtərəfli

diplomatiyanı və multilateralizmi təşviq etməsi dünya birliyi tərəfindən təqdir olunur. Azərbaycan bir daha təsdiq etdi ki, Qoşulmama Hərəkatına sədrliyi öz üzərinə götürərkən beynəlxalq arenada üzv ölkələrin maraqlarının müdafiə edilməsi üçün əməli addımlar atacağına, həmrəyliyin gücləndirilməsini və qarşılıqlı dəstəyi rəhbər tutacağına dair vədlərinə qətiyyətlə əməl edir.

Beləliklə, Azərbaycanın təşəbbüsü ilə keçirilən Qoşulmama Hərəkatının koronavirusa qarşı Təmas Qrupunun Zirvə görüşü göstərir ki, ölkəmiz koronavirus pandemiyası ilə bağlı formalaşan yeni reallıqlara, yaranmış vəziyyətə çevik və adekvat reaksiya verir.

6. Prezident İlham Əliyevin təşəbbüsü ilə BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyasının keçirilməsi

Milli və beynəlxalq səviyyədə məsuliyyət nümayiş etdirən Azərbaycanın qlobal təhlükəyə qarşı birliyi və həmrəyliyi təşviq etməsi ardıcıl xarakter almışdır. Azərbaycan Respublikasının Prezidenti 4 may 2020-ci il tarixində keçirilmiş Qoşulmama Hərəkatına (QH) üzv ölkələrin COVID-19 pandemiyasına qarşı mübarizə üzrə Təmas Qrupunun onlayn Zirvə Görüşü zamanı BMT Baş Assambleyasının COVID-19-a qarşı mübarizəyə həsr olunmuş 31-ci xüsusi sessiyasının çağırılması təşəbbüsü ilə çıxış etmiş və təşəbbüs BMT-yə üzv ölkələrin böyük əksəriyyəti tərəfindən dəstəklənmişdir. Bu, onların “Bandunq Prinsipləri”, Hərəkatın dəyərləri, multilateralizm və beynəlxalq həmrəyliyə sadiqliyini bir daha vurğulamış oldu. Ümumilikdə, BMT-nin 150-dən artıq üzv dövləti həmin təşəbbüsü dəstəkləmişdir.

Dünyanın pandemiyadan əziyyət çəkdiyi bir vaxtda və beynəlxalq gündəmin ən mühüm məsələlərindən biri olan COVID-19 ilə mübarizəyə dair xüsusi sessiyanın çağırılması təşəbbüsünə ilk günlərdən etibarən qarşı çıxış edən Ermənistan bu təşəbbüsün reallaşmasına maneələr yaratmağa çalışmış və qətnaməyə əsasən açılış hissəsində Qoşulmama Hərəkatı sədrinin çıxışının qarşısını alan addımlar atmağa cəhd etmişdir. Yenə də Ermənistan beynəlxalq ictimaiyyətin qəti mövqeyi ilə üzləşmiş və onun bu cəhdi rədd edilmişdir [3].

Ölkəmizə qarşı hər zaman düşmənçilik mövqeyindən yanaşan Ermənistanın BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş xüsusi sessiyasının keçirilməsi təşəbbüsünün əleyhinə çıxış etməsi ilə bağlı Prezident İlham Əliyev bildirmişdir: “Ermənistan son dəqiqəyə qədər xüsusi sessiyanın keçirilməsi üçün hazırlıq prosesinə mane olmağa çalışmışdır. Ermənistanın bu təşəbbüsə etiraz etməsinin yeganə səbəbi onun Azərbaycan tərəfindən irəli sürülməsi olmuşdur” [5].

Bütün dünyada sağlamlıq, təhlükəsizlik və rifaha ciddi hədə törədən COVID-19 pandemiyasının görünməmiş və çoxtərəfli təsirləri ilə mübarizə aparmaq məqsədilə Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü əsasında BMT Baş Assambleyasının xüsusi sessiyasının çağırılması pandemiya ilə birlik, həmrəylik və çoxtərəfli əməkdaşlıq əsasında əlaqələndirilmiş şəkildə qlobal mübarizənin aparılması baxımından müstəsna əhəmiyyətə malikdir. Bu, Azərbaycan Respublikası Prezidentinin həyata keçirdiyi uzaqgörən humanist xarici siyasətin növbəti parlaq qələbəsi kimi dəyərləndirilmişdir.

7. Peyvəndlərin ədalətli bölüşdürülməsi əsas prioritet olmalıdır

2021-ci ilin fevralın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan televiziyasına müsahibəsi zamanı bir sıra maraqlı məqamlara toxunmuşdur. Qlobal bəlaya qarşı mübarizədə yeganə vasitə hesab olunan peyvəndlərin bərabər və ədalətli şəkildə bölüşdürülməsinin mühüm əhəmiyyət kəsb etdiyi bildirilmişdir. Bu məsələni BMT Baş Assambleyasının xüsusi sessiyasında Prezident İlham Əliyev Qoşulmama Hərəkatının sədri kimi çıxış edərkən qaldırmışdır.

Bu bəlaya qarşı mübarizədə bütün səylərin birləşdirilməsi, burada hansısa birtərəfli addımların atılmaması, zəngin ölkələrin məsuliyyət daşıması və kasıb ölkələrin vətəndaşlarını da düşünməsi əsas şərt hesab olunur.

Müsahibə zamanı vaksinin qeyri-ədalətli bölünməsi ilə bağlı Avropa Birliyi nümayəndələrinin Böyük Britaniyanı ittiham etməsi, əhalisi 38 milyon olmasına baxmayaraq, Kanadanın 154 milyon əhali üçün vaksinlər sifariş etməsi böyük narahatlığa səbəb olmuşdur. “Əgər inkişaf etmiş ölkələr bu vaksinləri öz aralarında ədalətli bölə bilmirlərsə və qarşılıqlı ittihamlar irəli sürürlərsə, onda başqa ölkələr nə fikirləşməlidir? Kasıb ölkələr, inkişafda olan ölkələrin vətəndaşları, bəs onlara kim kömək göstərəcək? Bu haqda düşünülmür? Mən inkişaf etmiş bir çox ölkələrin liderlərindən bu günə qədər bu çağırışları eşitməmişəm. Ona görə biz Qoşulmama Hərəkatının sədri olaraq və öz bəyanatlarımıza sadiq qalaraq artıq dünya arenasında bu məsələni qaldırırıq. Mən sədrliyi öz üzərimə götürərkən demişdim ki, Azərbaycan beynəlxalq hüququ və ədaləti müdafiə edəcək, bütün üzv ölkələrin maraqlarını müdafiə edəcək və biz bunu edirik. Bu iki Zirvə görüşünün və bir xüsusi sessiyanın keçirilməsi onu göstərir ki, biz özümüzü bu sahədə də məsuliyyətli ölkə kimi aparırıq və bundan sonra da öz səsimizi daim ucaldacağıq. Çünki istisna edilmir ki, bundan sonra vaksinlər uğrunda mübarizə daha da kəskinləşəcək və bu, çox faciəvi fəsadlara gətirib çıxara bilər [4].

8. Rəsmi Bakının növbəti uğuru: BMT-nin İnsan Hüquqları Şurasının 46-cı sessiyası çərçivəsində Qoşulmama Hərəkatının sədri qismində Azərbaycanın təşəbbüsü ilə “COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə qəbul edildi

Qətnamə inkişaf etmiş və inkişaf etməkdə olan dövlətlər arasında COVİD-19 əleyhinə peyvəndlərin ədalətsiz və qeyri-bərabər bölüşdürülməsi məsələsinin insan hüquqlarından istifadəyə mənfi təsiri məsələsinə diqqəti çəkir və bunun pandemiyanın tamamilə aradan qaldırılmasında, eləcə də BMT-nin Dayanıqlı İnkişaf Gündəliyində nəzərdə tutulan məqsədlərə nail olunmasında başlıca əngəllərdən biri olduğunu vurğulayır. Pandemiyanın aradan qaldırılmasında qlobal həmrəyliyin və çoxtərəfli əməkdaşlığın əhəmiyyətinə xüsusi vurğu edən Qətnamə bu xüsusda, Qoşulmama Hərəkatının sədri qismində Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə 3-4 dekabr 2020-ci il tarixlərində keçirilmiş BMT Baş Assambleyasının COVID-19 pandemiyasına həsr olunan xüsusi sessiyasının əhəmiyyətini qeyd edir. Qətnamə BMT üzv dövlətlərinə və digər əlaqədar qurumlara (beynəlxalq təşkilatlar, özəl sektor təmsilçiləri, vətəndaş cəmiyyəti üzvləri və s.) COVID-19 əleyhinə peyvəndlərin bütün dövlətlər arasında ədalətli bölüşdürülməsini təmin etmək istiqamətində müvafiq tədbirlər

görməyə çağırış edir. Eyni zamanda, peyvəndlərin ədalətli bölüşdürülməsini dəstəkləmək məqsədilə yaradılmış beynəlxalq təşəbbüslərə, o cümlədən COVAX təşəbbüsünə dəstək ifadə edən Qətnamə bütün dövlətləri peyvəndlərin digər ölkələrə ixracı ilə bağlı mövcud olan lazımsız əngəlləri aradan qaldırmağa çağırır. Qətnaməyə ümumilikdə 133 dövlət həmmüəlliflik etmişdir ki, bu da BMT-nin İnsan Hüquqları Şurasında qəbul edilən qətnamələr üçün olduqca yüksək göstəricidir. Həmmüəlliflər sırasında dünyanın fərqli regionlarında yerləşən, iqtisadi göstəriciləri kəskin fərqlənən və fərqli siyasi qruplaşmalara məxsus olan ölkələr təmsil olunur [2].

9. Ümumdünya Səhiyyə Təşkilatı pandemiya ilə mübarizədə əməkdaşlıq və həmrəylik modeli olan Azərbaycana təşəkkür edir

Azərbaycan COVID-19 pandemiyasına qarşı qlobal səyləri səfərbər edən ilk ölkələrdən biri olub. Azərbaycan öz beynəlxalq məsuliyyətinə sadiq olaraq Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə yardımı ayırıb. Qeyd edək ki, həmçinin 30-dan çox ölkəyə koronavirusla mübarizədə birbaşa humanitar və maliyyə yardımı göstərilmişdir. Digər önəmli məqam bundan ibarətdir ki, hazırda peyvəndlərin bərabər və ədalətli şəkildə paylanılması məsələsi mühüm əhəmiyyət kəsb edir. Bununla belə, peyvəndlərin inkişaf etməkdə olan və inkişaf etmiş ölkələr arasında qeyri-bərabər və ədalətsiz paylanması ciddi narahatlığa səbəb olan amildir. Bəzi ölkələr ehtiyacı olduğundan dəfələrlə çox peyvənd tədarük edir. Aydındır ki, belə şəraitdə digər ölkələr peyvənd qıtlığı ilə üzləşirlər. Azərbaycanın təşəbbüsü ilə peyvəndlərə bərabərhüquqlu, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin olunması ilə bağlı BMT-nin İnsan Hüquqları Şurasında konsensus əsasında qəbul edilən qətnamə peyvəndlərin ədalətli şəkildə paylanılmasını təşviq edir [8]. Azərbaycanın çoxtərəfli diplomatiyanın və multilateralizmin mərkəzi kimi çıxış etməsi və uğurla həyata keçirilən qlobal təşəbbüslər Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən də təqdir olunmuşdur. Təşkilatın Baş direktoru Tedros Adhanom Qebreyesusun Azərbaycana ünvanladığı çoxsaylı təşəkkür məktubları da bunun göstəricisidir.

NƏTİCƏ

XXI əsrdə beynəlxalq diplomatik fəaliyyətdə çoxtərəfli diplomatiyanın rolu getdikcə artır. Bütün dünyanı bürümüş qloballaşma və inteqrasiya prosesləri, dünya siyasətinin müxtəlif iştirakçıları arasında əlaqələrin möhkəmləndirilməsi, dövlətlərarası ünsiyyətin intensivləşməsi və ictimai münasibətlərin tənzimləyicisi kimi dövlətin funksiyalarının genişlənməsi dövlətlər arasında ənənəvi ikitərəfli münasibətləri tez-tez əvəzləyən çoxtərəfli diplomatiya mexanizmlərindən istifadə üçün kifayət qədər şərait yaratmışdır.

Çoxtərəfli əməkdaşlığa ehtiyac kütləvi qırğın silahlarının yayılması və ya ətraf mühitin çirklənməsi və qlobal istiləşmə kimi qlobal problemlərin artmasından qaynaqlanır ki, bu da bütün dünya ictimaiyyətinin birgə səylərini və müasir dünyanın çağırışlarına adekvat reaksiya verən çoxşaxəli diplomatiya mexanizmləri vasitəsilə əlaqələndirilməsini tələb edir. Hal-hazırda dünyada tez-tez əhəmiyyətli konfranslar keçirilir, bütün ölkələrin yeni, qlobal təhlükələr və çağırışlar qarşısında qarşılıqlı asılılığının artması daha çox dərk edilir.

Yalnız çoxtərəfli diplomatiya bizi nüvə müharibəsindən, terrorizmdən və ölümcül xəstəliklərdən, sürətli qlobal istiləşmədən və qeyri-bərabərliyin sosial sarsıntılarından xilas edə bilər. Bu gün millətçiliyin dirçəldilməsi fonunda və po-

pulist ideyaların yayılması ilə aydın qaydalara əsaslanan beynəlxalq nizamın mövcudluğu inkar edilir. Çoxtərəflilik və müxtəlifvektorlu diplomatiya bəşəriyyət qarşısında duran ümumi vəzifələrin həlli üçün sübut olunmuş alətlərdir. Bu yolla gender bərabərliyini təmin etmək üçün beynəlxalq hüquq normalarının işlənib hazırlanmasından tutmuş, ətraf mühitin qorunmasına, kütləvi qırğın silahlarının və ölümcül xəstəliklərin yayılmasının qarşısının alınmasına qədər bütün problemlərin kompleks həlli mümkündür.

Demək olar ki, İkinci Dünya müharibəsindən sonra yaranmış çoxtərəfli mexanizmlər 75 il ərzində insanları xilas etməyə, sosial-iqtisadi tərəqqiyə nail olmağa və insan hüquqlarını qorumağa, həmçinin üçüncü dünya müharibəsinin başlamasının qarşısını almağa kömək etmişdir. Bu gün həll olunmamış münaqişələrin mövcudluğu, nəzarətsiz iqlim dəyişikliyi, bərabərsizliyin artması və digər problemlərlə əlaqədar çoxtərəfli diplomatiyaya böyük ümidlər bəslənir.

Bu baxımdan, BMT Baş Assambleyasının 2018-ci il 12 dekabr tarixli qətnaməsi ilə 24 aprel Beynəlxalq Multilateralizm və Diplomatiya Günü kimi qeyd olunur. Qlobal pandemiya şəraitində ölkələr və beynəlxalq təşkilatlar arasında həmrəylik və əməkdaşlıq xüsusilə aktualdır. Dünya birliyinin məsuliyyətli və etibarlı üzvü kimi Azərbaycan koronovirus təhlükəsinin ilk günlərindən etibarən qlobal həmrəylik çağırışlarına dəstək vermişdir. Azərbaycan koronavirusa qarşı effektiv mübarizə sahəsində nümunəvi ölkədir. Effektiv nəticələrə görə Azərbaycanda koronavirusa qarşı aparılan mübarizə beynəlxalq səviyyədə təqdir olunur.

Çoxsaylı beynəlxalq təşkilatların üzvü olaraq, Azərbaycan Respublikası fəal surətdə çoxtərəfli diplomatiyanı və multilateralizmi dəstəkləyir. Bu, Azərbaycanın yerləşdiyi mühüm geosiyasi arealla bağlıdır, digər tərəfdən Azərbaycanın rasional seçimidir. Koronavirus (COVID-19) pandemiyası dövründə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə 2020-ci ilin aprelində Türk Şurasının Zirvə toplantısı, 2020-ci ilin mayında Qoşulmama Hərəkatının Zirvə toplantısı və 2020-ci ilin dekabrında BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyasının keçirilməsi sübut edir ki, Azərbaycan beynəlxalq tərəfdaşlığa və qarşılıqlı faydalı əməkdaşlığa böyük önəm verir. Buna görə də fövqəldövlətlərin kritik görüşlərinin keçirildiyi Bakını çoxtərəfli dıplomatiyanın və multilateralizmin mərkəzi kimi qəbul edə bilərik.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

Azərbaycan dilində:

1. 2008-ci ildə Amerika Birləşmiş Ştatlarında növbəti Prezident seçkiləri ərəfəsində Con Hopkins Universitetinin "Perspektiv Beynəlxalq Araşdırmalar Məktəbi" tərəfindən çap olunan jurnalın (The SAIS Review of International Affairs) xüsusi sayı çoxtərəfli diplomatiyaya, o cümlədən ABŞ-ın yeni administrasiyası tərəfindən diplomatik fəaliyyətin bu formasından istifadənin əhəmiyyəti və perspektivlərini təhlil edən məqalələrə həsr olunmuşdur. Bax: SAİS Review. Vol. 28. No. 2 (Summer-Fall 2008).
2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin BMT-nin İnsan Hüquqları Şurasında Azərbaycanın təşəbbüsü ilə COVİD-19 əleyhinə vaksinlərin ədalətsiz və qeyri-bərabər bölüşdürülməsi ilə bağlı qəbul edilən qətnaməsinə dair məlumatı No:103/21, [Elektron resurs] // "Xarici İşlər Nazirliyi", 23.03.2020. URL: https://www.mfa.gov.az/az/news/7257/view
3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin məlumatı No:401/20, [Elektron resurs] // "Xarici İşlər Nazirliyi", 11.06.2020. URL: https://mfa.gov.az/az/news/7021/view
4. İlham Əliyev Abşeron Rayon Mərkəzi Xəstəxanasının yeni inşa edilən binasının açılışında iştirak edib: [Elektron resurs] // "President.az", 01.02.2021. URL: https://president.az/articles/50466
5. İlham Əliyev Nyu-Yorkda BMT Baş Assambleyasının COVID-19 ilə mübarizəyə həsr edilmiş dövlət və hökumət başçıları səviyyəsində keçirilən xüsusi sessiyasında çıxış edib: [Elektron resurs] // "President.az", 04.12.2020. URL: https://president.az/articles/48495
6. İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında Zirvə görüşü keçirilib: [Elektron resurs] // "President.az", 04.05.2020. URL: https://president.az/articles/37705
7. İlham Əliyevin təşəbbüsü ilə Türk Şurasının videokonfrans vasitəsilə fövqəl adə Zirvə görüşü keçirilib: [Elektron resurs] // "President.az", 10.04.2020. URL: https://president.az/articles/36412
8. İlham Əliyevin Ümumdünya Sağlamlıq Günü münasibətilə videomüraciəti: [Elektron resurs] // "President.az", 06.04.2021. URL: https://president.az/articles/51027
9. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (TDƏŞ): [Elektron resurs] // "Xarici İşlər Nazirliyi", URL: https://mfa.gov.az/az/content/176/turkdilli-dovletlerin-emekdasliq-surasi-tdes

Rus dilində:

10. Андреева, С.М. Многополярный мир: диалог культур или столкновение цивилизаций? // Управление городом: теория и практика. 2014, № 3 (14) с. 64-70.
11. Зиновский, Ю. Г. Многосторонняя дипломатия и миротворчество в условиях современного мира // – Вестник МГИМО Университета. № 6. 2010. с. 65-74.
12. Лебедева, О.В. Многосторонняя дипломатия в современных международных отношениях // Право и управление. XXI век. №1 (34) 2015. с. 86-91.

13. Олеандров, В.Л. Многосторонняя дипломатия // Право и управление. XXI век. №2 (27) 2013. с. 69-76.

İngilis dilində:

14. Contessi, P.Nicola. Foreign and Security Policy Diversification in Eurasia: Issue Splitting, Co-alignment, and Relational Power. // Problems of Post-Communism. – 2015, 62 (5): pp: 299-311.

15. Schweller, Randall. Bandwagoning for Profit: Bringing the Revisionist State Back In // International Security. – Volume 19, No. (Summer 1994) pp: 72–107.

Ilyas Huseynov

Baku as a center of multilateral diplomacy and multilateralism

Abstract

In this article, the author considers the multilateral diplomacy of Azerbaijan. Azerbaijan is the only country in the South Caucasus bordering Russia, Iran, Turkey and Georgia, which also has access to the Caspian Sea and through it to Central Asia. Due to its advantageous strategic position, today Azerbaijan is an important logistics center through which traditional and new communication, transport and energy corridors connecting West and East, South and North in the Eurasian space pass. On the other hand, because of the implementation of strategically important energy and transport communication projects, Azerbaijan occupies an important place in the architecture of Europe's energy security. President Ilham Aliyev still successfully implements the balanced and multi-vector policy founded by the national leader Heydar Aliyev. Moreover, no other state in the South Caucasus could pursue a multi-vector foreign policy on this scale. On the other hand, it should be noted that thanks to a multi-vector policy, Azerbaijan was able to significantly protect itself from numerous threats, maintain stability in the country and establish an equal partnership with a number of countries. By implementing a multi-vector foreign policy against this background, Azerbaijan was able to largely secure itself against numerous challenges, maintain stability in the country and build equal partnerships with many states of the world community. In the system of international relations, Azerbaijan has established itself as a reliable partner and a free player. Today, the opinion of Azerbaijan is taken into account in world politics and in resolving all issues of regional and global importance. The success of Azerbaijan's foreign policy over the past years has strengthened its position in the region and around the world. Azerbaijan is recognized as a reliable and stable partner in ensuring regional and global security as well as energy security. As a result, such leading partners as Russia, the USA, Great Britain, France, and China perceive Azerbaijan as a capable entity, seriously responding to the challenges of the time, performing a communication function between Europe and Asia, creating a strip of trust in such an important area as the South Caucasus. In particular, in the context of the coronavirus pandemic COVID-19, important video conferences were held at the initiative of the President of the Republic of Azerbaijan Ilham Aliyev. The position of official Baku, which plays a central role in multilateral diplomacy, was significantly strengthened thanks to the emergency Summit of the Turkic Council and the Summit of the Non-Aligned Movement in the format of the Contact Group.

Key words: multilateral diplomacy, multilateralism, foreign policy, Turkic Council, Non-Aligned Movement

Ильяс Гусейнов

Баку как центр многосторонней дипломатии и мультилатерализма

Резюме

В этой статье автор рассматривает многостороннюю дипломатию Азербайджана. Азербайджан - единственная страна на Южном Кавказе, граничащая с Россией, Ираном, Турцией и Грузией, которая также имеет выход к Каспийскому морю и через него в Центральную Азию. Благодаря своей выгодной стратегической позиции, сегодня Азербайджан является важным логистическим центром, через который проходят традиционные и новые коммуникационные, транспортные и энергетические коридоры.

Следует отметить, что ни одно другое государство на Южном Кавказе не может проводить многовекторную внешнюю политику такого масштаба. Сегодня в мировой политике и в решении всех вопросов регионального, и глобального значения учитывается мнение Азербайджана. Успех внешней политики Азербайджана за последние годы укрепил его позиции в регионе и во всем мире. В результате такие ведущие партнеры, как Россия, США, Великобритания, Франция, Китай, воспринимают Азербайджан как дееспособный субъект, серьезно реагирующий на вызовы времени, выполняющий коммуникационную функцию между Европой и Азией, создающий полосу доверия в таком важном ареале, как Южный Кавказ. Позиция официального Баку, была значительно укреплена благодаря чрезвычайному Саммиту Тюркского совета и Саммиту Движения неприсоединения в формате Контактной группы.

Ключевые слова: многосторонняя дипломатия, многосторонность, внешняя политика, Совет сотрудничества тюркоязычных государств, Движение неприсоединения

MÜƏLLİFLƏR ÜÇÜN QAYDALAR

JURNAL HAQQINDA

"Sosial tədqiqatlar" jurnalı (STJ) 2019-cu ildə Sosial Tədqiqatlar Mərkəzi tərəfindən təsis edilmişdir. 06 avqust 2019-cu il tarixində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində 4248 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilmişdir.

Jurnalda əsasən sosiologiya, psixologiya, iqtisadiyyat, siyasət, hüquq və fəlsəfə kimi ictimai və humanitar elm sahələrinin ümumkonseptual məsələlərini elmi-metodoloji cəhətdən ifadə edən, müəlliflərin yeni ideya və yanaşmalarını əks etdirən elmi-analitik məqalələrin, yeni nəşrlərə dair diskussiya məzmunlu rəy və şərhlərin dərcinə üstünlük verilir.

Müstəqil, resenziyalı, elmi nəşrdir. İl ərzində 4 sayı çap edilir.

Jurnalın nüsxələri kitabxanalara, beynəlxalq indeks təşkilatlarına, abunəçilərə və məqalə müəlliflərinə çap olunduqdan sonrakı bir ay ərzində göndərilir.

Azərbaycan, rus və ingilis dillərində məqalələr dərc edilir.

ÜMUMİ QAYDALAR

I. Məqalələrin məzmunu

Jurnala göndəriləcək məqalə sosial elmlər sahəsinə öz töhfəsini verəcək və sosial elmlərə yenilik gətirəcək səviyyədə aktual və orijinal olmalı, analitik xarakter daşımalı və akademik tələblərə cavab verməlidir. Elmi məqalənin **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılmalı, **"Mətn"** hissəsində tədqiq edilən məsələlər, qaldırılan problemlər bölmələr üzrə ətraflı şərh edilməli, **"Nəticə"** hissəsində elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq müəllifin gəldiyi elmi qənaət, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və s. aydın şəkildə verilməli, təklif və tövsiyələr irəli sürülməlidir.

II.Məqalələrin strukturu, tərtib edilmə qaydaları və həcmi

Redaksiyaya təqdim edilən məqalələr Ali Attestasiya Komissiyasının dövri elmi nəşrlərin qarşısında qoyduğu tələblərə (http://aak.gov.az) və STJ-nin "Müəlliflər üçün qaydalar"ına tam cavab verməlidir.

Məqalələr dəqiq strukturlaşdırılmalıdır. Hər bir məqalədə ardıcıl olaraq:

❖ **UOT i**ndekslər və ya **PACS** tipli kodlar;

❖ **"Məqalənin adı"** (10–12 sözdən çox ola bilməz), "Müəllifin adı və soyadı", "Müəllifin işlədiyi qurumun adı və ünvanı", "Müəllifin vəzifəsi, elmi dərəcəsi, elek tron poçt ünvanı";

❖ **Giriş:** Məzmunu müəllif tərəfindən müəyyən edilir.

❖ **Əsas mətn** (yarımbaşlıqlara bölmək şərtilə): A4 formatında (29,7x21 sm), "MS Word" proqramında, "Times New Roman" – 12 şrift və 1 intervalla yazılmalıdır. Səhifə kənarlarından 2 sm məsafə buraxılmalı və səhifələr nömrələnməlidir. Mətndə yarımbaşlıqlar yeni sətirdən, ilk hərfi böyük olmaqla qalın hərflərlə verilməlidir.

❖ **Nəticə:** Tədqiqatın əsas elmi nəticələri qısa və ümumiləşdirilmiş şəkildə verilməlidir.

❖ **Xülasə:** 100 sözdən az, 200 sözdən çox olmamalıdır. Xülasədə tədqiqatın məqsədi, metodikası, başlıca nəticələri, məhdudiyyətləri, orijinallığı, elmi yeniliyi və

praktiki əhəmiyyəti qısa şəkildə əks etdirilməlidir. Azərbaycan, türk və rus dillərində yazılan yazıların həmin dillərlə yanaşı, ingilis dilində yazılan yazıların isə ingilis dili ilə yanaşı, Azərbaycan dilində də xülasəsi olmalıdır.

❖ **Açar sözlər** (Azərbaycan, ingilis və rus dillərində): Məqalənin məzmununa uyğun olmalı və onu əhatə etməlidir. 5-dən az, 8-dən çox ola bilməz.

❖ **Məqalənin başlığı** böyük hərflərlə, yarımbaşlıqları isə yalnız ilk hərfi böyük olmaqla, qalın şriftlə və nömrələndirilərək yazılmalıdır. Başlıq və yarımbaşlıqlardan, cədvəl və şəkillərdən (həmçinin tənliklər və düsturlardan) əvvəl və sonra bir sətir ara boşluğu buraxılmalıdır. Səhifələr ardıcıl olaraq yuxarı sağ küncdə nömrələnməlidir.

❖ **Cədvəl və şəkillər**in adı olmalı və bu ad cədvəllər üçün cədvəlin üstündə sağ küncdə, şəkillər üçün şəklin altında sol küncdə yerləşdirilərək, ərəb rəqəmlərilə ardıcıl nömrələndirilən müvafiq olaraq "cədvəl" və "şəkil" sözündən sonra yazılmalıdır. Cədvəl və şəkillərin başlıqları ilk hərfləri böyük olmaqla qalın şiriftlə yazılmalıdır. Cədvəlin sütunlarının adı qısa olmalı, ölçü vahidləri mötərizədə göstərilməlidir.

Cədvəl və şəkillər biri-birini təkrarlamamalı, göstəricilər Beynəlxalq Vahidlər Sistemində (Sİ) verilməlidir. Əlyazmada bir cədvəl və bir şəkil verildikdə, müvafiq olaraq, onlar nömrələnməli, "Cədvəl" və ya "Şəkil" sözü də yazılmamalıdır.

Şəkillər elektron formatda "jpg", "tif" fayl tipində, CMYK-rəng rejimində, 300 dpidən az olmayan ölçüdə, qrafik illüstrasiyalar Word, Exsell, Adobe Illustrator, Potoshop, CorelDRAW və PowerPoint proqramlarından birində təqdim edilməlidir.

Düsturlar Microsoft Equation-də standart parametr ilə yığılmalıdır.

❖ **Məqalələrin həcmi:** yuxarıdakı şərtlər nəzərə alınmaqla 8 səhifədən az olmamalıdır.

❖ **Mənbə və istinadlar:** Məqalənin mövzusu ilə bağlı elmi mənbələrə zəruri istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı dillər üzrə əlifba ardıcıllığı ilə nömrələnməlidir. Elmi ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir. Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam, dəqiq və orjinalın dilində olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Elmi məqalələrə, simpozium, konfrans və digər nüfuzlu elmi tədbirlərin materiallarına və ya tezislərinə istinad edərkən məqalənin, məruzənin və ya tezisin adı göstərilməlidir. İstinad olunan mənbənin biblioqrafik təsviri verilərkən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Dissertasiyaların tərtibi qaydaları" barədə qüvvədə olan təlimatının "İstifadə edilmiş ədəbiyyat" bölməsinin 10.2-10.4.6 tələbləri əsas götürülməlidir.

Mətndə istinad olunan bütün mənbələr, səhifə nömrələri ilə birlikdə "İstifadə edilmiş ədəbiyyat" siyahısında aşağıdakı nümunələrdə göstərilən qaydada verilməlidir:

a) Kitablar:

Adilov M.İ., Həsənov İ.C. Qloballaşma və milli mənəvi dəyərlər. Bakı: Elm, 2012, -476 s.

b) Jurnallar:

Şixəliyev E.İ. Ermənilərin "din" strategiyasının əsas istiqamətləri. // "Strateji təhlil" jurnalı, №7(35), Bakı: Elm, 2013, s. 32-45.

c) Toplularda məqaləyə istinad (konfrans, simpozium və digər):

"Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr. Milli inkişaf modelinin formalaşması problemləri". / Respublika elmi-praktiki kon

fransının materialları. Bakı: Şərq-Qərb, 2010, s. 314-316.

ç) Dissertasiyalar və avtoreferatlar:

Məmmədov H.B. Azərbaycan Respublikası müasir beynəlxalq siyasi proseslərin aktoru kimi. Elmlər doktoru dissertasiyasının avtoreferatı, Bakı: Elm, 2013, - 44 s.

d) Müəlliflik şəhadətnamələri və patentlər:

Алиев С.Г., Джалалов К.Х. А.С. 163514, СССР // Б.И. 1988, № 4, с.50

Langsam M., Savoca A. C.L. Pat. 4759776, USA, 1988.

e) İnternet səhfələri (internet səhfələrinə istinadlar mütləq gün, ay, il olmaqla, istifadə olunduğu tarix göstərilmək şərtilə tam ünvan şəklində olmalıdır):

http://www.stat.gov.az/# (15.11.2013) / 2013-cü ilin yanvar-oktyabr aylarında ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri.

Məqalənin sonundakı ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və digər etibarlı mənbələrinə üstünlük verilməlidir.

Mətndə istifadə edilməyən mənbələr "İstifadə edilmiş ədəbiyyat" hissəsində göstərilməməlidir.

Məqalənin redaksiyaya təqdim edilmə qaydası

Məqalənin orijinalı 2 nüsxədə (həmçinin elektron formada) tədqiqatın aparıldığı müəssisənin göndəriş məktubu və elmi şurasının müvafiq iclas protokolundan çıxarış ilə birgə müəllif(lər)in özü tərəfindən redaksiyaya (AZ 1005, Bakı şəhəri, Ü.Hacıbəyov küçəsi 62, Sosial Tədqiqatlar Mərkəzi) təqdim edilməlidir. Əlyazma mütləq müəllif(lər) tərəfindən imzalanmalı və onun redaksiyaya təqdimedilmə tarixi göstərilməlidir.

Məqalələrin elektron qaydada təqdim edilməsi də mümkündür. Bunun üçün müəlliflər məqalələrini jurnalın elektron poçtuna (office@socialresearchjournal.az; info@socialresearchjournal.az) göndərməlidirlər.

III. Məqalələrin qiymətləndirilməsi, resenziyalaşdırılması və dərci

STJ-yə göndərilən məqalələr əvvəlcə redaksiya tərəfindən jurnalın nəşr prinsipləri baxımından qiymətləndirilir. Nəşr prinsiplərinə uyğun olmayan yazılar düzəldilmək üçün müəllifə göndərilə və ya resenziyalaşdırmadan imtina edilə bilər.

Resenziyalaşdırma üçün qəbul edilən məqalələrin resenziya prosesində elmi obyektivlik və elmi keyfiyyət kriteriyalarına xüsusi diqqət yetirilir. Resenziyalaşdırma üçün qəbul edilən yazılar müvafiq sahəyə aid iki resenzentə göndərilir. Resenzentlərin adları məxfi saxlanılır və yazılara verilən rəylər beş il ərzində redaksiyada qorunur. Resenzentlərdən birinin rəyi müsbət, digəri mənfi olduğu təqdirdə yazı üçüncü resenzentə göndərilə bilər və ya redaksiya verilən rəyləri qiymətləndirdikdən sonra yekun qərar qəbul edə bilər. Müəlliflərin resenzentlərin və redaksiyanın tənqid, irad və təkliflərini nəzərə almaları zəruridir. Müəlliflər razılaşmadığı məqamlarla bağlı əsaslandırılmış şəkildə etiraz etmək hüququnu saxlayırlar. Nəşrə qəbul edilməyən yazılar müəlliflərinə qaytarılmır.

Redaksiyaya təqdim edilən məqalələr (əlyazmalar) mütəxəssislər (resenzentlər) tərəfindən konfedensial olaraq resenziyalaşdırıldıqdan sonra redaksiya heyətinin mütəxəssis üzvlərindən biri tərəfindən çapa tövsiyə və ya təqdim edilir. Resenziyalaşdırma və təsdiqetmə müddəti ümumilikdə 3 aydır. Məqalələr resenziyalaşdırma prosedurunun nəticələri əsas götürülərək növbəlilik prinsipi ilə dərc edilir.

IV. Kompilyasiya və ya plagiatlıq halları

Bütün məqalələr kompilyasiya və ya plagiat ola biləcəyi ehtimalına görə nəzər-

dən keçirilir. Plagiatlıq hallarına rast gəldikdə məqalə dərhal çap prosesindən kənarlaşdırılır və "Sosial tədqiqatlar" jurnalının bundan sonrakı saylarında müəllifin məqalə dərc etdirməsinə icazə verilmir.

V. Müəlliflik hüquqları

Jurnalda dərc edilən məqalələrdə müəlliflik hüququ qorunur və bu məqalələrin bütün nəşr hüquqları "Sosial tədqiqatlar" jurnalına aiddir. Jurnalda çap edilmiş məqalələrin eynilə digər nəşrlərdə (məqalənin tezis şəklində dərc olunmuş variantı istisnadır) dərcinə yalnız Redaksiyanın yazılı icazəsi, sitatların verilməsinə isə mənbə göstərilmək şərti ilə yol verilir.

Əvvəllər çap olunmuş və ya cap olunmaq üçün başqa bir dövri nəşrə göndərilmiş əlyazmaların jurnala tədqim edilməsi yolverilməzdir.

Simpoziumlarda, konfranslarda təqdim olunan və tam şəkildə yayımlanmayan materiallar məqalə formasında qiymətləndirilmə və resenziyalaşdırılma mərhələsinə təqdim edilə bilər.

Yuxarıda göstərilən tələblərə cavab verməyən məqalələr çap edilmir.

Nəşrin müəlliflərə təqdim edilməsi

Dərc olunmuş məqaləyə görə müəllifə jurnalın bir nüsxəsi və qonorar verilir.

Redaksiyanın ünvanı

AZ 1005, Bakı şəhəri, Ü. Hacıbəyov 62.
Sosial Tədqiqatlar Mərkəzi.

Ələqə telefonları

(012) 510-70-78

“SOSİAL TƏDQİQATLAR”
jurnalının Redaksiya Şurası

REQUIREMENTS FOR ARTICLES SUBMITTED TO THE JOURNAL SOCIAL RESEARCH

1. Articles of scientific and practical significance, which cover the results of original scientific studies and scientific innovations are published in the Journal of Social Research of the Social Research Center.

2. The documents (articles, reviews, etc.) can be submitted in Azerbaijani, Russian and English in a hard copy form, on electronic media or via e-mail (office@socialresearchjournal.az; info@socialresearchjournal.az).

3. The article shall be recommended for publication once it has received a positive feedback following the discussions at the relevant department (chair) of the scientific (higher education) institution. The author shall submit to the editorial office an extract from the minutes of the meeting of the Scientific Council.

4. The article submitted to the editorial office shall be sent to two anonymous reviewers according to the author's area of specialty. The articles of authors who received two positive feedbacks as a result of the review process will be published.

5. The article shall be 8-12 pages (including pictures, tables, charts, appendices, list of reference, and summaries). Texts shall be printed in 12 pt. Times New Roman font with line spacing of 1.

6. Each article shall include UDC indexes and keywords. Keywords shall be provided in three languages (in which the articles and summaries are written) and consist of at least 6 words.

7. The sources and bibliography used in the article shall be listed in sequentially numbered alphabetical order, following the body text, titled References, in their original languages (starting from Azerbaijani, then followed by Turkish, Russian, English, French, Arabic, etc.). The bibliographic description of the referenced source shall be based on the requirements of the “Cited Bibliography” section of the “Guidelines for Drafting Dissertations” of the State Commission for Academic Degrees and Titles re-porting to the President of the Republic of Azerbaijan (see: http://aak.gov.az).

8. The reference list shall be followed by the summary of the article. The summary for articles in Azerbaijani shall be written first in English, then in Russian, and for articles in Russian, first in Azerbaijani and then in English. The title of the article, the author's name and surname, the organization and the country he/she represents shall be provided at the beginning of each summary. Article summaries in different languages shall be identical and correspond to the content of the article. The summary shall provide a brief description of the scientific conclusions reached by the author(s), the novelty and practical importance of the scientific work, etc. Summaries shall consist of 100-200 words.

The article shall be structured in the following order:

- *UDC index*
- *Author’s name and surname*
- *Author's place of work, position, academic degree and rank, country and e-mail address*
- *Article title*
- *Keywords in the original language of the article*
- *Main body*
- *Reference list*

- Summaries and keywords in other two languages in addition to the original language of the article.

Articles that do not meet the requirements, have serious scientific or grammatical errors will not be published. Manuscripts submitted to the editorial office will not be returned. The editorial staff reserves the right to make editorial changes and reductions in articles.

ТРЕБОВАНИЯ К СТАТЬЯМ, ПРЕДСТАВЛЯЕМЫМ В ЖУРНАЛ «СОЦИАЛЬНЫХ ИССЛЕДОВАНИЙ»

1. В журнале «Социальных исследований» издаются статьи, содержащие результаты оригинальных научных исследований, представляющие научную новизну, важное научное и практическое значение.

2. Материалы (статья, рецензия и др.) могут быть представлены на азербайджанском, русском и английском языках в печатном виде, на электронном носителе или посредством электронной почты (office@socialresearchjournal.az; info@socialresearchjournal.az).

3. Статья должна быть рекомендована к печати научным советом научного (высшего учебного) учреждения, получив положительный отзыв в результате обсуждения в соответствующем отделе (на кафедре). Автор должен предоставить редакции выписку из протокола заседания научного совета.

4. Представленная редакции статья в соответствии со специальностью автора направляется двум анонимным экспертам на рецензирование. При получении двух положительных отзывов в результате процесса рецензирования статья направляется в печать.

5. Объем статьи должен составлять 8-12 страниц (включая изображения, таблицы, графики, приложения, список литературы, резюме). Статья должна быть напечатана шрифтом Times New Roman – 12, с межстрочным интервалом 1.

6. В каждой статье должны быть указаны индекс УДК и ключевые слова. Ключевые слова должны быть на трех языках (на языке самой статьи и двух резюме) и составлять не менее 6 слов.

7. В статье использованные источники и литература приводятся после текста статьи под заголовком Список литературы и пронумерованы в алфавитном порядке (сперва на азербайджанском, затем турецком, русском, английском, французском, арабском и др. языках). При указании библиографического описания использованного источника следует брать за основу требования раздела “Использованная литература” действующих инструкций Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики “О правилах оформления диссертаций” (подробнее см.: http://aak.gov.az).

8. После списка использованной литературы следует разместить резюме статьи. Для статей, написанных на азербайджанском языке, необходимо разместить резюме сперва на английском, а затем на английском, а для статей на русском языке, необходимо разместить резюме сперва на азербайджанском, а затем на английском. Над каждым резюме необходимо указать название статьи, имя, фамилия, место работы и страну автора статьи. Оба резюме должны быть идентичными и соответствовать содержанию статьи. В резюме должны быть кратко отражены научные выводы, к которым пришел автор, научная новизна работы, практическая значимость статьи и

т.д. резюме должны состоять из 100-200 слов.

Структура статьи должна быть составлена в порядке, указанном ниже:
- УДК индекс статьи
- Имя и фамилия автора
- Место работы, должность, научная степень и научное звание, страна и адрес электронной почты автора
- Название статьи
- Ключевые слова на языке статьи
- Текст статьи
- Список литературы
- Два резюме и ключевые слова, написанные на двух других языках.

Статьи, не отвечающие требованиям, имеющие значительные научные, грамматические ошибки, не издаются. Представленные в редакцию рукописи не возвращаются. Редакция оставляет за собой право производить изменения редакторского характера и сокращения.

SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ